# AZƏRBAYCAN DASTANLARI

**BEŞ CİLDDƏ**

**III CİLD**

"LİDER NƏŞRİYYAT"
BAKI–2005

*Bu kitab "**Azərbaycan dastanları.** Beş cilddə. III cild"*
*(Bakı, Elm, 1967) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Toplayanı və tərtib edəni: **Əhliman Axundov**

Redaktoru: **Məhərrəm Qasımlı**

**398.2'094754 - dc 21**
**AZE**
**Azərbaycan dastanları.** Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyat", 2005, 328 səh.

Azərbaycan xalq dastanlarının bu cildində əsrlərin sınağından çıxaraq xalqımızın mənəvi aləminin, bədii təfəkkürünün, estetik zövqünün zənginləşməsində müstəsna rol oynamış, mövzuca rəngarəng dastan nümunələri toplanmışdır. Onlardan türk xalqları folklorunda şərəfli yer tutan "Aşıq Qərib", "Əmrah", "Şah İsmayıl", "Səlim şah", "İrvahım" və b. buna misal ola bilər.

Cərəyan edən hadisələrin təbii, inandırıcı və səmimi olmağı ilə seçilən, qədim və çoxvariantlı "Aşıq Qərib" dastanında iki gəncin qarşılıqlı sevgisi, bir-birinə qovuşmaq arzusu böyük ilhamla tərənnüm olunur.

Qəhrəmanlıqla məhəbbət motivlərini özündə birləşdirən, qəhrəmanın öz arzusuna yalnız sözün gücü ilə deyil, qılınc gücüylə yetdiyi "Şah İsmayıl" dastanı qədim inam və etiqadlarla səsləşən nağıl elementlərinin zənginliyi ilə diqqəti çəkir.

Cilddə gedən digər nümunələrdən – "Səlim şah", "İrvahım" dastanlarında ailə-əxlaq məsələləri əks etdirilir, hadisələr ailə-məişət çərçivəsində cərəyan edir.

Ana dilinin sehrkar gözəlliyi, milli xarakterin ruhu və dərin mahiyyəti təqdim olunan nümunələrdə aydın ifadəsini tapır.

**ISBN 9952-417-48-7**

© "LİDER NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# Aşıq Qərib

## USTADNAMƏ

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərd ilə ağı yesən – şirindi,
Yüz namərdlə şəkər yesən – dad olmaz.

Yadın oğlu yağlı aşa mehmandı,
Dar günündə baxarsan ki, usandı,
Düşən günü düşman elə düşmandı,
Yüz il keçsə, qohum səndən yad olmaz.

Ələsgərin sözün yetir nisaba,
Sərf edənlər səbt eləsin kitaba,
Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olur, onda iki ad olmaz.

Ustadlar ustadnaməni bir deməyib, iki deyər, biz də deyək iki olsun.

Açma mətahını naşı tüccara,
Qiymətini bilib, xiridar olmaz;
Bədöyün qocası olsa da arıx,
Sürsən mənzil kəsər, kəmhünər olmaz.

Qışın firqətindən dağlar qaralı,
Üç hərfdi yerin, göyün qaralı,
Misə qalay vursan axır qaralı,
Nə lələ bənzəməz, nə gövhər olmaz.

Hüseynəm, sinəmdə haqqın baratı,
Yaxşı iyidin olar sözü, söhbəti,
İyidin olmasa binədən zatı,
Tanınıb heç yerdə aşikar olmaz.

Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun!

Göydə uçan o boz quşlar
Telin qədrini nə bilər?!
Öz qədrini bilməyən
Elin qədrini nə bilər.

Cüt sürüb, əkin əkməyən,
Sufraya nanı tökməyən,
Arının qəhrini çəkməyən
Balın qədrini nə bilər?!

Koroğlu der: hay olanda,
Dərəyə aslan dolanda,
Qara zağ bülbül olanda
Gülün qədrini nə bilər?!

Sizə kimdən və haradan danışım, Təbriz vilayətindən. Təbriz vilayətində Məmməd sövdəgər adında bir kişi vardı. Bunun bir qızı, iki oğlu vardı. Böyük oğlunun adı Rəsul, kiçiyinin adı Heydər, qızının adı da Nərgiz xanım idi.

Günlərin bir günündə Məmməd sövdəgər bərk xəstələndi. Nə qədər dava-dərman elədilərsə çarə olmadı. Günün birində arvadı Banu xanımı yanına çağırıb dedi:

– Arvad, ölüm ki var – yuxu kimi bir şeydi. Kim bilir, bəlkə bu xəstəlikdən qalxa bilmədim, öldüm. Sənə deyəcək iki vəsiyyətim var. Birincisi budur ki, oğlanlarıma varlı yerdən qız alma! İkinci vəsiyyətim budur ki, qızımı varlı yerə vermə! Çünki onlar çox bietibar olurlar.

Məmməd sövdəgər vəsiyyətini tamam eliyəndən sonra ömrünü övladlarına bağışladı. Sonra ağladılar, qara geydilər, el qaydasıynan Məmməd sövdəgəri dəfn elədilər. Rəsul başladı ehsan verməyə. Bu ehsan verməkdə olsun, sizə kimdən, haradan danışım, İsfahan lotularından. İsfahan şəhərində qırx lotu vardı. Neçə vaxt idi bu qırx lotunun əlinə heç bir ov girmirdi. Bir gün lotubaşı öz tay-tuşuna dedi:

– Gəlin, gedək padşahın xəzinəsini yaraq.

Lotular bu niyyətlə evdən çıxıb, padşahın imarətinə tərəf gəlməkdə olsunlar, yolda gördülər bir keçəl əlində qovun gedir. Lotubaşı keçəli

tutub, qovunu əlindən aldı. Keçəl ha ağladı ki, qovunu ver, lotubaşı vermədi, axırda keçəl dedi:

– Lotubaşı, sən gəl qovunu ver, lotubaşı vermədi, axırda keçəl dedi:

Lotubaşı dedi:

– O necə sözdü?

Keçəl dedi:

– Təbriz şəhərində, Məmməd sövdəgər deyilən bir tacir varıdı. O bu günlərdə vəfat eləyib. Oğlu Rəsul atasının varını-yoxunu fağır-füğəraya paylayır.

Lotubaşı keçəlin qovununu verib, yoldaşlarına dedi:

– Uşaqlar, padşahın xəzinəsindən bizə bir şey çıxmaz. Kim bilir, bəlkə tutulduq. Amma Təbrizə getsək, Rəsulu aldadıb, var-yoxunu ələ keçirdə bilərik. Gəlin gedək Təbriz şəhərinə.

Lotular razılaşdılar. Biri axund, biri molla, biri məşədi, biri tacir libası geyinib gəldilər lotubaşının yanına. Lotubaşı baxıb gördü ki, yoldaşları hazırdı, dedi:

– Uşaqlar, yolçu yolda gərək.

Qırx lotu bir-birinə qoşulub, Təbriz deyib yola düşdülər. O zaman gəlib çatdılar ki, Rəsul atasının qırxını verirdi. Axşam əzanı Rəsul bir də gördü qapı döyülür. Tez durub çıxdı bayıra. Qapını açıb, gördü bir dəstə adamdı, biri molla, biri tacir, biri məşədi – qapıda hazır durublar. Rəsul xəbər aldı:

– Kimsiniz? Kimi istəyirsiniz?

Lotubaşı dedi:

– Biz mərhum atan Məmməd sövdəgərin yaxın dostlarındanıq. Atanın ölümünü eşidib, gəlmişik başsağlığı verək.

Lotular elə qapıda başladılar ağlamağa, Rəsul baxıb gördü yox, bular gözlərindən yaşı bahar buludu kimi axıdırlar. Rəsul buları əsl Allah bəndəsi bilib, evə apardı, qabaqlarına süfrə saldı. Hər cür yeməkdən-içməkdən gətirdi. Lotular o ki vardı yedilər. Qurşaqlarının altını bərkidəndən sonra fatihə deyib, əllərini süfrədən çəkdilər. Süfrə yığıldı, araya çay gəldi. Bu vaxt lotubaşı əlini cibinə salıb, bir dəstə qumar kağızı çıxartdı, araya atdı. Rəsul lotubaşıdan xəbər aldı:

– Əmi, bu kağızlar nə olan şeydi?

Lotubaşı dedi:

– Bu kağzıların adına qəmdağıdan kağız deyirlər. Mərhum atovun ehsan məclisində çox ağlayıb, göz yaşı tökmüşük. Ürəyimiz sıxılıb, indi bir qədər də bu kağıznan oynayaq ki, bəlkə ürəyimiz açılsın.

Rəsul xəbər aldı:

– Əmi, bu kağızı nə cür oynayırlar?

Lotubaşı dedi:

– Pulnan, malnan oynayırlar. Razısansa, gəl oynıyaq, qəmimiz dağılsın.

Rəsul dedi:

– Razıyam, ancaq bacarmıram.

Lotubaşı dedi:

– Nə eybi var? Öyrədərik, bacararsan.

Başladılar Rəsula qumar oynamağı öyrətməyə. Rəsul qumar kağızlarını tanıyıb öyrəndi, gedib anasından bir qədər də qızıl pul aldı, başladı lotularla oynamağa.

Lotular şirə verdilər, bir neçə dəfə bilə-bilə öz pullarından Rəsula uduzdular. Oyun Rəsulun çox xoşuna gəldi. Başladı şirin-şirin oynamağa. O vaxta qədər oynadı ki, bir vədə yan-yörəsinə baxıb gördü atasının nə ki pulu vardı, hamısını uduzub, səhər çörək almağa bir qara quruş da qalmayıb.

Rəsul durdu ayağa, qonaqlarına yer saldı, özü də öz otağına keçib yatdı.

Sübh açılmamış lotubaşı yuxudan ayıldı, yoldaşlarını səsləyib dedi:

– Uşaqlar, bu fərasətsizdə pul qalmadı, gəlin səhər açılmamışkən yayınaq.

Lotular qalxdı, hərə öz yorğan-döşəyini, evdə olan ağırdan-yüngüldən nə vardısa yığışdırdı. İsfahan deyib yola düşdülər.

Elə ki səhər açıldı, Rəsul durdu ayağa, əl-üzünü yuyub dedi:

– Gedim, bir qonaqlara baş çəkim.

Qonaq otağına gəlib nə gördü, qapı açıqdı, qonaqlar da yoxdu. Bir o yana, bir bu yana baxıb gördü bu zalımlar, ev şeylərini aparmaq bir yana qalsın, üstəlik yatdıqları yorğan-döşəyi də aparıblar. Kor-peşman anasının yanına gəlib, işdən anasını halı elədi. Anası çox kefsiz olub dedi:

– Oğul, onlar İsfahan lotuları imiş. İşdi, gərək olmayaydı, indi ki, olub, sən də get, bir sənətə qurşan. Nə eləyək? Fələk yazımızı belə yazıbmış.

Rəsul anasının bu sözündən sonra evdən çıxdı, birbaş bazara gəldi; istədi dəmirçilik sənətini öyrənsin, xoşuna gəlmədi. Bir az irəli gedib, gördü bir kişi qabağına bir qədər taxta yığıb, dülgərlik eləyir. Bu sənət də onun xoşuna gəlmədi. İstədi pinəçiliklə məşğul olsun. Bir saata kimi pinəçi dükanının qabağında durdu, pinəçilərə baxdı. Bu sənət də xoşuna gəlmədi.

Rəsul birbaş bazarnan yuxarı getməyə başladı. Gördü ki, bir qoca kişi balaca bir dükanda oturub, papaq tikir. Rəsul dükanın qabağında, dayanıb diqqətlə papaqçıya baxırdı. Qoca papaqçı başını qaldırıb gördü ki, dükanın qabağında bir nəfər cavan oğlan dayanıb. Papaqçı xəbər aldı:

– Oğul, nə istəyirsən?

Rəsul dedi:

– Əmican, iş axtarıram.

Papaqçı dedi:

– Bala, mənə şəyird durarsanmı?

Rəsul dedi:

– Nə üçün durmuram? Aylığım neçə olacaq?

Papaqçı dedi:

– Əlivün qabiliyytəinə baxaram.

Rəsul razı oldu, başladı papaqçının yanında işləməyə.

Bir cümə axşamı Rəsul ustadından izn aldı, qəbiristana yollandı. Atasının qəbrinin yanında oturub, olub-keçənləri yadına saldı, o qədər ağladı ki, axırda yorulub elə oradaca yuxuya getdi.

Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misallı bir bağdadı, bunun başının üstündə ceyran misallı gözəl bir qız var. Qız nə qız – qaş kaman, gözlər qan piyaləsi, burun hind fındığı, sinə Səmərqənd kağızı. Baxanın ağlını aparır. Rəsul bir də baxıb gördü bu qızın yanında bir dərviş var.

Dərviş qızın əlini Rəsula uzadıb dedi:

– Rəsul, bu qız tiflisli Xoca Sənanın qızı Şahsənəmdi. Bunu sənə buta verirəm. Çox çəkməz biri-birinizə çatarsız.

Dərviş badəsini oğlanla qıza içirəndən sonra yox oldu. Rəsul dəli kimi yuxudan ayılıb gördü ki, qəbiristandadı, amma yanında heç kim yoxdu. Rəsulu vahimə aldı, bədəninə qorxu düşdü. Birbaş evlərinə tərəf qaçmağa başladı. Anası Banu xanım oğlunu bu halda görüb, xəbər aldı:

– Oğul, bu nə gündü düşübsən? Sənin üst-başını kim cırıb?

Rəsul anasının sualına cavab verməyib, hönkür-hönkür ağlamağa başladı.

Rəsulun səsinə ətrafdan qonşular yığılıb, xəbər aldılar:

– Nə var, nə olub?

Rəsul dedi:

– Mən dərdimi dil ilə desəm, dilim alışıb yanar. Mənə bir saz verin, dərdimi sazla deyim.

Haman saat Rəsula bir saz gətirdilər. Rəsul ürəyi alışa-alışa sazı sinəsinə basıb, görək nə dedi:

Qadir haqdan mən bir dilək dilədim,[1]
Şükür, muradımı verdi şah mənim.
Cümə axşamında, qəbir üstündə,
Ərənlər yeridi, nəzərgah mənim.

Gənc yaşımda gördüm dünya qəmini,
Bu zalım fələyin sərəncamını,
Nuş etdim röyada eşqin camını,
Göründü gözümə doğru rah mənim.

Vağyada Rəsula buta verdilər,
Doldurdular camı, tuta verdilər,
Tiflisdə Şahsənəmi buta verdilər,
İşim oldu zikri-illəllah mənim.

Rəsul sözünü tamam eləyib, zar-zar ağladı. Anası Banu xanım boynunu qucaqlayıb dedi:

– Oğul, heç bir şey başa düşə bilmədim, açıq de görüm, nə demək istəyirsən?

Rəsul sazını sinəsinə basıb, anasını başa salmaq üçün görək nə dedi:

Aldı Rəsul:

Başına döndüyüm, gülüzlü ana,[2]
Ana, mən Tiflisə varmalı oldum.
Bir dilbərin eşqi düşdü başıma,
Ana, mən Tiflisə varmalı oldum.

Əlimə almışam sədəfli sazı
Fələk yazdı mənə belə bir yazı;
Yuxumda görmüşəm bir alagözü,
Ana, mən Tiflisə varmalı oldum.

Rəsulam, ahıma dağlar dayanmaz,
Dərdim çoxdur mənim, kimsələr qanmaz,
Dərd çəkməkdən dəli könül usanmaz,
Ana, mən Tiflisə varmalı oldum.

Anası dedi:

– Oğul, yenə də başa düşmədim. Əməlli de görüm, dərdin nədi.

Rəsul dedi:

– Ana, qulaq as birini də deyim, başa düşərsən.

Aldı Rəsul, görək nə dedi:

Dün gecə yuxuda mana,[3]
Ana, Tiflis diyarında.
Bir cam içdim qana-qana,
Ana, Tiflis diyarında.

Bu sövda yandırdı bizi,
Ana, günə bənzər üzü,
Adı Sənəm, Xoca qızı,
Ana, Tiflis diyarında.

Kağızda gördüm surətin,
Xudam veribdi baratın,
Çəkərəm dünya ləzzətin,
Ana, Tiflis diyarında.

Adı Sənəm, özü Sona,
Vuruldum bir şirin cana.
Rəsul ağlar yana-yana,
Ana, Tiflis diyarında.

Əlimə verdilər əta,
Saçı topuğundan ötə,
Rəsula verdilər buta,
Ana, Tiflis diyarında.
Bacı, Tiflis diyarında,
Bilin, Tiflis diyarında.

Anası dedi:

– Başa düşdüm. Oğul, sən hara, Tiflis hara? Gəl sən bizi gözüyaşlı qoyub getmə.

Rəsul dedi:

– Anacan, dayanmağa halım yoxdu. Gərək mən gedəm.

Anası dedi:
– Oğul, indi ki gedirsən, bizi də özünlə apar.
Rəsul razı oldu. Anasını, bacısını, bir də kiçik qardaşı Heydəri yanına aldı, dost-aşnası ilə halal-hümmət elədikdən sonra Təbriz şəhərindən çıxdı, Tiflisə yol başladı.
Bir müddət yol getmişdilər ki, bərk boran düşdü; hara getdiklərini bilməyib, çaşıb qaldılar. Rəsul gördü ki, kiçik qardaşı ağlayır, bacısı Nərgiz bihuş halda yerə yıxılıb. Onun qəmi artdı. Sazını sinəsinə alıb, görək nə dedi:

Vətənimdən etdin məni didərgin,
Çərxin dönsün, fələk, Heydərim ağlar!
Bu duman, bu çiskin, bilməm ki, nədi,
Çar* tərəfin nədən qar alı, dağlar?

Göydən enir yerə ləpə-ləpə qar,
Bacı, qardaş, ana mənə baxarlar,
Biz ölsək burada, sənsən günahkar,
Yar düşübdü məndən aralı, dağlar!

Kimimiz var burda bizi dindirə,
Kimsənə yox halım yara bildirə,
Qorxum budu, tufan bizi öldürə,
Rəsul qala burda yaralı, dağlar!

Söz tamama yetən kimi boran dayandı. Başladılar yol getməyə. Uzaqdan uca dağlar və şəhər göründü.
Aldı Rəsul, görək nə dedi:

Tiflisin uca dağları
Görünərmi, görünməzmi?
Şahsənəmin otaqları
Görünərmi, görünməzmi?

Çağırram, şahların xası,
Silinsin könlümün pası,
Sənanın məzar qalası,
Görünərmi, görünməzmi?

---
* "Çahar" sözünün təhrif olunmuş şəklidir. "Dörd" deməkdir.

Söz tamam oldu, yola davam elədilər. Ustad dili yüyrək olur. Rəsul, anası, bacısı, bir də kiçik qardaşı Heydər sağ-səlamət gəlib çatdılar Tiflis şəhərinə. Bunlar qərib idilər, heç yeri tanımırdılar. Bir qədər getdikdən sonra bir qarının daxmasının qabağına çatdılar. Bu dəmdə də qarı çıxdı bayıra. Rəsul qarını görən kimi sazını sinəsinə basıb, görək ondan nə xəbər aldı:

Başına döndüyüm, qurban olduğum,[4]
Şəhri-Tiflis dedikləri budurmu?
Sənəm burda mərhəm eylər yaraya,
Şəhri-Tiflis dedikləri budumu?

Qarı baxıb gördü ki, bunlar qəribdirlər. Bu tərəfdən də Sənəmin adını çəkdi. Alıb, Rəsula görək nə cavab verdi:

Gəzə-gəzə siz gəldiniz buraya,
Şəhri-Tiflis eşitdiyin buradı.
Sənəm burda mərhəm eylər yaraya,
Şəhri-Tiflis eşitdiyin buradı.

Aldı Rəsul:

Bağça burda, bağman burda, bar burda,
Heyva burda, alma burda, nar burda,
Xoca deyən bir qohumum var burda,
Şəhri-Tiflis dedikləri budumu?

Aldı qarı:

Bağça desən, bağman desən, var burda,
Cana min cür dərman desən, var burda,
İndi bildim, oğlan, getmə qal burda,
Şəhri-Tiflis eşitdiyin buradı.

Aldı Rəsul:

Rəsulam, silinməz könlümün pası,
Sərimdə dolanır eşqin sövdası,
Tiflis əhli, Şahsənəmin atası,
Şəhri-Tiflis dedikləri budumu?

Aldı qarı:

Məryəməm, qurbanam mərdlər sərinə,
Hər axşam Şahsənəm çıxar seyrinə,
Qorxma, oğlan, verrəm əlin əlinə,
Şəhri-Tiflis eşitdiyin buradı.

Söz tamama yetişdi. Dünyada ustadlar dilində iki cür qarı var – biri köpəyi qarı, biri ipəyi qarı. Bu qarı ipəyi qarılardandı. Xoş sifətnən Rəsula dedi:

– Oğlum, sən qal burda, mən gedim Sənəm xanımı muştuluqluyum.

Rəsul dedi:

– Qarı nənə, tələsmə.

Qarı dedi:

– Ay oğul, niyə tələsməyim? Düz bir ildir ki, Şahsənəmin nə gecəsi gecədir, nə gündüzü gündüz, hələ mənim özümü burda aylıqçı qoyub ki, Tiflis şəhərinə gələn qəriblərin xəbərini ona yetirim. İndi, şükür olsun ki, sən özün öz ayağınnan gəlib çıxmısan. Mən də kasıb bir arvadam. Mənə də bir xələt çatar.

Rəsul dedi:

– Qarı nənə, bu yaxınlarda qəhvəçi dükanı var, ya yox?

– Qarı dedi:

– Niyə yoxdur? Var, bax, odu, qərib oğlan.

Qərib dedi:

– Ana, sən ki mənə qərib dedin, mən də adımı elə Qərib qoydum.

Qarı qəhvəxananı göstərib, özü Şahsənəmə muştuluğa getdi. Qərib ana-bacısını aparıb məscidin həyətində qoydu. Özü getdi Xoca Əhməd adlı bir karvansaraçının yanına, ondan mənzil istədi.

Xoca Əhməd dedi:

– Mənzil yoxdu.

Aldı görək Qərib ana-bacısının məscid həyətində qaldığını Xocaya nə cür bildirdi:

Başına döndüyüm gülüzlü xoca,
Canım xoca, nənəm camedə qaldı.
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Canım xoca, nənəm camedə qaldı.

Mən də gəlmişəm bir yer verəsən,
Qəriblərin halın görüb biləsən.
Nənəm ölsə şurüzümmə qalasan,
Canım xoca, nənəm camedə qaldı.

Yağar bir tərəfdən yağmur ilə qar,
Nənəm, həmşirəm hey mana baxar,
Yağmurun altında əziyyət çəkər,
Canım xoca, nənəm camedə qaldı.

Söz ona kar eləmədi, Qəribə ürəyi yanmadı, ona yer vermədi. Qərib geri qayıtdı, ana-bacısını, qardaşını götürüb, birbaş Dəli Mahmudun qəhvəxanasına getdi. Dəli Mahmud qonaqpərəst, mərd bir adam idi. O, Rəsulun anasını, bacısını arvadlara məxsus olan otağa apardı. Qayıdıb Rəsuldan xəbər aldı:

– Ey qərib oğlan, hardan gəlib, hara gedirsən?

Rəsul dedi:

– Təbrizdən gəlirəm.

Dedi:

– Adın nədi?

Cavab verdi:

– Adım Qəribdi.

Qəhvəxanada oturanlar Təbriz adını eşidən kimi yerbəyerdən dedilər:

– Qərib, görürük aşıqsan, Təbrizdən bir neçə söz oxu:

Rəsul sinə sazını alıb, görək Təbrizi necə tərif elədi:

Ay ağalar, gəlin sizə söyləyim,[5]
Açılır baharda gülü Təbrizin.
Toyda, bayramlarda atlaz geyərlər,
Kəsilməz yaşılı, alı Təbrizin.

Təbrizin ətrafı dağdı, meşədi,
İçində oturan bəydi, paşadı,
Səkkiz min məhəllə, beş min guşədi
Çarşusu, bazarı, yolu Təbrizin.

Pəhləvanlar kisvət geyər yağlanar,
Cümlə bəzirganlar burda əylənər,
Üç yüz altmış yükü birdən bağlanar,
Əldən-ələ gəzər malı Təbrizin.

Pirlərin tasını içdim söylərəm,
Yenib eşqin dəryasına boylaram.
Mən qəribəm vətən mədhin eylərəm,
Mənəm indi Rüstəm-Zalı Təbrizin.

Söz tamam olan kimi, yerbəyerdən aşığa afərin dedilər.

Bu qəhvəxanada Güloğlan deyilən birisi vardı. Bu məğamda o, əli sazlı gəlib qəhvəxanaya çıxdı. Ellik yerbəyerdən qalxıb dedilər:

– Güloğlan, sazını vur qoltuğuna, var get. Sən Qəribin qabağında heç bir iş görə bilməzsən.

Güloğlan soruşdu:

– Hanı o Qərib?

Belə deyəndə Qərib çıxdı qabağa, alıb sazını sinəsinə, dedi:

– Güloğlan, dörd yarpaq söz deyəcəyəm. Cavabın verə bilsən, mən burdan birbaş Təbrizə qayıdıb, aşıqlıq adını da üstümdən götürəcəyəm.

Əhli-məclis razı oldu. Qərib aldı sazı, görək nə dedi:

Bir xəbər ver mənə, ay usta başı,
Əlsiz telli sazı necə çalırsız?
Əzəl mənə ulduzların halın de.
Ver cavabın, qalsın başın ağrısız.

Qərib gördü ki, Güloğlan qaçmaq istəyir, dedi:

Qərib deyər, siz ey ariflər xası,
O nə cür binadı qüdrət yapası,
O nədi ki, var on iki qapısı,
Siz də bir gün ordan yol salarsız?

Söz tamam oldu. Güloğlan cavab verə bilmədi. Məclisdəkilər dedilər:

– Aşıq, cavabını özün de, Güloğlan bilmir.

Aldı Qərib, görək öz kilidləməsinin cavabını özü nə cür deyir:

Əgər arifsənsə, usta, xəbər bil,
Əlsiz saz çalmağa kaman demişlər,
Göydəki ulduzlar mənim divarım,
Ərənlərim aya, çoban demişlər.

Meydani-hünərdə əsla basılmam,
Arayan qismətin tez bulur tamam,
Qırx səkkiz həftədi ilimiz müdam,
Ağıl tərazisin mizan demişlər.

Dinləyin Qəribdən siz bu nidanı,
Kafi nundan xuda qurdu binanı,
On iki qapıdı, sorma dünyanı,
Ömrümüz keçməkdə haman demişlər.

Güloğlan baxıb gördü ki, bunun qabağında dayanmağa halı yoxdur. Sazını vurub qoltuğuna, çıxıb getdi.

Məclis dağılandan sonra, Dəli Mahmud Qəribdən nə üçün gəldiyini xəbər aldı. Qərib başına gələni Dəli Mahmuda danışıb, Şahsənəmin ona buta verildiyini söylədi. Mahmud dedi:

– Qərib, qəm yemə, nə qədər bu bədənimdə can var, Sənəmi sənə yetirməyə çalışacağam.

Qərib burda qalmaqda olsun, sənə xəbər verim Şahsənəmdən. Necə ki, Qəribin yuxusuna girib ona Şahsənəmi buta vermişdilər, elə də Şahsənəmin yuxusuna girib, Qəribi ona buta vermişdilər. Şahsənəm o gündən Qərib deyib, dəli-divana olmuşdu. Bu tərəfdən qarı özünü saxlaya bilmədi, gedib Şahsənəmə dedi:

– Xanım, gözlərin aydın olsun, Qərib gəlib çıxdı.

Şahsənəm sevindi, qarıya bir ovuc qızıl verib dedi:

– Qarı nənə, göz-qulaqda ol, Qərib bu tərəflərə gəlsə, tez mənə xəbər verginən.

Qarı "baş üstə" deyib, çıxıb getdi.

Bəli, Şahsənəmin atası eşitdi ki, Dəli Mahmudun dükanına bir Qərib aşıq gəlib, çalıb-oxumaqda ona tay tapılmır. Dəli Mahmuda xəbər göndərdi ki, qonağını göndərsin onun yanına.

Dəli Mahmud Qəribi işdən hali elədi, hər ikisi Xoca evinə getdilər. Şahsənəmin atası Qəribi xoş sifətlə qəbul elədi, bir qədər söhbətdən sonra dedi:

– Qərib, bizə bir-iki söz oxu, feyziyab olaq.

Qərib alıb sazı, kökləməyə başladı. Bu tərəfdən də Şahsənəmin qulluqçusu Ağcaqız gəlib keçəndə, Qəribi gördü, gözü Qəribə düşüb dayandı, qapının arasından başladı tamaşa eləməyə. Qərib onu görüb, hər iki tərəfdən cuşa gəldi, alıb görək nə dedi:

Bir səninçün eldən-elə atıldım,[6]
Bu qərib ellərdə yaxdı nar məni!
Həsrətin oduna yandım, kül oldum,
Ahu gözlüm, nə haldayam, gör məni!

Səbrə taqətim yox, gəlməz qərarım,
Ərşə bülənd olub ah ilə zarım,
Bəlli deyilmi sənə əhvalım?
Çox çəkməz ki, xəndan elər xar məni!

Qərib elə oxuyanda Ağcaqız istədi gedib Şahsənəmə xəbər versin. Qərib onun getdiyini görüb, aldı sözün o biri bəndini:

Qərib deyir: getmə, könül oğrusu,
Heç keçməz başımdan sövda ağrısı,
Sənə mən söyləyim sözün doğrusu,
Bu qürbət ellərə saldı yar məni!

Söz tamama yetdi. Şahsənəmin atası Qəribin belə oxumasından çox xoşlanıb dedi:

– Qərib, bu axşam mənə qonaqsan.

Qərib razı oldu. Xacə durub tədarük görməyə getsin, indi sənə deyim Ağcaqızdan. Ağcaqız özünü yetirib Şahsənəmin yanına, dedi:

– Atovun bir Qərib adında qonağı gəlib. Səhərdən bəri elə oxuyur, gəl tamaşa elə.

Şahsənəm bir qaravaşda götürdü, gəldilər pəncərənin qabağına. Qərib bunları görən kimi alıb sazı, görək nə dedi:

Pəncərədən mayıl-mayıl baxan yar,[7]
Üç gözəlin birisinə mən qurban.
Şirin canım eşq oduna yaxan yar,
Üç gözəlin birisinə mən qurban.

Ağcaqız dedi:

– Xanım, bu mənim üçün oxuyur. Bayaq da məni görən kimi oxudu.

Şahsənəm Qəribi görən kimi bildi ki, öz butasıdır, Ağcaqıza cavab vermədi. Ağcaqız bir az da özünü qabağa verdi. Qərib dedi:

Birisinin ayağında məsti var,
Birisinin can almağa qəsdi var.
Birisinin burda yaxın dostu var,
Üç gözəlin birisinə mən qurban.

Ağcaqızın ayağında məst vardı. Odu ki, məst adı eşidən kimi dedi:

– Gördün mənim üçün oxuyur.

Qərib aldı, axır yarpağı görək necə tamamladı:

Üç gözəlin biri bizə qohumdu,
O birisi əl dəyməmiş qovundu,
Aşıq Qərib, biri sənin ovundu,
Üç gözəlin birisinə mən qurban.

Söz tamama yetdi. Ağcaqız dedi:

– Xanım, gördünmü mənim üçün oxuyur.

Qərib gözünü çevirib gördü, Şahsənəm pəncərədən maral kimi boylanıb ona baxır. Ürəyi qubar elədi, aldı, görək nə dedi:

Hayıl-mayıl pəncərədən baxan yar,[8]
Elə baxdı məni başdan elədi.
Saldı məni zalım yüz min bəlaya,
Yanan cismim od-ataşdan elədi.

Bağban olan sevir güllü bağını,
Əməydim dilini, bal dodağını,
Necə bulud kəsir ay qabağını,
Sevdiyim, örtüyün saçdan elədi.

Bağban olan sevir güllü bağını,
Əməydim dilini, bal dodağını,
Necə bulud kəsir ay qabağını,
Sevdiyim, örtüyün saçdan elədi.

Qərib, gülün dəstə-dəstə dərmişlər,
Dəribəni sinə üstə sərmişlər,
Əcəb vaxtda ixtilata gəlmişlər,
Ayırdı çörəkdən, aşdan elədi.

Belə deyəndə Şahsənəm əlindəki aynanı üzünə tutub, gözlərindən bahar buludu kimi yaş axıtdı. Qərib butasını belə görəndə sazı alıb, görək nə dedi:

Sərxoş-sərxoş baxır yar aşnasına,
Şahsənəm, əlində aynası gözəl.
Cümlə aləm gəlir tamaşasına,
Büllur piyaləsi, sağısı gözəl.

Yar məni dindirir şirin dil ilə,
Gözə sürmə çəkir, gümüş mil ilə.
Otağı bəzənib qızılgül ilə,
Süsəni, sünbülü, lalası gözəl.

Alışan otaqlı, xoş imarətli,
Gözəllər içində qəddi-qaməti,
Ahu baxışlıdı, laçın sifətli,
Uçmağa, qonmağa cığası gözəl.

Aşıq Qərib sözün deyər avaznan,
Dindirəndə canım alar o naznan,
Yarım eyvanında, cüt qoşa qıznan,
Şahsənəm əladır, hamısı gözəl.

Söz tamama yetdi, Şahsənəm bir qədər toxtayıb, qızlarnan öz otağına çəkildi.

Xacə gəlib çıxdı, bir qədər şirin söhbətdən sonra məclis quruldu. Tiflisin yaxın-uzaq yerlərindən Qəribin məclisinə axışıb gəldilər. Xacə dedi:

– Qərib, mənə Ərzurumu tərif elə, səsin mənə çox xoş gəlib.

Xacə belə deyəndə aldı Qərib, görək nə dedi:

Ağalar, ərzimə bir qulaq verin,[9]
Dastandır dillərdə şanı Ərzrumun.
Bir belə səfalı yer görünməyib
Söylənir cahanda sanı Ərzrumun.

Səfalı olur o yerlərin havası,
Çar tərəfdən gəlir bülbül sədası,
Ahular yığnağı, laçın yuvası,
Bənzər gülə hər bir yanı Ərzrumun.

Qərib xoşhal idi gözəl vətəndə,
Qəriblik yamandı ora yetəndə,
Əyan olur qərib bülbül ötəndə,
Gülü gülzardı məkanı Ərzrumun.

Qərib sözünü tamam elədi, qonaqlar yeyib-içəndən sonra hərə öz mənzilinə getdi, Qəribə Xacə yer saldırıb, otaqların birində onu rahat elədi.

Şahsənəm gecəni araya salıb, Ağcaqızı Qəribin dalınca göndərdi, özü də düşüb bağda gözləməyə başladı.

Ağcaqız qalxıb Qəribin yatdığı otağın qabağına gəldi. Qərib yatmamışdı. Ağcaqız pəncərədən onu səslədi. Qərib pəncərədən boylanıb, gördü gələn Ağcaqızdı Xəbər aldı:

– Nə üçün gəldin?

Dedi:

– Qərib, Şahsənəm səni bağda gözləyir.

Qərib Şahsənəm adını eşidən kimi özünü pəncərədən atıb, Ağcaqıznan bağa getdi.

Şahsənəm, üç gecəlik ay kimi ağacların arasından çıxıb, yaşılbaş sona kimi bulaq başında Qəribin yolunu gözləyirdi. Qərib özünü yetirib gördü ki, butası bulaq başında dayanıb, siyah saçlarını hörür, dedi:

– Ey dili-qafil, buna təkcə dil ilə yox, gərək sazla da cavab verəm.

Alıb sinə sazını, görək nə dedi:

Bulağın başında, saçın hörəndə[10]
Göründü gözümə maya qaşların.
Gör necə düşübdür sulara şoqun,
Bənzəyir üç günlük aya qaşların.

Hüsnünün düşübdür cahana şoqi,
Artırıbdır baharda bülbülün zoqi,
Yandırıbdır məni camalın şoxi,
Ağlımı eylədi zay, a qaşların.

Qaşların bəzirgan, gözlərin xoca,
Baxışın peykandı, rüxlərin uca,
Sevindir Qəribi barı bir gecə,
Könlümü salıbdır vaya qaşların.

Söz tamama yetdi. Şahsənəm dönüb, Qəribi dalı qatında gördü. İki aşiq sarmaşıq kimi sarıldılar bir-birinə.

Səhərin təmiz yeli onları ayıltdı. Qərib dedi:

– Ey mənim gözümün işığı gedirsən, nədir?

Şahsənəm dedi:

– Bəli, gedirəm. Məni atamdan istə. Atam məni sənə verər, verməsə, mən heç kimə getməyəcəyəm.

İki həsrətli əhd-peyman eliyib ayrıldılar.

Qərib Şahsənəmdən ayrılıb, anasının yanına gəldi, dedi:

– Ana, get elçilik elə, Şahsənəmi mənə istə.

Qəribin anası Dəli Mahmudu götürüb, Xacənin yanına gəldilər.

Qəribin anası Şahsənəmi ədəb-qayda ilə oğluna istədi. Xacə dedi:

– Nə eybi var, razıyam. Ancaq oğlun qırx kisə qızıl başlıq verməlidir.

Qəribin anasının boğazının yolu qurudu, birbaş oğlunun yanına gəlib dedi:

– Oğul, Xacə qırx kisə qızıl istəyir.

Qərib dedi:

– Ana, eybi yoxdur, mən qırx kisə qızılı qazanaram.

İndi sənə kimdən deyim, Şahvələddən. Şahvələd Şahsənəmin əmisi oğlu idi. Eşitdi ki, əmisi qızını Qərib adında birisi istəyir. Qızın da ona meyli var. Elçi göndərdi əmisinin yanına. Xacə razılıq verdi. Qızı Şahvələdə nişanladılar. Elçilər "mübarək olsun" deyib, gedib bu şad xəbəri Şahvələdə yetirdilər.

Şahsənəm eşitdi ki, atası Qəribin elçilərini rədd edib, Şahvələdə söz verib. Şahsənəmin günü oldu qara, gecə-gündüz Qərib deyib ağlamaqda olsun, bu tərəfdən Şahvələd gözəl bir xonça tutub, bir imansız qarı tapdı, xonçaları qarı ilə göndərdi Şahsənəmə.

Qarı Şahsənəmin yanına gəlib, xonçanı qoydu qabağına. Şahsənəm xəbər aldı:

– Qarı nənə, bu xonçanı kim göndərib?

Qarı dedi:

– Bıy, qadan alım, necə kim göndərib? Sənin nişanlın Şahvələd.

Şahsənəm Şahvələdin adını eşidən kimi xonçaları tulladı çölə. Ağcaqıza tapşırdı ki, “Bu köpək qarını atın pilləkəndən aşağı, itilib getsin cəhənnəmə”. Ağcaqız qarını itələyib saldı pilləkəndən aşağı. Qarı donquldana-donquldana, ombasını çəkə-çəkə özünü yetirdi Şahvələdə. Şahvələd qarını bu halda görüb, xəbər aldı:

– Qarı nənə, necə gəldin?

Qarı dedi:

– Ağrın ürəyimə, necə gələcəm. Nişanlın Şahsənəm xonçanı götürüb həyətə tulladı, özü də məni o qədər döydü ki, rəhmətlik nənəmin adı yadımdan çıxdı.

Şahvələd dedi:

– Qarı nənə, sən dünya görmüş adamsan, biz necə eləyək ki, Qərib Tiflisdən rədd olsun.

Qarı dedi:

– Nə bilim, mən sizin işinizə qatışa bilmərəm.

Şahvələd əlini cibinə salıb, bir çəngə pul çıxartdı, qarının ovcuna basıb dedi:

– Qarı nənə, fikirləş görək.

Qarı pulu görən kimi gözləri işıqlanıb, dedi:

– Mənim gözüm üstə!

Qarı ayrılıb Şahvələddən, Qəribi axtarmaqda olsun, bu tərəfdən Şahsənəmin Qəribə aşiq olması və Şahvələdin adamını qovması xəbəri qızın atasına yetişdi. Xacə Sənan öz arvadını Şahsənəmin yanına göndərdi ki:

– Get, qızına öyüd ver, bizi biabır eləməsin. Qərib kasıb bir oğlandır. O bizə tay deyil.

Anası durub qızının yanına gəldi, ərinin dediyini qızına söylədi. Şahsənəm başını salıb aşağı, bahar buludu kimi gözündən yaş axıda-axıda görək anasına nə cür cavab verdi:

Aldı Şahsənəm:

Başına döndüyüm, gülüzlü ana,
Ana, mən yazığı nə danlayırsan?!
Südünü əmmişəm mən qana-qana,
Ana, mən yazığı nə danlayırsan?!

Sarılıqda heyvalardan sarıyam,
İsmim pakdır, lap sudan da duruyam.
Verməsən də, mən Qəribin yarıyam,
Ana, mən yazığı nə danlayırsan?!

Şahsənəm belə deyəndə anası onun ağzına bir şillə vurub dedi:
– Mən deyirəm bizi biabır eləmə, sən deyirsən mən Qəribin yarıyam.
Şahsənəm dedi:
– Ana, qulaq as!

Qaynasın, qaynasın, peymanə dolsun,
Saralsın gül təki qoy rəngim solsun,
Bu işə pəl vursan, Şahsənəm ölsün,
Ana, mən yazığı nə danlayırsan?

Şahsənəm qurbandı oğlun həbibə,
Məni salmaginən qeyri təbibə,
Ana, razı olun gedim Qəribə,
Ana, mən yazığı nə danlayırsan?!

Söz tamam oldu, anası durub çıxıb getdi. Şahsənəm oturub ağlamaqda, Qəribin yolunu gözləməkdə olsun, sizə deyim Şahvələdin qarısından.

Qərib oturmuşdu daş üstə, vətənə doğru baxırdı. Qarı Qəribə yaxınlaşıb, özünü tanımamazlığa vurub dedi:
– Oğul, bu aralarda təbrizli Qəribin evi haradadı?
Qərib xəbər aldı:
– Nəyinə gərəkdir, qarı?
Qarı dedi:
– Məni Şahsənəm göndərib.
Qərib Şahsənəm adını eşidən kimi qalxıb dedi:
– Nənə, Qərib mənəm. tez de görüm, Şahsənəm nə xəbər göndərib?
İmansız qarı özünü yerə vurub, gözünün yaşını axıda-axıda dedi:
– Oğul, mənim sənə yazığım gəlir. Sən Şahsənəm deyib Təbrizdən buraya köç-külfətnən gəlmisən. Amma Şahsənəm sənə çox vəfasızlıq elədi.
Qərib xəbər aldı:
– Necə?..
Qarı dedi:
– Necəsi yoxdu. Odu, Şahsənəm əmisi oğlu Şahvələdə nişanlandı. Bu gün-sabah da toyu olacaq. Özü də məni göndərdi ki, sənə deyim, ta bir də sən Şahsənəm adını çəkməyəsən.

Qərib qarıdan belə eşidəndə ürəyi dəmirçi kürəsi kimi od tutub yandı. Sazını əlinə alıb, Şahsənəmin bağına gəldi. Qərib bağa girib, gördü ki, Şahsənəmin həmişə gəzib dolandığı bağ bu gün elə sakitlikdi ki, gəl görəsən. Bağın hər tərəfindən qəm qara yağış kimi yağır. Bir qədər də Şahsənəmin yolunu gözləyib, gördü ki, gəlib çıxmadı, dərdi təzələndi, Şahsənəmin ona göndərdiyi sözü xatırlayıb, aldı, görək nə dedi:

Xaraba qalasan, ay qərib ölkə,
Heç səndə oynayıb, gülən yox imiş!
Bülbül susub, bağ pozulub, gül solub,
Yad bağların etibarı yox imiş!

Mən gedirdim, dostum çıxdı qabaqdan,
Acı sözün salmaz məni damaqdan,
Bizim güldən yad güllərə qonmaqdan,
Yad sonanın etibarı yox imiş!

Aşıq Qərib, qismətin fəryad oldu,
Könül məlul oldu, düşmən şad oldu,
İstəkli dilbərim bizdən yad oldu,
Yad sonanın etibarı yox imiş!

Qərib günü axşam elədi, Şahsənəm gəlib çıxmadı. Qaş qaraldı, Tiflisin bütün lampaları yandı. Kasıb-kusub evinə çəkildi. Şahsənəm yenə də gəlmədi. Qərib qarının sözünü təsdiqləyib, dönüb getmək istəyirdi, bir də gördü ki, ağacların arasından bir şey ağarır. Yeriyib irəli, gördü ki, Ağcaqızdı. Ağcaqıza söz deməyə macal verməyib, alıb görək nə dedi:

Səni gördüm, konlum oldu pərişan,[11]
Əridi ürəyim yağı, Ağcaqız!
Qıya baxıb, könül evin yıxansan,
Tanımırsan solu-sağı, Ağcaqız!

Camalın seçilməz üç günlük aydan,
Qaşların seçilməz kamandan, yaydan,
Bir xəbər ver mənə saçı lay-laydan,
Səhərdən gəzirəm bağı, Ağcaqız!

Eşqilə düşmüşəm mən bu diyara,
Yalvarıram gecə-gündüz mövlaya,
Çünki məcnun oldum saçı Leylaya,
Bir zaman gəzərəm dağı, Ağcaqız!

Mən Qəribin dərdin yaz qələm ilə,
Günüm keçirdirəm qəm-ələm ilə,
Məndən Şahsənəmə sən salam eylə.
Gəlməsə dağdaram bağı, Ağcaqız!

Söz tamama yetdi. Ağcaqız dedi:

– Evi yıxılmışın oğlu, bir səbir elə, gör nə deyirəm?

Qərib dedi:

– De görüm.

Ağcaqız dedi:

– Məni Sənəm göndərib. Dedi ki, sərv ağacının altında məni gözləsin, gəlirəm. Təxsir məndə olub. Mən bir qədər ağır tərpənmişəm. Get, sərv ağacının altında gözlə.

Qərib gəlib sərv ağacının altında oturdu. Quşların cəh-cəhi, bülbüllərin gözəl nəğmələri, güllərin xoş ətri Qəribin huşunu apardı. Elə ki özün-sözün bilmədən, yıxılıb qaldı.

Ağcaqız özünü Şahsənəmə yetirib dedi:

– Şahsənəm, gəl çıxaq bağa, bülbüllər elə ötüşür ki, gəl görəsən. Qəribi də gəzək, tapaq.

Şahsənəm razı oldu. Hər ikisi bağa çıxdılar. Ta ki, Ağcaqız haman yerə çatıb, Şahsənəmə dedi:

– Şahsənəm, sən burada gözlə, mən sərv ağacının altına dəyim. Bəlkə Qəribi tapa bildim.

Ağcaqız icazə alıb, sərv ağacının altına gəldi. Nə gördü? Qərib elə yatıb ki, heç özündə deyil. Ağcaqız siyah saçlarından üç tel ayırıb, sinəsaz elədi, görək Qəribi necə oyadır:

Aldı Ağcaqız:

Eyvandan enib yürüdü,[12]
Oyan, ovçu, ovun gəldi.
Şövqü aləmi bürüdü,
Oyan, ovçu, ovun gəldi.

Ağcaqız gördü Qərib oyanmır. Alıb ikinci yarpağını, görək necə dedi:

Siyah zülfün tökmüş üzə,
Sürmə çəkmiş qaşa, gözə,
Eyvanından endi düzə,
Oyan, ovçu, ovun gəldi.

Qərib yenə də ayılmadı. Alıb Ağcaqız, görək axır yarpağı necə tamamladı:

Əli-ayağı xınalı,
Köksü yumru məməli,
Yanları cüft-cüft sonalı,
Oyan, ovçu, ovun gəldi.

Ağcaqız deyir sözünü,
Oyan, Qərib, aç gözünü,
Götür yerdən ay üzünü,
Oyan, ovçu, ovun gəldi.

Qərib yenə ayılmadı. Şahsənəm bağın başından səs gəldiyini eşidib, Ağcaqızı çağırdı. Ağcaqız gəldi. Şahsənəm ondan xəbər aldı:

– Ay qız, bağda kim var?

Ağcaqız dedi:

– Xanım, Qərib sərv ağacının altında yatıb, çağırıram, oyanmır.

Şahsənəm yüyürüb, özünü Qəribə yetirdi. Nə qədər çağırdı, Qərib ayılmadı. Hörüklərindən üç tel ayırıb, sinə-saz elədi, görək Ağcaqıza nə dedi:

İki gözüm, Ağca gəlin,
Qərib oyanmaz, oyanmaz!
Eşqiylə oldum divanə,
Qərib oyanmaz, oyanmaz!

Sənəm deyir: aç gözünü,
İstər öpsün ağ üzünü,
Tərəq qərq edib özünü,
Qərib oyanmaz, oyanmaz!

Qərib yenə də ayılmadı. Sənəm ağlaya-ağlaya gəlib oturdu çarhovuzun qırağında. Ağcaqız qəzəbləndi, gəlib, bu dəfə Qəribi elə silkələdi ki, Qərib dik atıldı, xəbər aldı:

– Nə olub?

Ağcaqız dedi:

– Nə olacaq? Şahsənəm düz bir saatdı ki, kəsdirib yanıvı, ayılmırsan.

Qərib Ağcaqızdan belə eşidəndə alıb, görək nə dedi:

Əcəb yerdə məni bərk huş apardı,[13]
Mən heç bilməmişəm yar gəldiyini.
Fələk vurub, baxtım yana çevirdi,
Mən heç bilməmişəm yar gəldiyini.

Zalım fələk yazdı belə yazımı,
Gör necə çevirdi qışa yazımı,
Ürəyimdə qoydu mənim arzımı,
Mən heç bilməmişəm yar gəldiyini.

Qərib deyir: uzun illər gülmədim,
Ağlayıban, göz yaşımı silmədim,
Mənzilində təkcə yarı görmədim,
Mən heç bilməmişəm yar gəldiyini.

Qərib belə deyib, ağlamağa başladı. Bu tərəfdən Ağcaqız qaçıb Şahsənəmi onun yanına göndərdi.

Şahsənəm gəlib gördü ki, Qərib yanıqlı-yanıqlı oxuyur, ağlayır. Daldan qulac qollarını Qəribin boynuna salıb, onu qucaqladı. İki həsrətli sarmaşıq gül ağacına sarılan kimi, bir-birinə sarıldılar. Qərib dedi:

– Ey qəlbimin soltanı, mən səndən ayrılmalı oldum.

Şahsənəm bu sözü Qəribdən eşidən kimi elə bil onu ildırım vurdu. Xəbər aldı:

– Nə üçün? Bu nə sözdü danışırsan?

Qərib dedi:

– Atan Xacə səni mənə vermək üçün qırx kisə qızıl istəyir.

Şahsənəm dedi:

– Elə bundan ötrü məni atırsan? Sən qırx kisə qızıl deyirsən, mən əlli kisə verərəm, təki iş düzəlsin.

Qərib dedi:

– Can Şahsənəm, bu insafdan çox kənar olar. Gəl sən mənə izn ver, gedim, öz əlimin zəhməti ilə bu pulu qazanım, verim atana, sonra şadlıqnan toy edək.

Şahsənəm dedi:

– Bəs nə vaxt gələrsən?

Qərib dedi:

– Bu əhd-peymana and olsun, yeddi ildən uzaq sürməz. Belə deyəndə Şahsənəm başladı ağlamağa. Qərib Sənəmin bahar buludu kimi axan göz yaşını görcək, ürəyi alışıb, əl atıb sazına, görək Şahsənəmə nə dedi:

Başına döndüyüm gülüzlü sənəm,[14]
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.
Bu ayrılıq bizə haqdan verildi,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Şahsənəm saçından iki tel ayırıb, sinə-saz elədi, görək Qəribə nə cavab verdi:

Başına döndüyüm etibarlı yar,
Get, Qəribim, sağlıq ilə gələsən!
Bilirəm ki, vardı səndə etibar,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Dön bəri, dön bəri, bir üzün görüm,
Al yanaqlarının qurbanı olum;
Bir əmanətim var, qoy sənə verim,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Qurbanın olayım, qaragöz Qərib,
Tez gəl, eşqimizə gülməsin rəqib,
Sənsən mənim hər bir dərdimə təbib,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Payız gələr, bağlar tökər xəzəli,
Tapdım Rum elində səndən gözəli,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Qərib, bu sözlərin əsla yaramaz,
Etibarsız adam igid olamaz,
Belə aşıqların adı qalamaz,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Səndən kimsənəyə gəlməz gümanım,
Alagözlü pərim, qaşı kamanım,
Yeddi ilə kəsdim əhdi-peymanım,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Sənəm deyir: getmə yollar çamurdu,
Sənin bağrın daşdı, ya ki dəmirdi,
Yeddi il dediyim xeylaq ömürdü,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Qəribəm, viranə qalsın bu ölkən,
Qorxum budu gülə sarmaşa tikən,
Qayıtmasam qınar məni hər yetən,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Söz tamam oldu. Hər iki həsrətli yenidən görüşüb, öpüşüb, halal-hümmət etdikdən sonra Şahsənəm dedi:

– Qərib, indi hara getmək istəyirsən?

Qərib dedi:

– Ruma getmək fikrindəyəm.

Qərib elə deyəndə Şahsənəm fikirləşdi ki, Qərib Ruma getsə, məndən də gözəlini tapacaq. Ona görə də alıb, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,[15]
Amandı, Qəribim, getmə Ruma sən!
Gəzdiyin yerlərdə yad eylə məni,
Amandı, Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Əyər mövlam mənə kömək olarsa,
Ağlama, sevdiyim, yenə gələrəm!
Əcəl şərbətini canım dadmasa,
Ağlama, sevdiyim, yenə gələrəm!

Aldı Şahsənəm:

Lənət olsun o günlərə, o dəmə,
Yazıq canım necə dözsün sitəmə,
Sən getsən bürünnəm qaraya, qəmə,
Amandı, Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Payız olar, bağlar tökər xəzəli,
Neyləyirəm səndən qeyri gözəli,
Ağlama, sevdiyim, yenə gələrəm!

Aldı Şahsənəm:

Sənəm deyir: halım xeyli yamandı,
Uca dağlar başı tozdu, dumandı.
Bu ayrılıq bizə xeyli zamandı,
Amandı, Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Rəsul idim, Qərib dedin adıma,
Mövlam yetsin köməyimə, dadıma,
Qürbət eldə Sənəm düşər yadıma,
Canım oda atıb, yenə gələrəm!

Söz tamama yetdi. Qəriblə Şahsənəm yenidən görüşüb ayrıldılar.

Qərib burdan birbaşa anasının yanına gəldi. Anası gördü ki, oğlu geyinib, səfər libasındadı, xəbər aldı:

– Oğul, hara gedirsən?

Qərib dedi:

– Ana, qulaq as, deyim:

Aldı Qərib:

Qurban olum sənə, gülüzlü ana,[16]
Gedirəm qürbətdə gəzəm bir zaman,
Bir səfər sövdası vardı başımda,
Gedirəm qürbətdə gəzəm bir zaman.

Aldı Qəribin anası:

Nə sövdadı yenə düşüb başına,
Ağlar qoyma bizi, getmə qürbətə.
Bağrımı döndərdin tey qızıl qana,
Ağlar qoyma bizi, getmə qürbətə.

Aldı Qərib:

Canım ana, gəl əylətmə sən məni,
Eyləyirəm haqqa əmanət səni,
Tapşırıram sənə butam Sənəmi,
Gedirəm qürbətdə gəzəm bir zaman.

Aldı Qəribin anası:

Mən kömək istərəm sənə xudadan,
Fərəc versin sənə böyük Yaradan.
Ölsəm kim götürər məni aradan?
Ağlar qoyma bizi, getmə qürbətə.

Aldı Qərib:

Qəribəm, dəmadəm ağlayıram mən,
Sinəm eşq oduna dağlayıram mən.
Sənəmsiz dünyanı neyləyirəm mən?
Gedirəm qürbətdə gəzəm bir zaman.

Aldı Qəribin anası:

Gecə-gündüz yollarında ağlaram,
Al geyərəm, başa qara bağlaram,
Oğul deyib, mən sinəmi dağlaram,
Ağlar qoyma bizi, getmə qürbətə.

Qərib anası, bacısı ilə halallaşıb, qəhvəxanaya gəldi. Aldı, görək Dəli Mahmuda nə dedi:

Qürbət eldə baş yastığa gələndə,
Qayət yaman olar işi Qəribin.
Gələn olmaz, gedən olmaz yanına,
Siyah torpağıyla daşı Qəribin.

Yazıq derlər bu Qəribin adına,
Doymaq olmaz ləzzətinə, dadına,
Hər saldıqca yaraların yadına,
Durmaz əsla çeşmi yaşı Qəribin.

Qərib anasını, bacısını Dəli Mahmuda tapşırdı, halal-hümmət eləyib, yola düşdü.

Şahvələd eşitdi ki, Qərib gedir, onu öldürmək niyyətilə Tiflisdən çıxdı. O vaxt gəlib çatdı ki, gördü Qərib Kürü addıyıb. Kor-peşman geri qayıtdı. Şahsənəmə xəbər göndərdi ki, bu gün-sabah toyun başlayıram. Şahsənəm baxıb gördü, zornan da olsa onu aparacaqlar, Şahvələdə xəbər göndərdi ki, məni yeddi il gözləsin. Şahvələd Sənəmi yeddi il gözləməkdə olsun, sənə deyim Qəribdən.

Ustad dili yüyrək olar. Qərib bir müddət yol gedib axır gəlib çatdı Hələb şəhərinə. Hələbi görən kimi təbinə zor gəlib, görək bu şəhəri nə cür tərif elədi:

Aldı Qərib:

Şükür olsun Yaradana,
Sənə gəldim, Hələb şəhri.
Ayrı düşdüm vətənimdən,
Sənə gəldim, Hələb şəhri.

Ayrıldım qonça gülümdən,
Köksü sarı bülbülümdən,
Kəkilləri sünbülümdən,
Sənə gəldim, Hələb şəhri.

Ayrıldım nazlı yarımdan,
Üzüm gülməz ah-zarımdan,
Canım odlanır narımdan,
Sənə gəldim, Hələb şəhri.

Qərib sözünü tamam eləyib, oradan gəlib çıxdı bir qəhvəçi dükanına. Bir neçə müddət burada qalıb, çalıb oxuduqdan sonra, səs yayıldı Hələbə ki, bir belə aşıq gəlib, qabağında heç bir ustad dayana bilmir.

Bu xəbəri eşidən yaxın-uzaq yerlərdən qəhvəçi dükanına gəlib, Qəribin oxumasına qulaq asırdılar. Qərib burda qalıb, günün keçirtməkdə olsun, sənə deyim Tiflisdən.

Qərib neçə vaxt idi ki, getmişdi. Şahvələd Şahsənəmi könülə gətirmək üçün gündə bir tədbir görürdü. Amma Şahsənəm Qərib deyib, gecə-gündüz ağlayır, Qəribin təsəllisini almaq üçün hər gün onun anasının yanına gəlirdi. Bir gün Şahvələd eşitdi ki, Şahsənəm hələ də Qəribdən əl çəkməyib, gecə-gündüz Qəribin anasının evindədi, onlara əl tutur, Güloğlanı tapıb dedi:

– Al, bu pulu, get, Qəribi harda görsən vur, öldür, qanlı köynəyini götür, gəl ver anasına.

Güloğlan Şahvələddən pulu alıb, üz qoydu getməyinə. Nə qədər dərə-təpə gəzdisə, Qəribi tapa bilmədi, yoruldu, gördü ki, qıçları getmir, yerə oturub dedi:

– Kim bilir, Qərib indi harda itib batıb. Yaxşısı budur bir şikar eləyim, başını kəsib, öz köynəyimi onun qanına bulayım, aparım verim Qəribin anasına. Şahvələdin yanında da başım uca olsun.

Güloğlan bir şikar eləyib, başını kəsdi, öz köynəyini qana bulaşdırdı, gəldi Qəribin anasının yanına, dedi:

– Ana, başın sağ olsun. Oğlun mənimnən gəlirdi. Yolda onu həramilər öldürdü. Bu da onun qanlı köynəyi.

Qəribin anası, bacısı qanlı köynəyi basıb bağırlarına, Qərib deyib ağlamağa başladılar.

Şahsənəm eşitdi ki, Qəribin qanlı köynəyini Güloğlan gətirib, qara paltar geyib, gəldi Qəribin anasının yanına. Neçə gün, neçə gecə matəm saxladılar. Ancaq Şahsənəm ağlayırdısa da, Qəribin ölməsinə inanmırdı. Qəribin anası, bacısı da o qədər ağladılar ki, iki gözdən oldular, dünya işığına həsrət qaldılar. Gün keçdi, il dolandı, Qəribin getməsindən düz altı il yarım keçdi.

Şahvələd Şahsənəmə adam göndərdi ki, hazırlaşsın, bu yaxınlarda toyu edəcəyəm. Şahsənəm durub gəldi Qəribin anasının yanına, dedi:

– Ana, Şahvələd mənim toyumu lap yaxınlaşdırıb. Mən də əhd eləmişəm ki, Qəribdən başqa heç kimə getmiyəcəyəm. Təvəqqe eləyirəm, gedək yol kənarında oturaq. Hələbə gedib-gələn bəzirganlardan xəbər tutaq. Bəlkə Qəribdən bir əhval öyrənə bildik. Mən bilirəm, o sağdı, ölməyib.

Qəribin anası razı oldu. Gəlib oturdular yol üstə.

Xacə Əhməd deyilən birisi Hələb şəhərinə gedirdi. Gördü ki, yol kənarında üç fağır oturub. Bəzirgan Əhməd gəlib, bunlara pul verdi. Qəribin bacısı pulu almayıb, görək, bəzirgan Əhmədə nə dedi:

Aldı Qəribin bacısı:

Sənə qurban olum, bəzirganbaşı,
Gözlərəm yolları, qardaş gəlmədi.
Nə gecəm gecədi, gündüzüm gündüz,
Gözlərəm yolları, qardaş gəlmədi.

Yeddi ildi yollarını gözlərəm,
Xəncər alıb, bağrım başın teylərəm,
O gəlməsə, bu qürbətdə neylərəm?
Gözlərəm yolları, qardaş gəlmədi.

Yaman olur qarlı dağlar ucası,
Bir dərdim var, o da qardaş acısı,
Sənəm butasıdır, mənəm bacısı,
Gözlərəm yolları, qardaş gəlmədi.

Əhməd bəzirgan dedi:

– Anam, bacım, siz kimsiniz? Nə yerin adamısınız?

Qəribin anası dedi:

– Bəzirganbaşı, biz sail deyilik, mən təbrizli Məmməd Söydayarın külfətiyəm. Bu qızım, bu da oğlumun nişanlısıdır. Oğlum indi düz yeddi ildir ki, Hələb şəhərinə pul qazanmaq üçün gedib, bu vaxta kimi heç bir xəbər yoxdur.

Əhməd bəzirgan Məmmədin adını eşidən kimi "vay, o mənim lap yaxın dostumdu", – deyib, aldı, görək nə dedi:

Əhməd bəzirgandı, bil, mənim adım,
Sizi gördüm, ərşə çıxdı fəryadım,
Əvvəl sail bildim, kömək eylədim,
Xəbər ver, oğlunu tapım, gətirim.

Aldı Qəribin anası:

Gəlişin haradan, bəzirganbaşı?
Alıban satırsan alı, qumaşı,
Gecə-gündüz axıdaram göz yaşı,
Gözdən oldum, oğul-oğul deməkdən.

Aldı Əhməd bəzirgan:

Gəlişimdi mənim Təbriz elindən,
Alıram, satıram dünya malından,
Söylə, nənə, gəlsin kəlamın dildən,
Nişan ver, oğlunu tapım, gətirim.

Aldı Qəribin anası:

Aləm bilir çoxdu sinəmdə dərdim,
Doqquz ay qoynumda oğul becərdim,
Qaragözlü nocavanım itirdim,
Gözdən oldum, oğul-oğul deməkdən.

Aldı Əhməd bəzirgan:

İtirmərəm mən Məmmədin namını,
Haqq özü yetirsin tez muradını,

Söylə mənə sən oğlunun adını?
Nişan ver, oğlunu tapım, gətirim.

Aldı Qəribin anası:

Fələk tökdü qara küllər başıma,
Rəhm eylə sən gözdən axan yaşıma,
Qəribin həsrəti düşdü başıma,
Gözdən oldum, oğul-oğul deməkdən.

Söz tamama yetdi. Əhməd bəzirgan dedi:

– Ana, indi oğlunun adını bildim, səbir elə. Hələb şəhərinə çatan kimi orada olsa tapıb göndərərəm.

Şahsənəm bu sözü eşidən kimi sevinib, bəzirgan Əhmədin əlini öpdü. Saçından iki tel ayırıb, döşünə basdı, görək Əhməd bəzirgana nə dedi:

Aldı Şahsənəm:

Qulun olum sənin, hörmətli xacə,
Degilən Qəribə, durmasın, gəlsin!
Yeddi ildi həsrətini çəkirəm,
Degilən Qəribə, durmasın, gəlsin!

Əhməd bəzirgan Şahsənəmdən belə eşidəndə öz-özünə dedi: "Qoy bunu bir sınaqdan keçirim, görüm Qəribi ürəkdən sevirmi?".

Aldı Əhməd bəzirgan:

Qurban olum sənə, alagöz xanım,
Razı olsan, səni allam oğluma.
Bivəfadan nə kar çıxacaq sənə,
Razı olsan, səni allam oğluma.

Aldı Şahsənəm:

Sözünü bilmədin, bəzirgan xoca,
Yolunda çəkmişəm xeyli işgəncə,
İnsafdı dəyişmək qızılı tunca?!
Degilən Qəribə, durmasın, gəlsin!

Yeddi ildi mənim yarım gedibdi,
Sirrimi deməyə sənə ayıbdı,
Şahsənəm butası Aşıq Qəribdi,
Degilən Qəribə, durmasın, gəlsin!

Aldı Əhməd bəzirgan:

Heç kəs bilməz mənim bu cür halımı,
Xərc elərəm əldə olan malımı,
Qoyaram yolunda şirin canımı,
Soraqlaşıb, Qəribini taparam.

Əhməd bəzirganam, indi gedərəm,
Rumi, şamı, Hindi tamam gəzərəm,
Qul olsa, pul verib, azad edərəm,
Soraqlaşıb, Qəribini taparam.

Söz tamama yetdi, Şahsənəm Əhməd bəzirgandan təvəqqe elədi ki, Qərib harda olsa tapıb gətirsin; barmağındakı üzüyü də çıxarıb, nişan üçün verdi Əhməd bəzirgana. Əhməd bəzirgan söz verib dedi:

– Qızım, mənim nə oğlum var, nə də qızım. Səni sınayırdım. Xatircəm ol, gedib Qəribini tapıb, sənə yetirrəm.

Əhməd bəzirgan sözünü tamam eləyib, yola rəvan oldu.

İndi sənə deyim Qəribdən. Qərib bir müddət Hələb şəhərində qəhvəxanada çalıb oxudu. Qəribin ustadlığı hər tərəfə yayılmışdı.

Hələb paşası eşitdi ki, Qərib adında birisi Hələbə gəlib, bütün aşıqları bağlıyıb. Əmr verib, haman saat onu hüzuruna istədi. Adamlar gəlib Qəribi axtarmaqda olsunlar, bu tərəfdən də Əhməd bəzirgan gəlib çıxdı Hələbə, girdi qəhvəçiyə, camı şərbətnən doldurdu, Sənəm verdiyi üzüyü də camın içinə salıb dedi:

– Kimdi burada Qərib, qalxsın ayağa, bu camı alıb içsin.

Heç kim yerindən qalxmadı. Bu vaxt Qərib əlində saz içəri girdi. Əhməd bəzirgan bir də təkrar elədikdə Qərib alıb camı, çəkdi başına. Gördü Şahsənəmin üzüyü camın içindədi. Üzüyü alıb öpüb gözünün üstə qoyandan sonra ürəyi dəmirçi kürəsi kimi od tutub, alışıb yandı. Sazını sinəsinə basıb, görək Əhməd bəzirgandan nə soruşdu, Əhməd ona nə cavab verdi.

Aldı Qərib:

Başına döndüyüm, bəzirgan xoca,[17]
Canım xacə, necə gördün Sənəmi?
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Canım xacə, necə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Haqq sənə göndərsin Xıdır İlyası,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.
Vardı sənə Şahsənəmin duası,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.

Aldı Qərib:

Mən gələndə dərilmədi gülləri,
Mənə qismət oldu Hələb çölləri,
Söylənirmi Şahsənəmin sözləri?
Canım xacə, necə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Yaxın dostlar səni sorub ararlar,
Uçan quşdan səni, Qərib, sorarlar,
Anan, bacın geyinibdi qaralar,
Qaralar içində gördüm Sənəmi.

Aldı Qərib:

Bizim ellər bahar idi, yaz idi,
Göllərində ördək idi, qaz idi,
Xan Sənəmim gəlin idi, qız idi?
Qərib deyir: necə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Mən gələndə sizin ellər yaz idi,
Göllərdəki ördək idi, qaz idi,
Şahsənəmin gəlin deyil, qız idi,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.

Söz tamam oldu. Qərib dedi:

– Əhməd bəzirgan, hazırlaş, gedək.

Bu vaxt Hələb paşasının adamları girib içəri, Qəribi tutub apardılar paşanın yanına. Əhməd bəzirgan da düşdü bunların dalınca. Gəlib çıxdılar paşanın hüzuruna.

Aldı Qərib paşaya nə dedi:

Paşam, mərhəmət et mənim halıma,
Gəlsin deyib, ismarlamış yar məni.
Elə insaf, mürvət mənim halıma,
Gəlsin deyib, ismarlamış yar məni.

Genə bahar oldu, durna düzüldü,
İndi Şahsənəmin bağrı üzüldü,
Şahsənəmdən bizə məktub yazıldı,
Gəlsin deyib, ismarlamış yar məni.

Aşıq Qərib deyir dərdini dildən,
Çarəsini dilər obadan, eldən,
Kömək elə, alım yarımı əldən,
Gəlsin deyib, ismarlamış yar məni.

Paşa dedi:

– Ey Qərib, de görüm sən kimsən, nəçisən?

Qərib dedi:

– İzn ver, deyim.

Aldı Qərib:

Ayrıldım elimdən, çıxdım qürbətə,[18]
Ağlaram, sızlaram, kimsəm yox mənim.
Qərib deyə düşdüm dildən-dillərə,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Gənc yaşımda tərk eylədim vətənim,
Qürbət ellər olub mənim məskənim,
Gözü yolda ağlar qaldı Sənəmim,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Aşıq Qərib yanıq-yanıq söyləsin,
Enib eşqin dəryasına boylansın,
Haqq səni dünyada namdar eyləsin,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Söz tamam oldu, Hələb paşası dedi:

– Mən bilirəm sən qəribsən, bu ölkədə kimsən yoxdu. Ancaq deyirlər ki, sən çox zor aşıqsan. Əgər bizim aşıqnan döş-döşə gəlib, onu bağlıya bilsən, səni azad edərəm. Yox, bağlıya bilməsən, boynunu vurduracağam.

Qərib razılıq verdikdən sonra paşa məclis qurdu. Haman məclisə Hələb şəhərinin möhtərəm adamlarından bir neçəsi çağırıldı. Paşanın aşığı da haman məclisə gəldi. Aşıq dedi:

– Qərib, sən başlayırsan, yoxsa mən?

Qərib dedi:

– Bizlərdə qaydadı, meydanda yolu əvvəlcə düşmənə verərik. Sən de, mən də sənin ardınca gəlim.

Qərib belə deyəndə paşanın aşığı alıb, görək Qəribə nə dedi:

Aşıq dedi:

Utanmadın gəlib girdin meydana?
Bu meydanda ərkan olu, yol olu.
İndi o dünyanı göstərrəm sana,
Bu meydanda qovğa olu, zor olu.

Aldı Qərib:

Gəl mənimlə sən heç girmə meydana,
Mənəm deyən, mənəm kimi qurd olu.
Ustad isən, gəl incitmə özünü,
Bu meydandan qurtaranlar mərd olu.

Aldı aşıq:

Zikr eləyib, mən də gəlmişəm cuşa,
Mat qalarsan bugünkü tər savaşa,
Bir od vurram, ayaqların tutuşa,
Onda sənin yəqin dilin lal olu.

Aldı Qərib:

Kamil usta, oturgilən yerinə,
Loğalanıb düşmə aşıq girinə,
Bir aşıq ki, xor baxarsa birinə,
O da qorxmaz ondan, daha sərt olu.

Aldı aşıq:

Ərənlər əlindən badə içdinmi?
Bulanlıq çayları axıb keçdinmi?
Bu meydana girib, sərdən keçdinmi?
Aşıqlıqda başqa-başqa hal olu.

Aldı Qərib:

Mən Qəribəm, çıxmamışam yolumdan,
Bəd kəlam çıxmayıb əsla dilimdən,
Pələng olsan, qurtarmazsan əlimdən,
Bu rüsvaylıq sənə böyük dərd olu.

Hərbə-zorbanı qurtardılar. Dedilər:
– İndi də Qərib desin, aşıq cavab versin.
Qərib sazı döşünə mindirib dedi:

Dinləyin, ustalar, xəbər sorayım,
Bu aşıqlıq kimdən icad olubdu?
Başınıza olmaz işlər açayım,
O kimdi ki, qəmdən azad olubdu?

Aşığın başı taqqıldadı, gözlərini yerə dikdi, cavab verə bilmədi. Qərib aldı gerisini, dedi:

Usta, bilmirsən elmin başını,
Nə ilə kəsdilər qəndil daşını,
Əvvəl kimdi özü kəsdi başını?
Bunu bilən aşıq ustad olubdu.

Bu Qərib söylədi sizə sualı,
Qüdrəti-yəzdanla buldu kamalı,
Gürzinən qılıncın nədi əzəli?
Gör ki, dünya necə abad olubdu?

Daşdan səs çıxdı, aşıqdan səs çıxmadı. Qərib dedi:
– Könlün sınmasın, qoy cavabını da verim.
Aldı Aşıq Qərib:

Ay ustalar, alın verim cavabı,
Aşıqlıq Adəmdən icad olubdu.
Dinləyin sözümü bir-bir, həzərat,
O Adəmdi qəmdən azad olubdu.

Elmin başı budu: eyləmək səbir,
Qəndil daşı kəsən ol ismi Qəfur,
Öz başını kəsən göydə buluddur,
Cəbrayıl hər elmə ustad olubdu.

Yenə Aşıq Qərib açdı sualı,
Eşq dəryasını içib, buldu kamalı,
Aləm fazillərdən olmayıb xalı,
Dünya kamal ilə abad olubdu.

Qəribin sözü aşığı bərk tutdu, dodaq dodaqdan qımıldanmadı. Adamlar yerbəyerdən dedilər:
– Afərin, Aşıq Qərib, həqiqətən də haqq aşığısan, halal olsun sənə!
Paşa dedi:
– Aşıq, Təbrizin başına gələn əhvalatı deyərsənmi?
Aşıq Qərib aldı, görək nə dedi:

Dinləyin, ağalar, tərif edəyim,
Yaman müşkül oldu işi Təbrizin.
Bir də gördüm göydən atəşlər yağır,
Yandı dağıyınan daşı Təbrizin.

Təbrizin çövrəsi bir mətin qala,
Atəş yağır idi dağa, həm yola,
Kimisi əsir oldu, kimisi kölə,
Daş üstə qalmadı daşı Təbrizin.

Aşıq Qərib çəkdi zarıla ahı,
Öylə cəng olmamış dünyada dahı,
Vanın bəyi ilə Gilanın şahı,
Qoymadı daş üstə daşı Təbrizin.

Afərin səsləri asimana bülənd oldu. Paşa Qəribdəki fərasətə, kamala, onun bülbül kimi cəh-cəh vuran səsinə heyran olub dedi:

– Qərib, mən səni burda saxlayacağam, buraxmayacağam. Gəl, qal mənim yanımda. Ye, iç, gəz, kefini çək.

Paşa belə deyəndə Qərib sazını alıb, yanıqlı-yanıqlı paşaya görək nə cür cavab verdi:

Sevdiyimdən namə gəldi,
İzin ver, paşa, mən gedim.
Ağlar qalıbdı sevdiyim,
İzin ver, paşa, mən gedim.

Qürbət qəhri, gözüm nəmi,
Artıbdı könlümün qəmi,
Anam, bacım gözlər hamı,
İzin ver, paşa, mən gedim.

Qərib keçib öz canından,
Ayrı düşüb cananından,
Yeddi ildi gəzir giryan,
İzin ver, paşa, mən gedim.

Söz tamam oldu. Paşa xəbər aldı:

– Qərib, mən bir şey başa düşmədim. Açıq de görək nə demək istəyirsən? Mənim yanımda qalsan sənin günün xoş keçməzmi?

Qərib dedi:

– Paşa, mənim dərdim başqadı.

Qərib başına gələn əhvalatı əvvəldən axıra kimi paşaya nağıl elədi. Paşa işi belə görən kimi əmr verdi ki, Qəribə qırx kisə qızıl versinlər.

Qərib qırx kisə qızılı alıb heybəsinə qoyduqdan sonra getmək istəyəndə gördü çöldə elə bir tufandı ki, göz-gözü görmür. Yer, göy qardan ağ paltar geyibdi. Alıb sazını, görək nə dedi:

Vardı şikayətim fələk əlindən,
Fələyə mən düşmən oldum, ağlaram!
Qorxum budu, həsrət qalam yarıma,
Fələyə mən düşmən oldum, ağlaram!

Bizim ellər dağdı, daşdı, virandı,
Qadir mövlam hər mətləbi verəndi,
Bayırda qar, çovğun, dolu, borandı,
Vətənimdən ayrı düşdüm, ağlaram!

İyid odu öz sirrini gizləyə,
Ciyərini kabab edib, közləyə,
Rəvamıdı Qərib burda gözləyə,
Fələk ilə düşmən oldum, ağlaram!

Söz tamam oldu, paşa gördü ki, bayırda elə çovğundu ki, Qəribə getmək mümkün olmayacaq, dedi:

– Qərib, gəl getmə. Bu yollarda tələf olarsan.

Qərib başladı ağlamağa, paşa Qəribin ağlamağını görüb, ürəyi yandı, əmr verdi ki, Qəribə at versinlər. Həmin saat paşanın adamları Qəribə bir yaxşı at verib yola saldılar.

Qərib bəzirganla, paşa ilə xudahafizləşib, Tiflisə sarı gəlməkdə oldu. Bir müddət yol gəldikdən sonra bir çəmənlikdə oturdu.

Bir tərəfdən öz vətənindən ayrılması, o biri tərəfdən sevgilisi Şahsənəmdən ayrılması, özünün çölü-bərribiyaban içərisində qalmasını yadına salıb sazını sinəsinə basdı, öz halına münasib görək nə dedi:

Qadir mövla, budu səndən diləyim,
Fələk məni daşa saldı, ağlaram!
İndi bildim muradıma çatmadım,
Fələk mənim canım aldı, ağlaram!

Əcəl gəldi, başım üstə dayandı,
Şirin canım eşqin oduna yandı,
İndi bildim, fələk mənə düşmandı,
Fələk mənim canım aldı, ağlaram!

Mən harada qaldım, vətən harada,
Qurban olum Sənəm təkin yara da,
Kim Qəribi dəfn eyləyər burada?
Fələk mənim canım aldı, ağlaram!

Söz tamam oldu, onun səsini eşidib harayına gələn olmadı. Çovğundan onun atı da öldü. Aldı Qərib, görək nə dedi:

Sidqinən çağırram, şahların xası,
Qəribəm, vətənə sən yetir məni.
Ya xatəmənbiya ümbət ağası,
Qəribəm, vətənə sən yetir məni.

Bir yanım dağ almış, bir yanım duman,
Qalmışam piyada, halım çox yaman.
Yet imdada, ey Xızr, əlaman!
Qəribəm, vətənə sən yetir məni.

Qəribəm, söylərəm ağdan, qaradan,
Məni haqq qurtara yaman bəladan,
On səkkiz min aləmi, ay Yaradan,
Qəribəm, vətənə sən yetir məni.

Söz tamam olan kimi bir ağ atlı bunun yanına gəldi, salam verdikdən sonra dedi:

– Gəl, min tərkimə.

Qərib bu ağ atlının tərkinə mindi. Ağ atlı dedi:

– Ey cavan, yum gözlərini.

Qərib gözlərini yumdu. Bir dəqiqə keçməmişdi ki, atlı səsləndi:

– Aç gözlərini.

Qərib gözlərini açanda gördü Ərzurumdadı. Qərib o tərəf-bu tərəfə baxanda gördü atlı yoxdu. Yenə yola düşdü. Bir qədər getmişdi ki, həmin atlı yenə onun qabağına çıxdı, dedi:

– Oğlan, bəs indi hara gedirsən?

Qərib dedi:

– Qurbanın olum, sənə səhv demişəm, Qarsa gedəcəyəm.

Atlı dedi:

– Niyə yalan deyirsən? Min tərkimə, gözlərini yum. Qərib onun tərkinə minib gözlərini yumdu. Atlı dedi:

– Aç gözlərini.

Qərib gözlərini açıb, gördü Qarsdadı, atlı da yoxdu, qərib Tiflisə tərəf getməyə başladı. Bir qədər getmişdi ki, atlı yenə onun qabağına çıxıb dedi:

– Niyə yalan danışırsan? Sən başqa yerə gedəcəksən.

Qərib xəcalət çəkə-çəkə dedi:

– Sənə fəda olum, ağa, insan tezdən yalan danışdı, gərək axşama qədər danışsın, tərgidə bilməz. Mən Tiflisə gedəcəyəm.

Atlı dedi:

Elə isə min tərkimə, yum gözünü.

Qərib onun tərkinə minib gözlərini yumdu.

Atlı dedi:

– Aç gözlərini.

Qərib gözlərini açıb, gördü Tiflisdədi. Atlının atının boynunu qucaqlayıb dedi:

– Sənə fəda olum, mən desəm bu tezlikdə Hələbdən buraya gəlmişəm, heç kəs inanmaz. Bəs mən onları necə inandırım?

Atlı dedi:

– Atımın ayağının altından bir ovuc torpaq götürüb, sürt ananın gözlərinə, sağalsın, onda hamı inanar.

Qərib onun atının ayağının altından bir ovuc torpaq götürüb qəddini düzəldəndə gördü atlı qeyb olub. Bildi ki, bu, ərənlərdən imiş.

Qərib bir qədər gedəndən sonra sevgilisi Şahsənəmin qəsrini gördü. Ürəyi qubar elədi. Sazı döşünə basıb dedi:

Min qovğalar çəkdi başım
Axır çatdım sənə, Tiflis!
Baxım sənə qoy doyunca,
Axır gəldim sənə, Tiflis!

Siyah saçları darandı,
Canım həsrətində yandı,
Sənəmin qəsri göründü,
Axır gəldim sənə, Tiflis!

Aşıq Qərib gəldi elə,
Gəzir bağı gülə-gülə,
Gəldiyimi yara söylə,
Şükür, gəldim sənə, Tiflis!

Söz tamama yetdi. Qərib Tiflis şəhərinə daxil olub, bir bulağın başına gəldi. Gördü bülbüllər cəh-cəh vurur, o tərəf-bu tərəfə ötür, gülə razi-niyaz eləyirlər. Qərib aldı, görək nə dedi:

Bülbül, cəh-cəh vurub bağça-bağlarda,
Qərib-qərib ötmə, könül şən deyil.
Bəlkə sevgin səni arar yuvada,
Qərib-qərib ötmə, könül şən deyil.

Bülbül ötüşəndə bahar, yaz gəlir,
Bu gülşəndə səfa mənə az gəlir,
Qorxuram ki, canan məndən vaz gəlir,
Qərib-qərib ötmə, könül şən deyil.

Mənə Hələb oldu bir ağır zindan,
Gecə-gündüz orda edərdim əfqan.
Düşdüm dildən-dilə, aman əlaman!
Qərib-qərib ötmə, könül şən deyil.

Qərib sözünü tamama yetirdi. Bir də gördü bacısı çiynində sənək bulağa gəldi, özü də başdan ayağa qara geyibdi. Qəribi tanımadı. Qərib ondan soruşdu:

– Nə üçün qara geymisən?

Qız dedi:

– Diyar-qürbətdə bir qardaşım var idi. Ölüm xəbəri gəldi. İndi nişanlısını ərə verirlər, bu gecə xına gecəsidi.

Qərib dedi:

– Qardaşın sağdı, bu gün-sabah gələr. Bu gecə məni qonaq saxlayın.

Bacısı onu götürüb evlərinə gətirdi. Anası narazı oldusa da, qonaq saxladı. Qərib sazını divardan asılı gördü, bacısına dedi:

– O sazı ver, çalım.

Bacısı dedi:

– Yaslı-yaralıyıq, saz çalmaq olmaz.

Qərib dedi:
– Yaslı-yaralı hava çalacağam.
Arvad dodaqaltı qızına qımıldandı ki, bu nə hayasız qonaq imiş, bunu sən haradan gətirdin? Qərib durub, özü saz saldı, döşünə basıb dedi:
Aldı Qərib:

Canım ana, gözüm ana,[19]
Ana, mən Qəribəm, Qərib!
Sənə qurban özüm, ana,
Ana, mən Qəribəm, Qərib!

Qəribin anası onun cavabında dedi:

Xoş gəldin, səfa gətirdin,
Oğlum Qərib, haçan gəldin?
Məni odlara yandırdın,
Oğlum Qərib, haçan gəldin?

Aldı Qərib:

Sinəmə döyərəm daşı,
Gözümdən tökərəm yaşı,
Görmürəm Heydər qardaşı?
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Atdılar atın çapardı,
Sınıq könüllər yapardı,
Heydəri Tona apardı,
Oğlum Qərib, haçan gəldin?

Aldı Qərib:

Hacılar eylərdi hacı,
Yoxdur dərdimin əlacı,
Sən Nərgiz də mənə bacı,
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Banunun ürəyin deşdin,
Boynuna xələtin biçdin,
Harda idin, gəldin çıxdın,
Oğlum Qərib, haçan gəldin?

Söz tamama yetdi, anası, bacısı Qəribnən qucaqlaşıb, öpüşüb görüşəndən sonra Qərib xəbər aldı:

– Ana, mənə Şahsənəmdən bir xəbər?

Anası dedi:

– Oğul, bu gün Şahsənəmin toyudu.

Bunu eşidəndə Qərib dayana bilmədi. Dəli Mahmudun yanına gəldi, onu da götürüb, Şahvələdin toy məclisinə getdi.

Şahsənəm diqqətlə Qəribə baxırdı. Bu zaman Qəribin anası, bacısı onun yanına gəldilər. Şahsənəm aldı, görək Qəribin anasına nə dedi:

Başına döndüyüm, gülüzlü ana,
Ölməyəydi kaş ki, balan gələydi.
Oduna yandığım, ay aman, ana,
Ölməyəydi kaş ki, balan gələydi.

Lülə-lülə zəhərləri içərəm,
Xəncər alıb, qara bağrım biçərəm,
Tezlik ilə bu dünyadan köçərəm,
Ölməyəydi kaş ki, balan gələydi.

Şahsənəməm, qələm tuta qaşımı,
Seyrəqiblər gəlib silə yaşımı,
Qəbr içində uca edər başımı,
Məzar daşım qoyan Qərib gələydi.

Adamlar aşığı görəndə çox şad oldular. Qərib aşağı başda əyləşdi. Ondan oxumağı xahiş elədilər. Aşıq Qərib sazı döşünə basıb dedi:

Sevincimdən qaldım, o qaşı hilalım, gəl yetiş!
Qalmadı əsla bu təndə taqət halım, gəl yetiş!

Həsrətin bu canə kar etmişdi, ey Mehru, sənin,
Ruyət edər nuri vəchinlə camalın, gəl yetiş!

Atəşi eşqin ilə yandı vücudim sübh-məsa,
Kəndi dəstinlə yetişdir bəndənə ab-səfa,
Varmışam iştə xəyalı eşqin ilə heyrətə.
Müşkül oldu hasili-aləmdə halım, gəl yetiş!

Aşiqin Aşıq Qərib, istər üzün görmək müdam,
Ərzü hüsnünlə onu aləmdə eylə şad-kam,
Lütfü ehsan eyləyib, ağlatma artıq sübhü şam,
Sərv-qəddim, gül-üzarım, ağzı balım, gəl yetiş!

Yerbəyerdən afərin dedilər. Çox adam onu tanıdı. Dedilər:

– Aşıq, sazı yerə qoyma.

Qərib "gözüm üstə" – deyib, sazını sinəsinə basıb, özünü tanış vermək üçün görək nə dedi:

Aldı Qərib:

Dün gecə, dün gecə, Hələb şəhrində[20]
Eşqin badəsini içdim də gəldim.
Yar mənə göndərdi bir əziz namə,
Oxudum qarasın, seçdim də gəldim.

Axşam idi, mən də gəldim xanama,
Sirrimi demişdim bacı, anama,
Eşqin xəncərini vurdum sinəmə,
Dərin yaraları deşdim də gəldim.

Qəribin səsini Şahsənəm o biri otaqdan eşitcək, qızlarnan gəlib, pəncərənin qabağında durdu.

Aldı Qərib:

Hələbdə xəbəri verdilər bizə,
Günorta vaxtında çıxdım mən düzə.
Mədət deyib, gəlib çıxdım Tiflisə,
Mövlam qanad verdi, uçdum da gəldim...

Bir əl vurun, xublar girsin oyuna,
Mən qurbanam qamətinə, boyuna,
Mən Qəribəm, Şahsənəmin toyuna,
Başımdan, canımdan keçdim də gəldim.

Dedilər:

– Yalan deyirsən, Hələbdən Tiflisə bir günə gəlmək olarmı?

Qərib anasını yanına gətirdib dedi:

– Sübutum var. Məni gətirən ağam Xızrın atının ayağının altından bir ovuc torpaq götürmüşəm. İndi anamın gözünü açacağam.

Torpağı anasının gözünə çəkdi, gözləri açıldı, sappasağ oldu. Hamı Qəribin haqq aşığı olduğunu təsdiq elədi. Şahvələd qılıncı sivirib Qəribin üstünə hücum elədi. Dəli Mahmud onun biləyindən tutub dedi:

– Qəribə toxunsan, səni parça-parça eləyəcəyəm.

Şahvələd Qəribdən əl çəkib, Güloğlana dedi:

– Ədə, sən bu Qəribi öldürməmişdin?

Güloğlan qorxusundan girdi siçan deşiyinə. Şahvələd yenə də qılıncını çəkib, Qəribi vurmaq istəyəndə Dəli Mahmud Şahvələdin qollarını tutub, xəncərini dayadı ürəyinə. İşi belə görəndə Şahvələd dedi:

– Qərib, Şahsənəmi verdim sənə.

Camaat yerbəyerdən bu sözü alqışlayıb, Qəribin bacısının kəbinini Şahvələdə, Şahsənəmin də kəbinini Qəribə kəsdirib, təzədən toy başladılar.

Qərib Şahsənəmin gözəlliyinə nəzər saldı, aldı, görək nə dedi:

Hüsnün afitabdan alıbdı nuru,
Zülfi-sifahın tək heç niqab olmaz.
İftadəyə, bu gülzari-cahanda
Hüsnün kimi şəmsi-afitab olmaz.

Əzəldən mən qönçə gülün dərmişəm,
Yusif-Züleyxadan dərsim almışam.
Mən fələkin ayinəsin görmüşəm,
Yerdə hüsnün kimi mahitab olmaz.

Mən Qəribəm, artar ah ilə zarım,
Məhəbbət dərdinə həm giriftarım,

Tək sən ölmə, mənim gülüzlü yarım,
Kim deyər ki, qəriblərdə tab olmaz.

Bu zaman Ağcaqız gəlib çıxdı. Aldı, görək Qəribə nə dedi:

Qurbanın olayım, aman, ay Qərib,
Yar sənin gəldiyin indi anladı.
Siyahı çıxardıb, geydi alları,
Yar sənin gəldiyin indi anladı.

Ölüm xəbərini ona gətdilər,
Ciyərciyin deşik-deşik deşdilər.
Toy yerinə yas libası bişdilər,
Yar sənin gəldiyin indi anladı.

Ananı, bacını sən qoydun, getdin,
Tiflis şəhərini unutdun, getdin,
Axır Şahsənəmi çox-çox şad etdin,
Yar sənin gəldiyin indi anladı.

Başıma olmuşdu zindan qonağı,
Atmaz idi heç tərəfə ayağı,
Hazır idi onda zəhər çanağı,
Yar sənin gəldiyin indi anladı.

Ağcaqız sözünü qurtarıb, hər ikisinin üzündən öpdü. Şahsənəm gəlin otağına girdi. Qərib bəylik paltarını geyinib, Sənəmin yanına gəldi. Şahsənəm istədi durub sarmaşa Qəribin boynuna, Qərib dedi:

– Mənə yaxın gəlmə, sənə Şahvələdin əli dəyib.

Qərib belə deyəndə Şahsənəm gözünün yaşını axıda-axıda saçlarından bir tel ayırıb, görək Qəribə nə dedi.

Aldı Şahsənəm:

Canım sənə qurban qaragöz Qərib.
Bir rahat olmadım, yar, sən gedəli.
Əynimə geymişəm yas libasını,
Geyib şadlanmadım, yar, sən gedəli.

Evimizin dalı xırda təpələr,
Orda yağış yağsa, burda səpələr,
Mücürümdə durur almaz küpələr,
Taxıb sallanmadım, yar, sən gedəli.

Qışlar gəldi keçdi, yazlar açıldı,
Körpə quzu anasından seçildi,
Yeddi ildə on dörd bayram keçildi,
Gəzib dolanmadım, yar, sən gedəli.

Söz tamam oldu. Şahsənəm başladı ağlamağa. Qərib Şahsənəmi belə ağlar görəndə alıb sazın, görək onun ürəyin necə ələ aldı:

Dön bəri, dön bəri, bir üzün görüm,[21]
Çoxdandı ayrıldım səndən, ax, Sənəm!
Bir-bir libasların tərif eyləyim,
Sən də geyin, qurşan görüm, qalx, Sənəm!

Mən görmədim sənin kimi gözəli,
Payız olacaq bağlar tökər xəzəli,
Dilin şəkər, dodağındır məzəli,
Gözüm nuri, dur, aynaya bax, Sənəm!

Dillərdə dastandır Tiflis alması,
Min tümənə dəyər saçın hörməsi,
Yar, sənə gətirdim Hələb xınası,
Ağ ələ yaraşır, al bir yax, Sənəm!

Yüz minlərlə dəyər üzün yaşmağı,
İncə belə bağla qırıl qurşağı,
Ayağa geyibsən zərli başmağı,
Qərib deyir: dur aynaya bax, Sənəm!

Söz tamam oldu. Barışıb öpüşdülər. Yenidən Qərib toy eləyib, hər iki həsrətli bir-birlərinə çatıb, murad hasil elədilər.

Ustad sazı döşünə basıb, bu duvaqqapma ilə onun toyunu bağladı:

İstəyirəm ol xudadan,
Sən olasan yarım, gəlin!
Yolunda peşkəş eylərəm,
Küllü dövlət, varım, gəlin!
Apardın dinü imanım,
Səbr ilə qərarım, gəlin!
Eylədin Məcnun məni,
Yoxdur namus, arım, gəlin!
Gəzdirdin divanə kimi,
Üzdün ixtiyarım, gəlin!
İxtiyarımı üzürsən,
Üzünə tel düzürsən,
İşvə, nazla gəzirsən,
Sən əzrail donunda
Can almağa hazırsan
Canımı alasan,
Başa salasan,
Bir gəl yola sən,
Göyçək balasan,
Of, nə olar, ilahidən,
Sən mənim olasan.
Həmişə sənlə keçə
Xoşca ruzigarım, gəlin!

Dilbərim sənsən mənim,
Ay taza növrəstə gülüm!
Qabaqda tellər durur,
Dəstəbə həm dəstə, gülüm!
Hicranı çox çəkibən,
Mən düşmüşəm xəstə, gülüm!
Al yanaqdan bir busə
Şəfqət elə dosta, gülüm!
Of, səni qucaqlayıb,
Basım bağrım üstə, gülüm!

Qucaqlayım, belin, yar!
Sığallayım telin, yar!
Sal boynuma qolun, yar!
Ver əlimə əlin, yar!
Aman, məni öldürür,
Bu şirincə dilin, yar!
Həmişə sənlə keçə,
Xoşca ruzigarım, gəlin!

Ruzigar sənlə keçə,
Ey cahü cəlallı bala!
Qaməti şümşad kimi,
O sərv tək dallı bala!
Dil nabat, ağız şəkər,
Dodaqları ballı bala!
Gah gülür, gah oynayır,
Bu tərlan xəyallı bala!
Geyinib al-qırmızı,
Həm özü sığallı bala!
Sığallıdır boy-buxun,
Ağrın alım, gəl yaxın,
Qoy doyunca bir baxım,
Evini yıxdın çoxun,
Sinəmi qoydun nişana,
Bağırdan keçdi oxun,
And içim, inangılan
Sözümə, dilbərim, gəlin!

Oxun candadır,
Qəsdin qandadır,
Fikrin yandadır,
Dərdin məndədir,
Gözüm səndədir,
Dilin bülbüllü,
Saçın sünbüllü,

Yanağın güllü,
Nə incə belli,
        Bircə rəhm etginən
        Aşığın öldü.
Öldürmə mən yazığı,
Ey şahü sərdarım, gəlin!

Öldürüb mən yazığı,
Olma bais qanə, gözəl!
Oynadıb qaş-gözünü,
Od salırsan canə, gözəl!
Alışıb piltə kimi,
Qaldım yana-yana, gözəl!
Bir busə elə zəkat
Mən qərib mehmanə, gözəl!
        Mehmanınam, ey nigar,
        Gəl yanıma aşikar;
        Vermə mənə intizar,
        Öldüm, olma bixəbər,
        Möhkəm yapış qolumdan,
        Çıxdı canım, aman, yar!
        Yarım, amandı!
        Halım yamandı,
        İşim ummandı,
        Qəddim kamandı,
        O narınc məmələrin
        Dərdə dərmandı,
Ağzıma yetir görüm,
Qoyurmu azarım, gəlin?!

Düşmüşəm azarına,
Dünya mənə dardı, əziz!
Xəstəyə dərman olan
Məmələrin nardı, əziz!
Sərbəsər var əndamın,
Taza yağan qardı, əziz!

Gürcüstan vilayətin,
Həm mahalın Çardı, əziz!
Kəndini soran olsa,
Ol Qımır-Bazardı, əziz!

Qımır-Bazar ölkəli,
Ağrın alım, gəl bəri!
Etdin məni sərsəri,
Hurisənmi, ya pəri?
Dürüst adın Əminədir,
Yoldaşın imiş Pəri.
Əminə adına qurban,
Əsən badına qurban,
Yandım oduna, qurban,
Şirin dadına qurban.
Hərdəm Molla Cumanı,
Sal bir yadına, qurban!

Sevmişəm, gecə-gündüz
Dilimdə əzbərim, gəlin!

# Әмгаh

## USTADNAMƏ

Səhər tezdən əzmi-gülşən elədim,
Qəm məni çulğadı, ay hayıf-hayıf!

Aşıq deyər ay hayıf,
Kimlər oldu ay hayıf,
Sən ilə mən sevişdim,
Ayrı düşdüm, ay hayıf!

Bağban oldum, bağ bəslədim çifayda,
Dərmədim gülünü, ay hayıf-hayıf!

* * *

Sərrafın dəstində nə danə gördüm,
Mürğün dəhanında nə danə gördüm,

Aşıq nə danə gördüm,
Xalın nə danə gördüm,
Tülək tərlan qismət oldu
Axır nadanə gördüm.

Ləli tapşırdılar nadanə gördüm,
Qiymətin bilmədi, ay hayıf-hayıf!

* * *

Oxudum dərsimi, çıxdım yasinə,
İyid olan ixlas bağlar yasına.

Aşıq deyər yasinə,
Rəqib, gərdan, ya sinə,
İşim nə hədyan deyəm,
Səhv anlaya, ya sına.

Xəstə Qasım ölüb gedir ya sina,
Eşidənlər deyər, ay hayıf-hayıf!

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək, iki olsun.

Dəhri-fənada belə insan hanı?
Qılmaya fani onu dövran, hanı?
Ey bivəfa dünya, sən nə zalımsan?!
Bu qayətdə sana gələn can hanı?

Əvvəl sana gəldi Adəmü Həvva,
Beş gün qonaq oldu səndə binəva,
Öldürdün Habili, saldın bir dəva,
Düşdü arasına nahaq qan, hanı?

Neçə padşahlar gəldi sahib-cəng,
Cəmşidi-cəm, Nuşirəvanü Huşəng,
Daqyanus, Hülaku, Çingiz, Teymurləng,
Onlardan bircəsi bu zaman hanı?

Neçə həkim gəldi təbibi zaman,
Ərəstu, Əflatun, Fərəzdəq, Xaqan,
İstədi dirildə özünü Loğman,
Qaldı kuzəsi də yarımcan, hanı?

Dünya, səndə aşıq Səməd var idi,
Nəzmü şeri ləlü gövhərbar idi,
Bir gözəl eşqinə giriftar idi,
Onun kimi bəs bəhri-ümman hanı?

Bu dünyada heç də gəzməmişdi xəm,
Aşıq Əli oğlu Aşıq Məhərrəm,
Həsrətin çəkərdi Rum, həm Əcəm,
Əlində tütəkü balaban hanı?

Tamam yola gedər heyif gözəllər,
Sərdə müşkü ənbər qoxuyan tellər,
Murad üstə neçə xınalı əllər
Torpağa döndülər vay, aman, hanı?

O ala gözlərə, o gül yanağa,
O nazik əndama, o tər buxağa,
Necə qıyıb döndərirsən torpağa?
Nazənin-nazənin incə can hanı?

Hafizü, Nəvai, Füzuli, Cami,
Şeyx Sədi, Hilali, Ürfi, Nizami,
Dünya, səndə gəşt eyləyib tamami,
Firdovsi tək nəzmi dürr-əfşan hanı?

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dür-əfşan,
İndi eyləmisən xaklə yeksan,
Tapmaq olmaz o kamalda can, hanı?

Müşkül işdi bir də dolana dövran,
Növbət mənə yetə, aman, əlaman!..
Bir gün ola, görən, bilən, tanıyan
Deyələr Valehi-natəvan hanı?

Ustadlar ustadnaməni üç deyər, biz də deyək üç olsun.

Adam var ki, bu dünyada
Yaranıbdı saylara,
Rüsvaylığın hardan hara
Söylənir insanlara.
El özündən danışanda,
Özü şad olub gülər.
Bilməz heç qanmazlığı,
Düşübdü insanlara
Kamal deyər əsil adam
Yaramaz iş eləməz,
Zülmlə yığılan malı
Yeyənlər nuş eləməz.
Bədəsillər əl uzadıb
Kimsəyə xoş eləməz.
Hamı deyir ayıb olsun
Duz-çörək basanlara!

Ustadlar belə nağıl edirlər ki, Əhməd adlı, ayı, günü keçmiş bir qoca vardı. Əhmədin Əmrah adlı bir qəşəng oğlundan başqa övladı yox idi. Əhməd uşaqlıqdan Əmrahı öz əmisi qızı Səlminaza ad eləmişdi. Əmrah həddi-buluğa çatmışdı. Günlərin bir günü Əmrah gecə yatmışdı; yuxuda onun yanına bir ərəb gəlib dedi:

– Oğul, Əmrah, qalx bu badəni iç.

Əmrah qalxdı, badəni alıb içdi, o saat ürəyi alovlandı, dedi:

– Ağa, yandım, mənə əlac!

Ərəb dedi:

– Oğul, qorxma, Sayat pərini sənə, səni də Sayat pəriyə buta verdim. Onu sənə göstərirəm, səni də ona göstərmişəm. Gedərsən, çox cəfa çəkərsən, axırda yarına yetişərsən, murada çatarsan. Oğul, Əmrah, bax gör o gələn kimdi?

Əmrah o yana-bu yana baxıb, ərəbi görmədi. O saat bihuş olub, yerə yıxıldı. Sabah açıldı. Fala baxan, baxt açan, yara sarıyan, küp darayan, əfsun açan, ilan tutan – hamı töküldü gəldi. Hərəsi bir yana yozdu. Axırda bir qoca kişi gəlib çıxdı, Əmraha baxıb, gördü sifəti allanıb. Yanaqları qıpqırmızı qızarıb. Qoca dedi:

– Oğlanın başından dağılın. Ağasından cam içib, beytəmiz adam burada qalmasın, ağzı əyilər, gözü çıxar. Yeddi gün keçər, səkkizinci gün oğlan özü ayılıb qalxar, dərdini söyləyər. Oğlan ayılanda gərək gözəl qızlar, gəlinlər çalıb oynasın; yoxsa oğlan dəli olub, dağlara düşər.

Əhməd xoca dedi:

– Məni istəyən bu qocaya xələt!

Qocaya çoxlu xələt verdilər; qoca çıxıb getdi; səkkizinci gün Əmrah asqırıb qalxdı. Yanında qız, gəlin, toy, büsat gördü. Baxdı, öz yarını görmədi, gözlərini yaşla doldurub dedi:

– Məni öz yarıma yetirin!

Əmi qızı Səlminaz onun yanına gəldi. Əmrah dedi:

– Mənə ağam Sayat pəri adlı bir qızı buta verib!

Əmrahın bu sözündən əmisi qızı Səlminaz küsdü, ona Əmrah dedi:

– Əmisi qızı, könül qırmaq axı yaxşı şey deyil.

Əmrah saz istədi, ona bir saz gətirdilər. Əmrah sazı sinəsinə basıb, görək əmisi qızı Səlminazın könlünü necə almaq istəyir:

Başına döndüyüm, xan əmim qızı,
Söylə, Səlminazım, nədən küsmüsən?

Sənə qurban şirin can, əmim qızı,
Söylə, Səlminazım, nədən küsmüsən?

Aldı Səlminaz:

Başına döndüyüm, xan əmim oğlu,
Özüm ürəyimdə küsmüşəm səndən.
Eşidib bu sözü qan, əmim oğlu,
Özüm ürəyimdə küsmüşəm səndən.

Aldı Əmrah:

Sevən sevgisindən küsmək ayıbdı,
Kirpiklərin ürəyimi oyubdu;
Yəqin yadlar sənə böhtan deyilibdi,
Söylə, Səlminazım, nədən küsmüsən?

Aldı Səlminaz:

Qeyrətin var, namusun var, arın var,
Hər yanında neçə bağça-barın var;
Söyləyirlər, özgə yerdə yarın var;
Bu sözü eşidib küsmüşəm səndən.

Aldı Əmrah:

Almışam dərsimi, qaranı gördüm?
Qoynunda bəslədim, haranı gördüm?
Əmrahın göysündə yaranı gördüm,
Söylə, Səlminazım, nədən küsmüsən?

Aldı Səlminaz:

Səlmi, qəddin görən gedir, öylənir,
Yar ucundan bağrım başı tellənir;
Qızlar arasında nələr söylənir;
Özüm ürəyimdə küsmüşəm səndən.

Əmrah dillə də ona buta verildiyini Səlminaza söylədi. Səlminaz çox kefsiz oldu. Əmrah anasının da yanına gəldi; anası ilə, Səlminazla görüşdü, halal-hümmət elədi. Axırda atasının yanına gəldi. Nə qədər yalvardılar, yapışdılar, "sənin sevgilin var, onu atıb, hara gedirsən?" Nə qədər dedilər, çarə olmadı, Əmrah gedəsi oldu. Atası onu təkbaşına buraxmadı. Özü də onunla bərabər yola düşdü. Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, axırda osmanlı torpağına çıxdılar. Ata, oğul bir su arxının kənarında oturdular. Bərk yorulmuşdular. Əmrah dözə bilməyib yatdı. Əhməd isə arxın qırağında tək oturmuşdu. Bir də gördü su ilə bir alma gəlir. Əhməd kişi almanı tutub yedi. Gördü biri də gəlir. Onu da tutub yedi. Yenə biri gəlir, onu da tutdu. Əhməd bildi ki, arxın başında alma bağı var. Əmrahı yuxuda qoyub, bir bağa çatdı. Bağın hasarından hər yana boylandı, bağa yol tapa bilmədi. Axırda su gilifindən özünü bağa saldı. Bu bağ kimin olsun, Mahmud paşanın qızı Sayat pərinin. Sayat pəri çoxdan bəri əlləri qoynunda Əmrahın yolunu gözləyirdi. Payız fəsli idi. Bütün bağların meyvəsi sovulmuşdu. Sayat pəri bağda bir alma ağacı, bir də bir badam ağacı saxlamışdı. Xəzəl tökülüb, cılxa alma, badam qalmışdı. Sayat pəri yerə düşən almaları sap ilə budaqlara bağlayıb, Əmraha saxladırdı. Əhməd bağa girib axtardı. Çarhovuzun yanında bu ağacları tapdı. Əzəl alma ağacının başına çıxdı. Almaları bir-bir dərdi, yedi, sonra da dəyib yerə tökdü, yığıb ciblərinə doldurdu. Bunun üstündən də yediyi almanı sinirmək üçün badam ağacına çıxdı. Sayat pəri şaqqıltı eşidib, qarabaşı Ağcaqıza dedi:

– Ay qız, get gör nə şıqqıltıdı, ağacları yoxla.

Ağcaqız gəldi, gördü bir çal qoca badam yeyir. Ağcaqız:

– A kişi, bu ağaca niyə çıxıbsan? – deyəndə Əhməd xoca qaban kimi ona yönəldi.

Ağcaqız yüyürüb xanımın yanına gəldi. Xanım dedi:

– Ay qız, nə var, nə yox, alma, badam salamatdırmı?

Ağcaqız dedi:

– Xanım, qulaq as deyim:

Xanım, bağa bir acıxmış giribdi,
Yeyib qurtarıbdı yar almasını,
Bilmirəm özünü hardan veribdi,
Yeyib qurtarıbdı yar almasını.

Yeyib, yeyib ləzzətindən doyubdu,
Qabığını damağiylə soyubdu;
Köynəyi doldurub yana qoyubdu,
Yeyib qurtarıbdı yar almasını.

Almanı yeyibdi çıxıb badama,
Qaşqa qaban kimi sürür adama;
Ağcaqızam, deyim pərizadama,
Yeyib qurtarıbdı yar almasını.

Sayat pəri bu sözü eşidib, qız dəstəsilə bağa gəldi. Gördü alma, badam nə gəzir? Qoca yeyib qurtarmağa çalışır. Dedi:

– Ay kişi, ağacdan düş!

Əhməd xoca dedi:

– Xanım, düşmərəm.

Sayat pəri dedi:

– Ay qızlar, balta gətirin, ağacı kəsəcəyəm.

Əhməd xoca dedi:

– Ay xanım, kəsmə, qoy düşüm.

Əhməd gördü ağacdan aşağı düşəndə qızlar onu döyəcəklər. Yenə yuxarı dırmandı. Sayat pəri yenə:

– Ay qoca ağacı kəsirəm, düş! – dedi.

Əhməd bu dəfə qorxub, ağacdan düşdü. Qızlar bunu gözləyirdilər. Əhməd xocanı tutub çarhovuza basdılar, o ki var döydülər. Sayat pəri dedi:

– Qoca, düzünü de görüm, sən kimsən, bu almanı, badamı niyə yedin?

Əhməd dedi:

– Xanım, öldürmə, deyim.

Aldı Əhməd, görək nə dedi:

Başına döndüyüm, ay Sayat pəri,
Mürvət qıl canıma alma bağında.
Gördüm bağ salıbsız, yoxdu bağbanı,
Dərdim mən bir neçə alma bağında.

Qışın şiddətindən qar olar dağlar,
Bizi burda görən hərcayı çağlar.
Duyuxu bağbanlar, qan olar bağlar,
Məni qalmaqala salma bağında.

Bir gül açılmaqla bahar, yaz olmaz,
Şamama dərməklə bostan pozulmaz;
Bir Əmrah ölməklə aşıq azalmaz;
Əmrahı intizar qılma bağında.

Sayat pəri dedi:

– Ay qoca, Əmrah kimdi? Düzünü söylə, səni buraxım.

Əhməd dedi:

– Xanım, Əmrah demirəm, həmrah deyirəm. Bizlərdə həmrah yol yoldaşına deyirlər.

Sayat pəri dedi:

– Ay qızlar, bu qoca kaftar yalan deyir, vurun çal köpəyi!

Əhməd dedi:

– Ay xanım, amandı, məni öldürmə, qoy düzünü deyim.

Sayat pəri dedi:

– Qızlar, əlinizi saxlayın, qoyun desin.

Aldı Əhməd xoca, görək nə dedi:

Bu gün, xanım, bir küstahlıq elədik,
Əl atanda tökdü yaprağı – alma;
Hər yana çevirsən günahkarınam,
Əyibən sındırdım budağı – alma.

Qıtmır elə məni qoynun içində,
Qəlbinə tay elə, qoynun içində,
Şamama görünür qoynun içində,
Qoynunda bəzətdin bu tağı – alma.

Xəbər alma gəl sən yaşın Əhmədin,
Nuzula töklübdü dişin Əhmədin,
Kəs sinən üstündə başın Əhmədin,
Qoy qanım götürsün bu bağı – alma.

Sayat pəri dedi:

– Ay qızlar, vurun bu sal köpəyi, bəlkə düzünü deyə.

Əhməd dedi:

– Xanım, öldürmə, bu dəfə düzünü deyəcəyəm.

Sayat pəri dedi:
– Qızlar, əlinizi saxlayın, qoyun desin.
Aldı Əhməd xoca, görək nə dedi:

Canım Əmrah, gözüm Əmrah,
Gəl, yarın bağdadı, bağda;
Sənə qurban özüm, Əmrah,
Gəl, yarın bağdadı, bağda.

Söhbəti-sazınan belə,
Ördəyi-qazınan belə,
Qırx incə qızınan belə,
Gəl, yarın bağdadı, bağda;

Peymanam dolhadoldadı,
Gözəllər sağı-soldadı,
Əhmədin gözü yoldadı,
Gəl, yarın bağdadı, bağda.

Qarabaşlar Əhmədin salıx verdiyi yerə getdilər. Gördülər Əmrah hələ arxın yanında yatır. Qızların səsinə Əmrah ayıldı. Əmrah ayılanda Ağcaqız ona dedi:

– Ay oğlan, bu qızların hansını bəyənirsən, birinin yaxasından tut.

Ağcaqız bunu ondan ötrü deyirdi ki, Əmrah onu sevsin. Ancaq Əmrah Ağcaqızın cavabında sazı sinəsinə basdı. Aldı, görək nə dedi:

Bir bölük pərilər, pərizadalar,
Yenə geyinibsiz ay ağım, qızlar!
Mənə gəlsin o sizdəki qadalar,
Olun qürbət eldə dayağım, qızlar!

Alnıma tökülüb görürsüz, tərim,
Çoxdan yar yolunda mən ki nökərim;
Yenə gəlmədimi o Sayat pərim?
Onunçun açılmaz qabağım, qızlar!

Şana olum, zülfünüzə çatılım,
Saği olum, dəstənizə qatılım;
Əmrah deyər: qul adına satılım,
Çıxsın ölkənizə sorağım, qızlar!

Qızlar Əmrahı götürüb, Sayat pərinin yanına gətirdilər. Sayat pəri Əmrahın pişvazına çıxdı.

Əmrah gördü Sayat pəri ona tərəf gəlir. Sazı sinəsinə basdı, görək nə dedi:

Yarım çıxıb yenə bağda gəzməyə,
Sallanıban yüz min nazılan gəlir.
Bir ayna qabaqlı, mah qələm qaşlı,
Ağ üzə xalları düzülən gəlir.

Bir xalın var heyvadı – gəlməz irəngə.
Bir xalın bərgədi – gedər Firəngə,
Bir xalın aləmi salıbdı ləngə:
Bir xalın söhbəti-sazılan gəlir.

Əmrah deyər: ya rəb, bu necə işdi,
Qəfəsdə oxuyan bir tutuquşu;
Bir xalın payızdı, bir xalın qışdı,
Bir xalın bahardı, yazılan gəlir.

Əmrah gördü ki, Sayat pəri atasını çox döydürüb. Əmrahın bundan könlü sındı, keyfi pozuldu, aldı, görək nə dedi:

Könül, sənə vəsfi-halım söyləyim,
Ya rəb, bu dünyada necolur könlüm?
Hərdən dərviş olur, hərdən dilənir,
Hərdən bəzirgandan xac olur könlüm.

Hərdən dəryalarda qarğı, qamışdı,
Hərdən bostanlarda dürlü yemişdi,
Hərdən əşrəfidi, hərdən gümüşdü,
Hərdən də pas tutub, tuc olur könlüm.

Əmrah sözlərini deyə arınmaz;
Ərəb at yorulsa, könül yorulmaz.
Könül bir şişədi, sınsa sarınmaz;
Sarınsa sağalmaz, gəc olur könlüm.

Söz tamama yetişdi. Əmrah boylananda Sayat pəri gözünə sataşdı. Sayat pəri Əmrahı görüb dedi:

– Ay Əmrah, niyə boylanırsan?

Əmrah dedi:

– Qulaq as, deyim niyə boylanıram:

Bu gün bir şahlarşahını
Axtarır gözüm, axtarır;
Dəryada gözəl mahını
Axtarır gözüm, axtarır.

Verdim aşığın payını,
Yetirdim haqqı-sayını
Ərşdə mələklər tayını,
Axtarır gözüm, axtarır.

Əmrah sevdi sən tək nazı,
Tuti dilli, xoşavazı.
Məhşər günü Səlminazı
Axtarır gözüm, axtarır.

Əmrah sözünü tamam elədi. Sayat pəri Səlminaz adını eşidib küsdü, çəkildi bir kənarda durdu. Əmrah bunu gördü. Qızın könlünü almaq üçün aldı, görək nə dedi:

Dedim: gülşən nədi? – Dedi: bağımdı.
Dedim: səfalıdı? – Söylədi: yox-yox.
Dedim: işrət nədi? – Dedi: səfamdı.
Dedim: gəlsən sürək. – Söylədi: yox-yox.

Dedim: əla nədi? – Dedi: gözümdü.
Dedim: şəkər nədi? – Dedi: sözümdü.
Dedim: alma nədi? – Dedi: üzümdü.
Dedim: öpməlisən! – Söylədi: yox-yox.

Dedim: inci nədi? – Dedi: dişimdi.
Dedim: əbru nədi? – Dedi: qaşımdı.

Dedim: yumru nədir? – Dedi: döşümdü.
Dedim: əmməlisən? – Söylədi: yox-yox.

Dedim: siyah nədi? – Dedi: telimdi.
Dedim: şəkər nədi? – Dedi: dilimdi.
Dedim: nəzik nədi? – Dedi: belimdi.
Dedim: qucmalısan! – Söylədi: yox-yox.

Dedim: qulac nədi? – Dedi: qolumdu.
Dedim: uzaq nədi? – Dedi: yolumdu.
Dedim: Əmrah kimdi? – Dedi: qulumdu.
Dedim: gəlsən gedək! – Söylədi: yox-yox.

Sayat pəri Əmrahla barışdı. Onu götürüb otağına apardı.

Əmrah atasilə bərabər bir müddət Sayat pərinin atası Mahmud paşanın evində qaldı. Qış getdi, yaz gəldi. Qoca Əhməd əkin, biçin eləmək üçün yerlərinə qayıdası idi.

Bir gün bir qarı Əmrahı Sayat pəri ilə bağda gəzən gördü. Getdi, birini də üstünə qoyub, Mahmud paşaya xəbər verdi. Mahmud paşa bunun üstündə Əmrahı tutdurub zindana saldırdı. Əhməd xoca işi belə görüb, paşanın yanına getdi. Oğlunun haqq aşiqi olub, Sayat pərinin də oğluna aşiq olduğunu ona söylədi.

Mahmud paşanın bir gözəl tərlanı var idi. Mahmud paşa Əmrahı hüzuruna çağırtdırıb dedi:

– Ay Əmrah, hərgah sən haqq aşığısansa mənim bu tərlanıma bir tərif de.

Aldı Əmrah, görək nə dedi:

Paşam, bu tərlanı tərif eləyim,
Əzəl yaxşı olar ağı tərlanın.
Qızıldan qumroyu, ətlas düyməsi,
Qayım-qədim olsun bağı tərlanın.

Usta olan zil qumroyun pəs elər,
Tərpənəndə yerbəyerdən səs elər,
Sürmə dağıtmağa bil həvəs elər;
Keçər daşa ol qaynağı tərlanın.

Əmrah gəlib qalmaq istər bu yerdə,
Şirin şikar almaq istər bu yerdə,
Göydə qanad çalmaq istər bu yerdə,
Getməz bu sinəmdən dağı tərlanın.

Əmrahın tərlanı tərif eləməsi Mahmud paşanın çox xoşuna gəldi. Onun günahını bağışladı, qızını da ona verdi. Əmrah hələ burda qalası, xoca Əhməd isə gedəsi oldu. Əhməd xoca gedən zaman oğlu Əmrahı Sayat pəriyə bu dillərlə tapşırdı:

Mən gedirəm, Əmrah qalır yanında,
Can Əmrahın, can Sayadın, can sənin.
Onun intizarı vardı canımda,
Can Əmrahın, can Sayadın, can sənin.

Aldı Sayat pəri:

Gedirsən get, qoca, qalma yolundan;
Mən Əmrahı səndən yaxşı saxlaram.
Gecələr qoynumda, gündüz bağımda,
Mən Əmrahı səndən yaxşı saxlaram.

Aldı Əhməd xoca:

Görünən dağların başı daldadı,
Yığılıb seryağıb sağı-soldadı;
Onun Səlmisinin gözü yoldadı,
Can Əmrahın, can Sayadın, can sənin.

Aldı Sayat pəri:

Doğru danış, qoca, gəl sən imana,
Görüm ürcah olsun yaman – yamana.
Səlmi dedin, məni saldın gümana;
Mən Əmrahı səndən yaxşı saxlaram.

Aldı Əhməd xoca:

Mən Xoca Əhmədəm, xəyalım çaşdı,
Qocalıq əl verdi, dilim dolaşdı,
Səlmi bizim bağda böyük ağacdı;
Can Əmrahın, can Sayadın, can sənin.

Aldı Sayat pəri:

Mən Sayat pəriyəm, bağça barımdı,
Almamdı, heyvamdı, şirin varımdı;
Sənin oğlundursa, mənim yarımdı,
Mən Əmrahı səndən yaxşı saxlaram.

Xoca Əhməd Mahmud paşa ilə, oğlu Əmrahla, Sayat pəri ilə görüşüb, yola düşdü. Bir neçə gündən sonra gedib evlərinə çatdı.

Bundan xeyli keçdi. Bir gün Əmrahla Sayat pəri bağda gəzirdilər. Əmrah o yerin bağ-bağatını öz tərəflərinin bağ-bağatına oxşatdı və Səlminazı yadına düşdü. Aldı, görək nə dedi:

Səlmi deyib, dadi-bidad eyləsəm,
Ya rəb, yar ünümü eşidirmola?
Onu qoyub, qeyri yerdən yar sevsəm,
Onda könlü məndən qalışırmola?

Özümü Səlmiyə nökər eləsəm,
Bir neçə qulunu bekar eləsəm,
Bu şuxi tərlanı şikar eləsəm,
Məhəbbət toruna ilişirmola?

Əzəldən Əmraha ad olan Səlmi,
Dəhanı şəkərdən dad olan Səlmi,
Məni qəmdə qoyub, şad olan Səlmi,
Özgələrlə deyib-danışırmola?

Bu sözdən Sayat pəri bərk küsdü. Bağdan çıxıb getmək istədi. Bunu görüb, Əmrahın sinəsi alışdı. Aldı, görək nə dedi:

Sallana-sallana gedən salatın,
Hayana gedirsən, qız, qayıt indi?
Süsəndən, sünbüldən, tər bənövşədən,
Dəstinlə ğünçəni üz, qayıt indi.

Boyunu bənzətdim mələksimaya,
Dərdini çəkməkdən düşdüm ah-vaya;
Kəklik kimi nə qalxırsan havaya?
Tərlan yox oynadım, süz, qayıt indi.

Əgər bağban isən, bağçı məni gör,
Bağlar gül-gül oldu bağ-çəməni gör,
Əmrah deyər: Sayat, bağ çiməni gör;
Ömür başa vardı, tez qayıt indi.

Sayat pəri daha da acıqlandı. Bənövşəni dəlicəsinə dərdi, əlilə ovcalayıb yerə tökdü. Əmrah bunu görüb, aldı, görək nə dedi:

Əlləri qurumuş, bədəsil xoryad,
Eləmi dərərlər yaz bənövşəni?
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxar altına düz bənövşəni.

Başına döndüyüm, bağa gəl, bağa!
Üzüm hörmətinə bağa nur yağa.
Bir dər, dəstə bağla, sanc gül buxağa.
Oğlan qız iyləsin, qız bənövşəni.

Dağdan qar əridi, dağa xal düşdü,
Bilməm dərdim beşdi, yoxsa on beşdi.
Əmrah deyər: gülün vaxtı yetişdi,
Daha istəmirik biz bənövşəni.

Əmrah bu sözləri ilə Sayat pərinin könlünü aldı. Ordan hər ikisi çıxıb, bağ-bağatın arası ilə gülə-gülə gedirdilər. Söz arasında Sayat pəri dedi:

– Əmrah, sizin yerdə də belə bağ-bağat olurmu?

Aldı Əmrah:

Bahar fəsli yaz ayları gələndə
Ötür bizim yerin qazalaqları.
Alması, heyvası, narı, turuncu,
Payız yaxşı olur qora bağları.

Yaz ayında çəltikləri əkilər,
Payız olcaq xırmanlara tökülər,
Yaxşısından bəylər üçün seçilər,
Qarpız, qovun verər bostan tağları.

Sizin yerdə ördək olar qazınan,
Bizim yerdə söhbət olar sazıynan,
Bölük-bölük yeniyetmə qızınan;
Əmrahın köksündə Səlmi dağları.

Sayat pəri Səlminazın adı gələndə acıqlanıb dedi:

– Əmrah, daha ondan keçib, gedəcəyik. Səlminazı görəcəyəm. Əgər Səlminaz məndən gözəl olsa, səndə oturacağam, yox, gözəl olmasa atamın evinə qayıdacağam.

Əmrahla Sayat pəri başladılar evə tərəf getməyə, yolda gördülər quşlar oxuyur, Sayat pəri dedi:

– Əmrah, sizin yerlərdə də sona quşlar belə ötürmü?

Aldı Əmrah:

Bizim göldə bir cüt sona dövr elər,
Başı yaşıl, ayaqları qırmızı.
İncidən, sədəfdən almış ağzına,
Alma kimi yanaqları qırmızı.

Bizim dağlar sizin dağdan ucandı,
Malım yoxdu, yara qurban bu candı;
Yaqut deyil, yəmən deyil, mərcandı;
Ağ qollarda qolbaqları qırmızı.

Sayat pərim, qalx ayağa bu dəmdə,
Ağlamaqdan yaş qalmadı didəmdə.
Əmrah deyər: çalı-çarpaz sinəmdə
Səlmi çəkib bu dağları qırmızı.

Əmrahla Sayat pəri gəlib evlərinə çatdılar. Bir gün Əmrah dedi:

– Sayat pəri, daha gedək, yerim-yurdum yadıma düşüb.

Sayat pəri dedi:

– Atamdan getmək üçün izn al, sonra gedək.

Əmrah Mahmud paşanın yanına getdi. Öz yerinə getmək üçün ondan izn aldı. Bir gün sonra Sayat pərini götürüb yola düşdü. Gəlib Əmrahın elinə yaxın olan Qazlı gölün başına çatdılar. Əmrah sevgilisilə Qazlı gölün başında oturmuşdu. Bir də gördü göydə durnalar gedir. Aldı, görək nə dedi:

Aldı Əmrah:

Qatarlaşıb göynən gedən durnalar,
Nə səbəbdən dəstən böləndü, durna?
Səlmi yarım yenə düşdü yadıma;
Sərində tellərin göründü, durna!

Qələm oynar Səlmi yarın qaşında,
Qul olaydım, mən duraydım qarşında,
Xan Sayatla Qazlı gölün başında,
Bizdən yara xəbər ver indi, durna!

Hər yana gedirsən çağır Allahı,
Qatardan üzülüb olma kallahı,
Müjdə versin Səlminaza Əmrahı,
Bir itkincə qulun bulundu, durna!

Söz tamama yetişdi. Əmrah ilə Sayat pəri ordan keçib Əmrahgilin yurduna gəldilər. Bunları yaxşı pişvaz elədilər. Evə apardılar. Səlminaz xəbər tutdu, gəlib pəncərədən baxırdı. Əmrah Səlminazı görüb ürəyi coşdu, aldı, görək nə dedi:

Qəfil pəncərədən baxdı qayıtdı,
Tavus tamaşalı, sona Səlminaz.
Müjganların bağrım başına atdı,
Keçdi, kar eylədi cana Səlminaz.

Sənsən bu yerlərin qızılgülləri,
Gəl yanıma mürvət elə, ay pəri;
Vallah, billah, səni görəndən bəri
Gəlmişəm imana, dinə, Səlminaz!

Əgər aşıq isən, məşuqun hanı?
Əgər mollamısan, dərsini tanı.
İranı, Turanı, bu şirin canı,
Əmrah qurban eylər sənə, Səlminaz!

Söz tamama yetişdi. Əmrah bu dəfə üzünü anasına tutub dedi:

Ana, sənə bir söz deyim:
Sən get onu yara deynən.
Neyləmişəm o canana,
Məsum baxdı qara deynən.

Öpmədim gülər üzündən,
Doymadım ala gözündən;
Nakəs, hərcayi sözündən
Gül uymaz xara deynən.

Yazıq Əmrah dərdin yazar,
Şirin candan oldu bezar,
Tərlan tərlan ilə gəzər,
Uymaz ki, sara, deynən.

Əmrah sözünü tamam elədi. Anası getdi Səlminazı gətirdi. Səlminaz Əmrahla, Sayat pəri ilə görüşdü. Xoca Əhməd bir yaxşı toy elədi. Eli, camaatı çağırdı. Səlminaznan Sayat pərinin əlini Əmrahın əlinə ver-

dilər. Camaat yeyib, içib, “toyunuz mübarək olsun”, – deyib dağıldı. Əmrah da sevgilisilə gün keçirməyə, dövran sürməyə başladı. Deyirlər Əmrahın toyuna bir aşıq gəldi, duvaqqapmasını belə söylədi:

Genə gəlib bahar fəsli,
Aləmi-rovşən bəzənib.
Seçmə gözəllər əyninə
Geyib zərnişan bəzənib.
Baxırsan sağa, sola,
Görürsən hər yan bəzənib.
Səf çəkib huri, mələk,
Pəriyü qılman bəzənib.
Nasaq qılmayın dilimə,
Qoy deyim dastan, bəzənib.

Baxmasın gözəllərə
Adamların bəd nəzəri;
Əndələnib nalə çəkib,
Ölməsin güldən ötəri;
Naz ilə canım alan,
Olubdu dilim əzbəri.
Yaradan, bir rəhm elə,
Pozulmasın bu səfləri.
Fəhm elə, diqqət elə,
Gör necə canan bəzənib.

Gözəllər tər əndama,
Geyinibdi, ağı yenə.
Can cəsəddən ayrılır,
Qalmadı bir tağı yenə.
Ala gözlər süzüləndə
Eyləyir misağı yenə.
Bir sənəm seyrə çıxıb,
Gör paylayır sağı yenə.
Şənini vəsf eləyim
Bir şuxi tərlan bəzənib.

Gəzmişəm görməmişəm
Mən bir belə gül camalı.
Gülgəz kalağay
Bürünübdü qəddi-dalı.
Hal bilən, şirin gülən
Ağ üzündə qoşa xalı.
Rəhm elə, mürvətə gəl,
Salma belə qilü qalı.
Qoy deyim, bu məclisdə,
Nə gözəl dövran bəzənib.

Dərdlilər təbib deyib,
Yığılıb dərmana bu gün.
Gözəlin gül camalı
Çox salır hər yana bu gün.
Yanıram atəşinə
Mən dərd-mərdanə bu gün.
Yazıq Hüseynin könlünü,
Eyləmə pərvanə bu gün.

Aşıqlar qara geyib,
Gözəllər əlvan bəzənib.

# İrvahım

## USTADNAMƏ

Gümüş kəmər bağlayıbdı belinə,
Danışdıqca mail oldum dilinə,
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı gülü məndən alınca.

Alimdən dərs aldım əlif-bey üçün,
Sürahilər düzülübdü mey üçün,
Dəli könül, qəm çəkirsən nə üçün?
Qəmli günün şad günü var yanınca.

Xəstə Qasım vədə verdi yüz ilə,
Yaşılbaşlar göldən-gölə düzülə,
Bir iyid ki, qatarından üzülə,
Ölüm yeydi bu dünyada qalınca.

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, rəqibin rəngi gül kimi solsun.

Əzəldən olmıya bədəsil övlad,
Avara söyləyər, başdan danışar.
Öyrədirsən qanmaz xeyrü şərini,
Dindirəndə yal-yamacdan danışar.

Aybına kor olub, bilməz adını,
Tanımaz dost, düşmən öz simsarını,
Məclisə girəndə bilməz yerini,
Ayaxda oturub, başdan danışar.

Özündə şairlik görə bilməyən,
Bir kor qıza cavab verə bilməyən,
Uçuq həyətini hörə bilməyən
İmarət qurdurub, daşdan danışar.

Mən üzmərəm mərd əlindən əlimi,
Yoxdu bədəsilə Tanrı ölümü,
İldə onca qəpik olmaz gəlimi,
Yük yığanda beş farmaşdan danışar.

Qayda deyil dost üzünü açmağa,
Layiq deyil qonşuya dolaşmağa,
Bir tay ulağı yox cütə qoşmağa,
Eldən qabaq durub, köçdən danışar.

Danışar yalandan sözü olmayan,
Çörəyə tökməyə duzu olmayan,
Evində beş arşın bezi olmayan,
Dindirəndə al-qumaşdan danışar.

Dost tutaram mən hər kəsi düşəndə,
Sən getginən dava səsi düşəndə,
At, inəyin, kəlin bəhsi düşəndə,
Çoxu bir əyləncə leşdən danışar.

Yaranmış insanda çoxdu avara,
Qandıra bilmirəm, gəlmişəm zara,
Var-yoxunu verib üç-dörd davara,
Toğluya tum deyib, qoçdan danışar.

Qəhrəman, iqbalın tərsə dolanmaz,
İnsan var ki, ondan qəlbin bulanmaz,
İnsan var evində ələk bulanmaz,
Dindirəndə beşdən-beşdən danışar.

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək, üç olsun.

Namərd odur çağırıban
Kimsəyə əl eləməz.
Nə oturub söhbət elər,
Nə dərdi-hal eləməz.

Beyqafıldan yolun düşüb,
Getsən namərdin evinə,
Sənə qonaq ol deyibən
Bir gecə qol eləməz.

Namərdlərin qaydasıdı,
Mehmanı görsə tez qaçar.
İnsana bir loğma versə,
Canı cəsədindən uçar.
Özü gedər özgəsindən
Daima yeyər, içər.
Bircə qula təklif edib,
Öz evinə gəl eləməz.

Kamal deyər: namərd gəzib,
Hazır yeməyi bilər.
Yad süfrədə şaqqıldayar,
Bülbül kimi səyriyər.
Heç deməz ki, bu namərdlik
Məni rüsvay eləyər,
Gör nə qədər anlamazdı,
Onu xəyal eləməz.

Belə rəvayət eləyirlər ki, Rey şəhərində Zülal şah adlı bir padşah var idi. Ustadların deməsindən Zülal şah çox ədalətli bir şah imiş. Zülal şahın qapısının ağzında neçə əyyamdan qalmış bir çinar ağacı var idi. Hər il bahar ayı olanda çinar ağacının başına bir cüt göyərçin gəlirdi. Ağacın başında onların yuvası var idi. Göyərçinlər yuvalarında yumruqlayıb, balalayır, balalarını böyüdüb, sonra da özüylə aparırdı. Ancaq bir bahar gənə Zülal şah tamaşa eləyirdi. Bir də gördü ki, həmən göyərçinlər balalarını böyütdülər. Zülal şah gördü ki, bu quşlar o qabaqda gördüyü quşlar kimi deyil. Çünki birinin rəngi ayrıdı, birininki də ayrı. Bu göyərçinlər gəlib balalarını dimdiklərilə vurub öldürdülər. Başladılar özlərinə təzə bala hazırlayıb aparmağa. Zülal şah bu əhvalatı gördü.

Zülal şahın iki oğlu vardı. Böyüyünün adı Aslan idi, balacasının da adı İrvahım. Şah istədi bilsin, görsün balalarını öldürən göyərçin erkəydi, yoxsa dişi. Şah öz-özünə dedi: “Yəqin mən də ölsəm, mənim

uşaqlarımı da belə öldürəcəklər. Arvadım ölsə, onda mən gedib birini gətirsəm, o arvad yəqin uşaqlarımı da belə öldürəcək".

Şah bu xəyalı ürəyində vurnuxdururdu. Deyirlər vaxt oldu, şahın arvadı dünyadan köç eylədi. Şah çox fikir elədi. Öz-özünə dedi ki, quşların dağı yadımdan çıxmayıb, odur ki, mən ölüncəyə qədər evlənməyəcəyəm.

Deyirlər ki, subay adamın hövsələsi çox dar olar. Odu ki, arvadı öləndən sonra şahın hövsələsi daraldı, camaata çox zülm elədi. Onun zülmü ərşə dayandı. Ağıllı kişilər yığılıb fikirləşdilər ki, şah əvvəllər camaata zülm eləmirdi, indi yəqin övsüzdü, ona görə belə eləyir. Yaxşısı budu ki, onu evləndirək. Ağıllı kişilərdən bir neçəsi padşahın yanına gedib dedilər:

– Ey qibleyi-aləm, gəl səni evləndirək. Belə iş olmaz, qayda belədi, arvadı ölən evlənər.

Zülal şah bunların sözünə razı oldu. Vəzirin biri dedi:

– Ey camaat, indi ki, Zülal şah evlənməyə razılıq verdi, onda Misir şahı bu yaxınlarda ölübdü. Onun arvadı dul qalıbdı. Nə cür olsa şah arvadıdı. Gəlin elə Zülal şaha həmən arvadı alax.

Zülal şah dedi:

– Vallah, mən nə deyirəm, camaat deyən yaxşıdı.

Adamlar getdilər Misirdən ölən şahın arvadını gətirməyə.

Zülal şah çox qocalmışdı. Misirdən arvadı götürüb gələndə yoldan çapar gəldi, Zülal şaha xəbər verdi:

– Qibleyi-aləm, arvadı gətirirlər.

Nə arvad şahı, nə də şah arvadı görməmişdi. Zülal şahın oğulları bir-birinə dedilər:

– Ay qardaş, gəl hərəmiz bir xonça tutax, gedək təzə anamızın qabağına.

Bəli, bular hərəsi bir qəşəng xonça tutub, getdilər analıqlarının qabağına. Analıq uzaqdan baxıb gördü ki, bir cüt oğlan gəlir ki, elə bir ay parçasıdılar. Arvadın xəyalından keçdi ki, əyər mənim ərim bu oğlanların biri olsa, on illik ömrümü bağışlaram. Arvadı gətirdilər şahın öyündə öz otağına. Arvad fikir elədi ki, indi yəqin bu oğlanların hansısa biri gələr. Birdən qapı açıldı, içəri bir qoca kişi girdi. Saqqal sallanıb, belində qurşaq, əlində əsa. Arvad dedi:

– Ey qoca, məni sənəmi gətiriblər?

Şah dedi:

– Bəli.

Gecəni yatdılar. Səhər yerindən duranda Zülal şah bir ah çəkdi. Arvad şahın ətəyindən çəkdi ki, de görüm niyə ah çəkdin, dedi:

– Yəqin sənin köhnə arvadın məndən yaxşı, ağıllı olub ki, sən belə ah çəkdin.

Zülal şah dedi:

– Vallah, elə düz deyirsən.

Arvad dedi:

– Onda arvaddan qalan bir övlad varmı, gətirin onu mənim yanıma. Onnan mən bir-iki kəlmə danışsam, o saat biləcəm ki, onların anası necə arvad olub.

Bəli, Zülal şahın uşaqları mədrəsədə oxuyurdular. O saat adam getdi, uşaqları gətirdilər arvadın yanına. Arvad gördü ki, yolda gördüyü oğlanlardı, dedi:

– İlahi, şükür, nə yaxşı oldu ki, bular gəldi.

Baxdı ki, Aslan böyükdü, bunun ağlını oğurlaya bilməz. Odu ki, ona dedi:

– Oğul, sən get dərsini oxu.

İrvahım balaceydi; arvad fikirləşdi ki, bunun ağlını oğurlaya bilərəm. Odu ki, onun üzündən öpüb, yanında saxladı, dedi:

– Qoyun bu mənim yanımda qalsın, bunu özüm tərbiyə eləyim.

Bir neçə vaxtdan sonra arvad dedi:

– Oğul, elə sənin atanın otağı təkcə budu?

İrvahım dedi:

– Ana, yox, atamın qırx otağı var.

Arvad dedi:

– Oğul, dur otaqları gəzək.

Otaqları gəzib qırxıncıya girəndə arvad qapını örtdü, dedi:

– İrvahım, bilirsənmi səni bura niyə gətirmişəm?

İrvahım dedi:

– Ana, bilmirəm.

Arvad dedi:

– İrvahım, gərək mənnən başbir eləyəsən.

İrvahım dedi:

– Ana, belə şey olmaz, sən mənim anamsan.

Arvad İrvahıma əl atmaq istədi. İrvahım arvadın ağzının üstündən bir şillə vurdu, özü çıxıb qaçdı. Arvad düşündü ki, gedib atasına xəbər verəcək. Odu ki, bu tərəfdən özün yetirdi şahın qulluğuna, dedi:

– Ey sənin zülallığın başına dəysin, çox deyirdin ki, mən zülalam, uşaqlarım da özüm kimidi. Amma bu sənin balaca oğlun İrvahımın əlindən birtəhər qurtardım. Əyər böyüyü olsaydı, məni bihörmət eləyərdi. Bəs hal-qəziyyə – mənə sataşdı.

Zülal şah bu sözü eşidən kimi qəzəbləndi, "cəllad" deyib dad döydü. O saat cəlladlar hazır oldu. Şah əmr elədi ki, bu saat Aslannan İrvahımı çəkin dar ağacına. Camaat əhli, ağıllılar irəli yeriyib dedilər:

– Şahlar arasında səni töhmət eləyərlər, ayıbdı, öz övladını asdırma. İndi ki, qəzəbin tutub, öz torpağından sürgün elə, qoy çıxıb hara gedirlər getsinlər.

Şah camaatın sözünü qəbul eləyib, uşaqlarını sürgün elədi. Uşaqlar dedilər:

– Ata, biz ki, gedirik, hara çıxsaq orda kim soruşsa biləcək ki, biz sənin oğlunuq. Pulsuz-parasız biz hara gedək? Heç olmasa bir az daşdan-qaşdan ver, sataq xarclayax.

Şah əmr elədi:

– Gedin, xəzinədən həranız bir daş götürün.

Bunlar ikisi də getdilər xəzinəyə. Aslan bir qiymətli daş götürdü, İrvahım dedi:

– Qardaş, mən istəmirəm. Çünki bu xəzinə hamısı mənim idi. Onda bu xəzinə mənə nə xeyir verdi ki, indi bir daş da xeyir verə. Odu ki, mən istəmirəm.

Bu sözdən sonra Aslan İrvahımın daşını da özü götürdü. Cəlladlar hər iki uşağı qabaqlarına qatıb apardılar, Misir torpağına buraxıb qayıtdılar. Bu uşaqlar ərkəsöyün böyümüşdülər, isti-soyuq görməmişdilər. Ayaqyalın, başıaçıq düzün üstündə qaldılar məhəttəl, bilmədilər neyləsinlər. Aclıqdan korluq çəkirdilər. Bir təpənin başında bir şenlik görünürdü, Aslan dedi:

– Qardaş, orda diyən kör-kösək var. Gəl gedək ora, bəlkə yeməkdən-zaddan tapdıq.

Aslan İrvahımı dalına alıb, düz apardı ora.

Gethaget, gedib gördülər bura bir məzarıstanlıqdı, içərisində də bir ağ günbəz var idi. Aslan dedi:

– Qardaş, bu viranalığın yəqin kənarında şennik də olar. İndi, İrvahım, sən gəl qal bu günbəzdə, mən gedim bu yerlərin şəhərinə, bir az yeməkdən-zaddan tapım.

Aslan İrvahımı burda qoyub, özü getdi Misir şəhərinə çıxdı. Şəhərə girəndə gördü ki, məxluqat məmə deyənnən pəpə deyənə hamı bura yığılıb. Aslan bir qocaya yanaşıb dedi:

– Əmi, burda nə olub ki, camahat belə yığılıb?

Qoca dedi:

– Oğul, görürəm ki, sən bura adamı döyülsən. Bura Misir şəhəridi. Bizim padişah rəhmətə gedib. İndi bu gün hamı yığılıb, dövlət quşu uçurdacaqlar. Bu quş hər kimin başına qonsa onu padşah tikəcəklər.

Aslan dedi:

– Gedim, durum bir kənarda, təzə padşah seçiləndə dərdimi ona deyərəm, bəlkə mənə bir kömək elədi.

Aslan gördü quşu uçurtdular. Deyərlər ki, Allah əmriynən quş göydə dövr eliyib, gəldi qondu Aslanın başına. Odu ki, camahat hərəsi bir yumruq, bir qapaz Aslana vurub dedilər:

– Sən hara, padişahlıq hara?! Bir yolçunun birisən, get işinə-gücünə!

Aslanı vura-vura aparıb bir uçuq dama saldılar ki, qoy bunu quş görməsin. Quşu bir də uçurtdular, bu dəfə quş damın bacasından girib, qondu Aslanın başına. Vəzir-vəkil istədilər Aslanı döyüb qovalar, ağıllı kişilər dedilər:

– Ay balam, bu iş yəqin belə olmalıdı. Gedin damın bacasından qulaq asın görün o, quşnan nə danışır.

Baxıb gördülər ki, Aslan quşa deyir: Ey quş, mən vaxtilə Zülal şahın oğluydum. Orda nə oldum ki, burda nə olam, niyə gəlib mənim başıma qonursan?

Adamlar bu sözü eşidib gəlib xəbər verdilər. Ağıllılar genə gəlib məsləhət elədilər ki, elə yaxşı oldu, onsuz da şah oğludu. Şahlığı bacarar, odu ki, ağsaqqal, qarasaqqal yığışıb, Aslanı qoydular şah. Aslan şah olandan sonra başı işə qarışdı, qardaşı İrvahım yadından çıxdı. Bu burda padşahlıqda qalmaqda olsun, ərz eləyək İrvahımdan.

İrvahım acından çox korluq çəkdi, bir də fikirləşdi ki, bəlkə Aslan yolu azıb. Odu ki, çıxdı günbəzin başına, bir qardaş deyib səslədi ki, bəlkə Aslan eşidə. Qırx haramı İrvahımın səsini eşitdi. Bunların başçılarının adı da Ziyad haramı idi. Bular hər yeri gəzib, adamları soyurdular. Adamları öldürüb, ətindən, yağından dərmandan-zaddan qayırırdılar. Ziyad haramının övladı yox idi, sonsuz idi. Haramılar İrvahımı günbəzin başından yerə saldılar. Onu qılışlamaq istəyəndə İrvahım ağladı. Haramıbaşı bunu gördü, dedi:

– Ay bala, niyə ağlayırsan? Dünyada hamı öləcək, sənin ətin-qanın bizə lazımdı.

Bu yerdə aldı İrvahım, görək nə dedi:

Əzəl başdan sənə xəbər verəyim,[1]
Gözüm yolda qaldı, gedən gəlmədi!
Xancal alıb, bağrım başın teyləyin,
Gözüm yolda qaldı, gedən gəlmədi!

Dizim tutmur, özümü sənə yetirim,
Əmr eylə, qulluğunu bitirim.
Qardaş dedi: gedim taam gətirim;
Gözüm yolda qaldı, gedən gəlmədi!

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə cavan ömrüm ağlıyam.
İrvahımam, Zülal şahın oğluyam,
Gözüm yolda qaldı, gedən gəlmədi!

Haramılar dedilər:

– Oğul, haralısan, kimin oğlusan?

İrvahım götürüb dübarə dedi:

Başına döndüyüm, haramıbaşı,[2]
Öldürmə, Allaha bağışla məni!
İtkin qardaş bağlamazmı yaramı,
Öldürmə, Allaha bağışla məni!

İrvahımam, bu dəryaya adayam,
Adım çıxıb, al-osmanda sədayam,
Zülal şah oğluyam, bil, şahzadayam,
Öldürmə, Allaha bağışla məni!

Ziyad haramı dedi:

– Ey mənim yoldaşlarım, qırx ildi ki, biz vurub kəsirik. Nə olar ki, bunu da öldürməyək. Siz gəlin bunu öldürməyin, mənim oğlum yoxdu. Bunu verin mənə, oğulluğa götürəcəm.

Haramılar razı oldular. Ziyad haramı İrvahımı götürüb apardı evinə. Ziyad haramı İrvahımı aparmaqda olsun, sizə xəbər verim Aslandan.

Aləmi-vağıyada Aslan qardaşını gördü. Gördü ki, İrvahım deyir ki, ey qardaş, adam da qardaşını yaddan çıxardarmı? Aslan bu yuxunu görən kimi öz vəziri Sirri-Sübhanı yanına çağırtdırdı. Bu çox qoca kişiydi, özü də neçə padşahlara qulluq eləmişdi. Aslan ona dedi:

– Vəzir, belə yuxu görmüşəm, qoşun hazır elə.

Vəzir dedi:

– Hara gedirik?

Aslan şah dedi:

– Məzarıstana gedəcəyik.

Qoşun əhli cəm oldu. Padşah, vəzir atlanıb qoşunla Məzarıstana getdilər. Aslan şah adamları kənarda qoyub dedi:

– Camaat siz burda durun, mən gedim o günbəzdə bir söz oxuyum gəlim.

Sirri-Sübhanla ikisi getdilər günbəzə. Aslan şah gördü İrvahım yoxdu. Götürüb, görək nə dedi:

Alçaqdan ucaya çəkilsin başın,
Məzar sandıq, İrvahımı neynədin?
Atılsın kərpicin, qalmasın daşın,
Məzar sandıq, İrvahımı neynədin?

Qalalar içində möhkəm qalasan,
İyidlər başına yaman bəlasan;
Qarğamıram səni viran qalasan;
Məzar sandıq, İrvahımı neynədin?

Aslan şaham, qəm evində yatmışdım,
Dərdi-qəmə hərdən mən də batmışdım,
İrvahımı burda qoyub getmişdim,
Məzar sandıq, İrvahımı neynədin?

Vzəir dedi:

– Qibleyi-aləm, İrvahım kimdi?

Aslan ona görək nə dedi:

Çarxı-fələk bizim ilə yağıdı,[3]
Qoymaz öz mülkümdə qala dərdimi.
Axır bir gün bu ölkəni dağıdar,
Çıxartmadım bir məkana dərdimi.

Dərdim üçün hər kəs gəlsə vermərəm,
Bir gün gülsəm, bir gün şadlıx görmərəm.
Özüm öz dərdimi çəkə bilmərəm,
Fələk versin bir çəkənə dərdimi.

Aslan şaham, qəm evində nökərəm,
Dost bağında qızılgüllər əkərəm.
Özüm öz dərdimi pünhan çəkərəm,
Deyə bilməm hər yetənə dərdimi.

Aslan şah Məzarıstandan qayıdıb gəldi öz şəhərinə.

Deyirlər, Aslan şahın ölkəsində dəryanın ortasında cəzirədə yaşayan bir Gavdan adlı paşa varıdı. Gavdan adamları gəmiynən keçirəndə kim ona pul verməsə onu suya atıb öldürürdü. Aslan Gavdanı yanına çağırdı, ona çoxlu pul verdi ki, camaata dəyməsin. Özü də belə bir əmr verdi, onun torpağından keçənlərdən vergi alınmasın.

Aslan şah Sirri-Sübhanı vəzirlikdən çıxartmışdı, çünki Məzarıstanda vəzir Aslandan xəbər almışdı ki, de görüm İrvahım kimdi? Aslan da deməmişdi. Odu ki, bir-birindən naincik idilər. Bunlar qalsın burda, görək İrvahım neylədi?

Ziyad haramının arvadı Şarabanı İrvahımı köynəyinin yaxasından keçirib dedi:

– Sən bu gündən mənim oğlumsan.

Aslan günbəzdən gedəndə atasının xəzinəsindən götürdüyü daşın birini vermişdi İrvahıma. İrvahım da həmən daşı verdi Ziyad haramıya. Ziyad haramı da çox varlı adam idi. Bir gün Şarabanı dedi:

– Ay kişi, mən köhnələrdən bir şey eşitmişəm:

El malı elə qalı,
Ye öz malın, sür dövranın,
Yeməzisən elə qalı.

Bir gün haramıların başçısı dedi:

– Ay haramılar, daha mən haramılıq eləmək istəmirəm.

Haramılar nə qədər elədilərsə Ziyad haramı razı olmadı. Haramılar öz aralarında sözləşdilər ki, Ziyad haramını bizdən ayıran bu uşaq oldu. Gəlin onun başını batıraq, bəlkə Ziyad təzədən bizə qoşula.

Amma uşağı öldürməyə qorxurdular. Elə bu fikirnən çıxıb gedirdilər, yolda qabaqlarına bir ombası batıq qarı çıxdı, dedilər:

– Ay qarı, buralarda nə gəzirsən, qorxmursanmı səni qurd-quş yeyib tələf elər?

Qarı dedi:

– Ey uşax-muşaxlar, dindirməyin məni, bir fışqırıq çəkərəm bütün Misirin şəhəri od tutub yanar.

Odu ki, hərənin cibində nə varıdı qarıya verib dedilər:

– Qarı, Ziyad haramının öyündə bir gədə var, onu öldürsən nə istəsən verərik.

Qarı dedi:

– Yaxşı, gedin, eşidərsiniz.

O biri tərəfdən, Ziyad haramı İrvahımı da götürüb ova getmişdi. Qarı tumanını çəkə-çəkə gəldi Ziyadgilə. Ziyad haramının arvadı Şarabanı qapını açıb dedi:

– Ay qarı, niyə gəlmirsən?

Qarı dedi:

– Niyə gəlim, indiyə kimi təmiz adınız var idi, indi bir bicin birini gətirib adınızı beddam eliyibsiniz, bir çıxın şəhərə görün nələr danışırlar?

Şarabanı dedi:

– Ay qarı, nə danışırlar?

Qarı dedi:

– Heç nə, həmən bic İrvahım hamıya deyib ki, Ziyad haramını öldürüb, arvadını da özüm alacam.

Arvad dedi:

– Qarı, arxayın ol, qoy o gəlsin, gör onun başına nə iş gətirəcəm.

Qarı dedi:

– Çəpəl, mən sizə gəlmirdim. Əlimin biri qapıya dəydi, o dünyada o əlim od tutub yanacaq. İndi sən istəyirsən ki, sizdə oturum bütün bədənim yansın?! Mən elə iş eləmərəm, – deyib tərpəndi. Ziyad haramı ovdan qayıdanda İrvahım qabaqca içəri girdi, anasına salam verdi. Anası salam almayıb dedi:

– A bic oğlu, mən səni gətirdim özümə oğul eləməyə, amma sən bura gəlibsənmiş ki, ərimi öldürüb məni alasan?

İrvahım bu sözü eşidən kimi, qara baxtından şikayət eləyib getdi, töylədə doyunca ağladı.

Ziyad haramı gələndə arvad dedi:

– O gətirdiyin uşağı bu saat aparıb öldürərsən, yoxsa bu saat mənim kağızımı ver, boşa.

Ziyad əhvalatı biləndən sonra dedi:

– Arvad, bilirsən nə var?

Arvadı dedi:

– Nə olacax?

Ziyad haramı dedi:

– Hindişi, ara işi,
Özün gör, özün danış,
Öy yıxar ara işi.

Ziyad haramı İrvahımı yanına salıb apardı öldürməyə. Yolda Ziyad haramı İrvahıma əhvalatı söylədi, dedi:

– Zalım oğlu, mən sənə neyləmişəm ki, sən bu fikrə düşübsən? İrvahım dedi:

– Ziyad, haramı, bu böhtandı, özün görürsən ki, mən heç bir iş görməmişəm. İndi nə qədər and içsəm də inanmayacaqsan.

Ziyad haramı gördü ki, İrvahımın günahı yoxdu, dedi:

– Oğul, sən məndən qabaq gəldin, öyə girəndə nə gördün?

İrvahım dedi:

– İcazə ver deyim.

İrvahım aldı, görək nə dedi:

Başına döndüyüm, haramıbaşı,
Doğru yetiş dərdi-dillərə sən də.
Ayağına dəyməsin yolların daşı,
Doğru yetiş dərdi-dillərə sən də.

Əzizlərim yada salıb aldırdı,
İtkin qardaş oldu məni yandırdı,
Beyman qarı məndən yaman qandırdı,
Doğru yetiş dərdi-dillərə sən də.

İrvahım deyərlər mənim adıma,
Damanda qalmışam, yetiş dadıma.
O vaxt düşdüm bir çəpəlin oduna,
Doğru yetiş dərdi-dillərə sən də.

Ziyad haramı dedi:

– Oğul, bilirəm, bu işə bais o qarıdı. Səni indi aparıb o günbəzdə qoyacam, qarını da gətirərəm ora, sizi üzləşdirəcəm. Əyər bu söz doğru olsa, sən gününə baxarsan, yox, yalan olsa, onda qarının gününü görərsən.

Odu ki, İrvahımı gətirib günbəzdə qoydu. Ziyad haramı getdi qarını axtarmağa. Ustadlar deyirlər ki, İrvahım günbəzdə yatıb, vağyada gördü ki, Heratda Fətəli xanın qızı Hüreynisə xanımı ona buta veriblər.

İrvahım başladı Herata getməyə. Bir qədər gedəndən sonra, yolda Xoca Hasan adında bir sövdəyərə rast oldu. Xoca ona dedi:

– Oğul, hara gedirsən?

İrvahım götürüb dedi:

Başına döndüyüm bəzirgan xoca,[4]
Xoca, bir yar deyim, ver nişan barı;
Malın qismət olsun gedəsən Haca,
Xoca, bir yar deyim, ver nişan barı.

Aldı Xoca:

Oğul, mən alım sənin qadanı,
Oğul, sən adını de, mən nişan verim.
Bir də danış, eşidəyim sədanı,
Oğul, sən adın de, mən nişan verim.

Aldı İrvahım:

Dəryalar içində dərin adadı,
Sağılar içində dürlü baladı.
Herat şəhərində bir xanzadadı,
Xoca, bir yar deyim, ver nişan barı.

Aldı Xoca:

Mən gələndə seyvanda durmuşdu,
Ağ üzündə halqa birçək burmuşdu,
Firəngi qayçıynan telin vurmuşdu,
Oğul, sən adın de, mən nişan verim.

Aldı İrvahım:

İrvahımam, şirin candan bezaram,
Dərsimi oxuyub özüm yazaram,
Nə müddətdi yar soraqnan gəzərəm,
Xocam, bir yar deyim, ver xəbər barı.

Aldı Xoca:

Xoca Hasan xocaların gözüdü,
Aşıqların söhbətidi, sözüdü;
İndi bildim: Fətəli xan qızıdı,
Oğul, sən adın de, mən nişan verim.

Xoca dedi:

– Oğul, mən də Herata gedirəm.

İrvahımı da dəvənin belinə mindirib apardı. Hüreynisə xanım da vağıyada görmüşdü ki, İrvahım dəvənin belində gələcək. Qızlara dedi:

– Qızlar, mən vağıyada gördüyüm oğlan bu boyda, bu nişanda gəlib dəvənin üstündə burdan keçəcək. Kim onu mənə görüb desə, bu boyunbağımı ona verəcəm.

Qızlar yolun kənarını kəsib gözləyirdilər. Kök qızlar hamısı gözlədi, yorulub yatdılar, amma cin qaravaş (arıx qız) boyunbağının ucuynan barmağını yarıb, içinə duz basdı, sabahatan yatmadı. Bir də gördü ki, sabaha yaxın qəflə-qatırın ağzı açıldı. Qız o saat gedib xanıma xəbər verdi. Hüreynisə xanım gəldi qəflə-qatırın yanına. Xoca Hasanın bir cürəsi varıdı, onu bağışlamışdı İrvahıma. İrvahım dəvənin belindəydi, qız umutluydu ki, düşüb bu otağa gələcək, amma gördü yox, İrvahım heç düşmədi. Qız dedi: sevdəyərbaşı, xahiş eləyirəm bir qəflə-qatırını əylə. Sevdəyər o saat qəflə-qatırı əylədi. Qız götürüb dedi:

Çiyni sazlı gedən oğlan,[5]
Oğlan, gəl bəri, gəl bəri!
Məni dərdə salan oğlan,
Oğlan, gəl bəri, gəl bəri!

İrvahım Hüreynisəni gördü, amma tanımadı. Aldı, cavabında görək nə dedi:

Balqonunda duran gözəl,
Qayıdıb gələ bilmərəm.
Bir yarım var səndən gözəl,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Hər küçənin gözü mənəm,
Aşıxların sözü mənəm,
Fətəli xanın qızı mənəm,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı İrvahım:

Dağlar başı dumandı,
Dindirmə halım yamandı;
Yarımın adı cahandı,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Hüreynisə sözü belə,
Ördəyinən qazı belə.
Fətəli xan qızı belə,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı İrvahım:

İrvahımam, dəryaya dalmaram,
Canımı oda salmaram,
Yolçuyam, yolda qalmaram,
Qayıdıb gələ bilmərəm.

Qızların içində elələri varıdı ki, Nuhdan qalma kəməndçi idilər, pəhləvanlığı da bilirdilər; gördülər oğlan düşməyəcək, tez kəmənd atıb, oğlanı dəvənin üstündən seyvana çəkdilər. Sövdəyər gördü yox, bunlarnan bacara bilməyəcək, odu ki, başladı yolunu tutub getməyə.

İndi otaqda Hüreynisə xanım oğlanı görəndə götürdü, görək nə dedi:

Qızlar, tez qalxın ayağa,
Budu, yar gəldi, yar gəldi!
Canımdı ona sadağa,
Budu, yar gəldi, yar gəldi!

Qızlar, qalxın peşvazına,
Budu, yar gəldi, yar gəldi!
Mən dözə bilməm nazına,
Budu, yar gəldi, yar gəldi!

Hüreynisəyəm, budu sözüm,
Budu, yar gəldi, yar gəldi!
Bu fərağa necə dözüm?
Budu, yar gəldi, yar gəldi!

Aldı İrvahım cavabında:

Uca-uca dağ başından
Mən səni görməyə gəldim.
Müştağ idim dildarına,
Bir salam verməyə gəldim.

Qürbət elə düşüb işim,
Çox bəlalar çəkib başım,
İtirmişəm şah qardaşım,
Gülünü dərməyə gəldim.

Uca dağlar başı qardı,
Bağçalar gətirən bardı;
İrvahımdı, sənə yardı,
Qoynuna girməyə gəldim.

Xoşnəvaziş elədilər, bir-birindən əhval-pürsan oldular. Bir qədər oğlan qızın yanında qalannan sonra qız İrvahıma dedi:

– Sən indi get bir qədər də kənar bir öydə qal. Atam bu işdən xəbər tutar, yaxşı olmaz.

İrvahım şəhər çıxıb gördü ki, bir qoca kişi bazarda halva satır. Camaat dağılandan sonra İrvahım gəldi halvaçının yanına. Kişi gördü ki, bu aşıqdı, dedi:

– Oğul, nə işin var?

İrvahım ondan yer istədi.

Kişi dedi:

– Yerim yoxdu.

Qoca çıxıb öyünə getmək istəyəndə İrvahım dedi:

Başına döndüyüm, ay Musa xoca,[6]
Xoca, mən qəribəm axşam bazarı.
Varın qismət olsun, gedəsən Haca,
Xoca, mən qəribəm axşam bazarı.

Musa cavabında dedi:

Başına döndüyüm, qurban olduğum,
Oğul, nədi sən qəribin güzarı?
Alışıb oduna büryan olduğum,
Oğul, nədi sən qəribin güzarı?

Aldı İrvahım:

Aləm bilir mən canımdan doymuşam,
Ağ əllərim al qanıma boymuşam,
Taxt-tacımı İreydə qoymuşam,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı halvaçı Musa:

Səbəb nədi sən canınnan doyursan,
Ağ əllərin al qanına boyursan?
Təxti-şahı o İreydə qoyursan,
Oğul, nədi sən qəribin güzarı?

Halvaçı Musa İrvahıma dedi:

– Oğul, mən səni nökər yox, özümə oğul eləyirəm.

İrvahım razı olub, burada qaldı. Bunlar burada qalsın, sizə kimdən deyək, Dağıstanda Şəmi Qaradan. Şəmi qara sövdəyər sifətində gəzərdi. Amma bu elə savadlıydı ki, cəmi işlərdən başı çıxırdı. Əfsun oxuyub, dəmiri qızıl eləyirdi. Dağıstan ölkəsində Süleyman xanın Xeyransa xanım adında bir qızı varıydı. Xeyransa xanım cümə günündə hamamdan gəlirdi. Şəmi Qara bunu gördü. Qızdan xoşu gəldi. Xəbər aldı ki, bu kimin qızıdı? Dedilər:

– Süleyman xanın.

Adam göndərdi Süleymana ki, qızını mənə ver. Süleyman xan cavab verdi:

– Əyə, sən əlli yaşında, mənim qızım on beş yaşında; tutax ki, elə mən qızımı verdim, sənin insafın necə qəbul eləyər onu alasan?

Şəmi Qara cavab verdi:

– Xan, heç sənin qanacağın yoxdu. Axı sən bilmirsən mən sənin qızını özümə istəyirəm, yoxsa oğluma?

Süleyman xan dedi:

– Bizim Dağıstanda bir qayda var. Get, oğlunu gətir, bir-birini görsünlər, bəyənsinlər, verərəm.

Bu sözdən sonra Şəmi Qara yol başdıyıb, oğul axtarmağa getdi; özünün oğlu-zadı yox idi. Gəlib çatdı Herat şəhərinə. Gördü ki, bir dükanın qabağında yığınax var. Getdi ora, gördü burda çox mərifətli, bacarıqlı, gözəl bir oğlan var. Özü də halva satır.

Hamı ondan halva alır. Şəmi Qara oğlanı görən kimi xoşuna gəldi, gedib İrvahımın yeddi arxa dolanının hamısını öyrəndi. Camaat əhli dağılıb gedəndən sonra İrvahımın boynundan tutub, əl çəkmədi ki, bəs mən sənin əminəm; hər şeyi elə yerbəyeriynən dedi ki, İrvahım inandı. Şəmi Qara İrvahıma özü düzəltdiyi kağız-kuğuzu hər gecə oxuyurdu ki, başını qatsın. İrvahım onun oxumasından lap təngə gəlmişdi. Bir gün gənə Hüreynisə xanım İrvahımın yadına düşdü, odu ki, xəlvətcə əkilib oynun yanına getdi. Demə, Hüreynisə xanım yuxuda görübmüş ki, Şəmi Qara İrvahımı aldadıb oğurlayacaq. Odu ki, qız aldı, görək İrvahıma nə dedi:

Başına döndüyüm, qurban olduğum,[7]
Sən gedirsən Dağıstana, İrvahım.
Alışıb oduna büryan olduğum,
Sən gedirsən Dağıstana, İrvahım.

Aldı İrvahım cavabında:

Badi-səba yuxusundan oyanmış,
Zənax verir Dağıstana gözlərin.
Kirpiyin neştərdi, tökür qanımı,
Gedər ki, qəsd etsin cana gözlərin.

Aldı Hüreynisə:

Əmdik, əmdik yarın ləbindən, qandıq,
Şam-pərvanə kimi odlara yandıq,
O Şəmi kəsdirdi boyuna sandıq,
Sən gedərsən Dağıstana, İrvahım.

Aldı İrvahım:

Ol Şəmi burada bir qılınc asdı,
Gedəni, gələni sındırdı, basdı;
Heratın şəhrini almaqdı qəsdi,
Zənax verir Dğıstana gözlərin.

Aldı Hüreynisə:

Eşitmədin Hüreynisə sözünü,
Sinəmə qoyubsan eşqin közünü,
Sən görərsən Firəng şahın üzünü,
Sən gedirsən Dağıstana, İrvahım.

Aldı İrvahım:

Ol Şəmi burada bir qala yapdı,
Gedəni gələni sındırdı, çapdı.
Aradı, axtardı, İrvahımı tapdı,
Qoy ağlasın yana-yana gözlərin.

İrvahım gecə qızın yanında qalıb, sabah getdi tükənə. Amma Şəmi Qara bir yekə sandıq çəkdirmişdi ki, İrvahımı yuxu tutmuşdu. Elə bu vaxt Şəmi onu apardı öyə. İrvahım çox yorulmuşdu. Şəmi qara fürsəti fota verməyib dedi:

– Oğul, gəl sən bir az yat, yorğunluğunu al.

İrvahım yatan kimi, Şəmi Qara bir sehr oxuyub onu elədi ət kimi. Tez sandığa salıb, ağzını örtdü. Şəmi Qara sandığı götürüb yola düşdü. Qız bilirdi ki, yol onun öyünün qabağından keçir, hara getsələr buradan gedəcəklər. Odu ki, yolun üstünə çıxdı. Şəmi Qara dəvənin üstündə İrvahımı qoyduğu sandığın bir balaca ağzını açmışdı. Qız aldı, görək ağlaya-ağlaya nə deyir:

Şəmi Qara, sən Allahı sevərsən,[8]
Şəmi Qara, gəl aparma yarımı!
Böyük bütü kiçik bütdən seçərsən,
Şəmi Qara, gəl aparma yarımı!

Qul istəsən sənə çox qul verərəm,
Pul istəsən min tümən pul verərəm.
Dəvən üçün məxmər, zər çul verərəm,
Şəmi Qara, gəl aparma yarımı!

Hüreynisəyi qəm şərbətlə doydurma,
Məni yardan, yarı məndən ayırma.
Aparırsan, qul adına buyurma,
Şəmi Qara, gəl aparma yarımı!

İrvahım onun səsini eşitdi, aldı, görək sandıqdan ona nə dedi:

El içində gödək etmə dilimi,
Hər kəs olsa əldən qoymaz yarını.
Əydin qamətimi, bükdün belimi,
Hər kəs olsa əldən qoymaz yarını.

Şəmiyə qulunu gəl heç vermə sən,
Min tümən pulunu gəl heç vermə sən,
Dəvəyə məxmər çulu gəl vermə sən,
Hər kəs olsa əldən qoymaz yarını.

İrvahımı qəm şərvətlə doyurdu,
Yarı səndən, səni yardan ayırdı.
Gün tapdı, İrvahımı qul buyurdu,
Hər kəs olsa əldən qoymaz yarını.

Bəli, Şəmi Qara oğlanı qəflə-qatırnan Dağıstana aparmaqda olsun, Hüreynisə qızları görüb dedi:

Qızlar gəlin sizə bir söz söyləyim,[9]
Əl-əldən üzüldü, İrvahım getdi.
Cəfayi-möhnətdən bir bağ saldırdı,
Dərmədi günü İrvahım, getdi.

Geyib sallanmadıq yarın elinə,
Tirmə şallar xub yaraşır belinə.
Əcəb getdi, Şəmi Qara əlinə,
Əl-əldən üzüldü, İrvahım getdi.

Hüreynisəyəm, ala gözlər süzülə,
Dərdi-möhnət qəm öyünə düzülə.
Görüm Şəmi Qara başı əzilə,
Əl-əldən üzüldü, İrvahım getdi.

Ərz eləyək ki, Şəmi Qara üç ay on gün İrvahımı aparıb Dağıstana çıxartdı. Şəmi Qara İrvahıma dedi:

– Oğul, mən nə desəm, sən ona bəli de. Sorasıynan işin yoxdu; aparıb səni qoyacam öz yerində.

Yenə Şəmi Qara İrvahımı götürüb, Süleyman xanın evinə apardı, dedi:

– Xan, oğlum budu. Qızını verirsənmi?

Süleyman xan baxıb gördü ki, əşi, bu elə bir oğlandır ki, heç bunun oğlanları onun əlinə su tökməyə də yaramazlar. O saat qızını çağırıb dedi:

– Qızım, səni bu oğlana versəm, razı olarsanmı?

Qız İrvahıma baxanda bir könüldən min könülə ona aşiq oldu, ancaq bir söz demədi, çıxıb getdi.

Süleyman xan bir molla çağırtdırıb dedi:

– Bu oğlanı apararsan qızın yanına, qıza deyərsən atan səni bu oğlana verir. Bəyənsə hər nə desə, onu yaz gətir, bəyənməsə mənə de. Molla İrvahımı aparanda Şəmi Qara mollanın cibinə bir qızıl tullayıb dedi:

– İnsafın olsun, qız bəyənməsə də yalandan deynən ki, hə, bəyəndi.

Molla İrvahımı apardı. Şəmi Qara da gedib qapının ağzında durdu, qulaq asırdı, özü də pis-pis dualar oxuyurdu ki, oğlanın dili tutulsun. Molla dedi:

– Xanım, dədən bu oğlanı göndərib ki, bəyənirmi, bəyənirsə desin. Qız aldı görək nə dedi:

Oğlan gəlib irəfiyə dayanmış,[10]
Molla, yazginən, şah babam versin,
Mən necə bəyənim, Allah bəyənmiş,
Molla, yazginən, şah babam versin.

Neyləmişəm, mən də ona gedərəm,
Xəncəl alıb, qara bağrım dələrəm.
Babam verməsə də özüm gedərəm,
Molla, yazginən, şah babam versin.

Xeyransayam, yaxa bəndim açaram,
Yaxşıynan yamanı mən də seçərəm.
Babam verməsə də qoşulub qaçaram,
Molla, yazginən, şah babam versin.

Aldı İrvahım, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Bizim vətən hamı eldən əzizdi.
Alışıb oduna büryan olduğum,
Bizim vətən hamı eldən əzizdi.

Şirinlik görmədi, ağzımdı acı,
Yarəb, nədi bu dərdimin əlacı,
O dünya, bu dünya sən mənə bacı,
Bizim ellər hamı eldən əzizdi.

İrvahımam, əslim ay Qarabağlı,
Qardaşım itibdi ciyəri dağlı.
Şəmi Qaranın kim olar oğlu?
Bizim vətən hamı eldən əzizdi.

Oğlanın dediyini molla yazmadı, qızın dediyini yazdı. Gətirib Süleyman xana verdi. Xan gördü qızı deyir ki, atam verməsə də özüm gedəcəm. Süleyman xan o saat qızına toy eləyib, verdi İrvahıma. Bulara bir yekə otax verdilər. İrvahımla qız burda bir həftə qaldılar. Həftə tamamında qızın anasına dedi:
– Gedim görüm qızım nə qayırır?

Amma Şəmi oğlanı elə eləmişdi ki, o ətə dönmüşdü, uşaq kimi olmuşdu. Amma qız yaxşıydı. Qızın Məmmədbağır adında bir əmisi oğlu varıydı. Anası gəlib gördü, qızı çox qəmgindi, dedi:

– Ay bala, özün bəyəndin, özün getdin, niyə qəmginsən.

Qız götürüb anasına görək nə deyir:

Səhər olar, durar gedər oyuna,[11]
Ana, vallah, mən oğlana getmərəm.
Öpüb qucmaq gəlməz onun eyninə,
Ana, vallah, mən oğlana getmərəm.

Bir molla gərəkdi gələydi bizə,
Mən dedikcə o da dərdimi yaza.
O qız, mən qız – necə gedər qız qıza?
Ana, vallah, mən oğlana getmərəm.

Arı desən, qızılgüldən arıyam,
Duru desən çeşmələrdən duruyam.
Xeyransayam, Məmməd Bağır yarıyam,
Ana, vallah, mən oğlana getmərəm.

İrvahım qızın cavabında görək nə dedi:

Bülbül kimi tərgi düşdüm gülümə,[12]
Yaxam keçdi qədirbilməz əlinə.
Nə əli əlimə, dili dilimə,
Yaxam keçdi qədirbilməz əlinə.

Hər nə desəm özü özündən küsər,
Sənin dərdin sinəmdədir sərbəsər.
Xəfəngin altından o qulax asar,
Yaxam keçdi qədirbilməz əlinə.

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə cavan ömrüm ağlıyam.
İrvahımam, Zülal şahın oğluyam,
Yaxam keçdi qədirbilməz əlinə.

Söz tamama yetib qurtarır. Arvad gəlir, əhvalatı Süleyman xana danışır. Xan Şəmi Qaranı çağırıb deyir:

– Bu nə əhvalatdı, oğlan qıza əl vurmur?

Şəmi deyir:

– A kişi, bir səbrin olsun. Onu mən tapşırmışam. Mənim də elim-günüm var. Aparıb orda təzədən toy eləyəcəm, sonra oğlan qıza yaxın duracaq.

Xan Şəmi Qaranın sözünə inanıb, onları öz ellərinə yola salır. Üç ay doqquz gün yol gedib Firəngistana çatırlar. Firəngin xanı çox zalım adam idi. Şəmi Qara yaxşı bilirdi ki, ona şikayət eləsə İrvahımı o saat öldürəcək. Şəmi özünü yetirib xanın qulağına dedi:

– Sizdə ədalət varsa, mənə kömək eləyin.

Firəng xanı:

– Kişi nə olub?

Şəmi dedi:

– Mənim bir nökərim var, özü boylu-buxunlu, gözəl bir oğlandı. Amma qırx ildi nə qədər arvad alıram hamısını əlimdən alır.

Xan o saat cəlladlara əmr elədi:

– O nökəri öldürün!

İrvahımı xanına yanına aparanda Xeyransa xanım da onnan gəldi. Ustalara deyir ki, Xeyransa xanımın balaca barmağında bir üzük varıydı, onun qaşı zəhərliydi. Şəmi o zəhərin gücünə qızın ağlını oğurlaya bilmirdi. Elə ki xan əmr elədi oğlanın başını vursunlar, qız irəli yeriyib dedi:

– Siz qoyun mən əhvalatı danışım, o uşaqdı. Şəmi onun dilini bağlayıb, sözümü deyim, sonra ikimizi də öldürün.

Xan icazə verdi, qız aldı, görək nə dedi:

Uzaq yerdən səni deyib gəlmişəm,[13]
Əlac qaldı sənə, Firəngin xanı.
Səni mən özüm qahmar bilmişəm,
Əlac qaldı sənə, Firəngin xanı.

Canım qurban İrvahımın canına
Öldürüb batmaynan nahaq qanına.
Bir çapar göndər Dağıstan xanına,
Əlac qaldı sənə, Firəngin xanı.

Dərin-dərin dəryalara dalıbdı,
Cavan canımı eşq oduna salıbdı.
Babam məni İrvahıma veribdi,
Əlac qaldı sənə, Firəngin xanı.

Qız sözünü deyəndən sonra xan Şəmi Qaranı, qədim əyyamdan qalmış bir quyu varıydı, ora atdırdı. Quyunun başına da iki adam qoydurdu ki, onun canı çıxana qədər gərək burda durasınız. Firəng xanı qıznan oğlana dedi:

– İndi deyin görüm, burda qalmaq istəyirsiniz, yoxsa getmək?

Hər ikisi icazə alıb getdilər. Bir çəmənlikdə oturub kef elədilər. Bu vaxt idi ki, Şəmi Qara qalmışdı quyunun içində. Şəmi dedi:

– A quyunun başındakılar, mən də oğullu-uşaqlı adamam, quyunun içində qalıb ölməyimin sizə nə xeyri var? Alın sizə çoxlu qızıl verim, məni çıxardın.

Qaraullar öz-özlərinə dedilər:

– Əşi, xan nə bilir burda nə var? Qoy çıxardıb buraxaq.

Bəli, Şəmi bir əfsun oxuyub üfürdü, daşı-kəsəyi elədi qızıl-gümüş, bunlara verdi. Şəmi Qara quyudan çıxıb başladı getməyə. Bir xeyli getmişdi, bir də gördü İrvahımnan qız burda sarmaşıb yatıblar.

Yetirən kimi hərəsinə bir çubuq vurub dedi:

– Əyə, sən bilmirsənmi, İsfahanda bir qarpız kəssələr mən onun içində olaram?! Siz hara qaçıb gedirsiniz mənim əlimdən?

Qızı qaldırıb bir kök dəvənin üstünə, oğlanı da bir arıx dəvənin üstünə qoydu. Başladılar Misirə doğru yol getməyə. Ancaq Misirnən Firəngin arasında bir körpü varıydı, nə hündürlüyündə idi. Bu körpünün üstünnən keçəndə Şəmi Qara istədi İrvahımı körpüdən atsın. İrvahım əlin atdı ki, bir yerdən tutsun, körpünün dəmiri onun ayağından ilişib, başına qədər ətini yardı. İrvahımı qan apardı. Qız bunu görən kimi, barmağından üzüyü çıxartdı ki, zəhəri içib ölsün. Şəmi Qara qoymadı. Dedi:

– Ay qız, oğlan özü yıxıldı, qorxma, heç nə olmaz. Bu vaxt İrvahım götürüb dedi:

Ay Şəmi Qara, sən Allahı sevərsən,[14]
Doğru qoyub, əyri getmə yolları.
Bu nə yoldu ona qulluq edirsən,
Doğru qoyub, əyri getmə yolları.

Bir xəbər gəlmədi şah qardaşımdan,
Qurtarmadım elin tənə daşından.
Yarım sənin olsun, əl çək başımdan,
Doğru qoyub, əyri getmə yolları.

İrvahımam, hax söylərəm sözümü,
Yaş yerinə qan bürüyüb üzümü.
Zülal şah oğluyam, itirmişəm özümü,
Doğru qoyub, əyri getmə yolları.

Aldı qız görək İrvahıma nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Əcəm oğlu, iyitliyin günüdü.
Alışıb oduna büryan olduğum,
Əcəm oğlu, iyitliyin günüdü.

Geyib sallanmadıq yarın elinə,
Tirmə şallar xub yaraşır belinə.
Məni vermə Şəmi Qara əlinə,
Əcəm oğlu, iyitliyin günüdü.

Dəvələr yüklənib, yükü bardandı,
Gədiklər bağlanıb, tamam qardandı.
Xeyransayam, namusdandı, ardandı,
Əcəm oğlu, iyitliyin günüdü.

Qız özünü öldürməsin deyə, Şəmi oğlanı gətirib gənə qoydu dəvənin belinə. Başladılar getməyə. Gəlib Misirin dəryasına çatdılar. Gavdan paşaya dedilər:

– Bizdən nə alacaqsan?

Gavdan paşa dedi:

– Da mən pul almıram, padşahın əmri var.

Şəmi dedi:

– Əşi, padşah burda ha deyil, nə bilir? Ala bu bir ovuc qızılı, bizi keçir. Özü də keçəndə sən bu oğlanı at dəryaya, boğulub ölsün.

Gavdana tamah güc elədi, pulu alıb dedi:

– Yaxşı.

Gəmi dəryada üzürdü. Birdən İrvahımı itələyib suya saldılar.

Qız bunu bildi, istədi genə zəhər içə, Şəmi qoymadı. İrvahım bir balaca taxta paranın üstünə düşdü. İrvahım görək taxta paranın üstündən qıza nə deyir:

Dərdin alım mələkzada,[15]
Gəmim də qaldı dəryada.
Haqq özü yetişsin dada,
Gəmim də qaldı dəryada.

Gəmim də dəryada qalsa,
Saralıb irəngim solsa.
Aslan paşa xəbər alsa,
Deynən qardaşın dəryada.

Çıxar qıraxda otursan,
Ağ üzdən busə götürsən,
Aslan adlı bir şah görsən,
Deynən İrvahım dəryada.

Aldı qız cavabında ağlaya-ağlaya dedi:

Zalım cəllad dörd yanımda,
Qoymurlar düşəm dəryaya.
Kəlmeyi-şəhadət dilimdə,
Qoymurlar düşəm dəryaya.

Hər yerdən kəsdin çaramı,
Bağlayan yoxdu yaramı.
Dörd yanımı aldı haramı,
Qoymurlar düşəm dəryaya.

Xeyransayam, oldum dəli,
Dadına yetişsin əli.
Şəmi Qara, deməm bəli,
Qoymurlar düşəm dəryaya.

İrvahım qaldı taxtanın üstündə, olar isə çıxıb getdilər. Qız gördü ki, iş-işdən keçib, dedi:

– Gərək mənə elə bir öy tikdirəsən ki, başı göydən, ayağı yerdən nəm çəkə. Sonra sənə gedəm. Şəmi Qara o saat öyü hazır elədi. Öyün

qapısı-zadı yox idi, öyə çarxnan çıxırdılar. Qız çoxlu yeməkdən-zaddan götürüb dedi:

– Di məni çıxardın yuxarı.

Çarxı qurub, qızı çıxartdılar öyün yuxarısına.

Sonra Şəmi dedi:

İndi də mən çıxıram.

Qız dedi:

– Onu görməyəcəksən. Çıxmaq istəsən kəndiri kəsəcəm, yıxılıb öləcəksən. İndi bir şərtim var, mənim atamın yanına Dağıstanda özüm tikdiyim bir köynək var, o köynəyin yaxasında İrvahımnan mənim adım yazılıb, gedib onu taparsan, İrvahımı da öldürüb, qanını o köynəyə bularsan, sonra sənə gedərəm.

Bəli, bayaqdan İrvahımın ölməyini istəyən Şəmi Qara indi Allaha yalvarırdı ki, ay Allah, İrvahım ölməmiş olaydı, onu tapıb, qanını bu köynəyə sürtəydim. Şəmi Qara düşüb gəzməkdə olsun, bu tərəfdən də İrvahımı ləpə vurub kənara çıxartdı. Dərya kənarında İrvahım qumun üstündə oturmuşdu. Bu tərəfdən də Aslan şahın iki çobanı varıydı, birinin adı Vəliydi, birinin də adı Budaqıydı. Budaq yaman dəlisoydu. Bunların qabağından beş-altı davarı itmişdi. Çobanlar onu axtara-axtara gəlib bir dağın başına çıxmışdılar. Budaq Vəliyə deyirdi:

– Vallah, bu divarı oğurlayanı tapsam bu çomaqnan onu elə vuracağam ki, lap xurdu-xaşıl olub ölsün. O biri tərəfdən İrvahım dərya kənarında heç kimi görmədi, odu ki, aldı, görək nə dedi:

Ağlaram, sızlaram dərya kənarında,
Hər yana baxaram bir baş bulunmaz.
Bundan artıq dərdə də olmaz ziyada.
Bəlalı başıma yoldaş bulunmaz.

Dərya kənarında mən də oturdum,
Bu qəmli könlümə xəncəl batırdım.
Misir ölkəsində qardaş itirdim,
Hər yana baxıram qardaş bulunmaz.

İrvahım dediyin qürbət eldəndi,
İyidə əskiklik kəndi-dildəndi.
Arvad yad qızıdı, oğul beldəndi,
Oğul tapılsa da, qardaş bulunmaz.

Dəli Budaq İrvahımın səsini eşidib dedi:

– Ay Vəli, deyəsən davarı oğurlayanı tapmışam, deyəsən su adamıdı. Əyər suya girib gizlənməsə ona bir çomaq vuracağam ki, burunotudan yumşaq olsun.

İrvahım Budağa baxıb gördü ki, bu tanrı torpusu dəyməyib, onu vurub öldürəcək, özünü bir çökəyə verdi, yenə olmadı. Çoban yüyürüb, İrvahımı tutub qışqırdı:

– Ay Vəli, yetir bura, oğrunu tutmuşam, özü də su adamıdı.

Vəli gəlib dedi:

– Ədə, bu su adamı döyül, aşıqdı, öldürmə!

Budaq dedi:

– Ay Vəli, belə yekə də aşıq olar? Aşıq balaca sümükdü.

Cibindən bir xışma aşıq çıxartdı:

– Bax, aşıq belə olar.

Vəli İrvahıma dedi:

– Ay aşıq qardaş, bu lap zırrama çobandı, aşıq nə olduğunu da qanmır. Ə aşıq, sən çıxart bir sazını, çal, bəlkə zırramanı yola gətirə bildin.

İrvahım sazı alanda dəli çoban qaçıb kənardan dedi:

– Ayə, o sazı sal qabına, əyər qoyunum ürküb qaçsa, səni xurd-xaşıl eliyəcəm. İrvahım üzünü tutub Vəli çobana dedi:

Dərdin alım Vəli çoban,[16]
Mən səni deyə gəlmişəm.
Könlümə sən saldın güman,
Mən səni deyə gəlmişəm.

Əlimdən alma sazımı,
Qoy sənə deyim sözümü,
Süleyman xanın qızını
Dəryada qoyub gəlmişəm

İrvahımam, budu diləyim,
Səninən gedir ürəyim.
Dəryada qaldı mələyim,
Mən səni deyə gəlmişəm.

Vəli dedi:

– Çoban qardaş, o dınqır-dunqurunu çalsa qoyuna nə qurt təpər, nə quş – hamısı qorxub qaçar.

İrvahımı ayda bir çəpişə danışıb apardılar. İrvahım altı ay burda qoyuna getdi, hər ay bir çəpiş aldı. Altı ay tamamında çobanlar şəhərə çəpiş satmağa gedirdi. İrvahım onlara dedi:

– Mənim paltarım yoxdu, qoyun mən də aparım bu çəpişləri satım, paltar alım.

Bu da qoşuldu çobanlara, Şəmi Qara yolda bunları gördü. Görən kimi də İrvahımı tanıdı. Deyirlər, şəhərdə bir qəssab var idi. Şəmi onun yanına gedib dedi:

– Əyə, Sallax, niyə alver eləmirsən?

Sallax dedi:

– Mayam yoxdu, nəynən eləyim.

Şəmi ona yüz tümən verib dedi:

– Ala, get o bazara aparılan davarların hamısını al, olsun sənin.

Kişi gedib çobanlar gətirdikləri davarların hamısını aldı. Şəmi dedi:

– Sallax, o çobanların içərisində İrvahım adlı bir oğlan var, onu öldürüb, qanın bu köynəyə batırarsan, mənə verərsən, nə istəsən sənə verərəm.

Qəssab Sallax razı oldu. Şəmi özünü bir molla sufatına salıb, gəldi çobanın yanına, dedi:

– Çoban, mənim öyüm odu, ala bu on türnəni, o uşağı göndər, mənim qəssəbdə ətim var, onu alsın, gətirsin. Çobanlar razı oldu. İrvahım gedib Sallax qəssabına dedi:

– Sallax qardaş, məni ət üçün göndəriblər, ət hazırdırmı?

Sallax İrvahımı görən kimi tez sıçrayıb yıxdı yerə. İrvahım ağlaya-ağlaya görək nə dedi:

Aman, Sallax qardaş, dönüm başına,[17]
Öldürmə, Allaha bağışla məni!
Gəl rəhm elə gözdən axan yaşıma,
Öldürmə, Allaha bağışla məni!

Anam yoxdu, yada salıb ağlasın,
Bacım yoxdu, yaralarım bağlasın.
Allah sənin balaların saxlasın,
Öldürmə, Allaha bağışla məni!

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə cavan ömrüm ağlıyam.
İrvahımam, Zülal şahın oğluyam,
Öldürmə, Allaha bağışla məni!

İrvahım sözünün axırında dedi ki, Zülal şahın oğluyam. Sallax fikirləşdi ki, ay gidi, bizim padşahımız da deyir Zülal şahın oğluyam. Sonra bunlar qohum olar, mənim kökümü kəsərlər. Odu ki, İrvahımı öldürmədi, dedi:

– Oğul, sən köynəyin ver mənə, özün də qaç get.

İrvahım köynəyin ona verdi. Sallax köynəyi qoyun qanına batırıb saxladı, Şəmi gələndə ona versin ki, guya İrvahımı öldürüb.

İrvahım qaça-qaça başladı getməyə. Qız hündür öyün təpəsindən baxıb gördü ki, bir adam gəlir, yerişindən İrvahıma oxşayır. Qız səsləndi:

– İrvahım, İrvahım!

İrvahım istədi baxmasın, qaçsın, qız bir də səslədi:

– Mən anamdan qız olmuşam, qızam, dul olmuşam, dulam, qayıt gəl!

İrvahım öz-özünə dedi:

– Əşi, bu zənən xaylağı mənnən əl çəkmir, mənə nolub onnan qaçıram?! Odu ki, hay verdi. Qız çarxnan ipi sallayıb oğlanı çəkdi yanına, hər iki cavan burda bir-birinə sarmaşmaqda olsun, görək Şəmi noldu? Şəmi gəlib Sallaxdan qanlı köynəyi aldı. İrvahım qaçanda papağı da düşüb qalmışdı, onu da götürdü. Gəldi qız olan imarətin dibinə, dedi:

– Xeyransa xanım! İrvahımı öldürdüm, ala bu da köynəyiynən papağı.

Elə bu vaxt İrvahım başını qaldırıb dedi:

– Yalançının atasına lənət, bəs mən nəyəm?!

Bu vaxt Şəmi acığından az qaldı dəli olsun. Düz getdi şahın yanına şikayətə, dedi:

– Bu vilayət niyə yiyəsizdi, bir nökər mənim arvadımı əlimdən alıb.

Şah dedi:

– A kişi bu nə sözdü?

Şəmi genə elə əvvəlki sözünü dedi. Vəzirlikdən kənar olunan Sirri Sübhan vəzir də orada bir kənardaca oturmuşdu.

Aslan şah cəlladlara əmr elədi ki, gedin, onu gətirin. Cəlladlar yeriş elədilər qalanın dibinə, İrvahıma dedilər:

– Düş aşağı!

Qız bir heyvərə qaya götürüb dedi:

– Buradan getməsəniz təpənizə bir daş salaram, yerə girərsiniz.

Cəlladlar geri qayıdıb əhvalatı Aslan şaha söylədilər. Padşah dedi:

– Gedin bütün fərhadları aparın, o qalanı çapıb dağıtsınlar.

Vəzir genə irəli yeriyib dedi:

– Ey padşah, bir gədədən ötəri o qalanı çapdırma, hamı sənə gülər.

Padşah dedi:

– Bəs neyliyim?

Vəzir dedi:

– Sən mənə söz ver ki, onu öldürməyəcəksən, mən gedim gətirim.

Padşah razı oldu. Sirri Sübhan vəzir Quranı götürüb, çəliyini əlinə alıb, qalanın dibinə getdi, nə qədər yalvardısa, oğlanla qız qaladan düşmədi. Axırda vəzir and içdi ki, sənin nişanlına ölüm yoxdu, qorxma, mən cavabdehəm.

Qız gördü əlac yoxdu, götürüb vəzirə dedi:

– Budu səndən iltimasım, Sirri Sübhan, ey vəzir!
Dad çərxi-fələk əlindən, yetdik cana, ey vəzir!
İzn ver, baş qoyum rikabına yana-yana,
İçmişəm camı-cəfadan qana-qana, ey vəzir!

Mənim yarımı sağ-salamat apar şah yanına,
İlahidən bir od düşsün o Şəminin canına.
Səni and verirəm qəsəmə, Məhəmməd şanına,
Elə sən dərdimə əlac, misri-loğman, ey vəzir!

Rizə-rizə doğrasalar da mən ona razıyam,
Mən ki, varam, İrvahımın eşq odunun suduyam,
Gər xəbər alsan, Dağıstanda Süleyman xan qızıyam,
Xeyransayam mən, bağrım döndü al qana, ey vəzir!

Sonra qız İrvahımı vəzirə qoşub yola salır. Eşit çobandan.

Çoban da Misirdən hüt vurub ölkələrə düşmüş, İrvahımı axtarırmış. Ustadlar deyir, dəli çoban hansı eyvanın sütunundan tutsa, onu uçurdarmış. Dəli çoban gəlib çıxdı, gördü, bir adam İrvahımı aparır. Çoban nə qanır, vəzir nədi, şah nədi, istədi yetirib vəziri çomaqlasın.

Vəzir ağıllı adamıydı, bildi çoban onu vuracaq. Odu ki, İrvahıma dedi:

– Oğul, bir az yeyin gəl, özümüzü içəri salaq.

Gəlib çatdılar padşahın yanına. Şəmi dedi:

– Ey qibleyi-aləm, bax, nökər budu. Çoban da bunların dalınca özünü yetirib öyə, baxdı, dedi:

– Ay Vəli, gör nə yaxşı öydü. Kaş bu öy mənim olaydı, qoyunu burada saxlayaydım.

Şah gördü, bu çoban heç nə qanmır, elə, əyə, çobanımı ver, – deyib, az qalır aləmi uçurtsun. Odu ki, dedi:

– Ay çoban, sakit ol. Bu saat çobanını qaytarıb özünə verəcəm.

Bu zaman Ziyad haramı da öz arvadıynan içəri girib dedi:

– Ey qibleyi-aləm, bu mənim oğlumdu, ver özümə.

Padşah dedi:

– Oğlun günahkardı, qoy bir neçə söz xəbər alaq, təmizə çıxarsa verərəm, çıxmazsa cəzasını çəkər.

Kişi padşah hökmünə nə deyə bilərdi, odu ki, bir qıraqdaca durdu.

Şəmi dedi:

– Şah sağ olsun, bunda bir dil var, o dilnən özünü qurtaracaq. Onu ver, mən özüm aparım sual eləyim.

Şah əvvəlcə razı oldu. Şəmi İrvahımı aparanda qapıda dəli çoban Şəmiyə elə bir dürtmə vurdu ki, yumurlanıb düz düşdü şahın yanına. Dəli çoban dedi:

– Hara aparırsan mənim belə çobanımı?

Vəzir çox ağıllı adamıydı, odu ki, dedi:

– Şah sağ olsun, niyə belə eləyirsən? Bu oğlanı özün danışdırsana.

Şah İrvahıma dedi:

– Oğul, bu düzdümü – bu kişinin qırx arvadı olub, hamısını əlindən almısan?

İrvahım dedi:

– Şah, icazə ver, hamısını danışım:

Şah icazə verdi, aldı İrvahım, görək nə dedi:

Əzəl başdan qara gəlibdi baxtım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!
Yadıma düşübdü vətənim taxtım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

O zaman ki, mən şəhri-Reydən gəldim.
Saralıban heyva təki mən soldum,
Yoruldum, yoruldum, günbəzdə qaldım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

O zaman ki, gecə günbəzdə qaldım,
Dərdin əlindən mən zinhara gəldim,

Ziyad haramıya mən oğul oldum,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Çarxı-fələk genə məni güldürdü,
Güldürübən eynimi qana doldurdu.
Beyman qarı gəldi yaman qandırdı,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Başıma gəlməmiş qalmadı xata,
İyid gərəkdi mətlubuna çata.
Qırx gün yol gəlibən çatdım Herata,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Qurban olum sənin təki Aslana,
Əyri qılınc dal gərdəndə paslana.
Üç ay on gün yol getdim Dağıstana,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Nə müddətdi karvan düşübdü ləngə,
O Qara Şəmiynən durmuşuq cəngə.
Üç ay yol gedib də çatdım Firəngə,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Qurban olum Musa kimi ataya,
Gor fələk məni yetirdi bu boya.
Gəmiçi baş atdı məni dəryaya,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Üç gün taxta-para üstündə qaldım,
Saralıban heyva kimi mən soldum.
Ayı bir çəpişə mən çoban oldum,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Nagah yerdən mən dəryaya atıldım,
Birdən-birə eşq oduna qatıldım.
Yüz tümənə mən Sallaxa satıldım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Mənim başım şah yolunda fərmandı,
Qanım bu Qara Şəmiyə dərmandı.
Bu Sallax öldürmədi, bağışladı,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Zülal şah oğluyuq biz iki qardaş,
Hərəmiz götürdük bir qiymətli daş.
Aslan böyük, İrvahım kiçik qardış,
Əcəm torpağına düşdüm, neyləyim?!

İrvahım şeirnən başına gələni deyəndə bir yerdə də Rey şəhərinin adını çəkdi. Aslan şah bu sözü eşidəndə başı hərləndi, tappıltıynan taxtdan yerə yıxıldı. O saat Şəmi dedi:

Sizə dedimmi ki, bunun danışığı yamandı, bir kəlmə söznən kişini öldürdü. Şəmi mətləbi başa düşmüşdü. İstədi əkilə. Dəli çoban qapıda dedi:

Anırı get, heş yerə səni buraxmaram! Kişiyi nə cür öldürübsən, elə də dirilt, sonra buraxım.

Vəzir padşahı ayıltdı. Aslan şah qardaşının boynunu qucaqladı. Hər iki qardaş bir saat bir-birinin boynundan ayrılmadılar. Aslan şah o saat Gavdan paşanı çağırtdırıb dedi:

– Əyə, zalım oğlu, mən sənə əmr eləmişdim ki, heç kimdən pul alma. Sən ki mənim əmrimi pozmusan, indi al cəzanı. Onun boğazına bir put qurğuşun tökdürüb, həmin dəryanın ortasına saldırdı. Sonra bir araba nöyüt də qarının üstünə töküb, onu yandırtdı.

Şəmi Qaranın da təpəsindən dəli çoban elə bir çomaq vurdu ki, beyni qatıx kimi yerə dağıldı. Çoban dedi:

– Bax, mənim bala çobanımı bu zalım əlimdən aldı.

Hər iş qurtarandan sonra İrvahım bütün başına gələni qardaşına söylədi, dedi:

– Qardaş, burada olan qız mənim sirdaşım, iki gözümdü. Ölsəm də bundan ayrılmaram. Ancaq mənim nişannım Herat şəhərində Fətəli xanın qızıdı.

Aslan şah dedi:

– Qardaş, sən çox əziyyət çəkibsən, bu dəfə mən gedib qızı gətirrəm.

Şah Sirri Sübhan vəziri də, çox ağıllı adam olduğuna görə, təzədən öz yerinə vəzirliyə qaytardı. Sonra qoşunnan, dəm-dəsgahnan qızı gətirməyə getdilər. Aslan şah əvvəlcə gedib Xeyransa xanımı gətirdi

İrvahımın yanına. Bunları burda qoyub, getdi Herat şəhərinə. Heratda qız vağıyasında görmüşdü ki, İrvahım gəlib, amma bir az saqqallanıb. Qız yuxudan durub gördü ki, ay gidi, bu yuxu döyül, elə aşkardı. İrvahım, dalında da qoşun gəlib çıxdı. Qız Aslanı İrvahım hesab etdi, saçından iki tel siyrib döşünə basdı, götürüb görək nə dedi:

Axşam gördüm vaqiyəsin,
Qızlar, budu, yarım gəldi!
Qurtardım hicrandan, qəmdən,
Qızlar, budu, yarım gəldi!

Aldı Aslan şah, görək cavabında nə dedi:

El içində gödək etmə dilimi,
Gözəl, yarın mən deyiləm!
Əydin qamətimi, bükdün belimi,
Gözəl, yarın mən deyiləm!

Aldı qız:

Gedəndə elə deyirsən,
Gələndə belə deyirsən,
Qəndinən noğul yeyirsən,
Qızlar, budu, yarım gəldi!

Aldı Aslan şah:

Misir şahının şahıyam,
Gözəllərin sirdaşıyam,
İrvahımın qardaşıyam,
Gözəl, yarın mən deyiləm!

Aldı qız:

Hüreynisəyəm, itib huşum,
Zəhərinən bişib aşım.
Həmi qaynım, həm qardaşım,
Elə sandım yarım gəldi!

Aldı Aslan şah:

Aslan şaham, çoxdu gücüm,
Misirdən gəlir xəracım.
Həmi yengəm, həmi bacım,
Gözəl, yarın mən deyiləm!

Sonra Aslan şah Fətəli xanı çağırtdırıb dedi:

– Qızı niyə vermirsən? Axı mənim qardaşımın butasıdı.

Fətəli xan dedi:

– Mən qızı halvaçı Musanın oğluna vermişəm.

Halvaçı Musa da gəlib dedi:

– Mənim oğlumu oğurlayıb apardılar.

Məsələ aydın oldu. Aslan şah dedi:

– O mənim qardaşımdı.

Musa kişini də götürüb apardılar özlərinin yanına, təzədən toy eləyib şad-xürrəm ömür sürdülər.

Mən səni görəndən bəri,
Halım pərişandı, Maral!
Ləblərin şəhdi-şəkər,
Xəstəyə dərmandı, Maral!
Qatılıbdır baş-başa,
Qaşların kamandı, Maral!
Açılıb qoynun içi,
Bağı-gülüstandı, Maral!
Dərd bilməz naqis dedi,
Dərd bilən imandı, Maral!

Camalın görəndən bəri,
Olmuşam heyran sənə mən.
Gəl əyləş məclisimdə,
Eyləyim dövran sənə mən.
Bir gecəlik otağında
Olmuşam mehman sənə mən.
Qıymaram mal deməyə,
Can dedim, qurban sənə mən.

Bu gözəllik sənə qalmaz,
Bu çərxi dövrandı, Maral!
Gör Kərəmə nə etdiniz,
Döndü Musayə, bəsdimi?
Məscidin tərkin qılıb,
Girdi kilsəyə, bəsdimi?
Ağladı, dəxil düşdü
Turi-Sinaya, bəsdimi?
Quranı oda atdı,
Yandırdı ayə, bəsdimi?
Zülm ərşə bülənd oldu,
Asmana dayandı, Maral!

Lənət gəlsin keşişə,
Aləmdə bir səs elədi.
Qızı getdi, o vermədi,
Evladilə bəhs elədi.
İki yarı bir-birindən
Ayırdı əbəs elədi.
Çəkibən din təəssübün,
Kərəmə qisas elədi.
Haqq özü də qisas alar,
Ədalət divandı, Maral!
Sən bir tərsa qızısan,
Əydin qəddin, dal elədin.
Yıxdın könlümün evini,
Gör necə xəyal elədin.
Mənimlə yaman başladın,
Belə qilü-qal elədin.
Göyçəli aşıq Musanı
Dərdindən abdal elədin.
Əl mənim, ətək sənin,
Ölürəm, amandı Maral!

# Şah İsmayıl

## USTADNAMƏ

Üç yaşından beş yaşına varanda,
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda,
Arıdan saçılmış bala bənzərsən.

On dördündə sevda yenər başına,
On beşində yavan girər duşuna,
Çünki yetdin iyirmi dörd yaşına,
Boz bulanıq axan selə bənzərsən.

Otuzunda kəhlik kimi səkərsən,
İyidlik eyləyib qanlar tökərsən,
Qırxında sən əl haramdan çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən,

Əllisində əlif qəddin çəkilir,
Altmışında ön dişlərin tökülür.
Yetmişində qəddin, belin bükülür,
Karvanı kəsilmiş yola bənzərsən.

Səksənində sinir yenər dizinə,
Doxsanında qubar qonar gözünə,
Koroğlu der: çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, dostların könlü tox olsun.

Hökuməti-Zöhhak, ol Rüstəmi-Zal,
Oxun qara daşa çaldı da getdi.
Üzü qara iblis xəyal eylədi.
Tanrı qəzəbini aldı da getdi.

Yetmiş iki dildən eylədi əzbər,
Quşlar dili ilə apardı xəbər,
Söylə, hanı o Süleyman peyğəmbər?
Əlindən qamçını saldı da getdi.

Yunis çəkdi o tanrının cəbrini,
Gəmiyə qoydular Nuhi-nəbini,
Endi, gəşt eylədi dərya dibini,
Bir müddət balıqda qaldı da getdi.

Ay ilə gün bir-birilə ötüşüb,
Müşkül işi dua ilə bitişib,
Ərizün indi növbət sənə yetişib,
Çoxlar bu dünyaya gəldi də getdi.

Ustadlar ustadnaməni iki deməyib, üç deyərlər, biz də deyək üç olsun.

Dinləyin, ağalar, tərif eləyim,
Heç yaza çıxmasın qışı namərdin.
Kor olsun gözləri, batsın oylağı,
Alaqarğa olsun quşu namərdin.

Ovcunun içində yeyər çörəyi,
Qapıdan çağırsan titrər ürəyi,
Qurusun meyvəsi, bağı tənəyi,
Heç aşa dəyməsin dişi namərdin.

İstəməz yanında yarı, yoldaşı,
Heç gəlməz evinə qohum-qardaşı,
Nagah gəlsə salar talaşı,
Açılmaz qabağı, qaşı namərdin.

Canım qurban olsun mərd oğlu mərdə,
Mərifət dilində, kamalı sərdə.
Nagah bir qulluğun düşsə namərdə
Çal qabana dönər başı namərdin.

Axşam olur, molla verir azanı,
Heç qaynamaz ocağında qazanı,
Qınamırsız bu sözləri yazanı?
Bundan beş-betərdi işi namərdin.

Mən adımı bildirmərəm ellərə,
Namərd düşsün cəlay-vətən çöllərə.
Qazandığı nemət getsin yellərə
Qalmasın daş üstə daşı namərdin.

Ustadlar nağıl eyləyirlər ki, Qəndəhar şəhərində Ədil adlı bir padşah var idi. Ədil padşah o qədər varlı, dövlətli idi ki, dəryalar mürəkkəb olsa idi meşələr qələm, onun dövlətini hesablamaq olmazdı. Ədil padşah bir gün başını qırxdırmaq üçün bir dəllək çağırtdı. Dəllək, naşı idi, padşahın başını qırxıb, tükünü qabaq tərəfdən döşünə tökdü. Padşah başının tükünü ağarmış görəndə bir yanıqlı ah çəkdi. Bildi ki, ömrünün, gününün keçmiş vaxtıdı. O saat vəziri çağırtdırdı. Elə ki vəzir gəldi, padşah üzünü ona tutub dedi:

– Ay vəzir, özün mənim dövlətimin, malımın həddən aşdığını yaxşı bilirsən. Günün keçib, başım gora titrəyir. Mən öləndən sonra bu mal-dövlətə sahib olub çırağımı yandıran bir evladım yoxdu. De görüm, bu barədə tədbirin nədi?

Vəzir dedi:

– Təsəddüqün olum, sən mal-dövlətini üç qısım elə. İki qısmını fağır-füğaraya payla, bəlkə evladın ola.

Ədil padşah dövlətini üç qısım elədi. İki qısmını fağır-füğaraya payladı.

Bundan xeyli keçdi. Bir gün padşahın qapısına bir dərviş gəldi. Padşah ona pay verdi. Dərviş payı almayıb dedi:

– Biz pay alan dərvişlərdən deyilik, pay verən dərvişlərdənik.

Dərviş bu sözdən sonra cibindən bir alma çıxardıb, padşaha verib dedi:

– Bu almanı soy, qabığını qulunluğundan doğmayan Qəmərnişan madyana ver; özünü də iki qısım elə, bir qısmını sən ye, bir qısmını da arvadın yesin. Çox keçməz ki, bir oğlun olar. Oğlunun adını Şah İsmayıl qoy. Qəmərnişan madyanın da bir qulunu olar, onun da adını Qəmərday qoy. Şah İsmayıl o Qəmərdaydan savayı heç bir at gəzdirə bilməz. Şah

İsmayılın başına çox qəza-qədər gələr, axırda mətləbinə çatar, tacı-taxtına sahib olar.

Ədil padşah dərvişdən almanı aldı, arvadının yanına gəldi. Almanı soydu, qabığını Qəmərnişan madyana verdi, özünü də iki qısım elədi, birini arvadı, birini də özü yedi. Aylar keçdi, Ədil padşahın bir oğlu oldu. Oğlanın adını Şah İsmayıl qoydular. Şah İsmayıl anadan olan günü Qəmərnişan madyanın da bir yaxşı qulunu oldu. Qulunu Qəmərday adlandırdılar. Qəmərdayı tövləyə bağlayıb, muğayat olmağa başladılar.

Ədil padşah oğlunu dayaya verdi. Şah İsmayıl yeddi-səkkiz yaşına çatdı. Ədil padşah o zamanın adətilə oğlunu yaman gözdən saxlamaq üçün zirzəmidə ona məxsus bir otaq qurdurdu. Bir molla ona burada dərs verməyə başladı. Günlər keçdi, aylar dolandı, Şah İsmayıl böyüyüb on beş yaşına çatdı. Elə idi ki, zirzəmidə yaxşı xörəklərdən yeyib, yeddi-yaşar buğaya dönmüşdü, əlinə keçəni vururdu, qırırdı. Şah İsmayılın bu nadincliyinə görə, aşpaz ona həmişə sümüksüz xörək verərdi. Bir gün molla ilə aşpaz şəhərə çıxmışdı. Şah İsmayılın yemək vaxtı idi. Xörəyi aşpaz şəyirdi hazırladı, sümüyünü çıxartmamış apardı. Şah İsmayıla verdi. Şah İsmayıl xörəyi yediyi vaxt sümük əlinə keçdi. Şah İsmayıl ha çalışdı sümüyü qıra bilmədi. Dedi, yəqin bu da ət ağacıdı. Sümüyü bərk salvey-ladı. Sümük əlindən güllə kimi çıxdı, dəyib şüşəni sındırdı, zirzəmiyə gün düşdü. Şah İsmayıl ta uşaqlıqdan bəri işıqlı dünyaya çıxmamışdı. Ayı, günü görməmişdi. O elə bildi ki, içəri düşən gün pəhləvandı, onunla güləşməyə gəlir. Ha çalışdı, günü tuta bilmədi. Üzü üstə yıxıldı, günün şüaları onun üstünə düşdü. Əlini uzatdı, əlinə gəlmədi. Şah İsmayıl gün ilə o qədər əlləşdi ki, lap qan-tərə batdı. Bu vaxt molla şəhərdən qayıtdı. Halı belə görüb, tez əmməməsini götürüb, gün düşən yerə basdı. Şah İsmayıl ha vaxtdan bəri tutmağa çalışdığı gün yox oldu, dedi:

– Ay molla əmi, o mənimlə güləşən pəhləvanı neynədin?

Molla dedi:

– Ay bala, o quş idi, uçdu getdi. Sən onu tuta bilməzdin.

Şah İsmayıl dedi:

– Molla əmi, and olsun babamın taxtına, düzünü deməsən, səni çəkib ortadan cıraram, de görüm o nədi?

Molla gördü bu hır-zır qanmır, bir az da oyan-buyan danışsa dəli inək balasını ayaqlayan kimi onu ayaqlayacaq.

Canının qorxusundan dedi:

– Ay bala, hər yer bura kimi qaranlıq zirzəmi deyil. İşıqlı dünya var, yaxşı ay var, gün var, yaxşı gəzməli yerlər var.

Şah İsmayıl dedi:

– Molla əmi, bə elə şeylər var, məni niyə zirzəmiyə salıb, ömrümü-günümü çürüdürsünüz? İndi ki, o dediyin yerlərə getmək olar, onda get atama deyinən oğlun işıqlı dünyaya çıxmaq istəyir.

Molla Ədil padşahın yanına gəldi. Əhvalatı ona söylədi. Ədil padşah, gözünün ağı-qarası bir oğlu varıdı, sözünü yerə salmadı. Şah İsmayılı zirzəmidən çıxartdı, özü ilə bərabər əyanların məclisinə apardı.

Bir gün Şah İsmayıl vəzir ilə Qəndəhar şəhərinə gəzməyə çıxmışdı. Şəhərdə bir dəstə atlı, yaraqlı adam gördü, onların nəçi olduğunu vəzirdən xəbər aldı.

Vəzir dedi:

– Bunlar xoş səfalı, güllü-gülzarlı yaylaqlardan şikar eləyib gəlirlər.

Şah İsmayılın könlü atlandı, səfalı yaylaqlarda şikar eləmək həvəsinə düşdü.

Dedi:

– Vəzir, get atamdan izn al, biz də şikara çıxaq. Vəzir şahın hüzuruna gəldi. Oğlunun şikara getmək istədiyini söylədi. Şah dedi:

– Vəzir, izn verməyə ürəyim gəlmir. Amma gözümün ağı-qarası bir oğlumdu, qəlbini də sındıra bilmirəm. Əvvəl ona pəhləvanlıq məşqini öyrətdir, sonra özünlə şikara apar. Gözdə-qulaqda ol, özgə padşahın torpağına keçməsin.

Vəzir Şah İsmayılın yanına qayıtdı, atasının dediklərini ona dedi. Şah İsmayıl az zamanda şikar məşqini öyrəndi. Tövlədə bəslənmiş Qəmərdayı mindi, vəzir, vəkil, bir xeyli də atlı ilə şikara çıxdı. O qədər gəldilər ki, axırda Ədil padşahın torpağından çıxdılar. Bu vaxt vəzir dedi:

– Şahzadə, bura özgə padşahın torpağıdı. Başımızda qoşun azdı; şəhərə qayıdaq, çoxlu qoşun götürüb, sonra şikara çıxaq.

Şah İsmayıl əlacsız vəzirin dediyinə razı oldu. Şəhərə qayıtdılar. Bir neçə gündən sonra yenə Şah İsmayıl atasından şikara getməyə izn aldı. Carçılar şəhərə düşdü. Şah İsmayılın uzaq şikar səfərinə getdiyini hamıya xəbər verdilər. Şəhər əhlindən özünə gümanı gələn atlanıb Şah İsmayılın başına toplandı. Şah İsmayıl vəzir, vəkil, qoşun ilə atlanıb, şikara çıxdı. Dağlarla, düzlərlə ov ovlaya-ovlaya o qədər getdilər ki, yenə özgə padşahın torpağına addadılar. Vəzir irəli yeriyib dedi:

– Şahzadə, bura özgə padşahın torpağıdı. Bizdən torpaqbasdı alarlar.

Şah İsmayıl dedi:

– Onu qılınc bilər, sürün gedək!..

Bəli, getdilər, getdilər, axırda güllü, çiçəkli bir dağa yetişdilər. Dağda şikar elədikləri vaxt şahzadə birdən bir ceyrana rast gəldi. Ceyranın ipəkdən çulu var idi. Çulun hər tərəfində qızıl qumrovlar asılmışdı. Şah İsmayıl ceyranı diri tutmaq istədi. Üzünü qoşuna tutub dedi:

– Bu ceyranı hər tərəfdən ortaya alın, bəlkə diri tuta bilək. And olsun babamın tacına, ceyran hər kimin tərəfindən qaçsa onun boynunu vuracağam.

Qoşun ceyranı üzük qaşı kimi araya aldı.

Bunlar burda qalsınlar sizə kimdən danışım, Gülzardan. Gülzar türkmanlı Mahmud paşanın qızı idi. Gözəlliyi ilə bütün Türkmanda məşhur idi. Çox padşahlar, paşalar, xanlar onu istəmişdisə də atası verməmişdi. Gülzar istəməyə-istəməyə öz əmisi oğlu Heydər bəyə adaxlanmışdı. Toy vaxtına da az qalmışdı.

Günlərin bir günündə Gülzar başında qırx kəniz seyrə çıxmışdı. Səfalı yaylaqları gəzə-gəzə gəlib çıxdılar haman dağa. Dağın ətəyində çadır qurub kənizləri yerbəyer elədi, sonra ceyran donuna düşüb, dağı dolanırdı ki, Şah İsmayıla rast gəldi. Gülzar dağdan enib, çadırına gəlmək istədi, gördü dörd yanı atlı qoşun bürüyüb, heç bir yana çıxmaq mümkün deyil. Əlacı hər yandan kəsilib, süzgün-süzgün atlılara baxmağa başladı. Birdən gözü Şah İsmayıla sataşdı. Gördü, on yeddi, on səkkiz yaşına yenicə girmiş, qaraqaş, qaragöz, bir cavandı. Bir könüldən, min könülə ona aşiq oldu. Dalınca gəlsin deyə, əl-ayağını yığışdırıb, ona kəklik kimi Şah İsmayılın başının üstündən sıçradı, qaça-qaça gedib öz çadırına girdi.

Şah İsmayıl adamlarına dedi:

– İndi ki, bu ceyran məni hamıdan fağır tapdı, mən də onun dalınca tək gedəcəyəm. Heç kəs mənimlə gəlməsin.

Şah İsmayıl bu sözdən sonra Qəmərdaya bir acı qamçı çəkib, ceyranın dalınca tərpəndi. Qəmərday yeldən yeyin, sudan iti gedirdi. Şah İsmayıl aman verməyib, Gülzar ilə daban basaraq obaya yetişdi. Baxdı ki, bura doludu qızla. Dedi:

– Qızlar, mənim şikarım ceyran buraya gəldi. Onu neylədiniz?

Kənizlərin içindən kənizbaşı qarı irəli durub dedi:

– Yazıq xanımımı dağdan bura kimi qovlayıb, bağrını yardığından utanmırsan, hələ ceyranımı neylədiniz də deyirsən?!

Şah İsmayılın hələ işdən xəbəri yox idi. O elə bilirdi ki, şikarı doğrudan da dağ ceyranıdı. Öz-özünə dedi: Gəl kənizbaşı qarıya qovalaya-qovalaya nə qədər zəhmət çəkdiyini de, bəlkə insafa gəlib davasız, şavasız ceyranı verə:

Aldı Şah İsmayıl, görək nə dedi:

Mən ovçuyam, öz ovumu ovlaram,[1]
Alacağam, nənə, ceyran mənimdi.
Yeddi ələn aşırıban qovladım,
Alacağam, nənə, ceyran mənimdi.

Aldı qarı cavabında:

Mən ceyranı yeddi ildi saxlaram,
Kərəm eylə, oğlan, ceyran mənimdi,
Gündə üç yol çörək yeyib yoxlaram,
Kərəm eylə, oğlan ceyran mənimdi.

Aldı Şah İsmayıl:

Mən ovçuyam, buraxmaram bu ovu,
Etdim o heyvana çox haqqı-sayı,
Əbəs ki, yormadım mən Qəmərdayı?
Alacağam, nənə, ceyran mənimdi.

Aldı qarı:

Qızıl qumroy düzdürmüşəm ətəkdən,
Ceyranımı çullamışam ipəkdən,
Bəzəmişəm əlvan-əlvan çiçəkdən,
Kərəm eylə, oğlan, ceyran mənimdi.

Aldı Şah İsmayıl:

Şah İsmayıl heç danışmaz ləcinən,
İşim yoxdu mazaratnan, bicinən,
Verməsən də alacağam gücünən.
Alacağam, nənə, ceyran mənimdi.

Aldı qarı:

Mən qarıyam bu qürbətdə qalaram,
Dərd əlindən saralaram, solaram,
Təsəllimi bu ceyrandan alaram,
Kərəm eylə, oğlan, ceyran mənimdi.

Şah İsmayıl gördü ki, onlar ceyranı xoşluqla vermək istəmirlər. Zorlayıb çadıra girmək istədi. Gülzar çadırda Şah İsmayılın dediklərini eşidirdi. Məhəbbəti birə min artmışdı. Özünə yeddi qələm ilə zinət verib, on dörd gecəlik ay kimi şəfəqləndi, onun qabağına çıxdı. Şah İsmayıl başdan-ayağa, ayaqdan-başa ala-şala bəzənmiş, yanaqları qızılgül qönçəsi, dodaqları qan piyaləsi kimi qızı görəndə ürəkdən ona vuruldu. Özünü saxlaya bilmədi, bihuş olub, atdan yerə yıxıldı.

Gülzar Şah İsmayılın birdən atdan yıxıldığını görəndə yanındakı Banı kənizə dedi:

– Ay qız, görəsən bu yazığı kim vurdu?

Gülzarın bu sualına bütün qızlar gülüşdülər. Banı sazı döşünə basıb dedi:

– Qulaq as, deyim kim vurdu.

Aldı Banı, görək nə dedi:

Görəcəyin oğlanı atından saldı,
Çıxıbdı yaxandan, bax, məmələrin.
Əcəlsiz, azarsız canını aldı,
Qaytar, tez yerinə tax məmələrin.

Qaşların cəlladdı, gözlərin sirdi,
Dodağın qaymaqdı, dişlərin dürdü,
Yanağın almadı, ləbin bülurdu,
Salıbdı aləmə şox məmələrin.

Banı kəmərini qurşayıb beldən,
İrəngin artıqdı qonçadan, güldən,
Sən istəsən o oğlanı dirildən,
Oyçala, ağzına sıx məmələrin.

Gülzar işi çoxdan duymuşdu. Amma qızlar bilməsin deyə üzə salmırdı. Banıya dedi:

– Ay qız, hayıfdı, o cavanın üzünə su səp, bəlkə ayıla.

Banı Şah İsmayılın üzünə su səpdi. Şah İsmayıl ayıldı, aldı, görək nə dedi:

Qaçırdım, ceyrana çata bilmədim,[2]
Göründü gözümə nuri-didarı.
Çapdım Qəmərdayı, yetə bilmədim,
Düşübdü canıma atəşi, narı.

Əlvan əlin gördüm, gülgəz yanağın,
Zərnişan dəstində sədəf dırnağın,
Almaya, heyvaya bənzətdim bağın,
Açıldı, göründü sədri-mərməri.

Qırxlar məclisində əzildi gilə,
Oxudu lal dilim, döndü bülbülə,
Xuda, sən kömək et Şah İsmayilə,
Bəlkə ala bilə bu Gülüzarı.

Gülzarın könlü Şah İsmayılda idi. Amma istəmirdi ki, dağdan ona qoşulub qaçsın. Bilirdi ki, Şah İsmayıl vuran-tutan bir qoçaq oğlandı. Haraya getsə dalınca gəlib onu tapacaq. Şah İsmayıl sözünü bitirər-bitirməz Gülzar sarvanlara hökm elədi getməyə hazırlaşsınnar. Şah İsmayıl Gülzarın getməyini görüb, aldı, görək nə dedi:

Ala gözlü, nazlı ceyran,
Səndən ayrıla bilmərəm!
Xallarına oldum heyran,
Səndən ayrıla bilmərəm!

Aldı Gülzar cavabında:

Qəndəhardan gələn oğlan,
Sən get, oğlan, mən səninəm!
Məni dərdə salan oğlan,
Sən get, oğlan, mən səninəm!

Aldı Şah İsmayıl:

Səhərin dan ulduzusan,
Aşığın şirin sözüsən,
Bilmirəm kimin qızısan,
Səndən ayrıla bilmərəm!

Aldı Gülzar:

Səhərin dan ulduzuyam,
Aşıqlar söhbət-sazıyam;
Mahmud paşanın qızıyam,
Sən get, oğlan mən səninəm!

Aldı Şah İsmayıl:

Şah İsmayıl yana-yana,
Yanda bağrım döndü qana,
Mən gəldim, sənə qurbana,
Səndən ayrıla bilmərəm!

Aldı Gülzar:

Gülüzarım, oldum dəli,
İlqar edən verər əli.
Özgələrə deməm bəli,
Sən get, oğlan mən səninəm!

Şah İsmayıl Gülzarın ona meyli olduğunu bildi. Məhəbbəti daha da artdı, coşdu, aldı, görək nə dedi:

Aldı Şah İsmayıl:

Bir ceyranı qova-qova gətirdim,
İtirdim burada bir şikar, yeri!
Gözəllər yığılıb xəndan etdilər,
Oldular ceyrana haşakar, yeri!

Aldı Gülzar:

İtirdin ceyranı, tapdın maralı,
Yalqızsanmı, yoldaşın da var, yeri!
Səni saldım yanar-yanmaz odlara,
Qalx, çək bundan belə ahu zar, yeri!

Aldı Şah İsmayıl:

Həmişə çəkərəm bu ahu zarı,
Salıbsan könlümə yanan qubarı.
Aç yaxan, görünsün Savalan qarı,
Sataşsın gözümə qoşa nar, yeri!

Aldı Gülzar:

Oğlan, sən dəlisən, yoxsa divana?
Gedib ərz eylərəm ədalət xana;
Bir bülbül ki, gəlib girsə gülşana,
Almazmı bağbandan ixtiyar, yeri?!

Aldı Şah İsmayıl:

Qız, ayıb olmasa, de nədir adın?
Qıya baxdın, sınıq könlüm budadın;
Nişanlısan, yoxsa varmı namzadın?
Dolanıbmı ətrafında sar, yeri?!

Aldı Gülzar:

Mən gələndə evimizdə toyudu,
O toylar da mən gözəlin loyudu.
Sona kəklik tülək tərlan oyudu,
Dolanmayıb ətrafımda sar, yeri!

Aldı Şah İsmayıl:

Bülbül kimi ayrılmışam gülümdən,
Tərk olmuşam vətənimdən, elimdən,
Şah İsmayıl, ikimizin dilindən,
Gəl qoyaq arada bir ilqar, yeri!

Aldı Gülzar:

Ellərimiz vardı işvəli, nazlı,
Göllərimiz vardı ördəkli, qazlı,
Babam türkmanlıdı, anam şirazlı,
Öz adım Gülüzar, al xabar, yeri!

Hər iki sevgili sözünü tamam elədi. Arada əhd-peyman qoyuldu. Üzüklərini bir-birinə nişan verdilər. Gülzar Şah İsmayıl ilə halallaşıb ayrılanda dedi:

– Altı ay səni gözləyəcəyəm, gəldin, səninəm, gəlmədin, atam toyumu eləyib əmim oğlu Heydər bəyə verəsidi.

Gülzar Şah İsmayıldan ayrılıb kəcavəyə əyləşdi. Sarbanlar kəcavəni çəkdi. Gülzarı Türkmana gətirdilər.

Gülzar Türkmanda Şah İsmayılın yolunu gözləməkdə olsun, sizə Şah İsmayıldan danışım. Şah İsmayıl Gülzardan ayrılıb, Qəmərdaya mindi, üz qoydu qoşuna tərəf getməyə. Çox getdi, az getdi, bir müddətdən sonra qoşuna yetişdi. Vəzir, vəkil, qoşun Şah İsmayılı məlul görüb, əl-ayağa düşdülər, dedilər:

– Şahzadə, niyə belə məlulsan? Harada idin?

Aldı Şah İsmayıl, görək nə dedi:

Ay həzərat, ay camaat,
Görün nələrdən ayrıldım.
Alma yanaq, ayna qabaq,
Dili şəkərdən ayrıldım.

Yar oduna qalanmadım,
Dilbərdən kamım almadım.
Bir gecə mehman olmadım,
Gülüzlü yardan ayrıldım.

Şah İsmayıl eylər dilək,
Həsrət qoydu bizi fələk.
Sərv boylu, huri, mələk,
Mən Gülzardan ayrıldım.

Vəzir, vəkil Şah İsmayılın Gülzara aşıq olduğunu bilib dedilər:

– Şahzadə, vətənimizə gedək, əvvələn el adəti üzrə elçi göndərib qızı istəyək. Nə vaxt xoşluqla olmasa, onda qoşun çəkərik, zornan alıb gətirərik.

Şah İsmayıl onların sözünə razı oldu. Qoşun ilə bərabər qayıdıb Qəndəhara gəldi.

Ədil şah oğlunu yanına çağırıb dedi:

– Oğul, şikarın necə keçdi? Yaxşı gəzdin, dolandınmı?

Aldı Şah İsmayıl, görək nə dedi:

Canım ata, gözüm ata,
Şah, dərdimi necə deyim?!
Ağ saqqalın nura bata,
Şah, dərdimi necə deyim?!

Səhərin dan yıldızıdı,
Aşığın söhbət-sazıdı,
Mahmud paşanın qızıdı;
Şah, dərdimi necə deyim?!

Şah İsmayıl, bağça-bardı,
Çəkdicəyim ahuzardı;
Yarın adı Gülüzardı;
Şah, dərdimi necə deyim?!

Ədil şah dedi:

– Oğul, Qəndəhar şəhərində Gülzar kimi bir gözəl olsa, alsan, bu sevdadan əl çəkərsənmi?

Şah İsmayıl dedi:

– Şah baba, hərgah Qəndəharda Gülzar kimi gözəl olsa, könlüm onu sevsə, alıb qalaram. Səni, anamı gözü yaşlı qoyub getmərəm.

Ədil padşah bu sözdən şad oldu. Car çəkdirdi. Bütün Qəndəhar şəhərində olan gözəl qızlar güllü bağa yığışdılar. Ədil padşah, Şah İsmayıl, vəzir, vəkil güllü bağa qızları görməyə gəldilər. Şah İsmayıl qızlara ha göz gəzdirdi, Gülzara bənzəyən bir gözəl görə bilmədi. Aldı, görək nə dedi:

Hurilər, pərilər yığılıb bağa,
Heç birisi Gülüzara bənzəməz.
İşvələri, qəmzələri, nazları,
Heç birisi Gülüzara bənzəməz.

Kimi al geyinib, kimi qırmızı,
Kimi gül döşürür, kimi nərgizi,
Hamıdan göyçəkdi vəzirin qızı,
Heç birisi Gülüzara bənzəməz.

Kim al geyinib, kimi turabı,
Kimisi üzünə çəkib niqabı,
Deyil bunlar Şah İsmayılın babı,
Heç birisi Gülüzara bənzəməz.

Şah İsmayıl qızların heç birisini bəyənmədi. Hamısı xamdamaq evlərinə qayıtdı. Ədil padşah Şah İsmayılın qızlardan heç birini bəyənmədiyinə çox qəzəbləndi, dedi:

– Öz günahın öz boynuna, hayana gedirsən, get! Mən bir qızdan ötrü Türkmana qoşun çəkib dava eləyə bilmərəm!

Şah İsmayıl atasından bu sözü eşidib barigahdan çıxdı, Qəmərdayın ziltənkini bərkitdi, belinə qalxdı, sürüb, anasının yanına gəldi, ondan getmək üçün rüsxət istədi. Şah İsmayılın anası Səlmə xanım oğlunun belə uzaq səfərə getmək istədiyini eşidib, gözlərindən yaş tökdü, dedi:

– Ay oğul, belə uzaq səfərə gedirsən, bəs köməyin hanı?

Aldı Şah İsmayıl, görək nə dedi:

Ana, südün halal eylə,
Gözlərindən tökmə abı.
Qorxma, səfərdən dönərəm;
Ayrılığa gətir tabı.

Gedirəm, yolum iraxdı,
Bülbül ötər səhər vaxtı,
Boş qalmasın babam taxtı,
Yıxılmasın o mehrabı.

Qəmərdayı mindim yola,
Ərənlər də mənlə ola...
Köməkdi Şah İsmayıla,
Mən oldum xak-turabı.

Şah İsmayıl anası ilə halallaşıb yola düşdü. O qədər at sürdü ki, axırda Gülzarla ilk tapışdığı dağa yetişdi. Sevgilisi yadına düşdü, aldı, görək nə dedi:

Mübtəlayam bir beymürvət gözələ,
İllərətən mən də hayanım indi.
Getdim gördüm köç eləyib yurdundan,
Nazlı dilbər, yarəb, hayanım indi.

Məcnun kimi məskən saldım bu dağa,
Bülbül oldum qondum dağa, budağa,
Fərhad kimi sığal verdim bu dağa;
Züleyxa tək mən də hayanım indi.

Şah İsmayıl, günlər keçdi vətəndən,
Ağıl başdan getdi, ruh da bədəndən,
Yusif kimi ayrı düşdüm Kənandan,
Misirdə alışmış ha yanım indi.

Şah İsmayıl göy çəmənli dağda könlünün ilk sevgilisini yad eliyəndən sonra yenə yoluna davam elədi. İldırım kimi at sürüb gedirdi, bir də yoldan xeyli kənarda, başı ərşə çəkilmiş bir saray gördü. Atın başını döndərib, saraya gəldi.

Bu saray yeddi qardaşın sarayı idi. Yeddi qardaş davaya getmişdi. Sarayda təkcə bacıları Rəmdar Pəri qalmışdı. Saray çox möhkəm idi. Heç bir tərəfdən də qapısı yox idi. Şah İsmayıl sarayın dörd tərəfini ha gəzdi, içəri girməyə yol tapmadı. Aldı, görək nə dedi:

Hərləndim, yoxdu qapısı,[3]
Saray, səndən yol istərəm.
Uca yapılıb barısı,
Saray, səndən yol istərəm.

Üst tərəfin qarlı bağdı,
Alt tərəfin bağçadı, bağdı,
İçin hasar, bənd otaqdı,
Saray, səndən yol istərəm.

Sədəfli sazı yendirrəm,
Sinəmin üstə mindirrəm,
Tilsim də olsan sındırram,
Saray, səndən yol istərəm.

Gün çıxar, sənə yayılı,
Yatan quşların ayılı,
İncitmə Şah İsmayılı,
Saray, səndən yol istərəm.

Şah İsmayılın sözünə cavab verən olmadı. Gürzü çəkib barıya vurdu, bir tərəfdən yol açdı, saraya girdi. Altı otaq keçdi, yeddinci otaqda bir qız gördü. Salam verdi, qızın adını soruşdu.

Qız dedi:

– Adım Rəmdar Pəridi.

Şah İsmayıl gördü Rəmdar Pəri çox qəmgindi. Elə bil ki, könlündə böyük bir arzusu var, amma arzuya çatmağa heç bir gümanı yoxdu. Aldı, görək Pəri nə dedi:

Başına döndüyüm Pəri,
Nə var könlündə, könlündə?
Yolunda qoyaram səri,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Eşq oduna alışmaram,
Küsülüyəm, barışmaram,
Dindirsən də danışmaram,
Bu var könlümdə, könlümdə.

Aldı Şah İsmayıl:

Yar otağa qədəm basa,
Söhbətinə qulaq asa,
Ağ üzündən bir cüt busa,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Gecə ayaz, gündüz bulud,
Mərd igidin damənin tut,
Oğlan, könlündəkin unut,
Bu var könlümdə, könlümdə.

Aldı Şah İsmayıl:

Mən istərəm burda qalam,
Qollarım boynuna salam,
Qız, səndən kamım alam,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Dəryada gəzən balıqdı,
Mətləblər verən xalıqdı,
Sən deyən yerlər qoruqdu,
Bu var könlümdə, könlümdə.

Aldı Şah İsmayıl:

Şah İsmayılam, hazaram,
Dərdinə dərman yazaram,
İndi qoruğu pozaram,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Pəriyəm, qanlar ağlaram,
Zülfüm gərdəndə bağlaram,
Qoruğu sənə saxlaram,
Bu var könlümdə, könlümdə.

Sözlərini tamam elədilər. Şah İsmayıl dedi:

– Rəmdar Pəri, söylə görüm nə üçün sarayda yalqızsan? Nə üçün belə məlul, müşkül oturmusan?

Qız dedi:

– Şahzadə, mən hind xanlarından Nəcəf xanın qızı Rəmdar Pəriyəm. Rəml atıb gələcəyi, keçmişi bilirəm. Özümün də yeddi qardaşım var. Hind şahının oğlu məni istədi. O, bütpərəst olduğundan qardaşlarım məni ona vermədilər. İndi Hind padşahının oğlu qoşun çəkib, məni zor ilə almaq üçün davaya gəlib. Qardaşlarım ölməyə razıdırlar, məni ona verməyə razı deyillər. Ona görə də Hind şahının oğlunun davasına gediblər. Qardaşlarım bir tərəfdədi, Hind padşahı da qoşunla bir tərəfdədi. Bu saat mən baxtıqaranın üstündə qılınc qırğınıdı.

Şah İsmayıl Rəmdar Pəridən bu sözü eşidib, qeyrəti coşa gəldi, Qəmərdayın belinə qalxdı, özünü meydana yetirdi. Gördü yeddi qardaş bir yanda, Hind padşahının oğlu da qoşun ilə bir yanda səf çəkiblər.

Öz-özünə dedi: "Mən atımı düz meydanın ortasına sürüb salam verəcəyəm. Hankı tərəf salamımı alsa, o tərəfə kömək edəcəyəm".

Şah İsmayıl bu fikirnən Qəmərdayı düz meydanın ortasına sürüb dedi:

Haqq-taala yaradıb cümlə aləmi,
Mədəd Allah, səndən mənə bir imdad!
Yeriyib ortaya, verdim salamı,
Mədəd Allah, səndən mənə bir imdad!

Yeddi qardaş Şah İsmayılın salamını aldılar.
Aldı Şah İsmayıl:

Yaradan yaradıb havada quşu,
Bərqərar eləyib dağ ilə daşı,
Xudam, özün saxla yeddi qardaşı,
Mədəd Allah, səndən mənə bir imdad!

Şah İsmayıl yön çevirsə düşmana,
Kişnər Qəmərdayı, girər meydana,
Çəkər misri qılınc, boyanar qana,
Mədəd allah, səndən mənə bir imdad!

Şah İsmayıl sözün tamam eləyib, yeddi qardaşla özünü bütpərəstlərin qoşununa vurdu. Bir yandan Şah İsmayıl, bir yandan Qəmərday, bir yandan yeddi qardaş düşmanı qılıncdan keçirdilər. Bütpərəstlərin qırılanı qırıldı, qalanı da qaçıb getdi.

Bu tərəfdən yeddi qardaş Şah İsmayılın əlinə-ayağına düşüb, onu saraya gətirdilər. Şah İsmayılın bu yaxşılığından necə çıxmaq üçün fikir eləyirdilər ki, kiçik qardaş dedi:

– Ay qardaşlar, mən bir söz deyim, görün, yaxşı olsa hamımız razı olaq.

Dedilər:

– De görək. Yaxşı olsa razı olarıq.

Kiçik qardaş dedi:

– Biz buna mal, dövlət verməklə razı eləyə bilmərik. Bunun sirindən-sifətindən şahzadəlik yağır, pul-mal tamahında deyil. Yaxşısı budu ki, elə bacımız Rəmdar Pərini buna verək.

Kiçik qardaşın məsləhətinə qardaşlar razı oldular. Şah İsmayılın, Rəmdar Pərinin razılığını bilib, onları əl-ələ tapşırdılar. Axşam araya gəldi, yatası vaxt Şah İsmayıl ilə Rəmdar Pərinin yeri bir salındı. Şah İsmayıl misri qılıncı siyirib, qız ilə öz arasına qoydu, yatdı. Bir axşam belə, beş axşam belə keçdi, yeddi qardaşlar gördülər ki, bacılarının rəngi

saralır, səbəbini xəbər alırlar. Pəri qardaşlarının cavabında gözünün yaşını töküb dedi:

– Yaman günün yarağı qardaşlar, budu bir aydı ki, məni Şah İsmayıla veribsiniz. Həmişə yatan vaxtda qılıncı sıyırıb araya qoyur. Nə mənə yaxın gəlir, nə dindirir, nə də danışdırır.

Yeddi qardaş Şah İsmayılın yanına gəlib, bacıları ilə belə rəftar eləməyinin səbəbini soruşdular. Şah İsmayıl dedi:

– Mən Türkmana, Gülzarın dalınca gedirəm. Bəlkə getdim, qayıtmadım. Onda sizin bacınızın yanında üzüqara olaram. İndiyə kimi Rəmdar Pəri ilə bacı-qardaş kimi dolanmışam. Əgər gedib sağ-salamat Gülzarı gətirə bilsəm, onda sizin bacınızı da alaram.

Şah İsmayıl Rəmdar Pəri ilə, yeddi qardaşla halallaşıb Türkmana getmək istədi. Qardaşlar dedilər:

– Şahzadə, indi ki, gedirsən, get! Yaxşı yol! Muradına çatasan! Amma Türkmana iki yol gedir. O yolun biri ilə üç aya, biri ilə on günə getmək olar. Üç aylıq yol sələmət, on günlük yol məlamətdi. Çünki o yolu Ərəb Zəngi adlı bir pəhlivan kəsib. Gələnin, gedənin malını, dövlətini soyub, özünü də öldürür, leşindən hasar, başından minarə tikdirir. Bizdən eşitsən, üç aylıq yol ilə gedərsən.

Şah İsmayıl dedi:

– Qurddan qorxan qoyun saxlamaz. Mən ölümümü gözümün qabağına alıb, Türkmana qılınc zoruna qız gətirməyə gedirəm. Siz məni Ərəb Zəngi ilə qorxudursunuz. Mən yüz elələrindən qorxmaram. Hamısını misri qılıncdan keçirərəm. Gülzar ilə bağladığım peymanın vaxtına az qalır. On günlük yol ilə getməliyəm.

Şah İsmayıl yeddi qardaşdan ayrılıb, atını sürdü ki, getsin, bir də geri baxanda Rəmdar Pərini gördü. Qəmərdayın cilovunu çəkib, əyləndi, aldı, görək nə dedi:

Yarım yenə çıxıb gülşən seyrinə,
Ətrafında bağça necə, bağ necə?
Səryaqıbın tənə-tənə sözləri,
Sinəm üstə düyün necə, dağ necə?

Əlinə yaxıbdı əlvan xınasın,
Guşuna taxıbdı qızıl tanasın,
Həvəslənib sıxam turunc məməsin,
Qanı qaça, yeri qala ağ necə?

Şah İsmayıl bu yolların naşısı,
Yaman olar nazlı yarın acısı,
Pəri xanım yeddi qardaş bacısı,
Ayrı düşə məşuqundan sağ, necə?

Şah İsmayıl sözünü tamam elədi. Rəmdar Pəriyə ürək-dirək verdi, könlünü aldı, yoluna davam elədi. Bir yandan Rəmdar Pəridən ayrılığı, o biri yandan sevgilisi Gülzarın həsrəti Şah İsmayılı dəli-divana eləmişdi. Qəmərdaya acı qamçı çəkib, yeldən yeyin, sudan iti gedirdi. Yola bələd deyildi deyin, elə hey gedirdi, amma heç bilmirdi ki, hara gedir. Belə-belə səkkiz gün at sürdü, doqquzuncu gün Ərəb Zənginin qalasına çatdı. Ərəb Zəngi yolun qırağında dayanmışdı. Şah İsmayılı görüb dedi:

– Allah səni mənə yaxşı yetirdi. Hasarımın başa gəlməyinə bir baş lazım idi, minaramın başa gəlməyinə bir leş. İndi başını kəsib hasara qoyaram, leşini də minaraya.

Şah İsmayıl Ərəb Zənginin cavabında dedi:

– Ay Ərəb Zəngi, yeməmişdən gəyirmə. Hələ nə mən sənin gücünü görmüşəm, nə də sən mənim gücümü. Nə bilək, kim kimi basacaq?

Ərəb Zəngi qəzəblənib dedi:

Yenə qafil bir ov çıxdı qarşıma,[4]
Hürküb ovçusundan, baş verib gedər!
Qorxusundan dodaqları çatlayar,
Ağlayıb, gözündən yaş verib gedər!

Aldı Şah İsmayıl:

Qəndəhardan gəldim murad almağa,
Yol ver, ərəb, yol ver, incitmə məni!
Mən gəlmədim bu diyarda qalmağa,
Yol ver, ərəb, yol ver, incitmə məni!

Aldı Ərəb Zəngi:

Çoxları adlayıb o yandan bəri,
İgidlər əlimdən çəkiblər zarı,
Kəllədən minara, leşdən hasarı,
Buraya gələnlər baş verib gedər!

Aldı Şah İsmayıl:

Qaradı qaşları, Kəbə meracı,
Çəkərəm, yıxaram hasarı, burcu,
Kəsərəm başını, yoxdu əlacı,
Yol ver ərəb, yol ver, incitmə məni!

Aldı Ərəb Zəngi:

Oğlan, mey içmisən, yoxsa da bəngi?
Qorxudan saralıb üzünün rəngi,
Hələ eşitmədin Ərəb Zəngi?
Çox sənin kimilər baş verib gedər!

Aldı Şah İsmayıl:

Bir sən gəl bax qaynağıma, coşuma,
Əl vura bilməzsən tərlan quşuma,
Bax Şah İsmayılın tər savaşına,
Yol ver, ərəb, yol ver, incitmə məni!

Şah İsmayıl istədi oradan davasız-şavasız keçib getsin, Ərəb Zəngi yol vermədi, nərə çəkib davaya girişdi. Qılınca əl atdılar, qılıncdan murad hasil olmadı. Əmuda, nizəyə, kəməndə əl atdılar, yenə murad hasil olmadı.

Axşam oldu, davanı sabaha qoydular. Ərəb Zəngi Şah İsmayıla dedi:

– Ay pəhlivan, indi sən burada qəribsən, gəl gedək bu axşam mənim qonağım ol. Sabah açılsın, meydana çıxarıq. Allah ya sənə verər, ya da mənə.

Şah İsmayıl Ərəb Zənginin sözünə razı oldu. Onunla bərabər qalaya getdi. Gördü Ərəb Zənginin böyük cəlalı var. Ərəb Zəngi Şah İsmayıla yemək verdi. Özü də çörək, xörək yeyib, yataq otağına getdi. Dava paltarını çıxartdı, yatağa girdi, şirin yuxuya getdi.

Şah İsmayılın canına qorxu düşmüşdü. Nə boğazına çörək gedirdi, nə gözünə yuxu. Deyirdi: mən sabah bu pəhlivanın əlində necə olacağam? Çox güclü pəhlivandı. Bir də onunla meydana girsəm yəqin ki, salamat qurtara bilməyəcəyəm, muradım gözümdə qalacaqdır.

Fikir, xəyal şah İsmayılı elə çulğamışdı ki, yuxusu bir əppək olub qalxmışdı göyə, nə qədər əlləşirdi, yata bilmirdi.

Qərəz, o yana çevrildi, bu yana çevrildi, gördü yox, yata bilməyəcək, durdu ayağa ki, bir az gedib dolansın; bəlkə fikri dağıla.

Qala çox böyük idi. Hər tərəfə yol var idi. Şah İsmayıl hər tərəfi gəzdi, dolaşdı, axırda gəlib rəngbərən xalılarla bəzənmiş bir otağa çıxdı. Nə gördü? Bu bəzəkli otaqda bir qız yatıb, bir qız yatıb ki, elə bil qüdrətin kərəmi coşa gəlib, gözəllik paylayanda ilk qələmi bu qıza çəkib. Şah İsmayıl qıza, otağa tamaşa eləyirdi, bir də gözü yuxarıdan asılmış Ərəb Zəngi libasına sataşdı. Qaldı mat-məəttəl, bu nə sirdi. Bu qız niyə belə paltar geyib, gəlib-gedənlə vuruşur?

Şah İsmayıl bu fikirlə gecəni sabah elədi. Amma fikrini heç bir yana çıxarda bilmədi. Bəli, sabah açıldı. Şah İsmayıl geyimli, gecimli meydana gəldi. Nərə çəkib Ərəb Zəngini istədi.

Ərəb Zəngi nərə səsinə oyandı; polad paltarla başdan geyindi, ayaqdan qıfıllandı, başdan geyindi, ayaqdan geyindi, başdan qıfıllandı, Şah İsmayılın meydanına gəldi. Hər iki pəhlivan güştü tutub güləşməyə başladılar.

Ərəb Zənginin gözləri qızmışdı. Ac şir kimi ona tərəf yönəldi, Şah İsmayılı götürüb yerə vurdu. Xəncərini çəkib sinəsinə çökdü. Şah İsmayıl dedi:

– Ay pəhlivan, bizlərdə qaydadı, pəhlivan pəhlivanı birinci dəfə yıxanda öldürməz.

Ərəb Zənginin Şah İsmayıla yazığı gəldi. Onu öldürmədi, buraxdı.

Bu dəfə də Ərəb Zəngi Şah İsmayılı yıxdı. Şah İsmayıl dedi:

– Pəhlivan, ərənlər üçə deyib. Bu dəfə də məni öldürmə, üçüncü dəfə yıxsan öldürərsən.

Ərəb Zəngi yenə onu bağışladı. Təzədən güləşməyə başladılar. Şirin güləşmə zamanı Şah İsmayıl əlini Ərəb Zənginin polad geyiminin altına saldı, döşlərindən tutub, elə sıxdı ki, Ərəb Zənginin qolları boşaldı, çevrilib yerə yıxıldı. Nə qədər əlləşdisə, Şah İsmayılın əlindən çıxıb qalxa bilmədi. Axırda dedi:

– Pəhlivan, namərdlik eləməsəydin məni yıxa bilməzdin. Mənim sənin cavanlığına yazığım gəldi, öldürmədim. İndi fürsət sənin əlinə keçib, istəyirsən öldür, istəyirsən öldürmə. Mən sənə yalvarmayacağam. Mən qız, sən oğlan.

Şah İsmayıl dedi:

– Ərəb, mən sənin qız olduğunu gecədən bilirəm. İki dəfə məni yıxdın öldürmədin, doğrudan da mərdsən. İndi sən gəl məni öz sirrinndən agah elə görüm, sən kimsən? Belə gün keçirməyinin səbəbi nədi?

Ərəb Zəngi dedi:

– Mən ərəbistanlı Mahmud paşanın qızıyam. Atam öləndən sonra mən qardaşım Əhmədin umuduna qaldım. Əhmədin işi-peşəsi başında qırx haramı xalqı çalıb-çapıb, mal-dövlət yığmaq idi. Əhməd başındakı haramılar ilə hər gün bir yerdə qalıb, keyf eləyərdi. Bir axşam da başındakı haramılarla öz evimizə gəldi ki:

– Bacı, bu axşam sən evdən çıx, bir başqa yerə get, biz burada bir balaca məclis keçirəcəyik. Mən razı olub, qonşumuzun evinə getdim. Elə ki, qaranlıq düşdü, bir də gördüm ki, hər haramı, budu, özü ilə bərabər bir də bir qız gətirib, qapıda atdan düşürür, bizim evə aparır. Bir az da keçdi, bir məclis başlandı, Allah göstərməsin. Doğrusu, namusum qəbul eləmədi. Tez özümü aşbaz Namaza yetirib, şəraba bihuşdarı qatdırdım. Elə ki içib bihuş oldular, hamısını öldürdüm, sonra da köçüb bu qalaya gəldim. O vaxtdan bu qalada oluram. Özüm də əhd eləmişəm ki, harda kişi tapsam, mərdü mərdana güləşəcəyəm, yıxdım, öldürəcəyəm, yıxıldım, məni yıxana ərə gedəcəyəm.

Şah İsmayıl Ərəb Zəngini ayağa qaldırıb dedi:

– Sənə bu qeyrət halal olsun! Bu gündən sən mənimsən, mən də sənin!

Şah İsmayıl bir müddət qalada qaldı. Öz əhvalatını da açıb Ərəb Zəngiyə danışdı. Ərəb Zəngi işi bilib, ona kömək eləməyə başladı. Türkmana getmək üçün tədarük gördü, qalasını başındakı yoldaşlara tapşırdı, özü göy polada qütəvvər olub, Şah İsmayıl ilə Türkman elinə yetişdilər. Gecə qonaq qalmaq üçün Türfənsə adlı bir qarının qapısına gəldilər.

Aldı Şah İsmayıl, görək qarıya nə dedi:

Başına döndüyüm, ay qarı nənə,
Sizin yerdə qərib mehman olarmı?
Nə müddətdi mən divana olmuşam,
Davasız dərdimə dərman olarmı?

Aldı Türfənsə qarı:

Başına döndüyüm gülüzlü cavan,
O nə sözdü qərib qonaq olarmı?
Əhli-şəhər müsəlmanlıq deyilmi?
Mehmanı qapıdan qovmaq olarmı?

Aldı Şah İsmayıl:

Baharda bağçalar verdiyi bardı,
Dərdindən çəkdiyim bu ahu zardı,
Mahmud paşa qızı o Gülüzardı,
Sizin yerdə belə ceyran olarmı?

Aldı Türfənsə qarı:

Qərib olan kəsdə axtara eli,
Bülbül olan buraxarmı heç gülü?
Gülüzar deyənin kəsilir dili,
Bizim yerdə onu demək olarmı?

Aldı Şah İsmayıl:

Şah İsmayıl neyləyibdi, neyləsin?
Xəncər alıb, bağrın başın teyləsin.
Dərdi-dilin indi sənə söyləsin,
Sizdən bizə ülfət qılan olarmı?

Aldı Türfənsə qarı:

Türfənsə qarıdı bu işi bilən,
Çarəsiz dərdlərə dərman eyləyən,
Bircə mənəm ora gedibən gələn,
Elə yerə gedib-gələn olarmı?

Şah İsmayıl Türfənsə qarıdan əhvalatı söz ilə xəbər aldığı kimi, Ərəb Zəngi də dilnən dedi:

– Ay qarı nənə, imanın kamil olsun, bir de görüm Mahmud paşanın qızı Gülzar xanımı tanıyırsanmı? Ondan xəbərin varmı?

Ərəb Zəngi bu sözü deyib qarıya bir ovuc qızıl verdi. Qarı qızılı görüb, gözləri sağsağan gözlərinə döndü, dedi:

– Bala, Gülzarı yaxşı tanıyıram. Özü də əmisi oğluna nişanlıdı. Otuz doqquz gündü toyudu; sabah köçürəcəklər.

Şah İsmayıl qarıdan bu sözü eşidib, ona iki ovuc da qızıl verib dedi:

– Qarı nənə, mənim bir üzüyüm var, onu Gülzara yetirə bilərsənmi?

Qarı dedi:
– Yetirə bilərəm.
Şah İsmayıl üzüyü qarıya verdi. Qarı üzüyü alıb, Gülzarın yanına yollandı.
Gülzarın Şah İsmayıl ilə bağladığı peyman tamam olurdu. Amma hələ Şah İsmayıl gəlməmişdi. Gülzar ah-zar çəkib ağlayırdı. Məşşatəyə başını bəzətmirdi. Yanına da heç kəsi buraxmırdı. Qarı ha elədi kənizlər onu Gülzarın yanına buraxmadılar. Qarı axırda üzüyü aynadan Gülzara göstərdi. Gülzar üzüyü görən kimi tanıdı, kənizlərə dedi:
– Ay qızlar, o mənim süd anamdı, buraxın gəlsin.
Kənizlər qarını buraxdılar. Qarı Gülzarın yanına gəldi. Gülzar dedi:
– Ay nənə, imanına qurban olum, bir de görüm bu üzüyü verən oğlan haradadı?
Qarı dedi:
– Muştuluğumu verməsən demərəm.
Gülzarın boynunda babasının yeddi illik bac-xaracı ilə başa gəlmiş bir boyunbağı var idi. O boyunbağını çıxardıb qarıya muştuluq verdi. Qarı muştuluğunu alandan sonra Şah İsmayılın onun evində olmasını söylədi. Gülzar dedi:
– Ay nənə, Şah İsmayıla de, Gülzar deyir ki, mən atamın gülşən bağına çıxacağam, aşıq paltarı geyinsin, bağa gəlsin.
Qarı baş üstə deyib, oradan çıxdı, evinə gəldi, Gülzarın tapşırığını Şah İsmayıla yetirdi. Şah İsmayıl aşıq paltarı geyinib, Ərəb Zəngi ilə atlandı, gülşən bağına yola düşdü.
Gülzar xanım məşşatəyə başını bənzətdi, qırx kəniz gülşən bağına çıxdı. Kənizlərə dedi:
– Qızlar, buralarda aşıq görsəniz tutun mənim yanıma gətirin.
Bu tərəfdən Şah İsmayıl ilə Ərəb Zəngi gəlib gülşən bağının qapısına çıxdılar. Ərəb Zəngi ilə Şah İsmayıl belə məsləhət elədilər ki, Ərəb Zəngi bir yanda atları saxlasın, Şah İsmayıl da Gülzarın yanına getsin, danışsın, Gülzarı götürüb gəlsin. Ərəb Zəngi atları saxladı. Şah İsmayıl bağın qapısına gəldi. Qızlar onu çiyni çömçəli görüb, tutub Gülzarın yanına apardılar. Gülzar qaş-göz ilə Şah İsmayıla xoş gəldin elədi, dedi:
– Aşıq, bir neçə xanə könül açan söz oxu.
Şah İsmayıl sazı sinəsinə basıb, sözə başladı, dedi:

Şükür cəlalına, min bir adına,
Yarı görüm üzü gülsün sabahdan,

Aylar, illər həsrətini çəkdiyim,
Bu gizli dərdimi bilsin sabahdan.

Gülzar xanım saz əvəzinə yasəmən saçlarından üç tel ayırıb, basdı sinəsinə, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Nişanəm səndədi, yar, səfa gəldin!
Yanıb atəşinə büryan olduğum,
Nişanəm səndədi, yar, səfa gəldin!

Aldı Şah İsmayıl:

Əllərində yüsür təsbeh yüz dənə,
Qorxum budu, göz görməyə, üz dönə,
Bir iyid ki, ilqarından tez dönə,
Movlam ona qənim olsun sabahdan!

Aldı Gülzar:

Səndən ayrı danışmadım, gülmədim,
Bu canımdan bezdim, ölə bilmədim.
Haçan ilqar verdin, mən də gəlmədim?
Nişanəm səndədi, yar, səfa gəldin!

Aldı Şah İsmayıl:

Şah İsmayıl təzə gördü, bil, səni,
Cənnəti-rizvana yetirdin məni,
O adna axşamı, çarşənbə günü,
Nazlı dilbər qarşı gəlsin sabahdan.

Aldı Gülzar:

Gülüzaram, sənə qurban olum mən,
Heyva kimi saralıban solum mən,
İkram ilə pişivaza gəlim mən,
Nişanəm səndədi, yar, səfa gəldin!

Bu iki sevgili sözün tamam elər-eləməz Ərəb Zəngi ac qurd kimi pusqudan çıxdı. Kənizlərin hərəsi bir yana dağıldı. Ərəb Zəngi dedi:

– Ay qoçaxlarım, səsinizi toyunuza saxlayın! İndi Mahmud paşanın qoşunu yetişər. Yolçu yolda gərək!

Şah İsmayıl Qəmərdayın belinə qalxdı, Gülzarı da tərkinə aldı. Ərəb Zəngi də öz atına mindi, Qəndəhara tərəf yola düzəldilər. Xeyli getdilər, bir çəmənliyə çatdılar. Atdan düşüb, dincəlməyə başladılar.

O biri tərəfdən kənizlər Mahmud paşanın yanına gedib, xanımlarının qaçırıldığını söylədilər. Mahmud paşa qoşunla atlanıb, onların dalınca düşdü. Gəlib-gəlib çəmənlikdə onlara yetişdilər. Ərəb Zəngi baxdı ki, Şah İsmayıl bir tərəfdə yuxuya gedib, Gülzar da bir tərəfdə. Əvvəlcə Şah İsmayılı oyatmaq istədi. Sonra qıymayıb oyatmadı, özü təkcə davaya girişdi. Qoşunu pencər kimi qırdı, yerə tökdü. Ölən öldü, qalanlar qaçıb dağıldılar. Ərəb Zəngi geri qayıdıb, aldı, görək Şah İsmayılı nə cür oyatdı:

Movc veribən Türkmandan yeridi,[5]
Oyan, Şah İsmayıl, gör nələr oldu!
Mən qurbanam sevgilimin telinə,
Oyan, Şah İsmayıl, gör nələr oldu!

Çapar getdi, gələr indi həbəşi,
Onlar da bizimlə tutar savaşı,
Dərəyə, təpəyə doldurar leşi,
Oyan, Şah İsmayıl, gör nələr oldu!

Çapar getdi, gələr indi firəngi,
Onlar da bizimlə tutarlar cəngi,
Qırar hamısını Ərəbi Zəngi,
Oyan, Şah İsmayıl, gör nələr oldu!

Şah İsmayıl Ərəb Zənginin səsinə oyandı. Gördü hər yanda leş-leşə söykənib, baş-başa. Daha bilmədi ki, Ərəb Zəngiyə nə desin. Səssiz-sədasız atı mindi. Onlar da atlanıb düşdülər yola. Gecə-gündüzə salıb, Ərəb Zənginin qalasına çatdılar. Qalada bir neçə gün qalıb, sonra yenə də yola düşdülər. Getdilər, getdilər Rəmdar Pəriyə yetişdilər. Aldı Şah İsmayıl, görək nə dedi:

Ay qız, sənin uca boyun
Görülməyin çağı gəldi.
Qara telin dal gərdəndə
Hörülməyin çağı gəldi.

Qəddin əlif, boyun uca,
Aşıq gərək boyun quca,
Qız, məmən dönüb turunca,
Dərilməyin çağı gəldi.

Şah İsmayıl deyər: Xuda!
Əzəl dərsim əlif-nida.
Yolunda bu canım fəda
Verilməyin çağı gəldi.

Bir neçə gün də burda qaldılar, sonra Rəmdar Pərini də götürüb Qəndəhara yola düşdülər. Mənzil eyliyə-eyliyə gəlib Qəndəhara yetişdilər. Şah İsmayıl şəhərin bir tərəfində çadır qurdurdu, atasına muştluqçu göndərdi.

Şah İsmayılın səfəri uzun sürmüşdü deyin anası onun həsrətini çəkməkdən naxoşlayıb ölmüşdü. Ədil şah da Şah İsmayılı ölmüş bilirdi. Bir də xəbər gəldi ki, bəs Şah İsmayıl üç gözəl ilə, budu, gəlib çıxıb. Şah durub oğlunun görüşünə gəldi. Bəli, görüşdülər, öpüşdülər, amma Ədil şah altdan-altdan qızlara baxdı, nəzərdən keçirdi, Gülzar çox xoşuna gəldi, ona yetişmək üçün oğlunu öldürmək fikrinə düşdü. Evə qayıtdı, bərigahın qabağında bir dərin quyu qazdırdı, içinə nizə, ox doldurtdu, üstünə də gəbə saldırdı, oğlunu qonaq çağırdı. Şah İsmayılın bu işdən xəbəri yox idi. Atalıq haqq-sayından keçə bilməyib, getmək istəyəndə qızlar dedilər:

– Gəl sən bizi eşit! Bu qonaqlığa getmə! Getsən də qoy Ərəb Zəngi də səninlə getsin, biz sənin atanın fikrini başqa təhər görürük.

Şah İsmayıl dedi:

– Necə ola bilər ki, atam məni qonaq çağırsın, mən getməyim? Siz mənim atamı pis tanıyırsınız.

Rəmdar Pəri rəml atıb dedi:

– Gedişin yaxşıdı, amma gəlişin pis görünür. Al bu üzüyü, barmağına tax, bu tulanı da özünlə apar; tula haradan getsə, sən də oradan

get, harada otursa, sən də orada otur. Üzüyü qabağına gətirilən xörəyə sal, nə vaxt yaşıllansa yemə.

Şah İsmayıl üzüyü götürdü, tulanı da yanına saldı, Gülzarı, Rəmdar Pərini Ərəb Zəngiyə tapşırdı, getməyə başladı. Bargahın qapısında tula yoldan çıxdı, Şah İsmayıl da onun dalınca gedib, atasının hüzuruna çatdı. Şah İsmayıla xörək gətirdilər. O, üzüyü xörəyə saldı, xörək yaşıllaşdı. Şah İsmayıl xörəyi yemədi.

Ədil şah oğluna dedi:

– Oğul, çox şükür ki, bu qədər zəhmətdən sonra Gülzarı gətirə bildin. Eşitmişəm yollarda çox pəhlivanlara rast gəlmisən, çoxlarını yıxmısan. Gərək gücünü atanın qabağında da göstərəsən. De görüm, sənin nəyə gücün çatmır ki, mən onda səni sınaqdan keçirim.

Şah İsmayıl dedi:

– Mənim yeddi boyun cüt qayışına gücüm çatmaz.

Ədil şah əmr elədi, yeddi boyun cüt qayışını gətirdilər. Şah İsmayılın qollarını bağladılar. Şah İsmayıl elə zor verdi ki, qayış parça-parça oldu, yerə töküldü.

Ədil şah dedi:

– Bəs deyirdin gücün çatmaz? Parça-parça elədin ki?.. De görüm, doğrudan nəyə gücün çatmaz?

Şah İsmayıl dedi:

– Yeddi qulac sicimə gücüm çatmaz.

Ədil şah hökm elədi, Şah İsmayılın qollarını yeddi qulac sicimlə bağladılar. Şah İsmayıl elə zor elədi ki, sicim də qırıq-qırıq oldu. Ədil şah dedi:

– Demək, sənin gücün çatmayan şey yoxdu.

Şah İsmayıl dedi:

– Xeyr, var. Öz yay-oxumun kirişinə mənim gücüm çatmaz.

Ədil şah yay-ox kirişilə Şah İsmayılın qollarını bağlatdırdı. Şah İsmayıl zorunu qollarına toplayıb nə qədər güc verdisə kirişi qıra bilmədi. Kiriş kəsə-kəsə sümüyə dayandı. Ədil şah cəllad çağırdı, dedi:

– Vur bunun boynunu!

Cəllad şahın hökmü ilə Şah İsmayılın boynunu vurmaq istədi. Vəzir dedi:

– Ey böyük şah, bir qızdan ötrü öz əlinlə öz çırağını keçirmə!

Ədil şah cəllada dedi:

– İndi ki, vəzir onun boynunun vurulmağına razı deyil, onda gözlərini çıxart, apar zülmət quyusuna tulla.

Cəllad Şah İsmayılın gözlərini çıxartmaq istədi.
Aldı Şah İsmayıl, görək nə dedi:

Uca dağlar başı duman, çiskindi,[6]
Amandı, şah baba, zay etmə məni!
Bülbül çəkər gülün ahu zarını,
Amandı, şah baba, zay etmə məni!

Mən çox igitlərlə eylədim cəngi,
Ayağım apardı polad üzəngi,
Hələ ölməyibdi Ərəbi Zəngi,
Amandı, şah baba, zay etmə məni!

Yəqin bil ki, Şah İsmayıl özüdü,
İnanmayın səryaqıbın sözüdü,
Ərin yaraşığı iki gözüdü,
Amandı, şah baba, zay etmə məni!

Ədil şah İsmayılın yalvarmağına qulaq asmadı. Cəllada "hökmümü yerinə yetir" dedi. Cəllad Şah İsmayılın gözlərini çıxardıb ovcuna qoydu, özünü də aparıb zülmət quyusuna saldı. Şah İsmayıl zülmət quyusunda qalsın, sizə Ədil şahdan danışım.

Ədil şah qoşun göndərdi ki, gedib Gülzarı gətirsinlər. Ərəb Zəngi işi belə görəndə özünü vurdu qoşuna, qatım-qatım qatladı, tamam qırdı. Ədil şah yenə qoşun göndərdi, Ərəb Zəngi onları da qırdı. İndi Ədil şah qoşun göndərməkdə olsun, Ərəb Zəngi də qırmaqda, danışım xoca Əzizdən.

Xoca Əziz məşhur sövdəgər idi. Haradansa sövdəgərlikdən gəlirdi, güzarı Şah İsmayıl olan zülmət quyusunun yanından düşdü. Xoca Əziz yaman susamışdı. Su çıxardıb içmək üçün quyuya dolça salladı. Şah İsmayıl iki əlilə dolçanın ipindən bərk-bərk yapışdı. Xoca Əziz dolçanı çəkdi çıxartdı, gördü su əvəzinə bir kor oğlan çıxdı. Xoca Əziz onun Şah İsmayıl olduğunu bildi. Ədil padşahın qorxusundan quyunun başındaca qoyub getdi. Şah İsmayıl tapdana-tapdana bir ağacın dibinə gəlib, oturdu. Elə bu zaman üç göyərçin gəlib, ağacın başına qondu. Göyərçinlərin biri quş dilində dedi:

– Bu nə gözəl oğlandı, yazığın, hayıf ki, gözləri kordu.

O biri göyərçin dedi:

– Bu, Ədil padşahın oğludu. Atası bunun gətirdiyi Gülzara aşıq olub. Gülzara çatmaq üçün bunun gözlərini çıxartdırıb.

O biri göyərçin dedi:

– Gəl onun gözünü sağaldaq.

Göyərçinlər dedilər:

– Ay Şah İsmayıl, yatıbsan oyan, oyaqsan eşit! Gözlərini yerinə qoy, biz atdığımız lələyi də üstlərinə çək, gözlərin sağalar.

Göyərçinlər bir lələk atıb, uçub getdilər. Şah İsmayıl gözlərini yerinə qoydu, lələyi çəkdi, gözləri sappasağ oldu. Ayağa durub, Qəndəhara tərəf getməyin binasını qoydu. Bir az getmişdi ki, bir qocaya rast gəldi. Gördü qoca ağlaya-ağlaya cüt əkir. Şah İsmayıl ondan soruşdu:

– Qoca nə üçün ağlayırsan?

Qoca, dedi:

– Ədil şahın Şah İsmayıl adında bir oğlu varıdı. O oğlan üç gözəl gətirmişdi. Ədil şah o gözəllərdən Gülzara aşıq olub, oğlunun gözlərini oydurub zülmət quyusuna atdırdı. Sonra Gülzarı gətirmək üçün qoşun göndərdi. Ərəb Zəngi qoşunları qırdı. İndi Ədil şah Qəndəhar əhlindən gündə bir adam onun meydanına göndərir, Ərəb Zəngi öldürür. Sabah da şah mənim oğlumu Ərəb Zənginin meydanına göndərəcək. Odur ki, ağlayıram.

Aldı Şah İsmayıl, görək nə dedi:

Başına döndüyüm, ay miskin qoca,
Sən ağlama, sabah meydan mənimdi.
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Sən ağlama, sabah meydan mənimdi.

Düşmanın ağlasın, dostların gülsün,
Sənə zülm eyləyən əcrini bilsin!
Söylə, Ədil şaha xəbərdar olsun,
Sən ağlama, sabah meydan mənimdi.

Dərin-dərin dəryalara dalaram,
Şirin canım eşq oduna salaram,
İsmayılam, qısasımı alaram,
Sən ağlama, sabah meydan mənimdi.

Şah İsmayıl sözlə də dedi ki:

– Qoca, sən sabah get, Ədil şaha de ki, oğlum deyir Şah İsmayılın geyimini verər, gətirərsən, mən sənin oğlunun əvəzinə Ərəb Zənginin meydanına gedərəm.

Qoca Şah İsmayılın sözünə razı oldu. Onu götürüb evinə gəldi. sabahı Ədil şahın yanına getdi, dedi:

– Mənim oğlum deyir Şah İsmayılın atını, geyimini mənə versin, gedim Ərəb Zəngini öldürüm.

Ədil şah İsmayılın atını, geyimini qocaya verdi. Qoca da gətirdi Şah İsmayıla verdi. Şah İsmayıl geyimi geyinib, Qəmərdayın belinə mindi, ildırım kimi Ədil şahın qabağına sürdü. Ədil şah Gülzarın eşqindən elə havalanmışdı ki, oğlunu tanımadı, dedi:

– Qoçağım, tez Ərəb Zəngini öldür, başını mənə gətir!

Şah İsmayıl atı Ərəb Zənginin meydanına sürdü. Ərəb Zəngi görən kimi Şah İsmayılı tanıdı. Görüşdülər, ikisi də bir yerdə atları Ədil şahın üstünə sürdülər. Ədil şah işi belə görüb qaçmaq istədi. Ərəb Zəngi aman verməyib, onu ata-babasının yanına göndərdi. Camaat Ədil şahın zülmündən xilas olduqlarına görə çox şad oldular. Şah İsmayılı özlərinə şah seçdilər.

Şah İsmayıl düz qırx gün, qırx gecə toy eləyib, məclis keçirtdi.

Deyirlər ki, ustad bir aşıq gəlib Şah İsmayılın toyunu bu duvaqqapma ilə başa verdi:

Nagəhan gördü gözüm
Sən təki insanı, pəri!
Hurisən, məlakəsən,
Cənnətin qılmanı, pəri!
Yaralar məlhəmisən,
Dərdlərin dərmanı, pəri!
Gözəllər sərdarısan,
Məhbubların xanı, pəri!

Şah kimi taxta çıxıb,
Elərsən divanı, pəri!
Divanına gələrəm,
İzzət, ikram qılaram,
Xidmətində qalaram.
Qul qurbanın olaram,
Əgər qəbul eləsən,
Qol boynuna salaram.
Qolum boynunda,
Əlim qoynunda
Çiynim çiynində,

Eşqin beynimdə;
Sarmaşıq köynək kimi
Durum sənin əynində;
Əyninə al məni gəl,
Qat bu cana canı, pəri!

Gəl qataq canı cana,
Xatırıma dəyməginən.
Sındırıb şad könlümü,
Dal qəddimi əyməginən.
Gəlmişəm ayağına,
Çox özünü öyməginən.
Sevərsən bir Tanrını,
Mən yazığa qıymaginən,
Ver mənim muradımı,
Qiyamətə qoymaginən.
Qiyamətdir qaşların,
Gülabatın saçların,
İnci, sədəf dişlərin.
Xub fincandı döşlərin,
Bu biçara başıma
Çox ağırdı daşların.
Ağır daş atma,
Nazını satma,
İşi uzatma,
Xalqı oyatma,
Qanıma bais olub,
Vəbala batma.
İki dostun arasına,
Salmagılan qanı, pəri!
Qan salma aralığa,
Nə eşqi pərvanəsən.
Bəxtəvər yaranmısan,
Bu dünyada bir dənəsən.
Sərraflar qədrin bilir,
Cəvahirsən, dürdanəsən.
Al-əlvan xınalayıb,
Tök telini gərdənə sən.

Gərdən göyçək, tel nəzik,
Qucmaq üçün bel nazik,
Barmaq şimşək, əl nəzik.
Xoş danışan dil nazik,
Çox qəmlidir ürəyim.
Bircə danış, gül nəzik.
Nəzik şaxsan,
Kağızdan ağsan,
Ağca buxaqsan
Qaymaq dodaqsan
Maşallah, göz dəyməsin,
Sən əcəb yumuşaqsan,
Bircə məni eylə qonaq,
Sevindir mehmanı, pəri!..

...Yəqin bil ki, kərəm kanı,
Mən yanıram atəşinə
Mayılam camalına,
Həm gözünə, həm qaşına.
Yıxılım ayağına,
Durub dolanıb başına,
Həm sənə qurban olum,
Həm də sənin yoldaşına.
Yoldaşın pərvazdı gəlin,
Yerişi qazdı, gəlin,
Bu necə əndazdı gəlin,
Baxışın şahbazdı gəlin.
Doğmusan şəmsü qəmər
Gül dildarın yazdı gəlin.
Ey bahar yazım,
Durna avazım.
Əlimdə sazım,
Eşit niyazım,
Aç qoynunu qucaxlaşaq,
Demək nə lazım.
Oynatsın Molla Cuma
Şamama tək səni, Pəri.

# Heydər bəy

## USTADNAMƏ

Ay həzərat, sevdim xublar şahını,
Döndü dərhal, mən deyəni demədi.
Umud ilə tutdum eşqin rahını,
Qaşı hilal, mən deyəni demədi.

Anladım ki, sevda sərdə qalacaq,
Getdikcə əhvalım yaman olacaq,
Çox gözlədim yaxşı çağlar olacaq,
Bəxtü iqbal mən deyəni demədi.

Cuma da Mənsur tək dar qabağında.
Təqdirin qəzası var qabağında,
İstədim ölməyi yar qabağında,
Ol zülcəlal mən deyəni demədi.

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun.

Dedim, könül, içmə eşqin camını,
Bu gün dünya sənə dar olacaqdı.
Nə belə dost ol, nə zəhmətdən inci,
Dost yolunda boran, qar olacaqdı.

Gəl, könül, gəl uyma sən bu dünyaya,
Halaldan kəsb eylə özünə maya,
Zülümkar, haramxor yetişməz boya,
Dosta xayın baxan kor olacaqdı.

Ələsgər, bilmədin sən dünya sirrin,
Qaranlığa işıq, acıya şirin,
O zaman harayla mərdlərin pirin,
Dar günündə sənə yar olacaqdı.

Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, düşmənlər geridə qalsın.

İki mələkdir gözə görünməz,
Ağızdan çıxanı yazarlar bir-bir.
Biri sağda, biri solda dayanıb,
Günahı, savabı düzərlər bir-bir.

Dünyadan getməsin heç kəs əliboş,
Axirətdə onun üçün keçməz xoş,
Dörd tərəfin divar, torpaq, üstün daş,
Vurub sümüyünü əzərlər bir-bir.

Ey Səməd, qədrini əlbət bilərlər,
Dost, müsafir sənə kömək dilərlər,
Hər məclisdə söhbətini elərlər,
Nəsihət sözünü gəzərlər bir-bir.

Günlərin bir günü İsfahanda Şah Abbas vəzir Allahverdi xanla gəzə-gəzə gedib Təbriz şəhərinə çatdılar. Orada Dəvəçilər məhəlləsindən keçəndə bir arvada rast gəldilər. Bu arvadın gözəllikdə misli-bərabəri yox idi. Şah bir könüldən min könülə bu arvada vuruldu. Öz sevgisini bir qarıya söylədi. Şah qarıya bir xeyli pul verəndən sonra soruşdu:

– Bu gözəl zənən kimdi?

Qarı dedi:

– O, Hacı Hüseynin qızıdı. Əri bafat eləyib. Özü də üç ayın gəlinidi.

Şah qarıya bir qədər də pul verdi. Qarı gedib Hacı Hüseynə dedi:

– Buralarda bir Abbas adında dərviş gəzir, o sənin qızını istəyir. Nə deyirsən?

Hüseyn deyir:

– Qızımın özünə de.

Qarı qızın yanına getdi. Çox alt-üst elədikdən sonra qızı yola gətirdi. Qızın adı Şahsənəm idi. Qarı qızla Şah Abbası görüşdürdü. Qız da Abbası bəyəndi. Padşah qırx gün burada qaldı. Qırx gün keçəndən sonra vəzir Allahverdi xan bir kağız göndərdi ki, ey Şah Abbas, sənin İsfahandan başqa yerə getməyini camaat bilsə taxt-tacı dağıdar. Tez qayıdıb gəl. Şah kağızı alan kimi getmək tədarükündə oldu. Şahsənəm ona dedi:

– Məni qoyub gedirsən, bəs sənin uşağın olarsa səni necə tapaq?

Şah arvadına bir bazubənd verib dedi:

– Qızım olsa, sat ona xərclə, oğlum olsa, qoluna bağla, gəlib məni tapar.

Şah bu sözləri deyəndən sonra arvadı ilə, qohumları ilə görüşüb, öpüşüb yola düşdü. Nağıl dili yüyrək olar. Doqquz aydan sonra Şahsənəmin bir oğlu oldu. Oğlana ad qoyanda Hacı Hüseyn bütün bilikliləri yığdırdı. Hərəsi bu uşağa bir ad qoymaq istədi. Amma Şahsənəm bu adların heç birini bəyənmədi, dedi:

– Bunun dədəsi dərvişdi. Həmişə "Heydər" çağırır. Odu ki, bunun adını Heydər qoyaq.

Uşağın adını Heydər qoydular.

Bəli, Heydər böyüyüb yeddi yaşına çatan zaman babası onu məktəbə qoydu. Heydər oxuyub on beş yaşına çatdı. Bir cümə günü Heydər küçədə aşıq-aşıq oynayırdı, hamını udurdu. Bir keçəl ona dedi:

– Ay uşaxlar, siz onu uda bilməzsiniz, çünki o bicdi. Qırx günün qonağından olub.

Heydər keçəlin dalıncan düşüb, onu tutmaq istədi ki, de görüm, bu nə sözdü? Keçəl qaçdı, Heydər onu tuta bilmədi. Gedib Heydər bir xancal aldı, anasını çağırıb dedi:

– De görüm, mənim atam kimdi? Düzün deməsən, səni bu xancalnan doğrayacağam.

Arvad gördü ki, olmayacaq, açıb düzünü dedi:

– Sənin atan isfahanlıdı. Adına da dərviş Abbas, tacir Abbas deyərlər.

Heydər dedi:

– Ana, mən gedirəm atamı axtarıb tapmağa.

Anası gördü ki, oğlu əl çəkmir, gedir. Odu ki, gətirib atası verdiyi bazubəndi onun qoluna bağladı. Heydər yola düşdü. Gedib çatdı İsfahana. Burada qırx gün atasını axtardı, tapa bilmədi.

Şah Abbas vəziri ilə genə dərviş libasında gəzirdi. Bunlar yoldan keçəndə gördülər ki, bir oğlan yanında da bir at yatıbdı. Bunu quldura oxşatdılar. Heydər buların hənirinə yuxudan ayıldı. Şahla vəzir ona dedi:

– Əyə, sən kimsən, burda niyə yatıbsan?

Heydər dedi:

– Yol adamıyam, – gördü ki, əllərində də bir papax var, – o papağı verin, sonra kiməm, deyim.

Vəzir papağı verdi. Oğlan papağı alıb, saz əvəzinə döşünə basıb, görək nə dedi:

Bir ərzim var, gəlin sizə söylüyüm:
Hərgiz sizə deməm yalanı, dərviş!
Xeyli vaxtdı qürbət elə düşmüşəm,
Bir itiyi itən dolanı, dərviş!

Dedilər: Bala, itiyin nədi? Aldı oğlan gerisini:

Ata didarını görməmişəm doyunca,
Gəzərəm dünyanı mən ki ölüncə.
Ədalət şahdı, vəziri var yanınca,
Burda bir xiyalım dolanı, dərviş!

Həmişə çağırram xeybəri-xeybər,
Bir şahın oğluyam, adımdı Heydər,
Əgər qəbul etsən qulami-kəmtər,
Deyərəm başdan keçən qəzanı, dərviş!

Bu sözlər şahın xoşuna gəlib dedi:

– Sən dedin ki, istəsən gedərəm qulami-kəmtər. İndi ki belədi, gəl mənnən gedək, səni özümə oğul edərəm.

Oğlan razı oldu. Şah onu apardı, özünə də tapşırdı ki, sən ancaq mənə qulluq elə. Şah Abbas bir gün Heydərdən qalyan istədi. Qalyanın odundan bir qığılcım bunun əlinin üstünə düşdü. Amma Heydər odu əlinin üstündə elə apardı ki, nə yerə saldı, nə də əlini yandırdı. Bu iş şaha çox xoş gəldi. Odu ki, ona bəy adı verdi. Özünü də qullar ağası təyin elədi.

Şah bu fikirdeydi ki, onun kim olduğunu dərindən öyrənsin, amma qəfildən xəstələndi, onu öyrənmək yadından çıxdı. Bir həkim ona dedi:

– Şah sağ olsun, çöl ceyranının əti, qanı sənə dərmandı.

Şah Abbas dedi:

– Kim gedib mənə ceyran əti gətirə bilər?

Heydər şaha rəsm-təzim eləyib dedi:

– Şah sağ olsun, mən gedib gətirərəm.

Şah Heydər bəyə beş yüz atlı verdi. Heydər ceyran ovuna getdi. Bunlar ceyran ovuna getməkdə olsun, eşit Osmannıda İzmir şəhərində Əhməd Tərəkəmədən. Əhməd Tərəkəmənin Süsənbir adında oxumuş, həkim, həm də pəhlivan bir qızı varıydı. Həmişə dağlarda gəzib, otlardan, çiçəklərdən dava qayırardı.

Süsənbərin bir halı[*] ceyranı varıydı. Bu ceyran yolnan keçənləri aldadıb, dalına salıb aparırdı. Süsənbərin yaşadığı qəflət dağına, süsənbər orada adamları soyurdu. Halı ceyran Heydərgilə rast oldu, başladı qaçmağa. Heydər ceyranı qova-qova aparıb bir mağaraya saldı. Baxdı ki, namaz vaxtıdı, başladı mağaranın ağzında namaz qılmağa. Bu vaxt alnı möhürdə yuxuladı. Yuxuda bir seyid ona bir badə uzadıb dedi:

– Al bunu iç.

Heydər dedi:

– Ağa, biz o badəni içmirik.

Seyid dedi:

– Bu sən deyən badədən deyil. Süsənbər xanım adında bir qızın badəsidi. Al iç.

Heydər bəy badəni alıb içdi. Yuxudan ayılanda bir rükət namaz qılmışdı ki, birdən ceyran çıxıb qaçdı. Heydər onun dalınca at saldı ki, ceyranı tutsun. Ceyran gedib Süsənbərə sığındı. Oğlan gedib Süsənbərə çatanda qız Heydərə dedi:

– Sən nə cürətnən mənim ceyranımı qovursan?

Oğlan dedi:

– Bayax işim ceyrannan idi, indi gör kimnəndi.

Aldı Heydər, görək nə dedi:

O gözlərin sərvi-nazı,
Yar səni görməyə gəldim.
Eşitdim gülşən bağın var,
O gülün dərməyə gəldim.

Qız dedi:

– Ə, sən nəçisən, məni özünə yar seçirsən?

Heydər bəy aldı, görək nə dedi:

Qafıl olub demə yaman,
Ol xudam eyləyər divan.
Verdi ağam şahi-mərdan,
Yar, səni görməyə gəldim.

Süsənbər dedi:

– Əyə, şahi-mərdan kimdi, sən kimsən? Məyər mənim ixtiyarım sizdədi?

---

[*] Əhliləşmiş

Heydər bəy dedi:
– Sözümün dalına qulaq as:
Aldı Heydər bəy:

Aşıx yuxuda görübdü,
Məşuqə zülfün hörübdü.
Bu gecə ağam veribdi,
Yar, səni görməyə gəldim.

Qız dedi:
– Bəlkə sən deyən mən döyüləm?
Heydər bəy dedi:

Ərisin dağların qarı,
Tökülsün çaylara sarı.
Heydərin Süsənbər yarı,
Yar, səni görməyə gəldim.

Süsənbər dedi:
– Səni öldürərdim, cavansan, indi sənin qabağına bir hesab qoyaram, cavab verə bilsən, sənə gedərəm, verməsən səni öldürərəm, qayıt, çıx get!
Aldı Süsənbər, görək Heydərə nə dedi:

Səndən xəbər alım, ay gələn aşıx,
Ərş üzünün neçə bürcu-barı var?
Behişti-əlanın nədəndi fərşi?
Neçə-neçə huri, qılmanları var?

Aldı Heydər:

Al cavabın deyim, Süsənbər xanım,
Ərş üzünün on iki bürcü-barı var.
Behişti-əlanın ləli-zəbərcət fərşi,
Çox hesabsız huri, qılmanları var.

Aldı qız:

O nədir ki, bu dünyada zatı yox?
O nədir ki, tikişi yox, qatı yox?

O nədir ki, yayax* gedir, atı yox?
Çarx dolanır, bir tükənməz yolu var.

Aldı Heydər:

O yalandı, bu dünyada zatı yox,
O göydü ki, tikişi yox, qatı yox.
Aydı, gündü, yayax gedir, atı yox,
Çarx dolanır, bir tükənməz yolu var.

Aldı Süsənbər:

Süsənbər biləndi cəm həqiqətdən,
O kimdi atdandı çıxdı zulmatdan,
O kim idi içdi abi-həyatdan?
Bu dünya durunca onun canı var?

Aldı Heydər bəy:

Heydər bəy dərsin alıb ayatdan,
İsgəndər atdandı çıxdı zulmatdan,
Xızırıydi, içdi abi-həyatdan,
Bu dünya durunca onun canı var.

Qız gördü ki, suallarına düzgün cavab verdi. Köçüb buradan qaçmaqdan savayı bir yol qalmır. Nökərlərini çağırıb, köçmək əmrini verdi.

Bular köçəndə gördülər Heydər də atına minib, bunlarnan gedir. Qız dedi:

– Bəs sən hara?

Heydər bəy dedi:

– Siz hara, mən də ora.

Qız fikirləşdi ki, mənnən getsə, camaat mənə nə deyər? Yaxşısı budu, gəl buna bir az da hərbə-zorba gəl, odu ki, təzədən başladı, görək nə dedi:

Xoş gəlibsən, mənim əziz qonağım,[1]
Qayıt bu sövdadan, əl götü məndən!
Yüz il keçsə məndən sənə yar olmaz,
Qayıt bu sövdadan, əl götü məndən!

---
* Piyada

Aldı Heydər bəy:

Yeri, gözəl kəklik, gözəllər xası,
Can verrəm yolunda, dönmərəm səndən!
Sənə nə yaraşır ərlik libası?!
Can verrəm yolunda, dönmərəm səndən!

Aldı qız:

Bu meydanda başı-candan keçərəm,
Al qanını şərbət deyib içərəm.
Bir qılınca səni iki biçərəm,
Qayıt bu sövdadan, əl götü məndən!

Aldı Heydər bəy:

Bizim göldə ördək olur, qaz olur,
Gözəllərdə işvə, qəmzə, naz olur.
Kim deyər zənanə qılıcbaz olur?
Can verrəm yolunda, dönmərəm səndən!

Aldı Süsənbər:

Çəkəmməzsən Süsənbərin nazını,
Uçurdaram ördəyini, qazını,
Öldürərəm, kimlər tutar yasını?
Qayıt bu sövdadan, əl götü məndən!

Aldı Heydər bəy:

Heydər bəyi etdin dəli, divana,
Mən indi baş alım gedim hayana,
Gəl gedək İsfahana, nisfi-cahana,
Can verrəm yolunda, dönmərəm səndən!

Hər iki tərəfin sözü qurtardı. Süsənbər xanım qılıncı qaldırıb, Heydəri vurmaq istəyəndə gözləri Heydərin gözlərinə sataşdı, əli boşaldı, çünki

qız da Heydəri yuxuda görmüşdü. İstədi əlini saxlasın, amma genə olmadı, onun qılıncı Heydəri başından yaraladı. Qız o saat atdan düşüb, məlhəm qoydu, Heydərin başının yarasını sarıdı. Yanında bir qarı vardı, ona dedi:

– Nə təhər eləyək? Mən bu oğlana vuruldum.

Qarı dedi:

– Bir neçə söz de, yazaq, bu oğlanın sinəsinə qoyaq, duranda axtarıb tapar səni.

Aldı qız, görək oğlana nə yazır:

Dur görüm, sana neylədim?
Ey xan oğlan, cavan oğlan!
Dərdinə dərman eylədim,
Nə yatmısan, oyan, oğlan!

Qaşların qurulu yaydı,
Üzün bədirlənmiş aydı,
Kaş qollarım quruyaydı,
Ey xan oğlan, sultan oğlan!

Qurbanam qaşın təhrinə,
Düşmüşəm yarın qəhrinə,
Dursan gəl Kişmir şəhrinə,
Ey xan oğlan, cavan oğlan!

Süsənbərəm, budu dilim,
Gülşəndan ayırma gülüm,
Yetmiş mindi mənim elim,
Ey xan oğlan, cavan oğlan!

Bu sözləri yazıb, oğlanın sinəsinin üstünə qoyub getdilər. Heydər ayılıb gördü heç kəs yoxdu. Kağızı oxudu. Gördü qız vurduğuna peşman olub. Atı minib, bular gedən tərəfə yol elədi. Az gedib, çox gedib, bir yerə çatdı, amma bilmədi bura kimin şəhəridi. Bərk yağış yağırdı. Elə yağırdı ki, yağışdan tutub göyə qalxmaq olardı. Heydər bəy bərk islandı. Başından yağış sel kimi tökülə-tökülə aldı, görək nə dedi:

Badi səba, qaldım ara yerlərdə,[2]
Mən gedim haraya, haralı canım?
Qərq oldum tufana pərvanələr tək,
İtiribdi səbrü qəralı canım.

Dərdü qəm əlindən oldum ziyada,
Dolandım gölləri adabaada;
Hər yana baxıram beş-altı cada,
Bilmirəm hansından haralı canım.

Heydər bəyəm, nə mürdəyəm, nə zində,
Heç bilmirəm nə məzhəbdə, nə dində;
Atam, anam məni görsə bu gündə
Heç xəbər almazlar haralı canım.

Heydər bəy yolu bir karvançıdan xəbər alıb, başladı getməyə. Gedib Kişmirə çatdı. Burada Süsənbərin həmsöhbət qarısını gördü. Aldı, görək qarıya nə dedi:

Başına döndüyüm daya,
Yardan ötrü sərgərdanam.
Yar hüsnün bənzətdim aya,
Yardan ötrü sərgərdanam.

Qarı dedi:

Başına döndüyüm oğlu,
Yarın Süsən dağındadı;
Qoyub vəsmə, çəkib sürmə,
Öpüb qucmaq çağındadı.

Heydər dedi:

Nə deyim sözümü axır,
Bənövşə boyuna baxır,
Tiği-müjgan dağı yıxır,
Yardan ötrü sərgərdanam.

Qarı şübhələndi ki, yəqin bu məni sevir, gəl özünü təriflə, bəlkə səni aldı.

Qarı dedi:

Hər yetənə salma nəzər,
Bənövşə boyuma bənzər.
Oğlan, sən dediyin gözəl,
Süsən-sünbül dağındadı.

Heydər gördü qarının fikri başqadı. Aldı, görək nə dedi:

Çox nəf görərsən Heydərdən,
Məni qurtar intizardan,
Bir xəbər ver Süsənbərdən,
Yardan ötrü sərgərdanam.

Qarı gördü bu iş olan deyil, dedi:

Dəryaların mayasıyam,
Həm abırı, həyasıyam.
Mən o qızın dayasiyam,
Xallar tər buxağındadı.

Söz tamam oldu, qarı dedi:

– Oğul, sən buralarda otur, gedim Süsənbərə xəbər verim, müjdə alım.

Qarı gedib, Süsənbərə müjdə xəbəri verdi. Gecə oğlan qarıynan Süsənbərin otağına getdilər, Heydər bəy otağa girəndə aldı, görək nə dedi:

Nə müddətdi səndən ayrı düşmüşəm,[3]
Aylar, illər səni görəsim gəlir.
Leyli buxağında bitibdi güllər,
Məcnunam, dərməyə həvəsim gəlir.

Huridən, pəridən bir sən qalıbsan,
Hər yanına on dörd hörük salıbsan.

Bir canım var, yar, əlimdən alıbsan,
Quru qəfəsdəcə nəfəsim gəlir.

Heydərin qızla qılınclaşması yadına düşüb, gülümsündü. Süsənbər xanım onun gülməyinin səbəbini soruşanda Heydər bəy dedi:

Dərin-dərin dəryaları keçmişəm,
Şah əlindən dolu badə içmişəm.
Heydər bəyəm, bir sövdaya düşmüşəm,
Özüm öz sövdama güləsim gəlir.

O gecə Heydər bəy Süsənbərin evində qaldı.

Sizə haradan xəbər verim, Əhməd Xotkardan. Süsənbər Əhməd Xotkarın nişannısı idi. Çuğullar, şeytanlar Heydər bəyin Süsənbərin mənzilində olduğunu bilirdilər. O saat Əhməd Xotkara xəbər verdilər ki, nişannın özünə ayrı müştəri tapıb. Bu saat öpüşün biri bir quruşdu. Xotkar bərk qəzəbləndi, bir neçə atdıynan yola düşdü.

Süsənbərə xəbər verdilər ki, Xotkar, budu, gəlir. Süsənbər o saat Heydər bəyi yük yerində gizlətdi ki, görsün başına nə iş gəlir. Xotkar otağa gəldi, salam verdi, Süsənbər onun salamını almadı. Xotkar aldı, görək ona nə dedi:

Gözəllər sərdarı, ay mələkzadə,[4]
Söylə görüm, dərdi-vərəm nəyindi?
Səni sevən qəm çəkərmi dünyada?
Söylə görüm, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

O gün ki, çıxdım qəflət dağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.
Lalələr düzmüşdüm solu sağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Xotkar:

Bülbül gülşanına gəldi, yəqindi,
Qara bağrım şan-şan olub dəlindi.
Heydər bəy dediyin kimin, nəyindi?
Söylə görüm, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Könül dost yolunda qalır, qadası,
Mənə gəlsin Heydər bəyin qadası.
Odu Şah Abbasın qullarağası,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Xotkar:

Ay ağalar, mən köçümü köçürdüm,
Köçürübən mənzilinə yetirdim,
Şah qulundan bizə donmu gətirdin,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Sehr edib, qəflət dağında quruldum,
Dürr götürüb, dəryalardan duruldum.
Misri qılıncıynan sərdən vuruldum,
Mən çəkdiyim o cavanın dərdidi.

Xotkar elə bildi ki, bu yəqin bir cavan adam öldürüb, sonra da onu öldürdüyünə peşman olub. Odu ki, dedi:

Mən Xotkaram, neyləmişəm, neylərəm,
Xəncəlinən bağrım başın teylərəm.
Qoşun çatsın, səni şan-şan eylərəm,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Eylərəm bəd mürvət mən aman-aman,
Yetişsin dadıma ol şahi-mərdan,
Öldür Süsənbəri, Heydərə qurban,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Xotkar qəzəblənib, əlini qılınca atdı ki, qızı qılınclasın. Süsənbər xanım əl atıb, qılıncı onun əlindən aldı, kənara tulladı. Tutaşdılar. Süsənbər xanım Xotkarı qatladı qoydu, dizinin altına. Heydər bəy də çıxdı. Onun qol-qıçını bağlayıb, bir taxtın altına itələdilər.

Gecə nökərlərə iki at sazlatdılar, atlara minib, çıxıb getdilər. Bunlar gedəndən sonra əhvalat məlum oldu. Qoşun gəlib, Xotkarın əl-ayağını açdı. Qoşun atlandı. Qızın yeddi qardaşı vardı, hərəsi bir qoşun sərkərdəsiydi. Xotkar bu qardaşlara bir kağız yazdı ki, bacınız bir İran aşığına qoşulub getdi. O biri tərəfdən Süsənbərnən Heydər bəy də bir bulağın başında yatmışdılar. Qoşun gəlib, dağları tutdu. Süsənbər xanım oyaq idi. Gördü ki, qoşun hər tərəfi tutub, Heydər isə yatmışdı. Alıb bir neçə söznən onu görək necə oyadır:

Nə yatırsan xab içində
Oyan, dur, tədarükün gör.
Məni qoyma qəm içində,
Oyan, dur, tədarükün gör.

Oğlan ayılmadı. Qız dübarə dedi:

Saymır sultan xanımızı,
İndi tökər qanımızı,
Düşmən aldı dörd yanmızı,
Oyan, dur, tədarükün gör.

Süsənbər eyləyər yüz qan,
Yet dadıma, şahi-mərdan.
Üzbəüz oldu o düşman,
Oyan, dur, tədarükün gör.

Oğlan ayıldı, gördü osmanlının fəsli baharın laləsi kimi qızarır.

Süsənbər dedi:

– Mən özümü qoşuna vurub yol alacam, mənim dalımca gəl, aralanma məndən.

Heydər bəy dedi:

– Mən sənə əvvəllər qılınc qaldırmadım deyə, elə bildin ki, qorxdum. Yox, sənə hörmət elədim. İndi, kişi duran yerdə arvad qılınc vurmaz. Mən qılınc vurum, sən tamaşa elə.

Oğlan qabağa düşüb, ac qurd kimi cumdu qoşuna. Qızla o, hərəsi bir tərəfdən qoşunu büküb, tamam sıradan çıxartdılar. Təzədən başladılar getməyə. Qızın atası, qardaşları Xotkarnan qabaqlaşıb, əhvalatdan xəbərdar oldular. Sonra qızın üstünə getdilər. Qız onları tanıdı, Heydərə dedi:

– Dayanmaqdan başqa çarə yoxdu.

Qərəz, ata, qardaşları gəlib çatdılar. Qız dedi:

– Mən qoymaram onlar bizə qılınc çəksinlər. Get, atamdan məni istə, O, mərd adamdı, bəlkə verdi.

Heydər bəy belə də elədi. Gedib qızı atasından istədi. Əhməd tərəkəmə onun günahınnan keçdi, qızını da ona verdi, dedi:

– Sən özünü mənə nişan ver, görüm kimsən?

Oğlan öz-özünə dedi:

– Gəl elə özünü Şah Abbasın oğlu adlandır.

Odur ki, dedi:

– Mən Şah Abbasın oğluyam.

Bu danışıqda gördülər sağ tərəfdən bir qoşun gəlir. Özü də bu qoşun Şah Abbasın qoşunudu. Şah Musaxan vəziri beş yüz atlıynan Heydər bəyi axtarmağa göndərmişdi. Bunlar öpüşüb, görüşdülər, Əhməd tərəkəmə soruşdu:

– Bu oğlan kimin oğludu?

Musaxan vəzir də dedi:

– Şah Abbasın oğludu.

Əhməd tərəkəmə bütün əhvalatları da yazıb şaha göndərdi. Musaxan vəzir yolda Süsənbər xanıma vuruldu, dedi:

– Hiylə quracam, buları çöldə qoyub gedəcəm. Şaha şər-şəbəkə deyəcəm. Sonra qızı özüm alacam.

Musaxan qabaqca gedib şaha dedi:

– Şah sağ olsun, Heydər səni biabır eləyib, bir cındanın dalına düşüb.

Şah dedi:

– Get, Heydəri bura gətir, amma o cındanı gətirməyin, qovun!

Bəli, gedib Heydər bəyi apardılar şahın yanına, qız qaldı çöldə. Şah dedi:

– Oğul, bəs mənə ceyran əti gətirməyə getmişdin, nə oldu?

Aldı, görək Heydər bəy ona nə dedi:

Başına döndüyüm ədalət şahı,[5]
Şahım, məni dərdə salan bir qızdı;
Mürşüdi-kamilim, həm qibləgahım
Şahım, məni dərdə salan bir qızdı.

Şah dedi:

– Oğul, bəs başın niyə sarınıb?

Oğlan dedi:

Əcəb etdi, üzdən niqabın atdı,
Camalın görsətdi, günü yubatdı.
Bir qılınca at üsdən yerə atdı,
Şahım, məni dərdə salan bir qızdı.

Şah dedi:

– O qızı gərək harda olsa tapaq. Qisas alaq.

Heydər bəy dedi:

Bir gül olmaz o güllərin təhrinə,
Lalələr düzmüşdü eşqin qəhrinə,
Xəbər alsan, getdi Kişmir şəhrinə,
Şahım, məni dərdə salan bir qızdı.

Heydər bəyəm, mən köçümü köçürdüm,
Köçürübən mənzilimə yetirdim.
Zəhmət çəkdim, axır onu gətirdim,
Şahım, məni dərdə salan bir qızdı.

Şah dedi:

– Oğul, o qız haradadı?

Oğlan dedi:
– Şəhərin çölündə.
Şah üç nəfər adamtanıyan sərraf çağırdı ki, gedin görün o qız necədi. Sərraflar gedəndə Musaxan yolda onlara çatıb dedi:
– O pəhlivandı, gözəldi. Bir sözüdü dilimə gəlib, demişəm. Sizə filan qədər qızıl verirəm, gedin, siz də şaha mən deyəni deyin.
Sərraflar pula aldanıb, qayıdıb şaha yalan danışdılar, cındırdı, dedilər. Şah qərara gəldi ki, gərək Heydər bəy ölsün. Dar ağacının yanında Heydər bəy dedi:
– İndi ki, günahsız ölürəm, qoyun bir neçə söz deyim.
Şah icazə verdi, oğlan aldı, görək nə dedi:

Ay ağalar, bəylər, duran qazılar,
Hayıf oldu mənim Abbasım, hayıf!
Atamı, anamı könlüm arzular
Hayıf oldu, mənim Abbasım, hayıf!

Sinəm üstə şəccarələr bitirdim,
Göz yaşımdan o nubarı yetirdim.
Zəhmət çəkdim, tükən-bazar tikdirdim,
Dağıldı tükənim, bazarım, hayıf!

Heydərəm, deyərəm xannan xan olu,
Qürbət eldə iyid bağrı qan olu,
El içində ölmək şövkət-şan olu,
Qürbət eldə qaldı məzarım, hayıf!

Şah əmr elədi:
– Libasını soyundurun, kəfən geyindirin, sonra asın!
Libasını soyunduranda bazubəndi şah tanıdı, dedi:
– Bu bazubəndi mənim xəzinəmdən aparıblar, onu gətirin, evdə əhvalatı xəbər alaq.
Heydəri apardılar şahın evinə. Şah evdə ondan soruşdu:
– Bu bazubəndi hardan alıbsan?
Oğlan əhvalatı danışdı. Şah bildi ki, bu öz oğludu, üzündən öpüb dedi:
– Oğul, sən niyə gedib bir cında dalına düşdün?

Heydər bəy dedi:

– Ata, səni yəqin aldadıblar, özün get bax.

Şah qızı gətirtdi. Qız silahlıydı deyin, cəlladlar onun silahını almaq istədikdə qız onları öldürdü. Bu xəbər də şaha çatdı. Şah icazə verdi qız silahlı gəldi. Pərdə arasından şah qızın kim olduğunu xəbər aldı və tanıdı. Şah qızı sınamaq üçün dedi:

– Bu mənim nökərimdi, niyə ona gəldin? Gəl onu öldürüm, səni özüm alım.

Qız bu yerdə aldı, görək nə dedi:

Sən bir padşahsan, dərdimi qansan,[6]
Mən gəlmişəm, Heydər bəyə gəlmişəm.
Ədalət sultansan, adil divansan,
Mən gəlmişəm, Heydər bəyə gəlmişəm.

Şah dedi:

– Sən yanılıbsan, o nökərdi.

Qız dedi:

Kar istəsəm, Firəngistanı yıxardım,
Dövlət istəsəm, cəm dövlətdən vardım.
Şah istəsəm, mən Xotkara yarıdım,
Gözüm tutub, bir gədaya gəlmişəm.

Şah genə yöntərmək istədikdə dedi:

Fələk Süsənbərə eylədi sitam,
Seyraqublar qoymaz mətləbə çatam.
Mən sənin qızınam, sən mənim atam,
Mən gəlmişəm, Heydər bəyə gəlmişəm.

Şah dedi:

– Sən mənim gəlinimsən, Heydər bəy də oğlumdu.

Qırmızı geyib əmr elədi ki, Musaxan vəzir və sərraflar sabah meydana çıxsınlar, onlara ənam verəcəm.

Şah onların hamısını öldürtdü. Oğluna qırx gün, qırx gecə toy elədi. Oğlan anasını da gətirdi. Onlar yeyib yerə keçdilər, siz də yeyin, dövrə keçin.

Bir ustad aşıq onların toyunu bu duvaqqapma ilə bağladı:

Bir canan, canlar alan,
Hər gündə bulağa gəlir,
Bir gəlin nazik əlin,
Gül üzün yumağa gəlir.
Bir gülbədən, qonça dəhən
Baxır solu sağa, gəlir.
Bu maral, ahu qəzal,
Vaxtıdır, oylağa gəlir.
Çox naz edir, pərvaz edir,
Can ona sadağa, gəlir.

Çox dolandım, oda yandım
Şamlara pərvanə kimi.
Saçı qulac, qaşı qıyqac,
Dişləri dürdanə kimi.
Yusif görsə, hüsnün bilsə,
Gedər ol Kənanə kimi,
Xallar həbəş, camal günəş,
Nurini yaymağa gəlir.

Bari xuda, edim səda,
Ah, mən kimə dad eyləyim?
Çəkim nalə mən bu hala,
Bəs necə fəryad eyləyim?
Sənan, Kərəm, Fərhad bu dəm,
Qeysi dəxi yad eyləyim.
Ah çəkim, qan-yaş töküm,
Aləmi bərbad eyləyim.
İnsafı yox, kipriyi ox,
Sinəmə vurmağa gəlir.

Bəzənir, həm düzənir,
Gahdan bir əlvan geyinir.
Gözü ala, yanaq lala,
Qəmzələri qan deyinir.
Qəddim kaman, yandım, aman,
Qətlimə fərman, deyinir.
Qarşı çıxır, könlüm yaxır,
Qəzəbli sultan, geyinir,
Sözə yatmır, əlim çatmır,
Qəlbimi qırmağa gəlir.

Ey camaat, ey həzərat,
Yığılın, bu bəhsə gəlin!
Hamı əzəl, geyib gözəl
Sallanın, dəs-dəsə gəlin!
Halım bilin, şirin gülün,
Tutu tək həvəsə gəlin!
Ağıl, nə var, qıl elə car,
Bu məclisə səsə gəlin!
Bir pəri dönüb, dönüb bəri
Canımı almağa gəlir!

# Nəcəf və Pərzad

## USTADNAMƏ

Mərifət bəhrinə qəvvasam deyən,
Gir dərin dəryada çalxan, yüz ha yüz,

Mən aşığam yüz ha yüz,
Sonam göldə yüz ha yüz,
Bivəfadan yar olmaz –
Ömür üzsən yüz ha yüz.

Qarı düşmən bir də gəlib dost olmaz,
Əlin tutub yalvarasan yüz ha yüz.

Dərviş olan gedər, gəzər dərində,
Yelkən açar dayazlarda, dərində.

Mən aşığam dərində,
Dayazında, dərində,
Qul olasan, qalasan
Nazlı yarın dərində.

Əl açasan ərənlərin dərində,
Calayasan sınıx könül yüz ha yüz.

Ələsgərəm, ağlayasan, güləsən
Bülbül kimi aşıq idin gülə sən.

Mən aşığam gülləsən,
Danışasan, gülləsən.
Bağban öldü, bağ soldu,
Həsrət qaldın gülə sən.

Naşı bağban, əl uzatma gülə sən,
Çək əlini qızılgüldən yüz ha yüz.

Ustadlar ustadnaməni iki deyərlər, birini də deyək iki olsun.

Hər cəfənglər saz götürüb, söz deyib,
Şairlik ismini sana çəkməsin.
Çibin, milçək, zənbur kimi sızlayıb,
Qanqalın şəhdini şana çəkməsin.

Şairlik elmində bir kamal gərək,
Divanı, təcnisi hər misal gərək,
Kotana qoşmağa kəltə kal gərək,
Kala qabax körpə dana çəkməsin.

Ustadlar kəlamı bizə gələndə,
Xəstə cismim olur taza güləndə,
Arif məclisində üzə gələndə,
Onda yaxasını yana çəkməsin.

Lənət müxənnəsə, ara qatana,
İnsan gərək yalan sözdən utana,
Xəbər verin sınıx saxsı satana,
Cürdəyini çox zindana çəkməsin.

Qovğaya düşübdü bu yazıx Hüseyn,
Nə məndə can qalıb, nə də baş, beyin,
Tülkü dərələrdə aslana boyun,
Hünərini qana-qana çəkməsin.

Ustadlar üç ustadnamə deməyi babal bilmişlər, biz də babal altında qalmayaq – üçünü deyək.

Ta ki, mənə mədh eyləmə dünyanı,
Ha bu dünya bir bekara dünyadı.
Hələ Adəm peyğəmbərdən qabağa
Bir üzü ağ, biri qara dünyadı.

Dünyaya düşənlər qismətin yeyər,
Kamillər agahdı, cahillər uyar,
Sehrkardı, işin bilənlər duyar,
Vəfasızdı, həm məkkara dünyadı.

Altun səfalıdı, mədən səfasız,
Təbib şəfalıdı, xəstə şəfasız,
İnsan vəfalıdı, dünya vəfasız,
Əlbət yaxşı bixəbərə dünyadı.

Dəryalar bulanmaz daş düşməyinən,
Qəvvaslar qərq olmaz su daşmağınan,
Arif anlayar danışmağınan,
Əlarifə yek işarə dünyadı.

Ağır suya girmə, keçə bilməzsən,
Yıxar səni, çıxıb qaça bilməzsən,
Qırar qanadların, uça bilməzsən,
Şahin-şonqar dönən sara dünyadı.

Ovçu-maral sözün qırağa qoyaq,
Bir məndən, bir səndən gəl indi deyək,
Əyri oturuban doğru söyləyək,
Söhbət qatan zəhrimara dünyadı.

Heç oxşarmı günə lampa işığı,
Qarın doymaz yalamaqla qaşığı,
Molla Cuma, sənin kimi aşığı
Kəmənd ilə çəkən dara dünyadı.

Qulluğunuza kimdən xəbər verib, İsfahanlı Şıx oğlu Şah Abbasdan. Şıx oğlu Şah Abbasın Əziz adlı bir sövdəyarı vardı. Onun adına deyirdilər tacir Məhəmməd. Tacir Məhəmmədin var-dövləti çoxudu, amma züryəti yoxudu. Bu tacir İsfahanla İstanbulun arasında işləyirdi.

Günlərin bir günündə tacir Məhəmməd öz yoldaşları ilə bərabər İstanbula gedəsi oldu. Ancaq İsfahanla İstanbulun arasında bir mənzil var idi. İyirmi gün gedib, oraya çatdılar. O mənzilin adına Alxas çəməni deyərdilər. Tacir Məhəmməd həmin mənzildə düşüb istirahət eləyirdi. Bir də gördü ki, bir tacir karvanı da gəlib, onlardan aralı düşdü. Onun da adına tacir Əhməd deyirdilər. Tacir Məhəmməd öz yoldaşlarından bir nəfər göndərdi, dedi:

– Ay bala, get, o tacir hər kimdisə ona de, tacir Məhəmməd sizi qonaq çağırır.

Həmin adam gedib tacir Əhmədi dəvət elədi. Tacir Əhməd gəlib, tacir Məhəmmədlə tanış oldu. Hər ikisi yeyib içdikdən sonra söhbətə başladılar. Söhbət arasında tacir Məhəmməd soruşdu:

– Ay qardaş, nəyin var, nəyin yoxdu?

Tacir Əhməd cavab verdi:

– Qardaş, dünya ciyfəsindən hər bir şeyim var, amma züryətim yoxdu.

Tacir Məhəmməd dedi:

– Yaxşı, öz tayımı tapmışam. Sən də mənim günümdəsən. Mənim də züryətim yoxdu. Özüm dərddə yoldaş tapmışam.

Hər ikisi kefsiz idi. Bu vaxt bir dərviş qəsidə oxuya-oxuya çadırdan içəri daxil oldu. Dərvişin qəsidə oxumağı tacirlərin xoşuna gəldi. Əllərini ciblərinə saldılar ki, hərəsi dərvişə bir qızıl versinlər, dərviş dedi:

– Mən pay alan dərviş deyiləm, pay verən dərvişlərdənəm. Dərdinizi mənə deyin, görüm niyə qəmgin əyləşmisiniz?

Tacir Məhəmməd dedi:

– Sən pay verən dərvişlərdənsən, yəqin bizim dərdimizi də bilirsən, ver payımızı.

Dərviş cibindən bir alma çıxartdı, verdi tacirlərə. Almanın bir üzü süddən ağ idi, bir üzü lalədən qırmızı. Dərviş dedi:

– Almanı ortadan tən yarı kəsin. Ağ tərəfi birinizdə qalsın, qırmızı tərəfi birinizdə. Həmin almanın bir üzü oğlandı, bir üzü qızdı. Onu deyə bilmərəm ki, hansı oğlandı, hansı qızdı. Çünki aranızda dava düşər. Hər kəs almanı aparsın külfətiynən taam eləsin. Birinizin oğlu, birinizin də qızı olacaq. Yerlərinizin uzaqlığına baxmayıb, gərək onları bir-birinə verəsiz. Çünki bir almadan əmələ gəliblər, bir alma kimi də gərək qovuşsunlar.

Dərviş sözünü tamama yetirib, qayib oldu. Tacir Məhəmməd dedi:

– Ay tacir Əhməd, indiyə kimi qazanıb nə qayırmışıq, indən sonra da nə qayıraq. Gəl yüklərimizi dəyişək. Mənim aldığım mal sənin yerində qiymətə gedir, sənin apardığın isə mənim yerimdə. Bu qırx günlük yolu gedib qayıdana kimi almalar xarab olar. Bəlkə dərvişin verdiyi almadan bir pay qismət oldu.

Hər ikisi razılaşıb, mallarını dəyişdilər. Hansının malı çoxdu, qiymətlidi, üstlərini düzəltdilər, verən verdi, alan aldı. Tacirlər öz evlərinə çatdılar. Tacir Məhəmmədin arvadı soruşdu:

– Ay kişi, bu qədər ki, sən sövdəyarlığa gedib gəlirdin, səndə belə xoş ətirli iy olmurdu. Bu dəfə niyə səndən belə gözəl iy gəlir?

Tacir Məhəmməd dedi:

– Arvad, afərin kamalına! Məndə bir parça alma var. Elə alma görməmişəm. Yarı yolda bir dərviş verib. İy də ondan gəlir.

Almanı tacir Məhəmməd öz külfətiynən yedi. İstanbulda da tacir Əhməd həmin para almanı külfətiynən yedi. Hər ikisnin külfəti hamilə qaldı.

Aşıq dili yüyrək olar, at ayağı külək, tez aparıb, tez gətirər. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə tamam oldu, tacirlərin arvadları bari-həmlini yerə qoydular. Tacir Məhəmmədin külfətinin bir cüt ekiz züryəti oldu. Biri oğlan, biri qız. Çünki almanı kəsəndə ağdan bir azca qırmızının tərəfindən qalmışdı. Odur ki, ekiz uşaq oldu. Tacir Məhəmməd dedi:

– Ay arvad, indiyə kimi bizim züryətimiz olmuyub. İndi ikisi birdən olanda camahat içində söz çıxsa, pis gözə, pis nəfəsə gələrik. Gəl qızı pünhanda saxlayaq.

Arvad razı oldu. Qızı pünhanda saxladılar, onun üçün də qızın adı oldu Pünhana. Oğlanın adını qoymaq üçün bütün qarıları yığdılar. Qarıların cürbəcür adları var. Qarı var ipək, qarı var köpək, qarı var zol gəzən, qarı var zol qırtan, qarı var qanqal qopardan, qarı var iman-quran nəsib olsun. Qarı var ilan, qurbağa, çayan cəmdəyinə dolsun. Qarı var qılçasından tut at dalına, ağzı harda durar, durar. Biri dedi:

– Mən oğlanın adını qoymuşam Sicimqulu, Sicim kimi uzun ömrü olsun.

Şıldırım-şırp qarı dedi:

– Sən düz qoymuyubsan. Mən bu gecə vayqamda oğlanın adını qoymuşdum Örkənqulu, həm eninə versin, həmi uzununa.

O biri qarı dedi:

– Siz bacarmırsınız. Oğlanın adını mən qoymuşam Daşdəmir. Daşnan dəmir kimi ömrü bərk olsun.

Bunların hamısının hərləməsi xələt almaq idi. Tacir Məhəmməd qarıların xələtini verdi, yola saldı. Oğlanın adını qoydular Nəcəf xan. Oğlanı bir yaşdan yeddi yaşa kimi böyütdülər. Yeddi yaşda oğlanı qoydular məktəbə. Oğlan oxumaqda olsun, sizə xəbər verim tacir Əhməddən. Tacir Əhmədin də bir qızı oldu. Qızın adını qoydular Pərzad xanım. Hər iki uşaq böyüməkdə olsun, ərz eləyək tacir Məhəmməddən. Günlərin bir günündə tacir Məhəmməd ömrünü sizə bağışladı. Nəcəf xan qaldı yetim. Nəcəf xan on səkkiz yaşına çatana kimi oxudu. Həddi büluğa çatdı.

Günlərin bir günündə Nəcəf xan anasına dedi:

– Ana, mənim atamın sənəti nə idi? De, mən də o sənətə gedəcəm, oğul gərək atasının yurdun itirməsin.

Anası fikirləşdi, öz-özünə dedi: "Bunun atasının evi yıxılsın. Bunun atası sövdayarlığa gedəndə vaxt olurdu bir ilə gəlirdi. Əgər desəm atan sövdəyar idi, bu da sövdəyar olacaq. Gözümün ağı-qarası bir oğlum var, gec gələndə mən intizar qalacam. Yaxşısı budu ki, bunu göndərim Şah Abbasın üstünə. Şah Abbas götürüb bir sənətə qoyar, gündüzlər işləyər, axşamlar gəlib gözümün qabağında yatar". Oğluna dedi:

– Oğul, sənin atanın sənətini Şah Abbas yaxşı bilir, get ondan xəbər al.

Nəcəf xan yön çövürdü birbaşa Şah Abbasın paytaxtına. İzn alıb, girdi içəri. Baş əyib gərnuş elədi, əl bağlayıb dayandı qabağında. Şah Abbas dedi:

– Oğul, nə üçün gəlibsən? Məndən nə istəyirsən?

Nəcəf xan özünü Şah Abbasa isnad verib, ərz elədi:

– Ey qibleyi-aləm, mən səndən atamın sənətini bilmək istəyirəm.

Şah Abbas onun atasını yaxşı tanıyırdı, dedi:

– Oğul, sənin atanın sənəti sövdəyarlıq idi. İstəyirsən bir qədər xərclik, bir neçə də yoldaş verim, get.

Nəcəf xan Şah Abbasdan bir qədər pul, bir neçə yoldaş alıb, sövdəyarlığa getdi. Əvvəl-əvvəl öz evlərinə getdi. Sövdəyarlığa düşən vaxt anasından soruşdu:

– Ana, qürbət vilayətdə umudlu dost yaxşı şeydi. Heç atamın dostlarından bilirsənmi?

Anası dedi:

– Oğul, hara gedirsən?

Nəcəf xan dedi:

– İstanbula.

Anası dedi:

– Oğul, atanın dostları çoxdu. Ancaq İstanbulda siğə qardaşlığı var, adı tacir Əhməddi.

Oğlan adını yazıb, düşdü yola. Günə bir mənzil, teyyi-tənazil, çatdı İstanbula. Çadırlarını qurub, alverə başladılar. Ancaq tacir Əhməd çox qocalmışdı, sövdəyarlığa gedə bilmirdi. Gördü İstanbulun kənarında tacirlər düşüblər. Ürəyi coşdu, dedi, gedim onlardan soruşum, görüm haralıdılar. Həm də Məhəmməddən bir xəbər öyrənim, görüm onun

sonu-sopu varmı? Mənim qızım yekəlib, qız dediyin alma cinsidi, qaldıqca ətri kənara verər, mən tacir Məhəmmədin yanında utanaram.

Gəldi onların yanına. Xoş-beşdən sonra soruşdu:

– Oğlum, haralısınız?

Dedilər:

– Ay qoca baba, isfahanlıyıq.

Tacir Əhməd dedi:

– Siz gələn yola qurban olum. İsfahanda mənim bir dostum var, adı tacir Məhəmməddi, onu tanıyırsınızmı?

Oğlanlardan biri dedi:

– Ay baba, tacir Məhəmməd ömrünü sana bağışladı. Anaq bir oğlu var, bizim böyüyümüzdü, adı da Nəcəf xandı. O görükən çadır onundu. Tacir Əhməd əlində hasa, özünü yetirdi Nəcəf xanın çadırına. Qapıdan içəri girən kimi oğlanı başladı duz kimi yalamağa.

– Oğlum, sən mənim qardaşım oğlusan. Yoldaşlarınnan birlikdə mana qırx gün qonaqsan.

Tacir Əhməd bunları aparıb, ayrıca-ayrıca mənzil verdi. Otuz səkkiz gün qaldılar. İki gün qalmış tacir Əhməd qızı Pərzad xanım fikir elədi ki mən ona gedib xoşgəldin eləməsəm, gedəndə məndən giley eləyəcək. İki qız yanına alıb, gəldi Nəcəf xanın mənzilinə. Nəcəf xana xoş gəldin deyəndən sonra, hər ikisi bir-birinə bülbül gülə aşiq olan kimi aşıq oldular.

Pərzad xanım fikir elədi, mənim başım batsın, niyə qabaqcadan gəlməmişəm. İki gündən sonra oğlan gedəcək, ayrılıq atəşi mənim canımda qalacaq. Qız on dörd yasəmən zülfündən üç tel ayırıb, basdı narış-turuş məməsinin arasına. Məmə yumuru, cürə yumuru, alsın, görək nə deyir:

Başına döndüyüm, xan əmim oğlu,[1]
Gəl getmə, gəl getmə, qal bizim xanda.
Lalə tək sinəmi eləmə dağlı,
Sənin məhəbbətin var şirin canda.

Aldı Nəcəf xan:

Başına döndüyüm, xan əmim qızı,
Gəl gedək, gəl gedək qal İsfahanda.
Eşqin atəşinə yandırma bizi,
Alma İsfahanda, nar İsfahanda.

Pərzad xanım gördü oğlan gedərgidi. Öz-özünə dedi, gözəlliyimi oğlana nişan verim, bəlkə qala.

Aldı Pərzad xanım:

Ağamın əlindən içmişəm camı,
Mənim tək gözəldən alginən kamı,
Gəzdim İstanbulu, Urumu, Şamı,
Heç oğlan görmədim, yar, sən nişanda.

Aldı Nəcəf xan:

Şamama bəslərlər torpaq içində,
Qızılgül bəslərlər yarpaq içində,
Alt-üstü ləmpəli otaq içində,
Qol-boyun olaydıq, yar, İsfahanda.

Qız gördü oğlanın fikri getməkdədi. Odu ki, öz-özünə dedi: qoy deyim, məni də aparsın.

Aldı qız:

Eşqin səməndini minib çaparsan,
Bənna olub, sınıq könlüm yaparsan,
Gedər olsan, mən Pərzadı apar sən,
İndi ki, qalmadın, yar, bizim xanda.

Aldı Nəcəf xan:

Nəcəf alsın qadasını Pərzadın,
Tərkini qılmışam aşnanın, yadın,
İndi bildim ürəyində muradın,
Gəl gedək, mətləbin al İsfahanda.

Söz tamama yetdi. Qız oğlanın yanından çıxdı, getdi öz mənzilinə. Ancaq ağlı başında yox idi. Anası suya buyuranda qız çörək gətirirdi, oduna buyuranda daş gətirirdi. Anası dedi:

– Sənin günün qara olsun! Sənə nə oldu? Yoxsa getdin, qonağa aşıq oldun?

Çünki anasının fikri yox idi, qızını qürbət vilayətliyə verməyə. Qız gördü ki, anası başa düşüb bir balaca məsələni açdı. Həya pərdəsini üzündən götürüb, aldı, görək nə dedi:

Canım ana, gözüm ana,
Yardan ötrü mən ağlaram.
Sənə qurban özüm, ana,
Yardan ötrü mən ağlaram.

Anası çığırıb dedi:

– Dədənə deyərəm səni öldürər!

Qız dedi:

– Keşgə* deyəsən.

Aldı qız:

Ərz halım de dədəmə,
Məni salma dərdə, qəmə,
Nəcəf gedir İsfahana,
Yardan ötrü mən ağlaram.

Canım ana, gözüm ana,
Əmdim südün qana-qana.
Pərzad qurban Nəcəf xana,
Yardan ötrü mən ağlaram.

Qızın atası qapıdan içəri girdi. Arvad dedi:

– A kişi, bu qızını öldür! Nəcəf xana aşıq olub.

Kişi dedi:

– Arvad, lap yaxşı olub. Heç qızın xətrinə də dəymərəm. Ona görə ki, bizim ilqarımız var oğlanın atasıynan. İndi ki, bir-birini seviblər, toylarını eləyib, yola salacam getsinlər.

Tacir Əhməd bunların toylarını eləyib, yeddi gün, yeddi gecə şənlik keçirdi. Qızın başı bəzənəndə aldı, görək nə dedi:

Qürbət ölkələrə mən gedər oldum,[2]
Haq belə yazıbdı yazımı mənim.
Atam yox, anam yox qürbət ölkədə,
Kim çəkəcək işvə-nazımı mənim?!

* Kaş ki

Anası dedi:
– Görürsənmi, belə işlər var, gəl səni qoymayım getməyə?
Aldı qız:

Yara dil vermişəm, qala bilmərəm,
Mən yarın oduna yana bilmərəm,
Gedərgi qonağam, dönə bilməm,
Ta görməzsiniz üzümü mənim.

Pərzad deyər: mən də düşdüm bu dərdə,
Heç kafər düşməsin mən düşən dərdə,
Nəcəf xandan olmuyaydım şərməndə,
Heç kim izləməsin izimi mənim.

Deyirlər, qızın anasında bir tilsim kitabı var idi. Qız yola düşən vaxtı köynəyin altından qızın döşünə saldı, dedi:
– Ay qızım, Nəcəf xandan qoçaq oğlanlar çoxdu. Hər kəs sənə əl atsa, kitab onu tilsimə salacaq.
Ancaq Nəcəf xan bilmirdi qızın döşündə kitab var. İyirmi gün yol getdilər. Alxas çimən adlı mənzildə düşüb, dincəlməli oldular. Oraya kimi Nəcəf xan qızı danışdırmadı. Nəcəf xan belə fikir eləyirdi ki, qıza əl vursam qız məndən inciyər, deyər evlərinə kimi məni qonaq saxlamadı. Mənzildə dincələn vaxtı Nəcəf xan fikirləşdi: sonra qız deyər ki, məndə ürəyi yoxdu, onunçun dindirmir. Gecə qızın çadırına gedim, onun halını soruşum.
Bəli, gedib gördü qız yatıb. Qıymadı qızı oyatsın. Özü paltarını soyunub, qızın yanında uzandı. Yavaşca əlini qızın döşünə atdı ki, onu oyatsın. Nəcəf xanın əli dəydi tilsim kitabına. Kitab oldu bir göyərçin, Pərzad xanım donunda Nəcəf xanın gözünə göründü, dedi:
– Oğlan, mən getdim, sən də gəl.
Nəcəf onun dalına düşdü. Tilsim dağında kitab oldu bir quş, Nəcəf xan da yarıdan aşağı daş, yarıdan yuxarı adam olub qaldı.
Sizə kimdən xəbər verim, Pərzad xanımdan. Gecənin bir vaxtı Pərzad xanım oyandı, gördü yanında bir dəst kişi libası var. Tanıdı ki, Nəcəf xanındı. Qız əlini döşünə atanda gördü kitab yoxdu. Dedi:
– Anamın evi yıxılsın, mənə yaxşı gün ağladı!..
Qız fikir elədi, öz-özünə dedi: "Yaxşısı budu ki, Nəcəf xanın paltarını geyim, papağını başıma qoyum, adımı da qoyum Nəcəf xan, qoşuna xəbər verim ki, Pərzad xanım yoxdu, durun gəzək dağları, daşları, bəlkə tapam".

Həmin fikir qızın ürəyində, Nəcəf xanın paltarını geyinə-geyinə görək nə deyir:

Cavan sevdim, fərəhləndim, ucaldım,
Getdi cavan, gözüm ağları qaldı.
Belim bükdü bir ayrılıq, qocaldım,
Çəkdi sinəm üstə dağları, qaldı.

Əynimə geymişəm yarın libasın,[3]
Üstündən qurşadım zərri-zibasın,
Uçdu getdi, qoydu dövlət xanasın,
Yaxşı öpüb qucmaq çağları qaldı.

Son qəfəsdən uçurtmuşam göyərçin,
O sehri-caduya mən ollam laçın.
Pərzad külah altdan qərq eylər saçın,
Getdi Nəcəf, solu sağları qaldı.

Sözü tamama yetirdi. Qız öz-özünə fikir elədi ki, mən özümnən iki qarabaş gətirmişəm. Gedim onların yanına, əgər onlar məni tanımasa heç kim tanımaz. Gecəynən durub getdi qarabaşı Saqinin çadırına. Saqi yatmışdı. Aldı, görək Pərzad nə deyir:

Budu, gəldi bahar fəsli,
Dağların lala vaxtıdı.
Nə yatıbsan, oyan, Saqi,
Əldə piyala vaxtıdı.

Saqi gözün açıb dedi:

– Nəcəf xan, ayıb deyilmi, gecənin bu vaxtında mənim çadırımda nə gəzirsən? Əgər Pərzad xanımın çadırın axtarırsansa o biri çadırdadı, səhv gəlmisən.

Pərzad xanım gördü ki, Saqi onu tanımadı. Çıxıb getdi Pərinin çadırına. Aldı, görək Pərini nə cür qaldırdı:

Nə yatıbsan, Pəri xanım,
Qan ağlar çeşmi-giryanım,
Yardan ayrı düşən canım,
Çəkərəm nərə, vaxtıdı.

Pəri də gözün açdı, tanımadı, dedi:
– Oğlan, səhv gəlmisən.
Pərzad çadırdan çölə çıxıb, aldı o biri bəndini:

Bülbül gileylidi xardan,
Qurtarmadım ahu zardan;
Pərzad ayrı düşdü yardan,
Örtərəm qara vaxtıdı.

Sözlərin qurtarıb, qoşuna hay saldı:
– Durun, Pərzad xanım yoxdu!
Qoşun qalxıb, yeddi gün dağı-daşı gəzdi, Pərzad xanımı tapmadı. Həmin qarabaşlar bir-birinə dedilər:
– Biz Pərzad xanımdan da gözəlik, bizim birimizi alıb qayıtsın, ta bizə niyə əziyyət verir?
Özlərinə ziynət verməyə başladılar. Pərzad xanım gördü bu ziynət o ziynətdən deyil. Aldı, görək nə deyir:

Səhər dostum şanə tutub dəsdində,
Dağıdar tellərin ay bular-bular!
Biri sidqinən dilək diləsə,
İnşallah mətləbin ay bular, bular!

Mürğün dəhanında nə danə dedim,
Sərrafın dəsdində nə danə dedim,
Dərdimi dərd bilməz nadanə dedim,
Anlamaz başını ay bular, bular!

Bu dərd, bu qəm mənim canımda qaldı,
Heyva kimin gül irəngim saraldı,
Desələr Nəcəfi kim dərdə saldı,
Onda söyləginən ay bular, bular!

Sözü tamama yetirdi, qoşunu qaytardı yurd yerinə. Yoldaşları dedilər:
– Nəcəf xan, yühlənək gedək, burda qalmağın xeyri yoxdu.

Pərzad xanım pünhana çəkilib, aldı, görək nə deyir:

Başına döndüyüm yarı-bafadar,
Mən sənin ucundan dağıdar oldum,
Məcnun kimin veyranələr küncündə,
Dolandım çölləri sərgərdan oldum.

Baş tapmadım öz dediyim sözümdən,
Ağlayanda qan-yaş gəlir gözümdən.
Gahdan bir də ab alıram özümdən,
Yanıb eşq oduna səməndər oldum.

Sözü qurtarıb, kağıza yazdı, qoydu ocax daşının altına. Yoldaşlarına dedi:

– Yüklənin, gedək İsfahana.

Az getdilər, çox getdilər, İsfahana çatdılar. Pərzad xanım fikir elədi ki, Nəcəf xanın evini tanımıram. Xəbər alsam da mənim qız olmağımı biləcəklər. Lazım budu ki, özümü xəstəliyə vurum. Mahna eliyib, özünü xəstəliyə vurdu. Yoldaşları dedilər:

– Nəcəf xan xəstələnib, yeriyə bilmir, aparaq evinə.

Bəli, onu evə apardılar. Özünü tanımamazlığa vurdu, dedi:

– Mənim anam hanı?

Dedilər:

– Oğlan ağır xəstədi, anasın tanımır.

Göstərib dedilər:

– Anan budu, bala, qorxma.

Qız yaxşı tanıdı ki, Nəcəf xanın anası budu. Anası da elə bildi ki, bu doğrudan da Nəcəf xandı. Bu mahnaynan qonum-qonşu, hamıyı tanıdı. Bir aydan sonra xəstəlikdən qalxdı. Anası dedi:

– Ay oğul, sənin atan həmişə sövdəyarlıqdan gələndə Şah Abbasa xonça bəzəyib aparırdı. Sən niyə aparmırsan?

Qız dedi:

– Ana, xəstəlikdən yeni durmuşam. Mən də apararam.

Bəli, qız bir ləyaqətdi xonça bəzəyib, Şah Abbasa baş əyib gərnuş elədi. Şah Abbas əl tutub, yer göstərdi. Bir qədər söhbətdən sonra, Pərzad xanım bir tərəfi qaçaq qoydu. Çünki fikir eləyirdi ki,

mənim qız olmağım bilinməsin. Çox sözdən sonra Şah Abbasdan icazə alıb qayıtdı. Pərzad xanım gedəndən sonra Şah Abbas vəziri çağırdı, dedi:

– Ay vəzir, Nəcəf xan mənim çox xoşuma gəldi. Ona nə bağışlayaq, bizdən razı olsun?

Vəzir dedi:

– Nə bağışlasan, mən də razı olaram.

Şah Abbas dedi:

– Mənim elə bir şeyim yoxdu. Gəl sənin qızın Gülgəz xanımı Nəcəf xana verək.

Vəzir dedi:

– Sən bilirsən.

Şah Abbas Nəcəf xana kağız yazdı: Öz xoşumnan vəzirin qızını sənə verdim, gəl apar.

Nəcəf xan kağızı alıb oxudu, gördü iş əngəldi. Əgər desə almıram, şahın qəzəbi tutacaq. Əgər desə alıram, sirri açılacaq. Öz-özünə dedi:

– Keçib ondan, nə olar-olar, deyim qızı alacam.

Bəli, Nəcəf xan razılıq verdi, qızın toyun eliyib gətirdilər. Pərzad xanım axşam qızın yanına gedəsi oldu. Qapıdan içəri girəndə qıza yaxın getmədi. Çəkilib bir tərəfdə oturdu, başladı Quran oxumağa. Qız gərdəyin dalından başını çıxardıb dedi:

– Ay Nəcəf xan, məni yas yerinə gətirməyibsən ki? Bu nədi oxuyursan, gəlib niyə oynuyub gülmürsən?

Nəcəf xan dedi:

– Səsini kəs. Atam öləndə mənə vəsiyyət eliyib ki, oğul, havax evləndin, əlini nişanlına vurmamışdan qabaq qırx gün mənə xətm eləyərsən. Mən də atamın vəsiyyətini yerinə yetirirəm.

Gəlin namısa gəlib dedi:

– Qırx gün də mənim əvəzimdən qaynatama xətm eliyərsən.

Pərzad xanım öz ürəyində dedi: nə yaxşı oldu. Səksən günə kimi ya Nəcəf xan gələr, ya da mən şəhərə bələdləşib qaçaram. Bəli, səksən gün də qurtardı, Nəcəf xan gəlmədi. Vəzirin qızı gördü Nəcəf xandan bir hacət açılmadı, istədi qaçsın. Pərzad xanım başa düşüb, qızın ayağının altını qızılgülün çubuğuynan döyüb, qara tuluq elədi. Qız qaça bilmədi, başladı yerdə yatmağa. Ancaq əl altından şaha, atasına yazmışdı; məni ərə verdiyiniz oğlan, məni zülmnən saxlayır.

Bunlar burda qalmaqda olsun, sizə kimdən xəbər verim, Nəcəf xandan. Nəcəf xan tilsimdə götürsün, görək nə deyir:

Mədəd-mədəd aləmləri yaradan,
Haray, məni bu cadıdan qurtara!
Ənbiyalar, övliyalar, ərənlər
Haray, məni bu cadıdan qurtara!

Mənim ağam şahi-Mərdan ya Əli,
Kərəm eylə, qiblə səmtdən dön bəri,
Yerin, göyün, ərşin, kürşün ləngəri,
Haray, məni bu cadıdan qurtara!

Nəcəfəm, çağırram ya şahlar şahı,
Yetişsin dadıma ol qibləgahı,
Xorasanda qızıl günbəz pənahı,
Haray, məni bu cadıdan qurtara!

Sizə kimnən xəbər verim, ovçu Əhməddən. Ovçu Əhməd yaranmışın hamısının dilin bilirdi. Əlində qızıl quş ova çıxmışdı. Naxırçıdan, buzovçudan soruşdu:

– Bala, burda ovdan-zaddan nə gördünüz?

Dedilər:

– Heç bir şey görmədik. Ancaq tilsim dağında nifi-nifi bir bəni-adəm səsi gəlirdi.

Ovçu Əhməd dedi:

– Nə olur-olsun, mən oraya gedəcəm, görüm nə cür əhvalatdı.

Ovçu Əhməd dağa çıxdı. Nəcəf xan gedən kimi, o da qurşaqdan aşağı daş oldu. Ovçu Əhməd Nəcəf xana dedi:

– Ay bala, sən nə işin sahabıydın, mən də sənin oduna düşdüm.

Nəcəf xan dedi:

– Mənim dərdimdən halı olma. Keçib ondan.

Ancaq ovçu Əhmədin əlindəki qızıl quşnan Nəcəf xanı tilsimə salan kitab danışırdı.

Ovçu Əhməd gördü quş olan kitab qızıl quşa deyir:

– Sənin sahibin səni buraxsa, məni bu qayanın arasından çıxartsan, Nəcəf xan məni tutub başımı üzsə, qan daşa tökülsə bunlar hər ikisi azad olar.

Ovçu Əhməd Nəcəf xana dedi:

– Ay oğul, quşu buraxıram. Quş quşu sənin başının üstündə qovlayanda əlini at, səni tilsimə salan quşu tut, başın üz. Əgər tuta bilməsən ikimiz də tamam daş olacayıq.

Ovçu Əhməd quşu buraxdı. Quş quşu qovdu, quş Nəcəf xanın başının üstündən keçəndə Nəcəf xan quşu tutdu, o saat başın üzdü, qanı daşa töküldü. İkisi də tilsimnən qurtardı. Ovçu Əhməd Nəcəf xanı götürüb evinə apardı. Yolda ondan soruşdu:

– Oğul, nə işin sahabıydın ki, burda tilsimə düşmüşdün?

Nəcəf xanın yaraları qovr elədi, aldı, görək nə deyir:

Dad eylərəm qara baxtın əlindən,
Yar üzünə həsrət qalan mən oldum!
Əyyub kimi canda yara bəslərəm,
Əzəl doğru, sonra yalan mən oldum!

Nə bir dostum var, nə də həmdəmim,
Günü-gündən artar dərdinnən qəmim,
Nuh kimi dəryaya qərq oldu gəmim,
Gəmisi dəryada qalan mən oldum!

Nəcəfəm, qurtarmam qəm otağından,
Bülbül əl götürməz gül budağından,
Dilindən, dişindən, tər buxağından,
Tərsa sevən Şeyx Sənan mən oldum!

Sözlər tamama yetəndən sonra ovçu Əhməd dedi:

– Oğul, indi başa düşdüm ki, sən yar ucundan çöllərə düşübsən. Bir qızım var, adı Xanı xanımdı. Özü də pəhlivandı. Evimizə çatan kimi qızımı sənə verəcəm.

Nəcəf xan dedi:

– Keşkə heç o tilsimdən qurtarmayaydım. Mən fədəm-dəmə deyirəm, bu damnan dama deyir.

Bəli, Nəcəf xanı apardı evə. Çatan kimi zor-xoş qızının kəbinin kəsdi Nəcəf xana. Nəcəf xan günü-gündən saralmağa başladı. Qor-

xusundan açıb deyə bilmirdi. Qorxurdu ki, qız onu vurub öldürsün. Axırda da qız ondan soruşdu:

– Nəcəf xan, niyə saralırsan, dərdin nədi?

Nəcəf xan ayrı bir mahna tapmadı, dedi:

– Mən həmişə səyahətə çıxıb gəzən adamam. Məni gəzməyə buraxmırsan, mən də saralıram.

Qız çağırıb bir neçə oğlan yığdı, dedi:

– Nəcəf xannan səyahətə çıxın. Ancaq Nəcəf xan qaçsa onu yayoxunan vurun.

Nəcəf xan oğlanlarla səyahətə çıxdı. Nəcəf xan birbaşa atı sürdü Pərzad xanımdan ayrıldığı yurd yerinə. Gördü lələ köçüb yurdu qalıb. Heç kim yoxdu. Ocaq daşını qaldıranda gördü altında bir kağız var. Alıb oxuyanda gördü Pərzad xanım İsfahana gedib. Baxdı ki, bir neçə bəzirgan İsfahana gedir, dedi:

– Ay bəzirgan, ayağını saxla, bir qatar sözüm var, deyim:

Aldı Nəcəf xan:

Əgər gedər olsan şəhri-İsfahana,[4]
Yetir salamlarım yara, bəzirgan!
Göndərsin xəbərin çöl quşlarından,
Yazsın ağ üstündən qara, bəzirgan!

Bilmirəm ki, nə qatdılar badıya,
Müddətdi düşmüşdüm sehr-cadıya,
Yetir salamlarım Pərizadıya,
Bir qulum itibdi, ara, bəzirgan!

Ağzın gövhər, dişin inci sədəfi,
Dəmadəm çəkirəm sinəmdə ahı,
Desələr gördünmü sən də Nəcəfi?
Sən danış həsrətdi nara, bəzirgan!

Sözlər tamama yetdi. O vaxt kağız aparanlar kağızı papağının tərkinə qoyardılar ki, görüksün, kağız sahibi kağızını tanısın. Adamlar Nəcəf xanı qaytarıb apardılar. Bəzirgan da kağızı papağının tərkinə taxıb, düşdü yola. İsfahana çatanda gördü bir oğlan deyir:

– Əmi, kağızı ver, mənimkidi.

Bu oğlan kim olsun, Pərzad xanım. Bəzirgan onun üzünə baxanda elə bildi Nəcəf xandı, dedi:

– Ay oğul, özün mənnən qabax gələcəydin, kağızı mənə niyə verirdin?

Pərzad xanım dedi:

– Bəzirgan, o mən deyiləm. Qürbət vilayətdə bir əmim oğlu var, o da mənə oxşayır, yəqin odu.

Pərzad xanım kağızı oxuyub, məzmunundan halı oldu, dedi:

– Bəzirgan, bir kağız da mən versəm, aparıb ona çatdıra bilərsənmi?

Bəzirgan dedi:

– Ay bala, mən cəfa çəkməyi öyrənmişəm, niyə aparmıram.

Aldı Pərzad xanım:

Göz yaşımdan namə yazdım o yara,
Naməm yetişcəyin, canan, durma gəl!
Gözlərim yolunda, mən intizaram,
Vədə verdin bir ilqara, durma gəl!

Aşıq bilər məşuqənin halını,
Mən sevmişəm ağ üzündə xalını,
Gözləməkdən sən namərdin yolunu,
Qalmadı gözümdə qara, durma gəl!

Pərzad deyər: düşmənlərimiz güldülər,
Süsən dilər, sünbül dilər, gül dilər,
Qiyamatdı, qızı qıza verdilər,
Çox da keçdi günüm qara, durma gəl!

Naməni bəzirgan alıb geri qayıtdı. Nəcəf xan hər gün yol gözləyirdi, gördü bəzirgan, budu, gəlir. Naməni bəzirgandan alıb oxuyandan sonra genə saralmağa başladı. Ovçu Əhmədin qızı ona dedi:

– Səni mən qan yerinə gətirməmişəm ki, niyə saralırsan?

Aldı Nəcəf, görək nə deyir:

Dərdim çoxdu, izhar edə bilmirəm,
Gözü yolda intizar ata-anam.

Sevmişəm, ayrılıb gedə bilmirəm,
İllərətən qəmxananda yatanam.

Gözəl, sənsən gözəllərin ülkəri,
Yolunda qoymuşam can ilə səri,
Ya hurisən, ya mələksən, ya pəri,
Havax adın gəlsə qəmə batanam.

Yəqin bil: Nəcəfin din-imanısan,
Züleyxasan, Misrin sən soltanısan.
Adın Xanı, özün xanlar xanısan,
Sana qurban elim, günüm, atanam!

Söz tamama yetəndən sonra qız dedi:

– İndi ki, ata-anan intizardadı, sizin yerə gedək.

Oğlan dedi:

– Allah, sənə şükür!

Vəzndən yüngül, qiymətdən ağır şeylərdən götürdülər. Hərəsi bir at minib, düşdülər yola. Yolda Nəcəf xan başına gələnlərin hamısını qıza söylədi. Qız dedi:

– Namərd oğlu, bunu qabaxdan mənə niyə demirdin? Gen günündə həmdərdinəm, dar günündə qardaşınam.

Gecəni günüzə qatıb, çatdılar İsfahana. Xanı xanım dedi:

– Nəcəf xan, məni bir ayrı evdə qoy, get qızlara de, gəlib məni aparsınlar.

Nəcəf Xanı xanımı ayrı bir evdə qoyub qızların yanına getdi. Qapıya çatanda Pərzad xanım onun qabağına çıxdı. Gördü gələn Nəcəf xandı. Öpüş-görüşdən sonra Pərzad xanım dedi:

– Nəcəf xan, sən dayan qapıda. Mən içəri girim, vəzirin qızını muşduluqluyum.

Pərzad qapıdan içəri girdi, aldı, görək nə dedi:

Qalx ayağa bircə, vəzirin qızı,[5]
Sənin butan, mənim yarım gəlibdi!
Əyninə geydirrəm allı, qırmızı,
Sənin butan, mənim yarım gəlibdi!

Sənə çox vermişəm zəhməti, cəza,
Qırx günün namazım qıldırdım qəza,
Axdı bu göz yaşım dərya-dənizə,
Sənin butan, mənim yarım gəlibdi!

Bilməm fələk nəyimizə nə qatdı,
Gecə deyil, gündüz mənə zülmatdı,
O Nəcəfdi, mənim adım Pərzaddı,
Hər iki gözəlin yarı gəlibdi!

Vəzirin qızı Gülgəz xanım məsələdən halı oldu. Bütün əhvalatı Pərzad xanım ona danışdı. Bu vaxt Nəcəf xan qapıdan içəri girdi. Aldı vəzirin qızı, görək ona nə dedi:

Sən gəldin otağa, nur yağdı bağa,[6]
Bu sınıx könlümə həmdəm, xoş gəldin!
Sən gələn yollara canım sadağa,
Bu sınıx könlümə həmdəm, xoş gəldin!

Sən gedəni çox qəlbimə dəyirdin,
Bənövşə tək mənim qəddim əyirdin,
Qızılgülün qulğunundan döyürdün,
Bu sınıx könlümə həmdəm, xoş gəldin!

Ancaq Pərzad xanım çöldə Nəcəf xandan öyrənmişdi ki, birini gətirib başqa yerdə qoyub. Onun üçün də sözün təxəllüsünü Pərzad xanım söylədi:

Pərzad deyir: indi bizim özümüz,
Çöldə oxuyur şeyda bülbülümüz,
Vəzir qızı, sən də, mən də – ikimiz
Gedək deyək: Xanı xanım, xoş gəldin!

Söz tamama yetdi. Hər ikisi getdi Xanı xanımı gətirməyə.

İndi sizə hardan danışım, vəzirin qızı ki, atasına, padşaha Nəcəf xandan şikayət yazmışdı, gəldilər, Nəcəf xanı tutdular, apardılar dara çəkməyə. Hər üç gözəl geri qayıdıb, gördülər ki, Nəcəf xan evdə yoxdu.

Məsələdən halı oldular ki, Nəcəf xanı dara çəkməyə aparıblar. Ovçu Əhmədin qızı Xanı xanım dedi:

– Mənim pəhlivanlığım ağlar qalsın, bəs sizə nə vaxt lazım olacax?!.

Sözünü qurtarıb, dava libasını geydi, özünü meydana yetirdi. Bir nərə çəkib, görək nə deyir:

Çağırıb Allahı, girrəm meydana,[7]
Şah oğluna deyin, meydana gəlsin!
Meydanı boyaram zərəfşan qana,
Şah oğluna deyin, meydana gəlsin!

Vəzir qılıncını salmasın cana,
Yanıb-yanıb bağrım dönəcək qana.
Yüz tülkü neyləyər bir ac aslana?
Şah oğluna deyin, meydana gəlsin!

Tanı məni – Əhməd qızı Xanıyam,
Bu meydanda qənimimi tanıyam.
Sən bil ki, Nəcəfin qoç qurbanıyam,
Şah oğluna deyin, meydana gəlsin!

Söz tamama yetən kimi, Şah Abbas cəlladları dayandırdı. Nəcəf xanı öldürmədi. Nəcəf xandan əhval-pürsan oldu. Nəcəf xan bütün əhvalatı, mən sizə nağıl eliyən kimi, ona nağıl elədi. Şah Abbas dedi:

– Əhsən Pərzad xanıma! Bu işləri düz aparan odu. Onun xatiri üçün onların toyunu eləyəcəyəm.

Qırx gün, qırx gecə toy elədi, hər üç gözəli verdi Nəcəf xana. Onlar murad hasil eləyib şad oldular, siz də şad olasınız.

Nəcəf xan öz toyunu aşağıdakı duvaqqapma ilə axıra çatdırdı:

Asta yeri, bir ərzim var,
Adı Gilə, ağrın alım!
Gümüş əzdir, düymə düzdür
İncə belə, ağrın alım!
Kirpiyi ox, kamalı çox,
Boyu bala, ağrın alım!
Səhər təzə, gəlsən bizə,
Gülə-gülə ağrın alım!

Nitq oxuyur, şal toxuyur,
Əlində peşəsinə bax!
Yar gəlsin, dərən olsun,
Bağın bənövşəsinə bax!
Vaxt ötüb, ləkə tutub,
Könlümün şüşəsinə bax!
İki məmə, kimlər əmə,
Sədr üstə qoşasına bax!
Ay göyçək, bir sığal çək
Siyah telə, ağrın alım!

Qız özün, yox əvəzin,
Gəlibsən cahana, gözəl!
Bimürvət, şirin şərbət,
Əzibsən dahana, gözəl!
Mən gələndə sizin elə,
Eyləmə bəhana, gözəl!
Səni deyib Nəcəf sevib,
Tök tellərin yana, gözəl!
Gedək qoşa, qal həmişə,
Bizim elə, ağrın alım!

# Qul Mahmud

## USTADNAMƏ

İnsan payız ölə, yazda dirilə,
Zimistanda boran, qarı çəkməyə.
Günü gündən işi düşə müşgülə,
Hərgiz namus, qeyrət, arı çəkməyə.

İnciməyin qoca aşığın yaşından,
Sinəm vaqif olub eşq ataşından,
Bülbül gül yolunda keçər başından,
Əyər gül göysünə xarı çəkməyə.

Eşqin ataşına qatalar məni,
Qul deyə, Həbəşdə satalar məni,
Qoyub top ağzına atalar məni,
Bəlkə canım bu azarı çəkməyə...

Xəstə könül gəzir bu təmənnada,
Mərdlərin mövlası, sən yetiş dada,
Mərd igidə ölüm haqdı dünyada,
Yoxsul olub ahı-zarı çəkməyə!.

Ələsgər, əlini üzmə damandan,
İstə mətləbini sahib-zamandan,
Məhəmməd Hümməti çıxmaz zindandan
Taki mövlam zülfiqarı çəkməyə!

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, birini də deyək, iki olsun.

Yığdın bu dünyanın malü dövlətin,
Əllini keçirdin, yüzə nə qaldı?
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı?

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora həlqə salma dəmirdən,
Aydı, gündü, gələr, keçər ömürdən,
Tələsirik, görən yaza nə qaldı?

Haraya baxıram hava məxşuşdu,
Gördüyüm oylaqlar yadıma düşdü.
Bir gün eşidərsən Alı da köçdü,
Sındı simli sazı, tara nə qaldı?

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, düşmənin rəngi solsun.

Ay ağalar, gəlin sizə söyləyim,
Bu dünyada keçməz işi namərdin.
Yeriyib evinə bir qonaq gəlsə,
Açılmaz qabağı, qaşı namərdin.

Dərdə düşsən, ondan diləmə dərman,
Üzünə xoş baxar, dalınca düşman,
Dilərəm üzünə çıxsın bir yaman,
Müdam zəhər olsun aşı namərdin.

Əmir dedi: sirrin vermə hər yada,
Dərdi olan batar qəmdən dəryada,
Dilərəm mövladan fani dünyada
Müdam qala düşsün başı namərdin.

Təbriz şəhərində qoca Alı adlı bir sövdəyər var idi. Varlı-dövlətli bir adam idi. Ancaq qoca Alının nə qədər züryəti olurdu, o qədər də tələf olurdu. Alı həmi uşaq fikrindən, həmi də qocalıqdan lap əldən-ayaqdan düşmüşdü. Axır vaxtda bunun külfətinin boynuna bir uşax düşdü. Arvad yükünü yerə qoymaq vaxtı olanda qoca Alı kasıb-kusuba nəzir-niyaz verdi ki, siz də mənə dua eləyin, Allah bunu mənim əlimdən almasın.

Arvad yükünü yerə qoyan vaxtı bir ağa dərviş qapıda haqqı-hüy çəkdi. Qoca Alı o biri otaqdan dərvişin səsini eşidib, onun qabağına yüyürdü, dedi:

– Ağa dərviş, məndən nə istəyirsən?

Dərviş dedi:

– Mən pay alan dərvişlərdən deyiləm. Sənin uşağının adını qoymağa gəlmişəm. Bir yaşından yüz yaşına kimi onun barını yeyəcəksən. Mən onun adını qoydum Qul Mahmud.

Kişi dərvişin əlindən öpdü. Dərviş çıxıb getdi. Aylar, illər gəldi keçdi, uşax gəlib məktəb yaşına çatdı. Kişi dedi:

– Arvad, bunu harda oxudaq?

Arvad dedi:

– Özün bil.

Kişi dedi:

– Arvad, İsfahanda Şah Abbasın bir məktəbi var, oranı oxuyan padşaha layıq böyük adam olur. Ya vəzir olur, ya da ki, qoşun böyüyü.

Qul Mahmudun atası aparıb bu məktəbdə oxutmağa qoymaqda olsun, sizə kimdən xəbər verim, Şah oğlu Şah Abbasın vəziri Əhməd vəzirdən. Əhməd vəzirin də gözünün ağı-qarası Leyli adında bir qızı var idi ki, Əhməd vəzir onu da bu məktəbə qoymuşdu.

Bəli, hər iki cavan məktəbdə bir-birinə yaman məhəbbət bəslədilər. Yeməkləri bir, gəzməkləri bir, oxumaqları bir yerdə olurdu. Vaxt gəldi keçdi, Qul Mahmud məktəbi tamam elədi. Müəllimləriynən, yoldaşlarıynan halal-hümmət eləyib, öylərinə getməyə üz qoydu. Qul Mahmud bir neçə qədəm getmişdi, vəzirin qızı Leyli gəldi qabağını kəsdi. Qız saçından bir neçə tel qopartdı, verdi Qul Mahmuda, dedi:

– Qul Mahmud, bunu sənə nişan verirəm, ha vaxt məni unutsan od olsun, səni yandırsın!

Qul Mahmud da baş darağını qıza nişanə verdi, dedi:

– Sən də məni unutsan, bu da səni od olub yandırsın!

Hər ikisi bir-birinə nişanə verib, halal-hümmət eləyib ayrıldılar.

Qul Mahmud qızın həvəsindən quş kimi qanad çaldı, özünü yetirdi Təbrizə, atasının öyünə.

Qohum-qardaş, dost-aşna gəldilər onu görməyə, yeyib-içib dağılandan sonra oğlan anasına dedi:

– Ana, mənim bir səfərim var, mən gedəcəm.

Anası ağlayıb dedi:

– Oğul, yenicə gəlib çıxıbsan, hara gedirsən?

Qul Mahmud götürüb, anasına görək nə deyir, anası ona nə cavab verir.

Aldı Qul Mahmud:

Uzax yollar üstündəyəm,
Ana, mən gedirəm gedir.
Şirin canın qəsdindəyəm,
Ana, mən gedirəm gedir.

Aldı anası, görək nə dedi:

Mahmud, gedirsən pünhana,
Oğul, Allah amanatı.
Tapşırıram o sübhana,
Oğul, Allah amanatı.

Aldı Qul Mahmud:

Haqdan yazılıbdı yazım,
Başa çatsın xoş avazım,
Verin nəziri-niyazım,
Ana, mən gedirəm gedir.

Aldı anası:

Sən gedirsən İsfahana,
Məni qoyma yana-yana,
Tapşırıram yaradana,
Oğul, Allah amanatı.

Aldı Mahmud:

Qul Mahmud da öz elinnən,
Haqqı qoyammaz dilinnən.
Tutub ağamın əlinnən,
Ana, mən gedirəm gedir.

Aldı anası:

Sən gedirsən İsfahana,
Məni qoydun yana-yana.
Tapşırıram o sübhana,
Oğul, Allah amanatı.

Camaat, mollalar buna kinayəynən dedilər:

– Sən gərək böyük adam oleydin, gəlib aşıq olubsan, özü də təkcə çıxıb gedirsən. De görək, qardaşın yox, bir şeyin yox, təkcə hara gedirsən?

Mahmud anasıynan halal-hümmət eləyib, başladı getməyə. Hamı anasına ürək-dirək verirdi ki, a balam, nolacaq, qoy getsin. Anası Söylü aldı, görək nə deyir:

Könlüm sızıldar, qan tökər gözlərim,
Elə bil çovğuna, qara düşmüşəm.
Kərəmsiz bəndəyəm, fələk əlindən,
Halım dönüb, intizara düşmüşəm.

Arvadların biri dedi:

– Allah qoysa, Mahmud qayıdıb gəlsə, mənə muşduluq nə verərsən?

Söylü dedi:

Təbibimsənsə gəl yaramı sarı,
Güldürmədi mənim təki ağları,
Sinəmə çəkilib oğul dağları,
Ayrılıqdan intizara düşmüşəm.

Söylüyəm, qürbətdə ellərdə xəstə,
Gözüm muşduluqda, qulağım səsdə,
Apardı oğlumu əlimdən nəsdə,
Gözüm görmür, çox kənara düşmüşəm.

Qul Mahmud o qədər yol getdi ki, Məzə dağına çatdı. Ustadlar deyir ki, bu dağdan İsfahana qırx günlük yoldu. Bura çiçəkli, güllü-büllü bir dağdı. Dağın belindən Cəfər sövdəyər baxırdı. Bir də gördü ki, qəflə-qatırdan bir qırıx aralı, dağın təpəsində bir aşıq saz çalır. Görək burda Qul Mahmud nə deyirdi:

Sənə deyim, Məzə dağı,
Leylim səndə gəzdimola?
Açılıbdı gül-çiçəyin,
Gələn bahar yazdımola?

Qadir Allah yetər dada,
İyid başı çəkər xata.
Cəh-cəh vurub bağda, amma,
Ördək kimi qazdımola?

Qul Mahmud da yana-yana,
Yandı bağrım, döndü qana,
Səfərimdi İsfahana,
Mənzil kirən azdımola?

Bu səsi Cəfər sövdəyər eşitdi. Gəldi gördü ki, bu oğlan gül kimi bir aşıqdı. Qul Mahmud onun çox xoşuna gəldi, dedi:

– Oğul, mən də bu sazdan xəbərdaram, bir az da şairliyim var. De görüm hara gedirsən?

Qul Mahmud bunun salamını aldı, amma cavab vermədi, Cəfər sövdəyər bir də xəbər aldı:

– Oğul, hara gedirsən?

Gördü ki, Qul Mahmud yenə dinmir. Aldı Cəfər sövdəyər, görək ona nə dedi:

Başına döndüyüm, ay cavan oğlan,
Söylə görüm, nə məkana gedirsən?
Eşqin cürəsinə giryan olubsan,
Pərvanə tək yana-yana gedirsən.

Aldı Qul Mahmud:

Başına döndüyüm, sövdəyərbaşı,
Üz tutuban bu diyara gedirəm.
Fələyin gərdişi, qəzanın işi,
Yan çöyürüb bu diyara gedirəm.

Aldı Sövdəyər:

Söylə görüm, bala, sənə nə oldu?
Eşqin saf cürəsi sinənə doldu.
İsfahan deyilən çox uzax yoldu,
Nahax, balam, sən əfsanə gedirsən.

Aldı Qul Mahmud:

Gözəl olan sığal verər özünə,
Aşıq olan dərdin söylər sazına,
Mən aşığam Əhməd vəzir qızına,
Üz tutuban bu diyara gedirəm.

Sövdəyər öz-özünə dedi: nə gözəl oğlandı. Ürəyindən keçdi ki, elə nə olaydı, qızımı bu oğlan alaydı. Odu ki, Cəfər sövdəyər götürüb dedi:

Cəfər sövdəyərə söyləmə nağıl,
Unutma, başına cəm elə ağıl.
Mən sənə ata ollam, sən mənə oğul,
Nahax, bala, o zindana gedirsən.

Aldı Qul Mahmud:

Qul Mahmudam, mən gedərəm hər yana,
Dərdimi söylərəm mən yana-yana,
Sıtqımı bağladım şahi-mərdana,
Leyli deyib, bir canana gəzirəm.

Qul Mahmud getmək istəyəndə Cəfər sövdəyər dedi:
– Oğul, dayan, birini də deyim, sonra istərsən gedərsən.
Cəfər sövdəyər dedi:

Qəribsən qürbətdə, ay cavan oğlan,
Xoş gəlibsən bu diyara, dur gedək.
Könül xəstə, can intizar gəzirəm,
Sən loğmansan, mən bimara, dur gedək.

Aldı Qul Mahmud:

Üz çöyürüb bir məkana gedirəm,
Gör necə görükür haralar mənə.
Gözü yolda, intizarda yarım var,
Vurma dürlü-dürlü yaralar mənə.

Aldı Cəfər:

Dinim müsəlmandı, özüm sövdəyər,
Düşdüm qocalığa, oldum ixtiyar.
Cavan oğlan, səndən qeyri kimim var,
Doğru sözə, düz ilqara, dur gedək.

Aldı Qul Mahmud:

Qohumdan, qardaşdan kənar olmuşam,
Alışıb, od tutub yanar olmuşam,
Dindirmə, yuxalıb sınar olmuşam,
Olarmı bəndədən qaralar mənə.

Aldı Cəfər:

Cəfərəm, getmişəm külli hər yana,
Gəncəyə, Tiflisə, Hində, İrana.
Səni and verirəm şahi-mərdana,
Minnətdaram sən bimara, dur gedək.

Aldı Qul Mahmud:

Görükmür gözümə, dostlarım hanı?
Çağırıb gedirəm şahi-mərdanı.
Qul Mahmudam, qəm köçünün sarvanı,
Geydirib libasi-qaralar mənə.

Sövdəyər bu sözdən sonra Mahmudu apardı öyünə. Qızına dedi:

– Qızım, mən Mahmudu gətirdim, indən belə iş səndən aşacaq. Deyirlər ki, cavanların ağlı gözündə olar, apar onu bir bağ-bağçanı gəzdir, bəlkə xoşuna gələ, buralarda qala, bizə oğul ola.

Qız bunu qırx gün buralarda gəzdirdi, amma oğlandan heç bir hərəkət görmədi. Qırx günün tamamında Qul Mahmud yuxuda gördü ki, qız ona deyir: Qul Mahmud, bə ilqar, iman məgər belə olar? Qul Mahmud yuxudan qalxıb, tez sazı döşünə basıb deyir:

Bar ilahim, qibləgahım,
Çatmamışam kana, gedim.
Var ki, firsət gedib əldən,
Yoxdu bir imkana, gedim.

Çarxı-fələk, dərd ucundan
Olmuşam divanə gedim.
Tut əlimdən, görsət mənə
Hansı bir məkana gedim.

Dindirərlər haqq öyündə,
Nahaq yerin dar olacaq.
Könlüm ada, özüm qəvvas,
Dəryayi-ümmana gedim.

Sirrin haxdı, yaradan,
Gör necə əyan deyirəm.
Dərd verən dərman da verər,
Demə ki, loğmana gedim.

Qul Mahmud halal-hümmət eləyib yola düşəndə qız ağladı. Qız ağlayanda Qul Mahmud sazı götürüb dedi:

Ahu gözlüm, ayrılığın günüdü,
Sən allah, sən tanrı, gəl ağlamaynan.
Bəlkə haxdan yazım belə yazılıb,
Tökmə göz yaşını, sel ağlamaynan.

Qadir movlam özü yetər dadlara,
Şirin canım yanar oldu odlara.
Sirr vermə özgəyə, uyma yadlara,
Bağrım qana dönür, gəl ağlamaynan.

Qul Mahmudam, qızılgüldə budağam,
Gülündən ayrılmış virana bağam.
Yadından çıxmasın, neçə ki, sağam,
Bülbüləm, ölüncə gül, ağlamaynan.

Qul Mahmud qıznan halal-hümmət eləyib yola düşdü. Bir qədər gedəndən sonra yolda borana düşdü. Yolunu itirdi, bir daşa sövkənib, götürüb görək nə deyir:

Axşamçağı genə qanım qaraldı,
Dad sənin əlindən, aman, ay fələk!
Qohumdan, qardaşdan aralı düşdüm,
Eylədin halımı yaman, ay fələk!

Çəkib qovğaları bəlalı başım,
Axır damar-damar qanlı göz yaşım,
Cavankən qürbətə atılıb daşım,
Düşübdü sinəmə güman, ay fələk!

Uzaqdı yollarım, aranı kəsdi,
Huş başımdan getdi, bədənim əsdi.
Biçarə Mahmudun burda bikəsdi,
Bağlayıb yolları duman, ay fələk!

Sonra duman-çən bir az aralandı. Mahmud bir xeyli yol gedib, gördü yolun kənarında iki dərviş əyləşib. Mahmudu görən kimi bu dərvişlər ərəbcə bir-biriynən danışdılar ki, bunu özümüzə yoldaş eləyək, pul qazanandan sonra öldürək. Bunların sirri Qul Mahmuda əyan oldu. Odu ki, Qul Mahmud dedi:

– Ağa dərviş, qoyun sizə bir neçə xanə deyim:

Ərz eləyim, pünhan sirri sən də bil,
Əldə tutub bir nişana gedirəm.
Dönübdü yığbalım yenilməz daşa,
Baxdım küsüb, biyabana gedirəm.

Axtar sirr dostunu, qəlbindən ara,
Dönüb tərlan könlüm meyl etməz sara.
Bihudə gəzirəm mən də səyyara,
Pərvanəyəm, yana-yana gedirəm.

Özüm bir qonağam, Qul Mahmud adım,
Sinəmdə görünür eşqü muradım.
Mənə bir yol göstər, kamil ustadım,
Ağa dərviş, İsfahana gedirəm.

Dərvişlər fikirlərindən dönüb, ona yol göstərdilər. Mahmud İsfahan şəhərinə yola düşdü.

Əhməd vəzirin bir gözəl bağı varıydı. Leyli xanım qırx incə belli qıznan orda gəzirdi. Bağın bir qoca bağbanı varıdı. Qul Mahmud özünü bağın qırağına yetirib, baxıb gördü qızlar bağda gəzirlər. Qul Mahmud bağbana dedi:

– Qoca əmi, icazə ver, bağda dincəlim.

Qoca bağban cavab verdi:

– Oğlum, olmaz, bura Leyli xanımın bağıdı.

Mahmud dedi:

– Qoca bağban, indi ki, qoymursan, onda qoy bir neçə kəlmə söz deyim.

Aldı Qul Mahmud, görək nə dedi:

Aylar, illər həsrətini çəkdiyim,
Dostumu şad gördüm, gül üzüm barı.
Həsrətin çəkərəm, divanə, bağban,
İzn ver, bağından gül üzüm barı.

Xal düşüb Leylimin ay qabağında,
Bahar meyl eyləyir gül yanağında.
Yetişib dərməyə yarın bağında,
Alması, heyvası, gül üzüm barı.

Qul Mahmud, diləyin qəlbində haxdı,
Hax yazan yazıya demə nahaxdı.
Göz kamal yetirib, əl çatan vaxtdı,
Səbəbkardı, qoymur gül üzüm barı.

Bağban icazə verdi bağa girməyə. Qul Mahmud baxdı ki, qızlar oynayıb gülür, Leyli xanım da qızların içindədi. Ürəyi tab gətirməyib aldı, görək nə dedi:

Könlüm səni görmək istər,
Qəsd eləmə cana, bülbül!
Açıbdı çiçəklər, güllər,
Bəzən donnan-dona, bülbül!

Hər çiçəyin yarpağından,
Qızılgülün budağından,
Küsübsən bağça-bağından,
Niyə döndün yana, bülbül!

Bülbül olan meyli güldə,
Adın dastan olub dildə,
Qul Mahmudam qürbət eldə
Döndü bağrım qana, bülbül!

Leyli Qul Mahmudun səsini eşitdi. Onun yanına yüyürdü. On iki saçından bir tel ayırıb, şəkər məmələrinin üstünə basıb, aldı, görək nə dedi:

Yan çöyürübdü diyara,
Mahmud, xoş gəldin, xoş gəldin!
Vədə verdiyin ilqara,
Mahmud, xoş gəldin, xoş gəldin!

Mən bir güləm sən bülbülə,
De danış sən gülə-gülə.
Yolun düşüb bizim elə,
Mahmud, xoş gəldin, xoş gəldin!

Mahmud düşüb qəmgin çağa,
Canım canına sadağa.
Qədəm qoyub bizim bağa,
Mahmud, xoş gəldin, xoş gəldin!

Aldı Mahmud cavabında, görək nə dedi:

Qarşımda duran, ay gözəl,
Leyli, xoş gördük, xoş gördük!
Məni oda salan gözəl,
Leyli, xoş gördük, xoş gördük!

Mahmud gördü ki, qızlar çox təəccüb eləyir ki, Leyli bu naməhrəmi haradan tanıyır. Odu ki, Mahmud götürüb deyir:

Qaynayıb peymanım dolar,
Saralıb irəngim solar.

İşarədən qanan olar,
Leyli, xoş gördük, xoş gördük!

Qul Mahmudam, yana-yana,
Yandı bağrım, döndü qana.
Məni salallar zindana,
Leyli, xoş gördük, xoş gördük!

Söz tamama yetişən kimi qızlar xəbər apardılar. Əhməd vəzirin cəlladları Qul Mahmudun qollarını bağlayıb apardılar. Mahmud götürüb, görək cəlladlara nə dedi:

Qolu bağlı aparma o zindana,
Bu şəhərdə nazlı yarım var mənim.
Öldürmə məni bu zülüm-dərdinən,
Mən cavanam, qiryət, arım var mənim.

Cəlladların birisi sual elədi:

– Oğul, sən haralısan, əslin, nəcabətin varmı sənin?

Aldı Qul Mahmud:

Bir anam var mənim, şux baxışlıdı,
Bir atam var, əli tərlan quşludu.
Cəmi tay-tuşlarım gözü yaşlıdı,
Bağlar boyu çoxlu varım var mənim.

Qul Mahmudam, bilin, bağrı qan mənəm,
Eşq oduna alışıb yanan mənəm.
Şah oğluyam, şahzadayam, xan mənəm,
Təbriz kimi bir mahalım var mənim.

Apardılar Mahmudu saldılar zindana. Qul Mahmud burada əzab çəkməkdə olsun, bir gün Şah Abbas gedib zindanı yoxlayırdı ki, görsün dustaqların əhvalı necə keçir. Şah gördü ki, burada bir aşıq oxuyur. Özü də deyir ki, mənim günahım yoxdu. Bu necə şeydi? Odu ki, xəbər alıb, onun adını yazdı. Gedib taxta əyləşən kimi adam göndərdi ki, gedin, o dustağı gətirin. Bu tərəfdən də Əhməd vəzir hazırlıq görürdü ki, Mahmudu asdırsın. Şah Mahmudu gətirib dedi:

– Sən aşıq adamsan, niyə gedib kənddə-kəsəkdə oxumursan, gəlib naməhrəm qızların içində oxuyursan?

Mahmud icazə alıb, sazı götürdü, görək nə dedi:

Əlif Allah, bey bəladan saxla sən,
Alnıma yazdığın xətadan məni.
Həsrət qoydun qohum-qardaş, anama,
Tifilkən ayırdın atadan məni.

Qəribəm, qürbətdə el qonağıyam,
Könlüm intizardı, göz dustağıyam.
Leylisiz, virana bostan tağıyam,
Saxla nəzərində, yaradan, məni.

Qul Mahmud, yetişsin ağana səsim,
Bülbüləm bir gülə, çoxdu həvəsim.
Hanı, dar günümdə gələ bir kəsim,
İlahi, sən qurtar oradan məni.

Sözlər şaha təsir elədi. Şah fikrə getdi. Bunu görəndə aldı Qul Mahmud, görək dübarə nə dedi:

Düz qəlbinən dedim səni,
Ey ədalət şahım mənim.
Qulluğunda bir sözüm var,
Sən olsan pənahım mənim.

Biləsən ki, dağ yandırar
Nalə çəksəm, ahım mənim.
Bircə söylə görüm nədi
Taxsırım, günahım mənim.

Yazıq Leylinin ucundan,
Salıbsan zindana məni.
Dar günümdə kömək durar,
O doğru ilahım mənim.

Şahım, çox da qəzəblənmə,
Dağ qopsa tufanmı olar?
Olmasa bir kəs pənahım,
Cahanda insanmı olar?

Öldürsələr Qul Mahmudu,
Cənnəti-məkanmı olar?

Yaradanım səcdə qılar,
Hər axşam, sabahım mənim.

Şahın bir aşığı variydi, adı Mehdi idi. Əhməd vəzir bu aşığı gətirtdi ki, Qul Mahmud nə çox yaradannan çağırır. İndi bizim aşığımız tutub onun sazını əlindən alar. O saat aşıx Mehdi gəldi, dedi:

– Aşıq, nə çox yaradannan danışırsan? İndi mənə cavab ver görüm, nə cür aşıqsan?

Aldı Mehdi:

Məndən salam olsun aşıq olana,
De görüm, sözümün neçə bəndi var?
O nədi ki, gəşt eləyir dünyanı?
Nə quşdu qanadı, nə səməndi var?

Nə yazıdı, nə pozudu söz kimi,
Yandırır sinəmi hərdən köz kimi.
Cövlan vurur dağı-daşı düz kimi,
Bağlanmaz, nə qıfıl, nə kəməndi var.

Mehdiyəm, sözlərim axtarıb ara,
Haq vuran yaraya heç olmaz çara.
Baş tutmaz sövdadı, çəksən bazara,
Deyərlər sərrafın gör nə fəndi var.

Aldı Qul Mahmud:

Al, cavabın verim, aşıq qardaşım,
Deyəcəm sözüyün neçə bəndi var.
O fikirdi haxdan bizə verilib,
Nə quşdu qanadı, nə səməndi var.

Hərdən havalanıb yaxşı haldayam,
Hərdən qeyzə gəlir, qeyli-qaldayam.
Hərdən coşa gəlib, xoş kamaldayam,
Tutub haqq əlində bir kəməndi var.

Qul Mahmud da qulluğunda dayandı,
Gizlin döyül sirrin, mənə əyandı.
Gözəl şahın özü qiymət qoyandı,
Nəhlət bu şeytana, gör nə fəndi var.

Aldı təzədən Qul Mahmud:

O hansı alimdi götürüb qələm,
Bilmirəm dəstindən yazdı, nə yazdı?
Gözüm gördüyünə bir misal çəkim,
Nə yazı var, nə payızı, nə yayı.

Nə ərəb, nə farsı, nə Qurancadı,
Nə cafyadı, nə kəməndi heç adı.
Nə fitnədi, nə feyildi, nə cadı,
Kim yanında hesabladı, nə yazı.

Qul Mahmud diləyin istəyər haxdan,
Nə axşamdı, nə günorta, nə də dan.
Nə örtüynən, nə gizdiynən, nə də dan,
Söz keçər isbata desək nə yazı.

Söz tamama yetişdi. Qul Mahmud aftafa götürüb eşiyə çıxdı, gördü bir qızıl ilan bir sağsağanı sıçradı tutdu, başını sorub öldürdü. Aşıq bu əhvalatı görüb gəldi ki, camaata söyləsin. Aşıq Mehdi dedi:

– Aşıq yaxşı aşıqdı, amma qafiyələri düz demir.

Qul Mahmud dedi:

– İndi ki, mən düz demirəm, qulaq as:

Bu gün bir pəhlivan gördüm,
Atdığı meydana baxın!
Kəmənd atıb, qılınc vurur,
Tökdüyü al qana baxın!

Söylə nədən binası var,
Al-əlvan xınası var.
Hər yanda bir havası var,
Çəkilib pünhana baxın!

Qul Mahmud söyləməz yalan,
Könlünə düşməsin talan.
Yaranmış pəncə çalan,
Yaradan sübhana baxın!

Söz tamama yetişdi. Şah Abbas dedi:

– Əhməd vəzir, bir qız bir oğlanındı, verməliyik qızı bu oğlana. Görürəm bu ağıllı-kamallı adamdı.

Əhməd vəzir dedi:

– Qibleyi aləm, əmr sənindi.

Şah Abbas öz xərciynən toy eləyib qoşunnan-zadnan buları cahı-calalnan yola saldı oğlanın öz torpağına. Onlar öz torpaqlarına gəlib, təzədən toy etdilər. Bir aşıq aşağıdakı duvaqqapma ilə toyu başa verdi.

Of, fələk, yandım, fələk,
Görəndə dildarı, fələk!
Of, fələk, öldüm, fələk,
Olanda üz bəri, fələk!
Of, fələk, çıxart, fələk,
Aradan əğyarı, fələk!
Of, fələk, saxla, fələk,
Amandı, o yarı, fələk!
Of, fələk, şəfqət elə,
Bax bir bizə sarı, fələk!

Of, fələk, şükür sənə,
Dostun üzün gördüm bu gün.
Can alan, eşqə salan
İşvə-nazı gördüm bu gün.
Ev yıxan, süzgün baxan
Qumral gözü gördüm bu gün.
Danışan, ənbərfəşan,
Şirin sözü gördüm bu gün.
Of, fələk, ləzzət verdi,
Nə şuxdu göftarı, fələk!

Of, fələk, gülə-gülə
Necə durur qabaxları.
Baxanda göz qamaşır,
Şəfəq salır yanaxları.
Balmıdır, qaymaxmıdır
Bəxtəvərin dodaxları?!

Açılmış qönçə gülə
Tənə edər buxaxları.
Of, fələk, alma kimi
Əhmərdi rüxsarı, fələk!

Of, fələk, bədnəzərə
Uğramasın başı bunun.
Aymıdır, hilalmıdır,
Qələmmidir qaşı bunun?
Dürmüdür, incimidir,
Sədəfmidir dişi bunun?
Ləlmidir, yaqutmudur
Mərmərmidir döşü bunun?
Of, fələk, əndamı tək
Olmaz dağın qarı, fələk!

Of, fələk, ağlım alır
Qarşımda mail durması.
Ləzzətli laçın kimi
Özün çəkib oturması.
Məclisi aludə elər
Zülflərinin hər burması.
Təşbihdir çənəsinə
Bağdad elinin xurması.
Of, fələk, budur mələk,
Gözəllər sərdarı, fələk!

Of, fələk, sən ol kömək,
Muradına çatsın Cuma.
Bu cavan məhbubunan
Sarmaşıban yatsın Cuma.
Nigaranlı canını
Həm canına qatsın Cuma.
Qurğuşundan bağlanan
Qəm şələsin atsın Cuma.
Of, fələk, diləyimi
Elə qəbul, barı, fələk!

# Səlim şah

## USTADNAMƏ

Arif olan, gəlin sizə söyləyim,
Byid sözü mərd-mərdana yaxşıdı.
İyid gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı.

Ələsgər dostundan badə içəndə,
Gəşt eləyib, namərdi seçəndə,
Güzaran xoş olub, gün xoş keçəndə,
Bir sən, bir yar, bir də xana yaxşıdı.

Ustadlar ustadnamən iki deyərlər, birini də deyək, iki olsun.

Bir adam ki, qürbət elə düşəndə
Adamlar içində əvvəl yad olu,
Yalvarmaq yaxşıdı yenə mövlaya,
Bəndədən bəndəyə nə imdad olu?

Xeyri-şərdə kasıbı yana seçərlər,
Salam verməz, kölgəlikdən keçərlər,
Var günündə gəlib, yeyib-içərlər.
Yox günündə qohum, qardaş yad olu.

Rəcəb deyər: dərdi, qəmi bilməyə,
Ağlayanda göz yaşını silməyə,
Darıxanda danışmağa, gülməyə,
Kasıbın dövləti bir arvad olu.

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, babal altında qalmayaq, üç deyək.

Bir adam ki, sənlə dostluq eyləyə,
Bil ki, onun səxavəti yaxşıdı.
Namərd sənə yağlı plov yedirsə,
Mərdin quru məhəbbəti yaxşıdı.

Sallanbaş adamdan – bir ağır daşdan,
Dəng olduq qulaqdan, kəsildik başdan,
Bədnəzər qonşudan, yaman yoldaşdan
Qədir bilənlərin iti yaxşıdı.

Dad, həzər eyləmə pərkarsız sazdan,
Al, qurtar başını nəzir-niyazdan,
Güləyən arvaddan, gəzəyən qızdan
Bazarlarda gəzən lotu yaxşıdı.

Aşıq Əhməd sözü söyləyər sağdan,
Şam yanar piltəsi çəkəndə yağdan,
Çörəksiz otaqdan, meyvəsiz bağdan
Bizim çəmənlərin otu yaxşıdı.

Yəmən şəhərində Səlim şah adlı ədalətli bir padşah var idi. Bir gün Səlim şah yuxuda gördü iki, bir əjdaha peyda olub, onu taxt-tacı ilə birlikdə uddu. Padşah yuxusunu münəccimlərə yozdurdu. Münəccimlər dedilər:

– Göydən bəla gələcək, taxt-taca sədəmə yetişəcək. Şahlığı bir nəfərə tapşır, qırx günlüyə səyahətə çıx, bəla gəlib sovuşsun.

Səlim şah münəccimlərin sözünü eşitdi, yerində xoşu gəlməyən vəzirini qoyub qırx günlük səyahətə çıxdı. Səlim gedəndən az sonra vəzir xəzinədə olan pulları əyanlara payladı, hiylə sözlərlə camaatı da öz tərəfinə çəkdi. Vaxt oldu, Səlim şah səfərdən qayıdıb gəldi. Vəzir taxt-tacı ona vermədi, onu məmləkətdən sürgün elədi. Səlim şah ailəsi ilə bəri-biyabana düşdü, o qədər getdi ki, yoruldu, taqətdən düşdü, bir daşa söykəndi, aldı, görək halına münasib nə dedi:

Halal-hümbət eylə, sənnən gedirik,
Ana vətənimiz, elimiz bizim.
Zimistana döndü növbaharımız,
Soldu çiçəklərim, gülümüz bizim.

Fələk şahinimi əlimdən aldı,
Üzü döndü, mənim taxtımdan saldı,
Külli var-dövlətim vəzirə qaldı,
Nə ki, var xəznədə pulumuz bizim.

Qürbətə atıldı bizim daşımız,
Müşkülə düşübdü bütün işimiz,
Hər cürə bəlalar çəkər başımız,
Çətin keçəcəkdi halımız bizim.

Yəmənli Səliməm, qurtarıb sözüm,
Titrəyir dizlərim, ağlayır gözüm.
Belə bir zülümə mən necə dözüm?
Kimlər salıx verər yolumuz bizim.

Səlim şah ailəsi ilə yola duşdu, piyada, uzun yolu birtəhər gedib, bir çaya rast gəldilər. Padşah çay keçməyi nə bilirdi? Çayı keçəndə onun beş yaşlı oğlu Məhəmmədi sel apardı. Səlim şahla arvadı Əfruz nə qədər çalışdılar Məhəmmədi tuta bilmədilər. Səlim şah aldı, ağlaya-ağlaya görək nə dedi:

Xudaya, rəhm eylə, yazığam, mənə,
Apardı Məhəmmədi sular, amandı!
İstəyən dostlarım görsə qan ağlar,
Bilsə düşmənlərim gülər, amandı!

O şəhər sarayımın uçdu binası,
Çağırram imdada qolsuz Abbası,
Məzlum atasilə yazıq anası,
Dözə bilməz dərdə, ölər, amandı!

Ax, necə yandırdı belə dərd məni,
Rəhm eylə yazığam, ya Kərəm kanı,
Əliyə əmanət verirəm səni,
Şah Səlim yəmənli deyər amandı!

Səlim şahla arvadı geri qayıdıb, kiçik oğlanları Yəhyanı da görmədilər. Ora, Yəhya, bura Yəhya, – ha axtardılar, onu tapmadılar. Baş-gözlərinə döydülər, güman elədilər ki, onu da qurd-quş aparmışdır. Nə qədər meşəni dolandılar, Yəhyanı tapmadılar. Yəhya nə gəzir, elə bil yağlı əppək olub göyə çəkilmişdi. Ta haray hara çatacaq.

Aldı Səlim şah ağlaya-ağlaya görək nə dedi:

Məhəmməd getmişdi, Yəhya da getdi,
Zülmnən qırıldı əlim, ay fələk!
Bu fani dünyada nə iş tutmuşam,
Sən mənə eylədin zülüm, ay fələk!

Məhəmməd sağ gözüm,Yəhyaydı gülüm,
Üzüldü bədəndən hər iki qolum.
İlahım bəd gətdi, yatdı iqbalım,
Yaşamaq nə lazım, ölüm, ay fələk!

Dolandı yolumuz, düşdü meşəyə,
Biri suya düşdü, biri vəhşiyə,
Şah Səlim istəməz daha yaşıya,
Əldən getdi cah-calalım, ay fələk!

Səlim şah sözünü qurtaran kimi Əfruz xanım götürdü, oğlanlarına görək nə cür layla çaldı:

Bir cüt novcavanım getdi,
Çalım indi qara layla!
Fələk nagəhan sinəmə
Vurdu çarpaz para, layla!

İtibdi iki bülbülüm,
Mənə yaman oldu zülüm,
İnnən belə necə gülüm,
Salım başa qara, layla!

Əldən getdi xanimanım,
Boş qalıbdı dörd bir yanım,
Qan-yaş tökər Əfruz xanım,
Yoxdu dərdə çara, layla!

Getmək istəyəndə aldı Əfruz xanım dübarə görək Səlim şaha nə dedi:

Səlim şah, dərdim tüğyan eylədi,
Belə dərdə dözə bilməm, ağlaram.
Mən bağça bəslədim, barın görmədim,
Belə dərdə dözə bilməm, ağlaram.

Sən mərdanəsən, mən də bir zənana
Başım alım gedim indi hayana?
Axdı eynim yaşı, döndü ümmana,
Belə dərdə dözə bilməm, ağlaram.

Əfruzun laşəsi yaralı qaldı,
Günbəgün rəngi saralı qaldı,
Elindən, yurdundan aralı qaldı,
Belə dərdə dözə bilməm, ağlaram.

Səlim şah Əfruzu sakit eləməyə çalışdı. Ancaq özünün dərdi daha da artdı. Vətənindən, tac-taxtından ayrıldığı yadına düşdü, götürdü, bu münasibətlə görək nə dedi:

Könül yenə haraları dolanır,
Dad hazar əlindən, aman, ayrılıq!
Qohumdan, qardaşdan üzüldü əlim,
Kəsildi vətəndən güman, ayrılıq!

Qaldı mənim taxtı-tacım, dövlətim,
Zalım fələk zəhərlədi şərbətim.
Şahlığım, hörmətim, şani-şövkətim,
Ölümdən betərsən yaman, ayrılıq!

Vəzir də deyiləm, hanı qullarım?
Bülbüllü bağlarım, açan güllərim?
Yaşılbaş ördəkli durna göllərim?
Səlimi oxladı kaman, ayrılıq!

Yola düşəndə Səlim şah ağlaya-ağlaya Əfruz xanıma dübarə görək nə deyir:

Əfruz xanım gəlsin gedək
Qürbət vilayət ellərə.
İnnən belə biz nə edək,
Əldən getdi, bülbüllərə.

Yol başlayaq elə sarı,
Daha çəkmə intizarı;
İtirmişik oğlanları,
Düşmüşük çöldən-çöllərə.

Səlimin yatıbdı baxtı,
Əldən verdin tacı-taxtı,
Bir gün olar gələr vaxtı,
Xoş gün gələr könüllərə.

Bunlar yola düşdülər. Az getdilər, çox getdilər, yolda yorulub oturdular. Mədəd adlı bir ovçu bunların yanına gəldi. Ovçu onlardan haraya, nə üçün getdiklərini soruşdu. Onun cavabında aldı Səlim şah, görək nə dedi:

Biz qərib qonağıq qürbət ölkədə,
Nabələdik yola, izə, a qardaş!
Heç bilmirəm hara getsək yaxşıdı,
Doğru bir yol göstər bizə, a qardaş!

Aldı Mədəd Səlim şahın cavabında, dedi:

Haradan gəlirsən, harıya gedirsən?
Doğru söylə mənə sözün, a qardaş!
Nabələdlik eyib deyil insana,
Niyə dolur hərdən gözün, a qardaş!

Aldı Səlim şah:

Fələyin kəməndinə ilişibdi,
O el-obamızdan ayrı düşübdü,
İtkin düşüb, qara baxtım çaşıbdı,
Düşmüşdük səhraya, düzə, a qardaş!

Aldı Mədəd:

Tənəzzül fərağına ümid az olu,
Zimistan qəhrinin sonu yaz olu.
Yatan baxtın durar, işin saz olu,
Bir gün gələr gülər üzün, a qardaş!

Aldı Səlim şah:

Yəməndi məkanım, şah Səlim adım,
Hər yandan kəsilib əlac-imdadım.
Bir cüt cavanımı yandırdı odum,
Məni tutub qədir, qəza, a qardaş!

Aldı Mədəd:

Mədədin qəlbinə vurubsan yara,
Yaradan eyləsin dərdinə çara.
Gəl səni göndərim doğru yollara,
Getməyə tutarmı dizin, a qardaş!

Ovçu Mədəd yolu bunlara salıq verdi. Bunlar yola rəvan olub, bir dağın ətəyinə çıxdılar. Qaranlıq olduğundan orada qalmalı oldular.

Bunlar burada qalmaqda olsunlar, sizə kimdən xəbər verim, bir tacirdən. Tacir, Səlim şahla Əfruz xanımı gördü. Baxdı ki, Əfruz xanımın misli-bərabəri yoxdu. Tacir karvanı bir qədər uzaqlaşdırdı, dayandırdı. Geri qayıdıb, Səlim şahın yanına gəldi, dedi:

– Karvanımızda bir arvad var, çoxdan bari həmlini yerə qoymaq istəyir, ağrı çəkir. Karvanda zənən xeylağı yoxdu. Qoy bu qadını onun yanına aparım, yenə də qaytarıb gətirərəm. Bu da bizim bacımız.

Çox yalvardı, yapışdı, Əfruz xanımın getməsinə Səlim şah razı oldu. Tacir Əfruz xanımı karvana çatdıran kimi, karvanı haylayıb yola düşdü. Səlim şah səhərə qədər Əfruz xanımı gözlədi, Əfruz xanımdan, karvandan bir nişan tapmadı. Qəmi cövşə gəldi, gözlərinin yaşını tökə-tökə aldı, görək nə deyir:

Yalançı müxənnəs nakəsü namərd,
Aldatdı, apardı yarımı mənim.
Yetiş imdadıma, ya şahi-mərdan,
Qoyma namus-qeyrət, arımı mənim.

Mən oldum ömrünün gülşanı solan,
Təkcə qərib olub qürbətdə qalan,
Loxması qarışıb lütfə kəc olan,
Pozub oğurladı sərimi mənim.

Şah Səlim yəmənli, mən oldum Məcnun,
Dolaşdım dünyanı sanki bir cinun.
Səfeh fələkdən gəlib qara günün,
Artırdı ahımı, zarımı mənim.

Səlim şah çox axtardı, tacirdən və Əfruz xanımdan bir əsər tapmadı. Qəmi artdı, götürdü görək fələkdən necə şikayətlənir:

Sənə neyləmişəm, a qanlı fələk,
Qəm-hicrana, ahı-zara düşmüşəm.
Ayırdın vətəndən, xanımanımdan,
Çərxin yatıb, baxtı qara düşmüşəm.

Ayrı düşdüm qohum, qardaş, elimdən,
Şahlığım, xəzinəm getdi əlimdən,
Əli adı düşməyəcək dilimdən,
Qürbət elə vara-vara düşmüşəm.

Adım şah Səlimdi, Yəməndi elim,
İnnən belə necə oynuyum, gülüm?
Uçurdum əlimdən qoşa bülbülüm,
Dərd çəkməyə intizara düşmüşəm.

Səlim şahın əlacı kəsildi. Üz qoydu yol getməyə. Getdi, getdi, ta ki, bir şəhərə çıxdı. Gördü hər tərəfdən camaat şahlıq meydanına tərəf axışıb gedir. Bir nəfərdən soruşdu: bu adamlar niyə meydana toplaşırlar?

Dedilər:

– Bizim vilayətin şahı ölüb, bu gün şahlıq seçkisidi. Elin adətinə görə, dövlət quşu uçurdurlar. Quş kimin başına qonsa, onu padşah qoyurlar. İndi quş uçurdurlar.

Səlim şah meydana getdi. Quşu uçurdular. Quş gəlib Səlim şahın başına qondu. Səlim şah aldı, görək quşa nə deyir:

Dövlət quşu, gəl incitmə, qəribəm,
Bir kimsənəm yoxdu mənim, ağlaram.
Bu ölkə tanımır, bilmir nəçiyəm,
Vurarlar, tökərlər qanım, ağlaram.

Zalım fələk məni saldı atımdan,
Taxtımdan, tacımdan, səltənətimdən,
Ayrıldım məxluqdan, hər baratımdan,
Əldən getdi xanımanım, ağlaram.

İsmim şah Səlimdi, Yəməndi elim,
Ayrıldı vəzirim, vəkilim, qulum,
Qəm cari eyləyib, qan ağlar dilim,
Artıbdır möhnətim, qəmim, ağlaram.

Əyanlar gəlib gördülər ki, başına quş qonan adam ağlayır. Soruşdular, onun Yəmən şahı olduğunu bildilər. Səlim şahı gətirib özlərinə şah seçdilər. Səlim şah şahlıq taxtına əyləşdi. Əmr elədi yoxsullara əl tutdular, yetimxanalar açdılar. Günlərin bir günü yolda ona rast gələn ovçu Mədəd onun yanına gəldi. Səlim şahın şah olduğunu görüb, şad oldu. Aldı, görək nə dedi:

Qibləgahım, gözəl şahım,
Necə olub yarın sənin?
Oyanıban yatan baxtı,
Açılıb baharın sənin.

Aldı Səlim şah:

Odu vurdun sinəmə sən,
Alışır ciyərim mənim;
Duman yığılıb sərimə,
Qarışıb ruzigarım mənim.

Aldı Mədəd:

Nə dedim, lal olsun dilim,
De, dərdinə dava qılım,
İndisə axtarım, bulum
Gözəl vəfadarın sənin.

Aldı Səlim şah:

Piyada yol bizi yordu,
Oturmuşduq, tacir gördü.
Namərd, nakəs yalan qurdu,
Apardı Gülzarım mənim.

Aldı Mədəd:

Mədədəm, könül, yanaram,
Dağlarda daş çaparam,
Göydə olsa mən taparam,
O şah cidarım mənim.

Aldı Səlim şah:

Şah Səlimin çox yarası,
Yoxdu dərmanı, çarası,
Versin ağalar ağası,
İtən oğul, yarım mənim.

İndi sizə kimdən xəbər verim, Səlim şahın oğlanlarından. Böyük oğlu Məhəmmədi bir dəyirmançı sudan xilas etdi, özünə oğulluğa götürdü. Balaca oğlu Yəhya ata-anasını görmədikdə üz biyabana qoydu. Gethaget, bir ovçuya rast gəldi. Ovçu onu öyünə aparıb, oğulluğa götürdü.

Dəyirmançı və ovçu uşaqları şahın açdırdığı yetimxanaya göndərdilər. Uşaqlar yetimxanada böyüdülər. On dörd-on beş yaşına çatanda şah sarayında işə qəbul olundular. Bunlar burda qalsın, sizə xəbər verim Əfruz xanımdan.

Əfruz xanımı tacir çox incitdisə də ona dil vermədi. Aldı, görək nə dedi:

Zahiri insandı, batini şeytan,
Lənət sənə, çəkil, məndən kənar dur!
Ağlına gələni alma dilinə,
Danışmaynan nahaq qandan, kənar dur!

Sən kişi, mən zənən, sənə ar olsun,
Pozulsun novrağın, öar-mar olsun,
Gərdəninə, eninə zülfüqar olsun,
Utangilən şah mərdandan, kənar dur!

Haqdan min bir bəla canına yensin,
Çatma muradına, çırağın sönsün.
Taxtın şah Səlimin taxtına dönsün,
Əfruz xanımın yanından kənar dur!

Saleh adlı bir sövdəgər Əfruz xanımı tacirin əlindən aldı. Bütün əhvalatı Əfruz xanımdan öyrəndi. Saleh sövdəgər rəhmkar adam idi. Onu Səlim şaha çatdırmağı öhdəsinə götürdü.

Onlar çox ölkə gəzdilər. Səlim şahı tapmadılar. Axırda gəlib Rum şəhərinə çıxdılar. Azuqələri, pulları qurtarmışdı. Əfruz xanım barmağındakı üzüyü çıxardıb, sövdəgərə verdi, dedi:

– Apar bu üzüyü, bazarda sat, azuqə al gətir.

Saleh sövdəgər üzüyü hara apardısa, üzüyün qiymətini düzəldə bilən olmadı. Axırda üzüyü Səlim şaha göndərdi ki, xəzinədən üzüyün qiymətini versin. Şahın xəzinədarı üzüyü Səlim şaha göstərdi. Səlim şah sövdəgərə dedi:

– Bu gecə mənə qonaq olarsan. Səhər üzüyün qiymətini verib, səni yola sala bilərəm.

Səlim şah üzüyü tanımışdı. Saleh sövdəgər üzüyün əmanət olduğunu ona söylədi. Yəhya ilə Məhəmməd bu vaxt cəllad idi. Saleh sövdəgər çölə çıxıb, Yəhya ilə Məhəmmədi göndərdi ki, gedib Əfruz xanıma qaraul çəksinlər. Özü isə şahın hüzuruna gəldi. Gecə Səlim şahla Saleh sövdəgər söhbət elədilər. O biri tərəfdən Məhəmmədlə Yəhya gecə qaraul çəkən zaman gördülər ki, yuxu bunları tutacaq. Bir-birinə başlarına gələn qəzavü-qədərdən söhbət eləməyə başladılar.

Aldı Məhəmməd:

Başına döndüyüm, a qul qardaşım,
Əyilib, qırılıb bəylərim mənim.
Qohumsuz, qardaşsız qürbət ölkədə,
Yanıb dəhanımda dillərim mənim.

Aldı Yəhya:

Əzəl şah oğluydum, indi qul oldum,
Var idi nökərim, qullarım mənim.
Elimdən, yurdumdan aralı düşdüm,
Saraldı gülşənim, güllərim mənim.

Aldı Məhəmməd:

Çox bəlalar çəkib tifl ikən canım,
Açma yaralarım, tökülər qanım,
Vəzirə qalıbdı şah xanimanım,
Ayrılıb atamdan əllərim mənim.

Aldı Yəhya:

Gün o gün ola mən atamı görəm,
Anasız ürəyim gətirdi vərəm,
Qadiri-sübhanım eyləsin kərəm,
Vəzirə qalmasın pullarım mənim.

Aldı Məhəmməd:

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Gecə-gündüz qardaş deyib ağlıyam,
Məhəmmədəm, şah Səlimin oğluyam,
Yəmən şəhəridi ellərim mənim.

Aldı Yəhya:

Axdı Məhəmmədim, qırıldı belim,
Anam Əfruz xanım, atamdı Səlim.
Öz adım Yəhyadı, Yəməndi elim,
Ağlar günlər keçir hallarım mənim.

Əfruz xanım çadırdan bunların söhbətinə qulaq asırdı. Əfruz xanım baxdı ki, bunlar öz oğlanlarıdı. Çox şad oldu, çadırdan çıxdı, oğlanlarının boyunlarını qucaqlayıb, görək nə dedi:

Sizdən üzülmüşdü əllərim mənim,
Şeyda bülbüllərim, qadanız alım!
Ölüm gülşanımın solmuşdu tacım,
Açıldı dillərim, qadanız alım!

Şükür kəraminə həqqi-sübhanım!
Nə günlər çəkibdi yaralı canım;
Məhəmməd dinimdi, Yəhya imanım,
Açıldı dillərim, qadanız alım!

Əfruz xanım ölən vaxtı dirildi,
Şükür haqqa, hər muradı verildi.
Ağlamaqdan haldan düşdü, yoruldu,
Bədəndə qollarım, qadanız alım!

Ana oğullarını götürüb çadıra girdi. Qol-boyun olub yatmaqda olsunlar, səhər Saleh sövdəgər gəlib çadırın kənarında cəlladları görmədi, içəri girəndə gördü qaravul qoyduğu cəlladlar Əfruzla qolboyun olub yatıblar. Sövdəgər tez geri qayıtdı. Cəlladları qolu bağlı hüzura gətirdilər. Şah başladı Məhəmmədi danışdırmağa.

Aldı Səlim şah:

Cavan oğlan, haralısan,
Yerlisənmi, qəribsənmi?
Bağban olub, bağ bəsləyib,
Güllərini dəribsənmi?

Aldı Məhəmməd:

Tökmə gözündən yaşını,
İtirmə ağıl-huşunu,
Qohumunu, qardaşını,
Heç birini görübsənmi?

Aldı Səlim şah:

Açılmaz qabağım-qaşım,
Başımdan dağıldı huşum;
Yoxdu qohumum, qardaşım,
Heç birini görməmişəm.

Aldı Məhəmməd:

Mən qəribəm, gözəl şahım,
Heç elimdə durmamışam,
Nə bağ, bağça bəsləmişəm,
Nə güllərin dərməmişəm.

Aldı Səlim şah:

Səlim şaham, haqq hakimdi,
Həm loğmandı, həm həkimdi,
Atan kimdi, anan kimdi?
Əlin elə veribsənmi?

Aldı Məhəmməd:

Məhəmmədəm, qara günlü,
Anam ağlar dağ-düyünlü,
Atam şah Səlim Yəmənli,
Qulluğunda qalmamışam.

Səlim şah baxdı ki, bunlar öz oğlanlarıdı. Beyhuş olub yerə yıxıldı. Əfruz xanım oğlanlarını dar ağacının dibində görüb, özünü yetirdi; görək nə aman istədi:

Cəllad, dəymə, əl saxla mövla eşqinə,
Öldürmə oğlumu, şahım, amandı!
Sındırıb qanadım, qırma qolumu,
Öldürmə oğlumu, şahım, amandı!

Davasız dərdimə heç olmaz çara,
Fələk kamanından ürəyim yara,
And verrəm Əliyə, o Ələmdara,
Öldürmə oğlumu, şahım, amandı!

Məhəmməd, Yəhyadı qanadım, qolum,
Şah Səlim yarıyam, qırılıb belim,
Adım Əfruz xanım, Yəməndi elim,
Öldürmə oğlumu, şahım, amandı!

Səlim şah səsə ayılıb baxdı ki, amanat hesab etdiyi sevgilisi Əfruz xanımdı. Görüşdülər. Şah Saleh sövdəgərə çoxlu ənam verdi, sarayında saxladı. Taciri tapıb, iki şaqqa vurdurdu, dəyirmançıya, ovçuya çoxlu xələt verdi. Şadlıq məclisi keçirdilər. Şadlıqla ömür keçirib, dövran sürdülər.

Ustad bir aşıq sazı döşünə basıb, bu duvaqqapma ilə onun toyunu bağladı:

Ey gözəl, surətinə
Mehri dürəxşan demişəm.
O güli-rüxsarına
Mah ilə taban demişəm.
İnci tək dişlərinə
Ləli bədəxşan demişəm.
Qaşların əyməsinə
Naleyi müjgan demişəm.
Zülfüyün telinə
Sünbülü reyhan demişəm.
Sərbəsər əndamına
Huriyi qilman demişəm.

Səndə bu şivə nədir?!
Zamana üşşağı, gözəl!
Baxışın cəllad kimi,
Qəmzələrin yağı, gözəl!
Yanaram pərvanə tək,
Məclisin çirağı, gözəl!
Doldur, gətir qədəhi
Aşiqi-dövran demişəm.

Mərdanə budur sözüm,
Səni sevən candan olur.
Həmişə xəstə yatar,
Taqətdən, amandan olur.
Tərk edən dünyasını
O Şeyxi Sənandan olur.
Səbr etməz, asi düşər,
Din ilə imandan olur.
Olmasa ilac edən,
Dərdinə dərmandan olur.
Ləblərin kövsərini
Dərdimə dərman demişəm.

Xaliqim xəlq eləmiş
Sən sənəmi göyçək, əziz.
Bəzəmiş ağ üzünü
Güləbətin birçək əziz,
Ləbində var abi-həyat,
Nuş eyləyib içək əziz.
Rəhmin yoxdur aşiqinə
Haq gözəlsən, göyçək, əziz.
Afərin kamalına
Dəryayi-ümman demişəm.

Çox çəkdim cövrü cəfa,
İncə, nazikbelliyə mən.
Müxtəsər nail oldum
Sən tək şirin, dilliyə mən.

Sallama qaşqabağın,
Yəqin düşdüm çilləyə mən.
Bir vəfalı dost üçün
Özüm verrəm gülləyə mən.
Altmış ilə səkkiz onu,
Cəm elədim əlliyə mən.
Bu hesab içrə sənin
İsminə pünhan demişəm.

Heyif ki, düşdün, əzizim,
Bu cavanca vaxtıma sən.
Gözlərin etməz nəzər –
Didarıma bax, deməsən,
Var neçə cavablarım,
Bir-bir deyim, çox demə sən.
Əyər olsa bir yanlışım,
Könlüm sınar haq deməsən.
Padşahım, sahib ol
Bu tac ilə təxtimə sən.
Görübən ədalətin,
Hökmi-Süleyman demişəm.

Razısan, ay sevdiyim,
Bir əl çəkim qabağına?
Üzünü sürt üzümə,
Dodax vurum dodağına.
Dilimi qələm edib,
Busə yazım yanağına.
Dolanım qamətinə,
Zəkat olum buxağına.
Bircə gəl bizə sarı,
Yıxılım əl-ayağına.
Cumayam, bu canımı,
Yolunda qurban demişəm.

# Valeh və Zərnigar

## USTADNAMƏ

Dəli könül, məndən sənə əmanət,
Demə bu dünyada qalım yaxşıdı.
Bir gün olar qohum, qardaş yad olar,
Demə ulusum var, elim yaxşıdı.

Bir məclisə varsan özünü öymə,
Şeytana bac verib, kimsəyə söymə,
Qüvvətli olsan da yoxsulu döymə,
Demə ki, zorluyam, qolum yaxşıdı.

Qoçaqdan olubsan, qoçaq olgilən,
Qadadan, bəladan qaçaq olginən,
Aşıq ol, comərd ol, alçaq olgilən,
Demə varım çoxdur, pulum yaxşıdı.

Xəstə Qasım kimə qılsın dadını,
Canı çıxsın, özü çəksin odunu,
Yaxşı oğul, yaman etməz adını,
Çünki yaman addan ölüm yaxşıdı.

Ustadlar ustadnaməni bir deməyib, iki deyər. Biz də deyək iki olsun, istəməyənlər təki ölsün.

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə iş görsən öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını,
Amanat-amanat qonşu malını,
Qonşu yox istəyən özü var olmaz.

Soruşun: qul Abbas, halın necədir?
Gündüzlərim işıq, qara gecədir.
Sərv ağacı hər ağacdan ucadır,
Əsli qatır, onda əsla bar olmaz.

Ustadlar ustadnaməni iki yox, üç deyər. Biz də deyək üç olsun, düşmənlərimiz puç olsun.

Bivəfanın, müxənnəsin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim,
Söyüddən bağ saldım, peyvəsd eylədim,
Almasın, heyvasın, narın görmədim.

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt;
Nakəsdə iman yox, bəydə ədalət,
Qazıların düz ilqarın görmədim.

– Rəhmət ustadlara.

Ustadlar xəbər verir ki, Qarabağ mahalının Abdal Gülablı kəndində Valeh adlı bir cavan aşıq var idi.

Valeh el arasında məşhur Şah Məhəmmədin nəvəsi idi. O lap uşaqlıqdan aşıqlıq eləyirdi. Özü də haqq aşığı idi. Dünyada bir aşıq onun qabağında dura bilməzdi. Aşıq Valehin Səmənd adlı bir şagirdi var idi. Səmənd aşıq Valehdən aşıqlığı öyrənirdi. O istəyirdi ki, ustadı Valeh kimi aşıq olsun. Səmənd aşıq Valehnən toylara, məclislərə gedir, çalıb-çağırır, dövran keçirirdi.

Sizə kimdən xəbər verim, Xarzən adlı qarıdan. Bu qarının Güləndam adlı nəvəsindən başqa kimsəsi yox idi. O, nəvəsi Güləndamı Səməndə vermək istəyirdi. Ancaq Valehdən qorxub, ona bir söz deyə bilmirdi, hiylə ilə Səməndi Valehdən uzaqlaşdırmaq istəyirdi.

Bir gün Valeh ilə şagirdi Səmənd Lənbərəndə toydan evə qayıdanda qabaqlarına Xarzən qarı çıxdı. Xarzən qarı bir burnunu çəkdi, bir tumanını çəkdi, Səməndə yanaşıb dedi:

– Qadan alım, bir bəri gəl, sənə pünhan sözüm var.

Səmənd Valehi tək qoyub, napak qarının yanına getdi. Qarı onun qulağına pıçıldayıb dedi:

– Ay axmax, bu nə işdir? Bütün məclislərdə, toylarda oxuyan sən, zəhmət çəkən sən, amma adı çıxan Valeh. Hər kəsi dindirirsən, deyir sağ olsun usta Valeh, Səmənd nə bilir.

Səmənd qarıdan bu sözü eşidib, çox acıqlandı, dedi:

– Qarı nənə, heylə sözləri danışma! Valeh mənim ustadımdı. Özü də el arasında adlı-sanlı bir aşıqdı. Mən onun üzünə ağ ola bilmərəm. Bu sözü burada danışdın, bir də başqa yerdə danışma. Sənə ağır söz deyərəm.

Xarzən qarı hiyləgərliyə keçib, onun qılığına girdi, dedi:

– Ay bala, mənim sənə heyfim gəlir. Sən yaxşı aşıqsan. Amma el arasında adın-sanın yoxdu. Sən Valehdən ayrıl, gəl mənim yanıma. Güləndam adlı, gözəllikdə misli-manəndi olmayan bir nəvəm var, onu da verim sənə.

Səmənd qarının sözünə aldandı. Qız məsələsi onu yoldan çıxartdı, dedi:

– Yaxşı, razıyam, gələrəm.

Səmənd qarıdan ayrılıb, Valehin yanına gəldi, əlini sinəsinə qoyub dedi:

– Ay ustayi-mehriban, məni bağışla. Sənnən çox yoldaşlıq eləmişəm. Sən də mənə yaxşı usta olmusan. Ancaq tay mən sənnən ayrılıb, tək aşıqlıq eləmək istəyirəm.

Aşıq Valeh Səmənddən bu sözü eşidən kimi bildi ki, onu qarı yoldan çıxarıb, dedi:

– Mənim sözüm yoxdu. İstəyirsən get. Amma onu bil ki, mənim sözümə baxsan xeyir apararsan. Mən istəyirəm ki, sən aşıqlığı lap yaxşı öyrənib, bir yaxşı aşıq olasan, özünə bir gün qazanasan, mənə də həmişə rəhmət oxuyasan.

Səmənd Valehin sözünə qulaq asmadı, sazını götürüb getdi. Amma o bilirdi ki, aşıq Valeh kimi ustadın qabağında bu mahalda aşıqlıq edə bilməyəcək; ona görə qarının nəvəsini alıb, gedib özgə mahallarda dolanmaq lazımıdı. Səmənd öz hərəkətinə peşman oldusa da, amma Valehin yanına da dönə bilmədi. Başladı kəndbəkənd gəzib, aşıqlıq

eləməyə. Səmənd gəzməkdə olsun, al xəbəri Dəmirqapı Dərbənddə Zərnigar xanımdan.

Dəmirqapı Dərbənddə Zərnigar adlı bir qız var idi. Bu qız o qədər gözəl idi ki, misli-manəndi yox idi. Aya deyirdi: sən çıxma, mən çıxacağam; günə deyirdi: sən çıxma, mən çıxacağam!

Məxləs, bu Zərnigara hər yerdən elçi gəlirdi. Amma Zərnigar belə şərt qoymuşdu ki, hər kəs məni bağlasa, ona gedəcəyəm, bağlaya bilməsə, boynunu vurduracam. Bütün mahallardan aşıqlar dəstə-dəstə tökülüb gəlirdi. Zərnigar hamısını bağlayıb, zindana salırdı. Hər dəfə zindanda qırx aşıq tamam olanda boyunları vurulurdu. Odur ki, Zərnigar xanım adam kəlləsindən minarə saldırmışdı. Özü də dünyanın hər tərəfinə kağız yazıb öz fikrini bildirmişdi.

Atası, yaxın adamları nə qədər deyirdilər ki, belə şey olmaz, bu adamları az qırdır, Zərnigar sözünün üstündə möhkəm durub, heç kəsin sözünü qəbul eləmirdi. Onun sözü söz idi. Hər hankı aşıqla deyişməmişdən əvvəl deyərdi:

– Aşıq, mən şərtimi kəsirəm: hərgah sən məni bağladın, istəyirsən özün məni al, istəyirsən öldür. Elə ki mən səni bağladım, dərhal boynunu vurduracam.

Zərnigar bu tövr ilə çoxlu aşıq qırdırıb, otuz səkkiz karlı aşıq da dustaq eləmişdi. İndi, bu burada qalsın, eşit, sənə deyim Səmənddən.

Səmənd gəzə-gəzə gəlib, Dəmirqapı Dərbəndə çıxdı. O, elə bildi ki, burada ondan başqa aşiq yoxdu. Düz birbaş saz çiynində, gəlib Zərnigarın sarayının qabağında dayandı. Zərnigar onu görən kimi qarabaşlara hey vurdu.

– Ay qızlar, o gedən aşığı tutun, mənim yanıma gətirin. Bundan otuz doqquz aşıq hazır olur, birini də girə salandan sonra hamısının boynunu vurduracağam.

Qarabaşlar gedib Səməndi Zərnigar xanımın yanına gətirdilər. Zərnigar xanım Səməndə bir bağlama dedi. Səmənd cavab verdi, Zərnigar ikinci bağlamanı dedi, Səmənd cavab verdi. Üçüncü bənddə boğazının yolu qurudu. Zərnigar xanım əmr elədi, qarabaşlar onu aparıb saldılar zindana. Səmənd yan-yörəsinə baxıb, nə gördü?.. Burada otuz səkkiz aşıq yan-yana yatır. Səmənd bunlarda əhval-pürsanlıq elədi. Bu əsnada Zərnigar dustaqların yanına gəldi. Qarabaşlar da yanında, başlayıb aşıqların hər ikisinə bir çörək verə-verə gəldi, Səməndə yetişdi. Səməndin baxtınnan tək ona bütün bir çörək düşdü. Zərnigar gülüb dedi:

– Deyəsən, bu aşıq naz-nemətdə böyümüş adamdı.

Səmənd ondan bu sözü eşidəndə keçmişləri yadına düşdü, dərdi cuşə gəlib dedi:

– Ay baxtavarın qızı, mən gündə üç dəfə ustamla cücə-plov içəri vururdum, damağımda ləzzət verirdi. İndi bu yavan çörəyi də mənə çox görürsən?

Xanım dedi:

– Bura sən dövran edən məclis deyil. Bura qiyamət ayağıdır. Qırx aşıq düzələn kimi hamınızın boynunu vurduracağam.

Səmənd dedi:

– Zərnigar xanım, səbəb nədi? Niyə bizim boynumuzu vurdurursan? Biz nə günahın sahibiyik? Nə olsun, aşığın biri çox bilikli, biri az bilikli, o birisi də biliksiz olar.

Zərnigar xanım onun üzünə qışqırıb dedi:

– Biliksiz aşıqların hamısını öldürmüşəm. Az bilikli aşıq da sizsiniz ki, qırx tamam olanda hamınızı qıracağam. Dünyada mənim sözlərimə cavab verən aşıq tapılmayacaq, diyəsən mən tək qalacam. Səmənd qahqahnan gülüb dedi:

– Ay xanım, başına dönüm, bizlər xingal, süddü-plov aşıqıyıq. Sənin babın deyilik, sənə cavab verə bilmərik. Ustad aşıqlar var, get onnarnan danış.

Zərnigar dedi:

– Qoçaq, bu sözü deməkdə səndə bir söz var. Yəqin sən yaxşı aşıq tanıyırsan. Əgər tanıyırsansa mənə de.

Səmənd dedi:

– Əlbəttə tanıyıram. Onu bil ki, sənin hərifin Qarabağın hər tərəfində adı dillərdə gəzən Abdal Gülablı ustad aşıq Valehdir. O sənə cavab verə bilər. Bizimlə niyə çəngə girirsən? Get ustad meydanına ki, canına üşütmə salsın.

Zərnigar üzünü Səməndə tutub dedi:

– Bir namə yazsam aşıq Valeh gələrmi?

Səmənd dedi:

– O belə məclisləri göydə axtarır. Cannan-başnan gələr, özü də səni beş kəlməynən bağlayar. Onu da bil ki, Valeh kimi norəsidə, xətt-xalı bənövşə, qədd-qaməti sərv cavan yoxdur.

Zərnigar Səmənddən Valehin belə tərifini eşidib, görməmişdən, bir könüldən min könülə Valehə aşiq oldu. Hüzura bir molla çağırıb dedi:

– Molla əmi, mən hər nə desəm sən yazarsan, birini buraxmazsan, yoxsa başını bədənindən qopararam.

Molla qələmi götürdü, Zərnigar sazı.
Aldı Zərnigar:

Bizdən salam sənə, ay aşıq Valeh,
Əgər aşıq isən bu meydanə gəl!
Ya aşıqlıq ismin götür üstündən,
Ya hünərin varsa, bu dövranə gəl!

Dilimdən çıxıbdır bir belə ilqar –
Kim məni bağlasa olam ona yar.
Aşıqlar sərindən tikdirrəm minar,
Sən də qıyar olsan şirin canə, gəl!

Bir neçə aşiqi eyləmişəm bənd,
Ayağında zəncir, boynunda kəmənd,
Adım Zərnigardı, məkanım Dərbənd,
Məni anar olsan, bu məkanə gəl!

Sözünü tamam eləyib dedi:

– Molla əmi, hər nə dedim, yazdınmı?

Molla dedi:

– Bəli, xanım, yazdım, bir təkini də buraxmadım.

Zərnigar naməni müşəmmələdi, bir qasidə verib, Abdal Gülaba yola saldı. Qasid mənzilbəmənzil, teyyi-mənazil gecəni gündüzə qatıb, gündüzü gecəyə, özünü yetirdi Abdal Gülablıya, Valehi soruşdu, dedilər səhər tezdən Lənbərənə gedib. Qasid Lənbərənə gəlib, gördü ki, aşıq Valeh şirin dövran keçirir. Naməni onun sazının üstünə qoydu. Valeh kağızı açanda içindən Zəringar xanımın şəkli çıxdı. Bir belə mələk simalı, boy-buxunlu, misli-bərabəri olmayan qızın şəklini görəndə Valeh uzaqdan-uzağa, bir könüldən min könülə aşiq oldu, rəngi saralıb, əhvalı dəyişdi. Adamlar təəccüb eləyib soruşdular.

– Aşıq, nə oldu ki, təbin dəyişildi? O oxuduğun kağızda nə var idi?

Valeh əhvalatdan onları xəbərdar edib dedi:

– Dərbənddə Zərnigar adlı bir qız meydanə gəlib, bütün aşıqları bağlayıb, zindanə salıb. İndi kağız yazıb məni çağırır. Mən də gedəcəyəm, ya Allah mənə verər, ya ona.

Dedilər:

– Ay aşıq, dəli olma, bu qədər uzaq yolu gedib qayıda bilməzsən, bizi başıkəsik qoyma!

Valeh onların sözünü qəbul eləməyib dedi:

– Yox üz vurmayın, gedəcəyəm. Mən meydandan qaçsam, namərd olaram. O, qızlığıyla mənə kağız yazıb, məni deyişməyə çağırır, bəs mən kişiliyimnən getməyim? Lap Dəmirqapı Dərbənd olmaya, qülleyi-qaf ola, gənə gedəcəyəm.

Dedilər:

– İndi ki, gedirsən, onda barı toyumuzu qurtaraq, sonra get. Toy qurtarmamış səni buraxmarıq.

Valeh razı olub, görək Zərnigar xanımın kağızını oxuyandan sonra nə dedi:

Aydın olsun gözlərimiz,
Gəlibdi yarın kağızı.
Alıb ələ, oxuyarıq
O Zərniyarın kağızı.

Sazımı mən allam ələ,
Yol gedərəm gülə-gülə.
Mən tutaram onu dilə,
O bəxtiyarın kağızı.

Qaşı qəmər, gözü ala,
Dodaqları bənzər bala,
Valeh ona qurban ola,
O xoş nigarın kağızı.

Yoldaşı güldü. Valeh ona dedi:

– Niyə gülürsən?

– Ona görə gülürəm ki, bu qaraçı sözüdür. Bununla sən Zərnigarı bağlaya bilməzsən?

Valeh fikirləşib gördü doğrudan da qaraçı sözüdür. Aldı yenidən, görək Zərnigar xanıma nə cavab yazdı.

Aldı Aşıq Valeh:

Qarabağdan dod eləyib gələrəm,
Əgər bir dövtələb var isə, gəlsin!
Cəhənnəmi bu dünyada elərəm,
Hər kimsənə günahkar isə, gəlsin!

* * *

Çıxaram meydana divanə nisbət,
Pəhlivanam, Əbulmərcanə nisbət,
Füzuli, Firdovsi, Nizamə nisbət,
Kimin artıq dərsi var isə, gəlsin!

* * *

Mənəm şair Məhəmmədin nəbadı,
Küllü aşiqə o aşiq babadı,
Aşıqlarda hər kəşdənin övladı
Valeh ilən bərabər isə, gəlsin!

Aşıq Valeh sözünü tamam edib, naməni qatladı, müşəmmələyib, qasidə verdi, dedi:

– Qasid, Zərnigara deyilən on günətən acmış qurd kimi özümü ona yetirəcəyəm.

Qasid "göz üstə" deyib, Dərbəndə yola düşdü. Bərkitdi çarıqların dabanını, qırdı yerin damarın, gedib öz vaxtında naməni Zərnigara yetirdi. Zərnigar namənin məzmunundan xəbərdar olub, şad-xürrəm Valehin yolunu gözləməyə başladı. Bu yannan toy məclisində aşıq Valehin başı o qədər söhbətə qızışdı ki, bir vədə gördü on gün tamam olub, hələ bir neçə gün də üstündən keçibdir. Fikrə düşüb dedi: ay dili-qafil, bütün Qarabağda, Dərbənd mahallarında adım batacaq, hamı deyəcək aşıq Valeh bir dərbəndli qızından qorxub, onun meydanına getmədi. Bu töhmətə dözmək olmaz, tez bir zamanda Zərnigarın meydanına getmək lazımdır.

Anası Səlbi xanıma dedi:

– Ana, yol tədarükü gör, səfərə gedəcəyəm.

Səlbi xanım dedi:

– Gözümün işığı, dizimin taqəti oğlum Valeh, de görüm hara səfər edirsən?

Valeh istədi anasını aldada, başa gəlmədi. Axırda əhvalatı başdan-başa ona nağıl elədi. Səlbi xanım oğlundan belə bir əhvalatı eşidib dedi:

– Ay bala, bəs nişanlın Sənəm xanımı neyləyirsən? Axı o sənin yolunu gözləyir. Toyunu elə, sonra get.

Aldı Valeh, görək anasına nə dedi:

Başına döndüyüm ana,
Halal eylə, hümmət eylə.
Südün əmdim qana-qana
Halal eylə, hümmət eylə.

Gedirəm mən düzləriylə,
Vidalaşmaq sizləriylə,
Yeniyetmə qızlariylə,
Halal eylə, hümmət eylə.

Süsənli, sünbüllü dağlar,
Güllü, bənövşəli bağlar;
Anam Valeh deyib ağlar,
Halal eylə, hümmət eylə.

Valeh sözlə anasına dedi:

– Ana, bir neçə günün səfərinə gedirəm. İnşaallah, gələndə toyumuzu edəcəyəm.

Səlbi xanım dedi:

– Oğul, belə səfərə gedən çox gec gələr. Ona görə nişannın Sənəm ilə görüş, sonra get.

Valeh "göz üstə" deyib, Sənəmgilin evlərinə gəldi. Gördü ki, Sənəm evdə yoxdur. Amma nökərləri Rəhim evdədir. Rəhimdən xəbər aldı.

– Sənəm hara gedib?

Rəhim dedi:

– Xanlığın toyu var, oraya gedib.

Valeh Rəhimi Sənəmin dalınca göndərdi, özü də oturub yolunu gözləməyə başladı. Rəhim gedib Sənəm xanıma dedi:

– Ay baxtavarın qızı, xalxa it hürəndə bizə də çaqqal ulayır. Bir quru papaq və çiyni çömçəli gəlib, evi kəsdirib, səni çağırır.

Sənəm o saat bildi ki, nişanlısı aşıq Valehdir. Rəhimi qarmalayıb dedi:

– Sən get, mən də gəlirəm.

Nökər gəraylı deyə-deyə, yüyürə-yüyürə aşıq Valehin yanına gəldi. Aşıq Valeh nökəri tək görən kimi ürəyi gumbultu ilə yerə düşdü, elə bildi ki, Sənəm gəlmir. Aldı sazı, görək nökərindən nə soruşur:

Aldı Aşıq Valeh:

Başına döndüyüm yarın nökəri,
Dərdimi canana dedin, nə dedi?..
Sən də mənim kimi şirin dilinlə
Çəkdin bir pünhanə, dedin, nə dedi?..

Hatəm bağçasında oynar gülünən,
Gəlmişəm, yanında qalmam ilinən,
Dediyim söhbəti, sözü sirrinən
Danışıban ona dedin, nə dedi?..

Mən sevmişəm ağ üzündə xalını,
Yoxsa yar gizlədər mah camalını,
Divanə Valehin ərzi-halını,
Yusifi-Kənana dedin, nə dedi?..

Nökər dedi:

– Qorxma, sözlərivin hamısını dedim. Dedi: sən get, mən də gəlirəm.

Aradan bir az keçmişdi, bir də baxdı ki, budu, Sənəm bir neçə qızla toydan gəlir. Qızları görcək Valehin qanı cuşə gəldi, sazı sinəsinə basıb dedi:

Toy üstündən gələn qızlar, gəlinlər,
Toyunuzdan əcəb allı gəlmisiz.
Aşıq öldürməkdə vardı qəsdiniz,
Fikr eləyib nə xəyallı gəlmisiz?

Biri birisini çağırır bacı,
Bir dərdə düşmüşəm, yoxdur əlacı,
Nə vaxtdı dəhanım dadıyır acı,
Üçünüz də ləbi ballı gəlmisiz.

Eynini eynimdən eyləmə iraq,
Axıban didəmdən tökülər fəraq,
Bir Sənəm, bir Valeh, bir xəlvət otaq,
Hayıf ola qalmağallı gəlmisiz.

Aşıq Valeh sözünü tamam edib Sənəmlə hümmət elədi, sonra sazını çiyninə keçirib, ata süvar oldu, ayaq üzəngidə, diz qabırğada, ata bir şallaq vurub, yola rəvan oldu. Yevlaxdan keçib Qaradüyün kəndinə çataçatda gördü bir dəstə qız Kür qırağına səyahətə çıxıb, gül-bənövşə dərir. Bunların arasında bir qız var, gözəllikdə misli-bərabəri olmaz, elə bil Züleyxadı. Valehin ağlı başından getdi, aldı, görək bu qıza nə dedi:

Sallana-sallana seyrə çıxanda,
Sərv qamətindən xəcalət çəkər,
Lalə yanağından, nərgiz gözündən,
Qonça gülüşündən nədamət çəkər.

Nəstərən, bənövşə çalışa yüz il,
Çətindi ömrünə yetəndə müşkül,
Məgər zülflərinən bəhs edər sünbül,
Düşər ayaqlara, qərabət çəkər.

Valehin bağrını eylədin büryan,
Qurbanam yolunda, ey əbrü kaman,
Bircə mən deyiləm hüsnünə heyran,
Həsrətini küllü vilayət çəkər.

Qızlar gülüşə-gülüşə dedilər:
– Aşıq, sağ ol, var ol!
Valeh dedi:
– Gərək mənə xələt verəsiniz.
Aşığın fikri ayrı idi. Qızlar onu başa düşdülər. Gözəl qız aşığa bir dəstə gül verib dedi:
– Al, aşıq, bu da sənin xələtin.
Aşıq Valeh gülü ondan alıb dedi:
– Çox sağ ol, bundan yaxşı xələt olmaz.
Qızlar gülüşə-gülüşə çıxıb getdilər. Valeh də qızlardan ayrılıb başladı getməyə. Qarabağdan çıxhaçıxda qanrılıb vətənə sarı baxdı, gördü dağlar baş-başa verib, bağlarda bülbüllər cəh-cəh vurub oxuyur. Güllər pardaxlanıb qəhqəhə ilə gülür. Bənövşə, yasəmən bəhsə girib, hər biri bir rəng çalır. Ürəyi qubar elədi, gözlərinin yaşı axdı. Öz-özünə dedi: ya qismət, bir də bu gözəl elimə, ölkəmə qayıdam, ya qayıtmayam. Sazı sinəsinə basıb, görək eli ilə nə cür halallaşdı.

Aldı Valeh:

Süsənli, sünbüllü dağlar,
Halal elə, hümmət elə!..
Bənövşəli, güllü bağlar,
Halal elə, hümmət elə!..

Göy çəmənli düzlərinən,
Dövran sürdüm sizlərinən,
Yeniyetmə qızlarınan,
Halal elə, hümmət elə!..

Valeh gedir bir murada,
Sığınar qadir ustada,
Ya gəlim, gəlməyim ya da,
Halal elə, hümmət elə!..

Valeh eli, obası ilə halallaşdıqdan sonra yola rəvan oldu. Günün istisi idi. Bir qədər at sürdü. Ona susuzluq əl verdi. Bir də gördü iki qız su aparır. Yaxınlaşıb gördü ki, bunların biri qızdı, biri gəlindi. Amma o qədər gözəldirlər ki, misli-bərabərləri yoxdur. Sazı döşünə basıb, təzənəyi simlərə çəkdi, görək nə dedi:

Aldı Valeh:

Bu duran bir cüt sonanın,
Hansına qurban olum?!
Məzlum baxıb, can alanın
Hansına qurban olum?!

Qəddi-qaməti dünyada,
Maşallah çəkən ustada,
Hər ikisi mələkzada,
Hansına qurban olum?!

İki təzə novcavanım,
Qəmzələri tökür qanım,
Valeh deyir: birdi canım,
Hansına qurban mən olum?!

Qızla gəlin aşığı görən kimi özlərini yığışdırdılar. Gəlin qıza dedi:

– Sən dinmə, mən aşığı danışdırım, sən ləzzət apar.

Onlar Valehin lap yanına gəldilər. Gəlin Valehin bir böyründə, qız da bir böyründə dayandı. Gəlin dedi:

– Aşıq, tap görək, bizim hansımız qızıq, hansımız gəlin, tapmasan səni çatı ilə döyəcəyik.

Valeh diqqətlə baxıb dedi:

– Sən gəlinsən, o da qızdı.

Qız dedi:

– Aşıq, bir qatar söylə, ürəyimiz açılsın.

Gəlin dedi:

– Ay qız, sən dinmə, söz mənimdir, qoy mən aşığa deyim oxusun.

Qız dedi:

– Niyə, mən səndən əskiyəm? Ya mənim dilim bağlıdı?!

Bunlar bəhsə başladılar, o dedi mən beləyəm, bu dedi mən beləyəm.

Valeh sazı köynəyindən çıxardıb, görək bunları nə cür sakit elədi:

Bir qız ilən bir gəlinin bəhsi var,
Gəlin deyər: bu gün meydan məndədir.
Qız da deyər: açılmamış qönçəyəm,
Fəsli-bahar baği-reyhan məndədir.

Gəlin deyər: ördəyim var, qazım var,
Şirin-şirin söhbətim var, sazım var,
Sallananda yüz qız qədər nazım var,
Həya, iman, ədəb, ərkan məndədir.

Qız deyər: mən oxşamışam anama,
Ləlü mərcan düzülübdür tanama,
Əl vursalar sındırarlar şamama,
Əl dəyməmiş tağü bustan məndədir.

Gəlin deyər: gəl, qız, düşmə araya,
Gər mən ölsəm, aləm batar qaraya,
Bəzənərək, sallam səni bəlaya,
Şövq salan camalü can məndədir.

Valeh deyər: ikinizə mən qurban,
Yolunuzda mən qoymuşam başla can,
Eyləməyin bu qəribi bağrı qan,
Sizdən ötrü çeşmi-giryan məndədir.

Qızla gəlin Valehin sözündən sonra bəhsi buraxdılar. Valeh onlardan su istədi.

Hərəsi Valehə bir parç su verib dedilər:

– Aşıq, çox sağ ol, min yaşa!

Valeh qızlardan ayrılıb yola düşdü. Ta ki gəlib, Zərdabın yanına çıxdı. Nə gördü?.. Bir nazənin sənəmi qırx incə belli qız gəzməkdən evə aparırlar.

Valeh diqqət ilə baxanda gördü, vallah, bu elə qızdır ki, dünyada misli-manəndi yoxdur. Qırx qarabaş bu gözəli üzük qaşı kimi araya alıb, pərvanə tək başına dolanırlar.

Valehin sinəsi dəmirçi kürəsi kimi alışıb yandı. Sağrı qabırğanın ucundan bir sancı tutub, lap ciyərinə vurdu. Bərkdən dedi:

– Çox eyibsiz, misilsiz bir gözəl görmüşəm; amma bunun bircə eybi var.

Bu qız da şair Məsum Əfəndinin qızı Xətayi xanım idi. Çox ağıllı, kamallı bir qız idi. Xətayi xanım Valehin sözünü eşidib, kənizlərə dedi:

– Əgər bu cavan quş olub göyə uçası olsa, genə, gərək tutub mənim yanıma gətirəsiniz.

Kənizlər Xətayi xanımın hökmünə əməl edib Valehi xanımın hüzuruna çağırdılar. Xətayi xanım dedi:

– Ey cavan, səndən bir söz xəbər alacağam. Hərgah düzünü dedin, canın qurtardı. Düzünü demədin, boynunu vurduracağam.

Valeh and içdi ki, hər nə xəbər alsan, düz cavab verəcəyəm. Xətayi xanım buyurdu:

– Aşıq, de görüm mənim eybim nədir?

Valeh ərz etdi:

– Xanım, sən özgə təşvişə düşmə. Mənim sözümün mənası budur ki, sən eyibsiz gözəlsən. Ancaq hayıf ki, piran olub qocalacaqsan. Bir tərəfdən gül yanağın solacaq, digər tərəfdən də öləndə bütün vücudun xak içində çürüyəcək. Mən ona heyifsilənirəm. Fikrini ayrı yerə aparma.

Xətayi xanım aşıq Valehdən belə ağıllı sözü eşidib buyurdu:

– Cavan, danışığından məlum olur ki, sən yəqin çox biliklisən, artıq dərəcədə kamal, ağıl, huş sahibisən. Hərgah razı olsan, bu axşam mənə mehman ol, qulluğunda durum, söhbətinə qulaq asıb, feyziyab olum.

Valeh ərz etdi ki:

– Hərçənd yoldan qalıram, amma eybi yoxdur, mehman olaram. Sənin kimi gözəlin sözünü yerə salmaq günahdı.

Xətayi xanım dedi:

– İndi sən evdə otur, mən sənin burada olmağını atama xəbər verim. O izn versin, bu gecə burada qalsan söhbət edərik.

Aşıq Valeh gülüb ərz elədi:

– Gözəllər soltanı, məgər atandan iznsiz söhbət eləmək omazmı?

Xətayi xanım buyurdu:

– Əlbəttə, olmaz. Mən şair Məsum əfəndinin qızıyam. Atamın qabağına bir şair, bir aşıq çıxa bilmir. Əgər ondan iznsiz bir aşıq gəlib burada oxusa, onu dərhal bağlayıb, sazını əlindən alır. Özünü də zindana salır.

Valeh dedi:

– Elə isə get, izn al, qoy özü də buraya gəlsin.

Xətayi xanım atasının yanına gəlib ərz etdi:

– Atayi-mehriban, bir cavan aşıq var. İzn ver, bu gecə onu qonaq saxlayıb, söhbət etdirim. Özü də kamil bir oğlandı.

Məsum əfəndi Xətayi xanımın sözünü sındırmayıb dedi:

– Qızım, izndir, saxla. Mən də səninlə gedib baxaram. Kamil ustad olarsa mən də söhbətinə qulaq asaram. Olmazsa qayıdıb gələrəm.

Xətayi xanım hərçi dedi ki, çox cavandı. Sənin hərifin deyil. Səni görəndə xofdan oxuya bilməz, Məsum əfəndi razı olmayıb, Xətayi xanım ilə bərabər Valehin yanına gəldi. Məsum əfəndi Valehə salam verib dedi:

– Oğlum, söylə görüm səfərin haradı?

Valeh salamı alıb, ərz etdi:

– Əmi, səfərim kannan məkanadı.

Məsum əfəndi dedi:

– Oğlum, kan kandı, məkan nədi?

Aşıq Valeh dedi:

– Kan bu dünya, məkan da o dünyadı.

Məsum əfəndi Valehə afərin deyib, buyurdu:

– Oğlum, şükür, məsəlinə arifsən. Bəs, indiki səfərin haradı?

Valeh ərz elədi:

– Əmi can, səfərim Dəmirqapı Dərbənddə peyda olan Zərnigarın dövranınadı.

Məsum əfəndi Zərnigarın çox bilikli, bir fəsad qız olmasını söyləyib dedi:

– Oğlum, gör nə aləmdir ki, Zərnigar peyda olandan mən şairliyimi danmışam. Nahaq yerə özünə zəhmət vermə. Zərnigarnan heç kəs bacarmaz.

Valeh dedi:

– O qız mənə deyin qoyub. Ya gərək öləm, ya da onun deynindən çıxıb, dustaq etdiyi otuz doqquz aşığı zindandan xilas edəm.

Məsum əfəndi nə qədər öyüd verdisə də, Valeh qəbul eləmədi. Məsum əfəndi gördü ki, oğlan gedəcəkdi, dedi:

– Oğlum, indi ki, gedirsən, sözümə qulaq as. Mən bir neçə bənd bağlama deyəcəyəm, hərgah açdın, onda Zərnigarın da cavabını verə biləcəksən, yox, aça bilməsən, onda heç getmə. Çünki Zərnigar qırx aşıq düzələn kimi hamısını öldürəcək. Özün də məhv olarsan, onların da qanına bais olarsan.

Aşıq Valeh dedi:

– Çox əcəb, buyurun.

Məsum əfəndi sazı götürüb, aşıq Valehə belə bir bağlama dedi:

Aldı Məsum əfəndi:

Kəndinə laf edib, şairəm deyən,
Sualımın qabağında döz indi.
Diksinmə, çəkinmə, qısqanma, qorxma,
Al sualım, ver cavabın tez indi.

Aldı aşıq Valeh cavabında dedi:

Bilsəydik mahalı bəndə salıbsan,
Vallahı, gəlməzdik bura biz indi.
Diksinmərəm, qısqanmaram, qorxmaram,
Xəbər alsan o sualdan yüz, indi.

Aldı Məsum əfəndi:

O kim idi doğdu yüz səksən oğlan?
Kim idi həzrətə apardı qurban?
O kim idi əzəl etdi nahaq qan?
Kim idi vermədi ona qız, indi?

Aldı aşıq Valeh:

Havva ana doğdu yüz səksən oğlan,
Cəbrail həzrətə gətirdi qurban.
Qabili öldürdü Habil – nahaq qan,
Adəm verməmişdi ona qız indi.

Aldı Məsum əfəndi:

Kim idi əlləri vardı neçə min?
Hər əlində barmaqları neçə min?
Hər barmaqda qələm çalar neçə min?
Bunu bilən kəsə yoxdu söz indi.

Aldı aşıq Valeh:

Cəhənnəm maliki, əli yeddi min,
Hər əlində barmaqları yeddi min,
Hər barmaqda qələm çalır yeddi min,
Onu nə biz görək, nə də siz indi.

Aldı Məsum əfəndi:

O kimdi neçə il hey namaz qıldı?
Neçə il orada xidmətdə durdu?
Neçə min məlakə xidmətkar oldu?
Axırında danışmadı düz indi?

Aldı aşıq Valeh:

İblisdi, neçə il hey namaz qıldı,
Səksən il orada xidmətdə durdu,
Səksən min mələyə xidmətkar oldu,
Oldu şeytan, danışmadı, düz, indi.

Aldı Məsum əfəndi:

Məsum deyir: kimdi sahibi-qüdrət?
O nədi ki, ona vurubdu zinət?
O kim idi himnən danışdı xəlvət?
Onu bilən kəsə quluq biz indi.

Aldı aşıq Valeh:

Valeh der: Məhəmməd sahibi-qüdrət,
O cənnətdi, ona vurubdu zinət,
Min kəlmə meracda danışdı xəlvət,
Qadir ləmyəzələ yoxdu söz indi.

Söz tamama yetişdikdən sonra Məsum əfəndi dedi:

– Əhsən! Çox kamil aşıqsan, Zərnigarın öhdəsindən olsa-olsa, sən gələcəksən. İndi mən öz otağıma gedirəm. Siz söhbət edə bilərsiz.

Məsum əfəndi durub öz otağına gedəndən sonra Xətayi xanım Valehə dedi:

– Valeh, indi mənə elə bir söz oxu ki, həm xoşuma gəlsin, həm də acığım tutsun. Əgər oxumasan, bu gecə sənə sabaha kimi yuxu yoxdu.

Valeh Xətayidən bu sözü eşidən kimi dedi:

– Xanım, sən kimi gözəl qızın sözü sınınca, düşmənin boynu sınsın. Sazını sinəsinə basıb, görək nə deyir:

Aldı aşıq Valeh:

Bu yer gözəlinə nabələd oldum,
Söz dedim, qurumuş dilə bükülmüş,
Xətayi görcəyin eylədim xəta,
Ləl, göhər bir məndilə bükülmüş.

Qurban olum ala gözün məstinə,
Bal tökülüb al dodağın şəstinə,
Əlim qoyum tər məmənin üstünə,
Darçına, mixəyə, hilə bükülmüş.

Gecə ikən mehman olduq bullara,
Geyinib yatıblar yaşıl, allara,
Qızıl bəzmənd, lülə şümşad qollara,
Gümüş kəmər incə belə bükülmüş.

Nabələdəm ulusuna, soyuna,
Mina gərdəninə, uca boyuna,
Divanə Valehi ala qoynuna,
Sanasan ki, bülbül gülə bükülmüş.

Aşıq Valeh sözünü tamam edən kimi Xətayi xanım dedi:

– Valeh, Allahdan gizli deyil, bəndədən nə gizlin?! Səni görəndən mən dəli-divanə olmuşam. Sənə bir könüldən min könülə aşiq olmuşam.

Aşıq Valeh dedi:

– Xanım, onu bil ki, mən Zərnigar xanımın cənginə gedirəm. Onun şərti var, hər kəs onu bağlasa, ona ərə gedəcək, bağlamasa işi şuluqdu.

Xətayi xanım oğlandan bu sözü eşidib, çox qəmgin oldu:

– Valeh, onu bil ki, atam məni çox adamlara vermək istədi, mən getmədim. Ona görə and içib ki, daha mən səni ərə verməyəcəyəm. Özün hər kimi bəyənsən, ona get. İndi səni sevmişəm, sözümü yerə salma!

Bəli, aşıq Valeh Xətayi xanım ilə bir neçə gün qalandan sonra Məsum əfəndi ilə, Xətayi xanım ilə görüşüb, hallalaşıb yola düşdü. Mənzillər keçdi, məkanlar aşdı. Bir neçə gün yol gedib, Zənbur çayının kənarına çıxdı. Valeh baxdı ki, çay daşıb, yernən, göynən gedir. Baxdı ki, çayın kənarında bir qoyun sürüsü var. Sürünün bir çobanı var idi ki, yeddi alaçığın keçəsindən özünə bir qartı (yapıncı) tikdirmişdi. Bir çomağı var idi ki, toppuzuna yeddi batman ağırlığında dəmir çalmışdı. Valeh öz-özünə dedi: bu çobandan bir az süd alım, çörək yeyim, sonrası asandı. Çobanın yanına gəlib dedi:

– Çoban qardaş, acdın çobana, yoruldun sarvana deyərlər. Aclığım var. Bir az süd sağ, çörək yeyim.

Çoban qollarını çirməyib, bir neçə qara qoyun sağdı. Valeh toqqanın altını bərkidəndən sonra çoban ona dedi:

– Çiynindəki sazından görürəm ki, aşıqsan. Amma de görüm o avara aşıqlardansan, yoxsa haqq aşığısan?

Valeh dedi:

– Haqq aşığıyam.

Çoban dedi:

– Bəs haqq aşığısan, niyə çayın bu tərəfində qalmısan? Bax, budu, sənə deyirəm, bu saat çayı qurudursan qurut, qurutmursan, sənə elə bir çomaq vuracağam ki, heç tozun da tapılmasın.

Valeh gördü xeyr, işlər şuluqdu. Aldı sazı sinəsinə, görək Zənbur çayına nə dedi:

Nə coşqun axırsan, Zənbur çayı, sən,
Gəlib səndən neçə aləm keçibdi.
Külli Dağıstanın seyrəngahısan,
Neçə əyyam, neçə aləm keçibdi.

Əzəl səndən keçib Nadiri-dövran,
Beləsincə tamam İrani, Turan,
Pişvazına gəlir külli Dağıstan,
Təmamən Urumü əcəm keçibdi.

Bu dünya dediyin bir çərxi-gərdun,
Əvvəli şadlıqdı, axırı qəmgin;
Bir yarın eşqində olubdu Məcnun,
Valeh kimi ağlı nacəm keçibdi.

Valeh sözünü tamama yetirən kimi, Zənbur çayı iki şaqqa ayrıldı. Çayın ortasından bir böyük yol açıldı. Bu zaman çoban Valehin ayağına yıxılıb dedi:

– Aşıq, mən sənnən qardaş oldum: hər yerdə dara düşsən, məni çağırarsan, dadına çataram.

Valeh çobannan əltəmən edib, Zənbur çayı verdiyi yoldan o taya addadı. Bir neçə müddət yol gedib, Dəmirqapı Dərbəndə çatdı. Bir dəstə adam toplaşmışdı. Valehdən soruşdular:

– Aşıq, hardan gəlib, hara gedirsən?

Aşıq Valeh aldı, görək onlara nə dedi:

Qarabağdan səfər etdim,
Mülki-Şirvana gəldim.
Məcnun tək düşdüm səhraya,
Dəli-divanə mən gəldim.

Şamaxı şəhrinə yetdim,
Əcayib seyrlər etdim.
Daşkəsən Gədiyin ötdüm,
Hankı rizvana mən gəldim.

Xoşdu Cavanı yaylağı,
Soyuq sular tər bulağı,
Bahar fəsli gəlin çağı,
Əcəb xəndana mən gəldim.

Mən valehəm Zərnigara,
Sığındım pərvərdigara,
Canımı saldı odlara
Misli-pərvanə, mən gəldim.

Sözünü tamam eləyib, onlardan ayrıldı. Gəlib bir gözəl bağın yanında dayandı. Baxdı ki, bu bağda əlvan mərmərdən tikilmiş bir ev var ki, başı buluddan nəm çəkir. Bağ nə bağ?!. Burada dünyada olan hər cür ağac, gül, meyvə vardır. Bütün gözəl quşlar bu bağda yuva salıb, güllərin ba-

şında gəzir. Elə bil ki, behiştin bir guşəsidir. Valeh bağın hər tərəfini dolanıb, diqqətlə baxırdı. Bir də gördü nə?! Bağın içində bir qız var, adamın ağlını aparır. Elə bil ki, bir ceyrandı bağın içində seyrə çıxıb. Qızın yanında qırx gözəl qarabaş var ki, hamısı incəbel, qaraqaş, qaragöz. Amma heç biri xanıma oxşamır. Xanım lap gəl məni gör, dərdimdən öl bir qızdır. Qaşları kaman, gözləri şəhla, kirpiyi ox, burun fındığı, sinə Səmərqənd kağızı, məmələri şamama kimi yumurlanıb baxanın ağlını aparır. Söhbətin gödəyi, elə bil ki, dünyada olan gözəlliyin hamısını Allah bu qızın başına töküb. Valehin ağlı başından çıxıb, az qaldı yerə yıxılsın. Birtəhər özünü saxlayıb dedi: "Kəmtər oğlu Kəmtər, nə qayırırsan? Məgər hər gözəl görəndə ürəyin keçəcək?! Birtəhər özünü saxla görək. Yəqin ki, bu nazənin haman aşıqlar yağısı Zərnigar xanım olacaq. Ölmək ölməkdi, xırıldamaq nə deməkdi? Gəl buna bir neçə bənd söz de. Hərgah Zərnigar isə, özünü bildirəcək." Aşıq Valeh sazı sinəsinə basıb, görək nə deyir:

Aldı aşıq Valeh:

Ey havalı gəştə çıxan nazənin,
Gəşt eləyib, nə havalı gəzirsən?
Neçə aşıqlar bəndə salıbsan
Götürübən vüzr-vəbalı gəzirsən.

Demə, bu səyahətə çıxan qız elə doğrudan da Zərnigar imiş.

Zərnigar xanım bu sözü eşidən kimi dedi:

– Allah yaxşı yetirdi. Öz ayağı ilə gəlib çıxdı. Bunu da bağlaram, qırx aşıq düzələr, hamısını qıraram. Tay zindanda saxladığım bəsdi.

Qızları səslədi ki:

– Ay qızlar, görün bu aşıq kimdi, gəlib mənim bağımın böyründə belə havalı-havalı oxuyur. Mən onun başına oyun gətirim, siz də tamaşa eləyin!

Zərnigar yasəmən zülflərindən üç tel ayırıb sinəsaz elədi, basdı bağrına. Mirvari barmaqlarını da təzənə eləyib, yasəmən tellərinə çəkdi, dedi:

Bahar əyyamıdı, işrət çağıdı,
Gəşt eləyib mən havalı gəzirəm.
Otuz doqquz aşıq bəndə salmışam,
Götürübən vüzr-vəbalı gəzirəm.

Aldı aşıq Valeh:

Bu dünya dediyin bir bivəfadı,
Ona genə əlac zövqü səfadı,
Haydı yarsız gəzmək sənə cəfadı,
Eləyibsən nə xəyalı, gəzirsən?

Aldı Zərnigar xanım:

Xaliqi-ləmyəzəl, Vahidi-yektay
Bir kamal qüdrətdən verib mənə pay;
Bu əsrdə aşıq gəlməz mənə tay,
O İranı, o Turanı gəzirəm.

Aldı aşıq Valeh:

Valeh kimi gəzmə ahü zarınan,
Ülfət elə bir vəfalı yarınan,
Qonuş bir münasib xiridarınan,
Şux tərlansan, çox havalı gəzirsən.

Aldı Zərnigar xanım:

Gör necə boynuna saldırram kəmənd,
Sərindən tikdirrəm minari-bülənd,
Adım Zərnigardı, məkanım Dərbənd,
Valeh kimi novcavanı gəzirəm!

Sözlərini tamama yetirdikdən sonra Zərnigar dedi:

– Aşıq Valeh, indi de görüm, mənnən meydana girişəcəksənmi?

Aşıq Valeh dedi:

– Neçə ki canımda can var, sənnən varam. Gərək sənnən bir dövran eləyəm ki, bu dövranın sədası İnqirazi-adimə qədər getsin.

Zərnigar bu sözü eşidən kimi haman reyhan bağını zərli xalılarla döşətdirib, behiştə döndərdi. Dərbənddə olan adlı-sanlı adamları, xanı, axundu, üləmanı çağırtdırdı. Bundan başqa, otuz doqquz aşığı əli-qolu bağlı məclisin bir tərəfində bərqərar elədi. Elə ki hamı gəldi, bütün həzəratın gözünün qabağında aşıq Valeh ilə belə bağlaşdılar: hərgah Zərnigar aşıq Valehi bağlasa, onda otuz doqquz aşıq ilə bir yerdə Valehin boynunu vurduracaq. Əgər aşıq Valeh Zərnigarı bağlasa, həm otuz doqquz aşıq azad olunacaq, həm də özü Zərnigara sahib olacaq.

Zərnigar dedi:

– İndi, aşıq Valeh, səndən bir hərifnamə xəbər alacağam. Cavab ver görüm, necə verəcəksən.

Aldı Zərnigar xanım:

Bizdən salam olsun Aşıq Valehə,
Mərdin meydanıdı, gəl eyliyək cəng,
Görəyim kim kimi verir zəvalə,
Kim kimin əlində mat olu diltəng?

Aşıq Valeh dedi:

– Xanım, döşün atdanmasın, qabağındakı şirdi, siçan deyil.

Aldı aşıq Valeh:

Al cavabın deyim, Zərnigar xanım,
Mənəm aşıqlarda bir girrani-səng,
Zərrəcə yerimdən tərpədə bilməz,
Yığılsa Rum, Qeysər ta Hindü Firəng.

Aldı Zərnigar xanım:

Sən tək çox aslanlar salmışam girə,
Üç gündə bir çörək verirəm cirə.
Sənin də gərdənin keçər zəncirə,
Aşıq sərdarıyam, manəndi-fişəng.

Aldı aşıq Valeh:

Aşıq olan özün sənə bab etməz,
Salamı eşidən gecə xab etməz,
Dəmir zəncir eşq oduna tab etməz,
Gəl mənə bağlama top ilə tüfəng.

Aldı Zərnigar xanım:

Məğrur olma sinəndəki varına,
Bir təpiyim bəsdi bürcü barına,
Zəhərlər qataram ruzigarına,
Qan ağlar halına dəryada nəhəng.

Aşıq Valeh dedi:

– Xanım, heç özündən çıxma, daşsansa da qayaya rast gəlibsən.

Aldı aşıq Valeh:

Qurban olum sənin kimi cavana.
Sən bir zənənəsən, mənəm mərdana,
Xışmınan hayqırıb girsəm meydana,
Aslanın cənginə tab etməz pələng.

Aldı Zərnigar xanım:

Bu meydana səni gətirmiş əcəl,
Görəcəksən hələ cəngilə cədəl,
Zərnigar dedi: sabah meydanıma gəl,
Bu gün sözdü sənə gəlmişəm irəng.

Aldı aşıq Valeh:

Qurban olum sən tək çeşmi məstana,
Həriflə danışma, söylə bəyana,
Valehəm, sinəmi qurdum nişana,
Hər kamandar atsın, min tiğü xədəng.

Söz tamama yetdi. Zərnigar xanım sazı əlinə alıb dedi:

– Aşıq Valeh, yorulmuşam. Söhbətimizin mabədi sabaha qalsın.

Aşıq Valeh razı olmayıb dedi:

– Xeyr, olmaz, nə sözün var söylə, mən yorulmamışam.

Zərnigar baxdı ki, doğrudan da Aşıq Valeh zor aşıqdı, hərçi minnət, sünnət elədi, istədi söhbətin mabədi sabaha qalsın, Valeh razı olmadı. Zərnigar qızmış pələngə döndü. Bərk acıqlandı. Sorğu-sualsız sazı sinəsinə basıb, deyişməyə başladı. Dedi:

Bizdən salam olsun Aşıq Valehə,
Əzəl nə şey xəlq eylədi sübhanı?
Neçə şeylər ondan oldu aşikar,
Yaratdı süfəti, nəmi, nişanı?

Aldı aşıq Valeh:

Al cavabın deyim, Zərnigar xanım,
Əzəl bir dövr xəlq eylədi sübhanı.
Cəmi aləm ondan oldu aşikar,
Yaratdı süfəti, nəmi, nişanı.

Aldı Zərnigar xanım:

Deynən görüm, nədi yerin əsası?
Nə üstündə qərar tutub durası?
Neçə ildi yernən göyün arası?
Nədən xəlq etdilər həft asimanı?

Aldı aşıq Valeh:

Bilgilən, balıqdı yerin əsası,
Gav üstündə qərar tutub durası,
Səksən min il yernən göyün arası,
Nurdan xəlq etdilər həft asimanı.

Aldı Zərnigar xanım:

O kim idi, kimdən xof etdi qaçdı?
Neçə il orada xaba uğraşdı?
O kim idi, onlar ilə qarışdı?
Adları nə idi, ismi-bəyanı?

Aldı aşıq Valeh:

Təmlixa padşahdan xof etdi qaçdı,
Yüz səksən il orda xaba uğraşdı,
Qitmir idi onlar ilə qarışdı.
Əshabi-Kəhf idi ismi-bəyanı.

Aldı Zərnigar xanım:

Zərnigarın bilmək olmaz sanını,
O kim idi yumadılar qanını.
Kimdi ki, alacaq özü canını,
O kim idi öldü, dirildi canı?

Aldı aşıq Valeh:

Valehəm, ulduzun bilməzlər sanın,
Şəhid olanların yumazlar qanın,
Əzrail alacaq özü öz canın,
O Cərcisdi öldü, dirildi canı.

Zərnigar baxdı ki, Valeh onun cavabını verir. Öz-özünə dedi: “Mən Zərnigar olam, mənim qıfılbəndlərimin cavabını verələr”. Valeh onun fikrini başa düşüb dedi:

– Xanım, fikirləşmə. Ürəyində nə qədər qıfılbənd varsa, de gəlsin. Mən cavab verməyə hazıram!

Bu sözdən Zərnigarın acığı tutdu, aldı, görək Valehə nə hərbə-zorba gəlir. Valeh ona nə cavab verir:

Aldı Zərnigar:

Qara bağdan dud eləyib gəlmisən,
Aləm bilir mən əlayam, sən nəsən?!
Özün öz əlinlə yıxdın evini,
Haqdan sana bir bəlayam, sən nəsən?!

Aldı Valeh:

Ey nazəninim, şairlər içində
Aləm bilir mən yektayam, sən nəsən!
Qulluq eləmişəm neçə ustada,
Eşq içində dolu payam, sən nəsən?!

Aldı Zərnigar:

Mən səni salaram xaki-turaba,
Sualımdan aciz qaldın cavaba,
Boy vermərəm hər gəştiyə quraba,
Bu vilada mən dəryayam sən nəsən?!

Aldı Valeh:

Sənin tək gözələ al eylərəm mən,
Gətirib özümə mal eylərəm mən,
Dəryanın altından yol eylərəm mən,
Hikmətdə mən ki Musayam, sən nəsən?!

Aldı Zərnigar:

Zərnigaram, səni çəkdirrəm dara,
Başından qoydurram qüllə minara.

Kimin var dərdinə eyləyə çara,
Mən bir belə əhl-sevdayam, sən nəsən?!

Aldı Valeh:

Ustadım Səməddi, sakini-Abdal,
Onu görən kəsin dili olur lal,
Kamalda Hafizə verməzdi macal,
Valeh der: mən o əzayam, sən nəsən?!

Hər ikisi bağlamalarını axıra yetirdilər. Aşıq Valeh Zərnigara dedi:

– İzn ver, indi də mən qabağa düşüm. Beş bağlama sən demisən, bir neçə bağlama da mən deyim, sən aç. Tay, sən qabaqca dediyin bəsdi.

Dərbənd əhli yerbəyerdən dedilər:

– Zərnigar xanım, izn ver, desin. Uzaq ölkədən gəlib, xətrinə dəymə.

Zərnigar camaatın sözünü yerə salmayıb dedi:

– Aşıq Valeh, deyə bilərsən. İzndir.

Aşıq Valeh sazı götürdü, zilini zil, bəmini bəm eləyib, görək bağlama deməyə nə cür başlayır.

Aldı aşıq Valeh:

Səndən xəbər alım, Zərnigar xanım,
Əzəlki mətləbin, kamın necədi?
Nə ilə kamilsən, nə ilə naqis?
Mürdə, zində sərəncamın necədi?

Aldı Zərnigar xanım:

Al verim cavabın, ay aşıq Valeh,
Əzəlki mətləbim, kamım ikidi.
Ədəbli kamildi, biədəb naqis,
Mürdə, zində sərəncamım ikidi.

Aldı aşıq Valeh:

O nədi ki, batinində nazirdi?
O nədi ki, vücudunda hazırdı?
O nədi ki, şəbü zildə zahirdi?
Bundan artıq sənin camın necədi?

Aldı Zərnigar xanım:

Bir Allahdı, batinində nazirdi,
O uşaqdı, vücudumda hazırdı,
Dörd kitabdı, şəbü zildə zahirdi,
Bundan artıq dolu camım ikidi.

Aldı aşıq Valeh:

Valeh deyər: bir əliflə bir qayın,
Necə elər, mənasını siz deyin,
Necə addır, bəyanını söyləyin,
O nədi ki, demək olmaz ikidi?..

Zərnigar aşıq Valeh deyən bu bağlamanın axırıncı bəndinin mənasını aça bilmədi. Sözü güləşdirməyə başladı, dedi:

– Bu bağlamanın mənası dürüst deyil.

Aşıq Valeh dedi:

– Bu həzəratın qabağında mən özüm açaram. Keyfin istərsə tay da deyərəm.

Zərnigar razı oldu, dedi:

– Özün aç, razıyam.

Aşıq Valeh öz bağlamasının qabağını özü deməyə başladı.

Aldı aşıq Valeh:

Valeh əbcəd hesabını yad elər,
Belə mənaları tez savad elər,
Bir əlif, bir qayın min bir ad elər,
Ancaq ona demək olmaz ikidi.

Aşıq Valeh sözü qurtardı. Zərnigar özünü bağlanmış hesab eləyib, sazını qoydu Valehin qabağına. Valeh əzəl başdan otuz doqquz aşığı azad elədi. Sonra gülüb dedi:

– İndi sözün nədi? Əhdinə əməl edirsən, yoxsa yox?

Zərnigar dedi:

– Razıyam. Sözüm sözdü.

Buradaca bir molla çağırıb, kəbinlərini kəsdilər. Aşıq Valeh bir müddət burada qaldı. Sonra bir kəcavə qoşdurdu. Dərbənd əhli ilə xudahafizləşdilər. Gecəni gündüzə qatdılar, gündüzü gecəyə qatdılar, gəlib

Məsum əfəndinin evinə yetişdilər. Bir neçə gün burada qalandan sonra Məsum əfəndidən izn alıb, Xətayi xanımı da götürdülər, mənzilbəmənzil, teyyi-mənazil, gəlib, Qarabağ elində Avdal Gülablı kəndinə çatdılar. Valeh böyük bir məclis düzəldib, qonaqlıq elədi, camaatı, məmə yeyəndən pəpə deyənə yığıb, qırx gün, qırx gecə toy elətdirdi, şənlik keçirdi.

Camaat boğaza qədər yeyib içdi, mübarəkbadlıq edib, evlərinə dağıldılar. Aşıq Valeh də bu gözəllərlə eyş-işrətə məşğul olub, ömür sürməyə, dövran keçirməyə başladı.

Ustadlar aşıq Valehin toyunu bu duvaqqapma ilə qurtardılar:

Həzərat, bircə baxın,
Görün necə yar oynuyur.
Naz edir, süzür gedir,
Sevdiyim aşikar oynuyur.
Tazə can, qəmzəsi qan,
Ağ sinəsi qar oynuyur.
Al yanax, büllur buxaq,
Məmələri nar oynuyur.
Əl vurun, cərgə durun,
Balaca dilbər oynuyur.

Mərdana, bu meydana
Əcəb açıb qollarını,
Habelə sığmaz dilə,
Vəsf eləsəm dillərini,
Qaz ayaq, durna sayaq
Xoş oynadır əllərini.
Yan çəkə, səkə-səkə
Burub gedir bellərini,
Afərin, səd afərin,
Necə hamavar oynuyur.

Bu sona, əcəb həna,
Gör nə yaxıb əllərinə,
Mərdana, dar gərdana
Nəxşi düzüb tellərinə.
Nə nazik, zər bilərzik
Bağlayıbdı qollarına.

Bu qəmər, gümüş kəmər
Qurşuyubdu bellərinə.
Buxağa, ay qabağa
Düzübdü illər, oynuyur.

Əl çalın, bir səs salın,
Bu baxtavar gəlsin coşa,
Gəl yaxın, bircə baxın
Ağ üzünə, qələm qaşa,
Mən mail, oldum zail,
Eşq atəşi vurdu başa,
Binəva, çəkər cəfa,
Olmaz səfa, bu tamaşa,
Əlaman, Allah, aman.
Cəlladi-xunxar oynuyur.

Gəl görək, keçdi ürək,
Kəhlik cürə səkib əyri.
Can canı, xublar xanı,
Sevdim səni, dil əzbəri.
Aç üzün, çıxsın gözün,
Bir bəri bax, a müştəri.
Bu dünyada, üqbada
Yoxdur bunun bərabəri.
Əlqissə, rüxsari-gül,
Gözləri xumar oynuyur.

Sərraflar qiymət qoyar,
Hər adama yüz min manat.
Şiyvədə, bu qəmzədə,
Kimdə olar qədd-qamət,
Əl hissə və əl qissə,
Ay həzərat, ay camaat,
Bu gülmək, bu oynamaq,
Bu tamaşa, bu qiyamat,
Əlbəttə bu məclisdə
Molla Cümə var, oynuyur.

# QEYDLƏR

## AŞIQ QƏRİB

Aşıq Qərib qədim və çoxvariantlı dastanlardandır. Bu dastan Orta Asiya, Gürcüstan, Türkiyə və İranda geniş yayılmış və şöhrət qazanmışdır. "Aşıq Qərib" dastanının süjeti əsasında böyük rus şairi Lermontov eyni adlı əsərini yazmışdır. Bundan sonra, 1892-ci ildə dastanın bir variantının şeirləri Tiflisdə nəşr edilən "Сборник материалов для описания местностей и племен Кавказа" ("СМОМПК") adlı məcmuədə verilmişdir.

Bu kitabda gedən variant 1939-cu ildə Laçın rayonun Əhmədli kəndində yaşayan Aşıq Məşədi Dadaşdan toplanmışdır. Dastanın başqa bir variantı da 1962-ci ildə Əhliman Axundov tərəfindən toplanıb tərtib edilmiş "Azərbaycan xalq dastanları" kitabında verilmişdir.

1. Adanada nəşr edilmiş "Haqiqi aşıq Qarip" dastanında bu şerin iki bəndi belədir:

Qadir haqtan dilek diledim,
Verdi muradımı tanrım benim.
Diledigim dilek haqa yaradı,
Önüme çıqardı namazgah benim.

Genc yaşımda gördüm dünya qamını,
Felegin her türlü esbabı-cefasını,
Ahı yüzlüm sundu aşqın camını,
Göründü gözüme doğru ruh benim.

"СМОМПК" məcmuəsində bu şerin iki bəndi belədir:

Qətrədim-qətrədim, aha yetirdim,
Özümü bir yüzü maha yetirdim,
Bir ərizə yazdım, şaha gətirdim,
Ərizəmə qol çəkdi gözəl şah mənim.

Ərənlər Qəribə əta verdilər,
Dolu doldurub, tuta verdilər,
Şahsənəmi ona buta verdilər,
Tiflis oldu doğru rah mənim.

1956-cı ildə Bolqarıstanın mərkəzi Sofyada nəşr edilmiş "Aşıq Qarip" kitabında bu şerin iki bəndi belədir:

Ben dilek diledim, mevlam yattı,
Muhabbet gülümü verdi ah benim!
Genc yaşımda gördüm dünya malını...
Sundular yarımın qırqlar camını...

Diz çöküb di geldim ustad önüne,
Kimseler öksüzün baqmaz halıne,
Könül quş qondurdu yarın gülüne,
Ötmekdedir feryadü zarım, ah, benim.

2. Bu şerin Qazax və Tovuzdan toplanmış variantında iki bənd belədir:

Bülbül həsrət çəkər, meyli güldədir,
Siyah zülfləri sağda, ya soldadır,
Sevgim həsrət çəkər, gözü yoldadır,
Ana, mən Tiflisə getməli oldum.

Göy örtübən üstdən qara bağlaram,
Sinəm başın düyünləyib dağlaram,
Qərib der: Şahsənəm deyib ağlaram,
Ana, mən Tiflisə getməli oldum.

“СМОМПК” məcmuəsində bu şeir belə getmişdir:

Səninlə mən edərəm məhəbbət sazı,
Dilərəm duadan, unutma bizi.
Tiflisdə görmüşəm bir alagözü,
Ana, mən Tiflisə varmalı oldum.

Rəqiblər var sağda və solda,
Sevdiyimin gözü qalıbdır yolda;
Necə aparım səni bu sovuqda?
Ana, mən Tiflisə varmalı oldum.

Qərib deyərlər mənim adıma,
Yetməmişəm əsla mən muradıma,
Şahsənəm düşübdü indi yadıma,
Ana, mən Tiflisə varmalı oldum.

1332-ci ildə (hicri) İstanbulda nəşr edilmiş “Aşiq Qarip” dastanında bu şerin bir bəndi belədir:

Atəşimə dağlar, daşlar dayanmaz,
Dərdim çoxdur benim, kimsələr bilmez,
Şimdan geri bu yer bizə əl verməz,
Nənə, bən Tiflisə varmalı oldum.

Sofya variantında bu şerin bir bəndi belədir:

Beni köle eyledi bir peri qızı,
Perinin aşqi ile çalarım sazı,
Qayri duandan unutma bizi
Ben Tiflise varmalı oldum.

Yenə həmin variantda şerin iki bəndi belədir:

Başına döndügüm gül yüzlü Senem,
Nine, ben Tiflise varmalı oldum.
Bir cavanın aşqı düştü serime,
Nine, ben Tiflise varmalı oldum.

Tifliste, gördüm bir ela gözlü qız,
Şimdi odur yatan qalbimde yalnız,
Ana, ben duramam burda Senemsiz
Nine, ben Tiflise varmalı oldum.

3. Sofya variantında bu şeir belədir:

Bir qız gördüm ben dün gecə,
Ana, Tiflis diyarında.
Eşi yoqtur onun bence,
Ana, Tiflis diyarında.

Erenler gösterdi onu,
Tutmalıyım ben yolunu,
Qovuşmaqtır bunun sonu,
Ana, Tiflis diyarında.

Aşqı yaqar beni her dem,
Ölsem ondan vaz keçemem,
Beni bekler gözel Senem,
Ana, Tiflis diyarında.

4. 1935-ci ildə Səlman Mümtaz tərəfindən nəşrə hazırlanmış "El şairləri" kitabının II cildində bu şeir belədir:

Gəlmiş ikən sizdən xəbər alayım,
Dediyiniz Tiflis şəhri budumu?
Ərinə, pirinə qurban olayım,
Dediyiniz Tiflis şəhri budumu?

Narınc munda, mürünc munda, nar munda,
Namus munda, qeyrət munda, ar munda.
Xoca Bəhrəm, bir qohumum var munda,
Dediyiniz Tiflis şəhri budumu?

Aşıq olan əldə içər hey tası,
Qızılgülün var yanında butası,
Xoca Bəhrəm – Şahsənəmin atası,
Dediyiniz Tiflis şəhri budumu?

Bu şerin "СМОМПК" məcmuəsində nəşr edilmiş variantı belədir:

Axtara-axtara gəlib tapmışam,
Şəhri-Tiflis dedicəyim budurmu?
Gələndən, gedəndən xəbər bilmişəm,
Şəhri-Tiflis dedicəyim budurmu?

Bəncə bunda, heyva bunda, nar bunda,
Namus bunda, qeyrət bunda, ar bunda,
Bəhram deyən bir qohum var bunda,
Şəhri-Tiflis dedicəyim budurmu?

Qərib deyərlər adıma,
Yetməmişəm mən muradıma,
Şahsənəm düşüb yadıma,
Şəhri-Tiflis dedicəyim budurmu?

5. İstanbul variantında bu şerin 4, 5-ci bəndləri belədir:

Gözeller, bağlanır qara peçeyi,
Kimse bilmez bu bilmeceyi.
Qarip-qarip hıçqırır sevdiceyi,
Hoca, ben bilirim halı Tebrizin.

Pirler dolusun içdim söylerim,
Enib aşqın deryasını boylarım,
Aşıq Qaribin medhin eylerim,
Benim şimdi Rüstem-Zalı Tebrizin.

Respublika Əlyazmaları Fondunda mühafizə edilən V-1251 №-li cüngdə olan variantda bu şeir belədir:

Ay ağalar, gəlin sizə söyləyim,
Külli cəvahirdir malı Təbrizin.
Gözəlləri geyər toyda, bayramda,
Yaşıl zərbabı, alı Təbrizin.

Gözəlləri tamam tərsa becədir,
Heç hesaba gəlməz, bilməm necədir,
Səksən min məhlədir, doxsan min küçədir,
Çarsısı, bazarı, eli Təbrizin.

Aşıq olan deyər beş xana bəndi,
Heç hesaba gəlməz məscidi, kəndi,
Hindustandan gələr şəkəri, qəndi,
Gürcüstandan gələr balı Təbrizin.

Başına qoyub buxara börkü,
Çiyninə salıb zənburdan kürkü,
Aşıq Qərib deyər beş xana türkü,
Xocam, siz bilirsiz halı Təbrizin.

Bu şerin 1944-cü ildə Laçında Aşıq Məşədi Dadaşdan toplanmış bir variantı belədir:

Şahım, Təbriz dediyin buca-bucadı,
Sanamadım sarayları neçədi?
Səksən min məhlə, doqsan min küçədi,
Küçəsi, dükanı, eli Təbrizin.

Təbriz gözəlləri qəsridən baxar,
Keçən cavanları odlara yaxar,
Cümədən cüməyə seyrana çıxar,
Al geyinər gözəlləri Təbrizin.

Pəhlivanlar kisbənd geyər bağlanır,
Gələn bəzirganlar orda saxlanır,
Gündə üç yüz atmış altı yükü bağlanır,
Gedər al-Osmana malı Təbrizin.

Düyüsü Gilandan əkilir, gəlir,
Qoyunu Muğandan sökülür, gəlir,
Hindustandan tökülür gəlir
Darçını, mixəyi, hili Təbrizin.

Gözəllər seyrana çıxarlar bağa,
Sərinə sancallar əbrişin cığa,
Doxsan min pətəyi çıxar yaylağa,
Gəlir çöl mişoydan balı Təbrizin.

Aşıq Qərib ərzin sənə eyləsin,
Hər dəftərdən sənə bəyan eyləsin,
Dili tutmur bundan artıq söyləsin,
Əzzim, çoxdu vəsfi-halı Təbrizin.

Sofya variantında bu şerin iki bəndi belədir:

Üç yüz altmış yükü birden bağlanır,
Karvanı seherde qalqıp yollanır,
Qumaşı tezgahta iken peylenir,
Elden ele gezer malı Tebrizin.

İpligi ta Hintten bükülür gelir,
Buğdayı pirinci ekilir gelir,
Qoyunu Muğandan çekilir gelir,
Gürcüstandan gelir balı Tebrizin.

6. Adana variantında bu şerin 3 bəndi belədir:

Bir söz ile tuzağa tutuldum,
Qarip illerde yaqtı yar beni,
Hasretin narina yandim, kül oldum,
Ne haldeyim, ahu gözlüm, gör beni.

Ne sabırda taqat qaldi, ne dilde qarar,
Könül Məcnun olmuş, Leylasını arar,
Vaz keçemem, seni yaban eller sarar,
Qara gözlüm, ne haldeyim, gör beni.

Gördüm yarı, oldum divane,
Geldim ki, dünya bir misafirhane,
Aşıq Qarip mum dibinde pervane,
Qara gözlüm, ne haldeyim, gör beni.

7. Bu şerin Gürcüstan arxivlərində mühafizə edilən bir variantı belədir:

Bu gələn bir cüt sonaya,
Mən hansına qurban olum, heyran mən olum?!
Geyinmiş başdan ayağa,
Mən hansına qurban olum, heyran mən olum?!

Mineydim.......... tənginə,
Baxeydim hüsnün rənginə,
Düşdüm üç gözəl cənginə,
Mən hansına qurban olum, heyran mən olum?!

Göydə göyərçin saz eylər,
Yerdə qumru pərvaz eylər,
Üç gözəl bizə naz eylər,
Mən hansına qurban olum, heyran mən olum?!

Qərib deyər: hanı yarım,
Ərşə çıxma, ahu zarım,
Bu gələn vəfalı yarım,
Mən hansına qurban olum, heyran mən olum?!*

Qazax və Borçalıdan toplanmış variantda bu qoşmanın üçüncü bəndi belədir:

İkisi yad isə, biri qohumdu,
Birisi də kəsilməmiş qovundu,
Üçündən birisi, Qərib, ovundu,
Üç gözəlin birisinə mən qurban.

8. "СМОМПК" məcmuəsində nəşr edilmiş variantda bu şeir belədir:

Pəncərədən ayıl-mayıl baxan yar,
Apardın ağlımı başdan elədin,
Şirin canımı eşq oduna yaxan yar,
Alışdırdın məni, cismi ataşdan elədin.

Boynuna taxmış heykəl bağını,
Mən əməm dilini, həm dodağını,
Bulud kimi kəsmiş ay qabağını,
Sevdiyim hörümçəyi saçdan elədin.

Qərib, gülünü dəstə-dəstə dərmişlər,
Dəribən sinə üstə sərmişlər.
Əcəb vaxtda ixtilata gəlmişlər,
Ayırdın çörəkdən, aşdan elədin.

9. Bu şerin "СМОМПК" məcmuəsində nəşr edilmiş variantı belədir:

Dinləyin, ağalar, tərif eləyim,
Söylənir cahanda şanı Ərzrumun.
Yeddi iqlim arasında tayı tapılmaz,
Söylənir cahanda şanı Ərzrumun.

Xoşdur qayətdə abi-havası,
Dörd yanından gəlir bülbül sədası,
Vardır ərənlərin onda duası,
Bənzər cənnətə hər yanı Ərzrumun.

---

* D.Əliyevanın "Azərbaycan-gürcü ədəbi əlaqələri tarixindən" adlı kitabından götürülmüşdür (səh.162).

Mən Qəribəm, gəlmişəm bu vətəndə,
Qəriblik yaman olur baş yastığa yetəndə,
Yaxşı olur qərib bülbül ötəndə,
Gül-gülzardır hər yanı Ərzurumun.

10. Qazaxdan toplanmış variantda bu şerin 1, 2-ci bəndləri belədir:

Dərya kənarında balıq tutanlar,
Göründü gözümə maya qaşların;
Dəryanı, qaranı qapladı şövqün,
Bənzərdi üç günlük aya qaşların.

Hüsnün cahana vurubdu tuqi,
Yaz gəlincə artar bülbülün zövqi,
Çaqdı dərunumu camalın şövqi,
Əqlimi uğratdı zaya qaşların.

İstanbul variantında bu şerin iki bəndi belədir:

Dərya kənarında səmək tutarkən
Göründü gözümə maya qaşların.
Dəryayı qarayı qıldı şövqün,
Bənzər üç günlük aya qaşların.

Hüsnün cahana verdi şövqü,
Yaz gəlincə artar bülbülün zövqü,
Yaxdı dərunumu cəmalın şövqü,
Ağlımı uğratdı zaya qaşların.

Adana variantında bu şeir belədir:

Havuzun başında hayal qurarken,
Göründü gözüme qara qaşların.
Deryayı qarayı tutunca şarqın,
Benziyor üç günlük aya cemalın.

Hüsnünle cihana şevq veren sensin,
Baharda bülbülün şevqini artıran sensin,
Degdi yüregime zehirli oqu,
Benzer bir qurulu yaya qaşların.

Qaşların qalemdir, gözlerin hece,
Baqışın gülüstan, benlerin nice,
Sevindir Qaribi barı bir gece,
Vermez mi düşgüne paye vücudun.

11. Bu şerin Göyçədən toplanmış variantı belədir:

Səhər-səhər çıxdın çəmən gəştinə,
Sənsən Sənəmlərin ağı, Ağcaqız!
Mən ki, elə səni Sənəm bilirdim,
Sənsən Sənəmlərdən yağı, Ağcaqız!

Bağında bitən heyvadı, nardı,
Bizi xəlq eyləyən pərvərdigardı,
Gəzmə belə, burda naməhrəm vardı,
Açılıb köysünün bağı, Ağcaqız!

Aşıq Qərib badələrin içəndə,
Canından, başından onda keçəndə,
Şahsənəmlə sərxoş olub çökəndə,
Sənsən o məclisdə saqi, Ağcaqız!

Aşıq Qərib badələrin içəndə,
Canından, başından onda keçəndə,
Şahsənəmlə sərxoş olub çökəndə,
Sənsən o məclisdə saqi, Ağcaqız!

Bu şeir həm də "El şairləri" kitabında getmişdir.
Qazax və Borçalıdan toplanmış variantda bu qoşmanın 1-ci bəndi belədir:

Səni gördüm, oldu ağlım pərişan,
Əridi ürəyimin yağı, Ağcaqız!
Mən öz muradımı aldığım zaman
Tanımazsan solu-sağı, Ağcaqız!

12. Türkmən "Şasenem-Qarip" dastanında bu şerin variantı belədir:

Boz dumanlı dağlar aşıp,
Ahu gözli maral geldi;
Işqın sevdasına düşüp,
Ahu gözli maral geldi.

Avçılar avlarlar avı,
Yanında çağmağı, qovı,
Başda gelen serdarını,
Tutğıl, avçı, maral geldi.

Avçılar avlar dağında,
Balı şeker dodağında,
Günin günorta çağında,
Gözel avçı, maral geldi.

Senem bilen akca gelin,
Dilin yürecigim dilin,
Şidde guşan ince belin,
Senem avçı, maral geldi.

Talandı ömrim, talandı,
Çığ düşdi baqca suvlandı,
Çarbağı üç-dörd aylandı,
Zalım avçı, maral geldi.

Halları vardır lebinde,
Seni gören ğalar derde,
Dal dolanın duran yerde,
Senem avçı, maral geldi.

Egnine geyipdir ala,
Biri gülgün, biri lele,
Ağ qolların sala-sala,
Senem avçı, maral geldi.

Ğadamları göz üstine,
Qurbanam çeşmi mestine,
Mirevvet eylər dostuna,
Senem avçı, maral geldi.

Qarıp aşıq diymez yalan,
Ömrimize salma talan,
Servi ağacına dolan,
Senem avçı, maral geldi.

"СМОМПК" məcmuəsində bu şeir belə getmişdir:

Uca dağlar başından,
Avçı, avçı, maral gəldi, dur!
On dörd, on beş yaşında,
Avçı, avçı, maral gəldi, dur!

Dolan sərv ağacı, dolan,
Yoxdur sözümdə yalan,
Ala gözlü canımı alan,
Avçı, avçı, maral gəldi, dur!

Ağca qız bilir fəndini,
Aç sinəmin bəndini,
Əmə Sənəm dodaqlarım qəndini
Avçı, avçı, maral gəldi, dur!

İstanbul variantında bu şerin 4-cü bəndi belədir:

Hovuz başında oturur,
Dəstiyi suya batırır,
Görüncə ağlın şaşırır,
Uyan, avçı, avın gəldi.

13. İstanbul variantında bu şeir belədir:

Hə hikmət, bən heyrətdə qalmışam,
Yar yanıma gəlmiş, necə duymadım?!
Bir əcaib qəflətlərə dalmışam,
Yar yanıma gəlmiş, necə duymadım?!

Anın üçün bənim burda qaldığım,
Ayıblama bənim məcnun olduğum,
Bir sevdadır düşdü qərib başıma,
Yar yanıma gəlmiş, necə duymadım?!

Qərib edər: dərdə çara bulaydım,
Yar ilə bən tənhaca qalaydım,
Əhd-imanımı icra qılaydım,
Yar yanıma gəlmiş, necə duymadım?!

14. Bu şerin "СМОМПК" məcmuəsində nəşr edilmiş variantı belədir:

Bir bəri bax, yüzün görəyim,
Gedəm, yar əglənəm, bəlkə gəlmiyəm.
Urum diyarında səndən gözəli
Sevəm, yar, əylənəm, bəlkə gəlmiyəm.

Yaxşı olur hər igidin vətəni,
Qınamazlar dost kuyindən ötəni,
Qızılgül yerinə qara tikanı,
Qucam, yar, əylənəm, bəlkə gəlmiyəm.

Qəza atdı mən Qəribin daşını,
Gözlərim axıtdı qanlı yaşını,
Əcəl yastığına qoyum başımı,
Öləm, yar, əylənəm, bəlkə gəlmiyəm.

Azərbaycan EA Respublika Əlyazmaları Fondunda mühafizə edilən B-1251 №-li cüngdə olan variantda bu şeir belədir:

Qalxdı, köç eylədi könül karvanı,
Varam da, əylənəm, bəlkə gəlməyəm.
Urum diyarında dəli dövranı
Sürəm də, əylənəm, bəlkə gəlməyəm.

Səni sevdim ol payızın bəhrində,
Üzün gördüm qızıl gülün təhrində,
Varid barı ol Hələbin şəhrində,
Qalam da, əylənəm, bəlkə gəlməyəm.

Dön bəri, dön bəri, üzün görəyim,
Siyah zülfün mah üzünə hörəyim,
Bir əmanətim var, sənə verəyim,
Öləm də, əylənəm, bəlkə gəlməyəm.

Heç sevməzlər qəriblikdə itəni,
Hər kişiyə Bağdad imiş vətəni,
Qızılgül yerinə qara tikanı
Qucam da, əylənəm, bəlkə gəlməyəm.

Havaya uçurdum könül quşunu,
Movlam məni anar, gəl onun işini,
Əcəl yastığına mən də başımı
Qoyam da, əylənəm, bəlkə gəlməyəm.

Quba qazlar təki boynun uzat, say,
Yavrı sona təki üzün düzəlt, say,
Yeddi il Qəribin yolun gözət, say,
Gedəm də, əylənəm, bəlkə gəlməyəm.

İstanbul variantında bu şerin 5 bəndi belədir:
Aldı Qərib:

Qurbanın olduğum, gözəl yüzlü Sənəm,
Gedəm, yar, əglənəm, bəlkə gəlməyəm.
Bu ayrılıq bizə haqdan deyilmi?
Gedəm, yar, əglənəm, bəlkə gəlməyəm.

Aldı Sənəm:

Dəgmə, yigitlərdə olmaz həqiqət,
Var, Qəribim, sağlıq ilə gələsin.
Vardır, bilirəm, səndə məhəbbət,
Var, Qəribim, sağlıq ilə gələsin.

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Güc gəlincə bağlar tökər ğəzəli;
Bən Rum diyarında səndən gözəli
Saram, dost, əglənəm, bəlkə gəlməyəm.

Aldı Sənəm:

Qərib, bu sözlərin haqqa yaramaz,
Sözündə durmayan yigit olamaz,
Eldə gözəl çoxdur, sana yaramaz,
Var, Qəribim, sağlıq ilə gələsin.

Aldı Qərib:

Qərib edər: bənim halım yamandır,
Yuca dağlar başı tozdur, dumandır,
Bu ayrılıq bizə xeyli zamandır,
Gedəm, dost, əglənəm, bəlkə gəlməyəm.

15. Bu şerin "СМОМПК" məcmuəsində nəşr edilmiş variantı belədir:

Başına döndüyüm, qurban olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən!
Oduna yandığım, biryan olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən!

Qərib olan ellərdə qalar,
Maral sərxoş olsa, çöllərdə qalar,
Sən gedirsən, gözüm yollarda qalar,
Get, Qəribim, sağlıq ilə gələsən!

Şahsənəməm, belə yazlaram,
Kabab kimi bağrım başın duzlaram,
Ölənədək yolunu gözlərəm,
Get, Qəribim, sağlıq ilə gələsən!

Sofya variantında bu şerin birinci bəndi belədir:

Qurbanın olduğum, gün yüzlü Senem,
Gidersem gelmiyem, belki eglenem.
Bu ayrılıq bize haqtan degilmi?
Gidersem gelmiyem, belki eglenem.

Türkmən variantında bu şerin 4 bəndi belədir:

İndi köç eyledi kövün kervəni,
Göcende eglenem, belki gelmenem.
Menden ğayrı bilen sürgin dövranı,
Sürende eglenem, belki gelmenem.

Qarıpların bolmaz belli vatanı,
Edemezler qarıplıqda yatanı,
Qızıl gülin degresinde biteni,
Tirende eglenem, belki gelmenem.

Bu nə avı erdı qoşdın aşıma,
Sən seversen gözden aqan yaşıma,
Acal yastığını qoyup başıma,
Yatanda eglenem, belki gelmenem.

Bilmeyin ezimi saldım bu derde,
Hemra bolup senin deyin namarda,
Yar, yar diyip, gezer idim hər yerde,
Gezende eglenem, belki gelmenem.

16. İstanbul variantında bu deyişmənin 4 bəndi belədir:
Aldı Qərib:

Qurbanın ollam, aman, hey nənə,
Gedim qürbət ilən gəzim bir zaman.
Bir gözəlin sevdası var başımda,
Gedim qürbət ilən gəzim bir zaman.

Aldı validəsi (anası):

Sən yürəgim doldurdun bənim,
Qürbətə getməklə ağlatdın bizi
Ağlımı başımdan aldırdın bənim,
Qürbətə getməklə ağlatdın bizi.

Aldı Qərib:

Canım ana, lütf et, ağlatma bəni,
Eylədim haqqa əmanət bən səni,
Çağırın gəlsin ani də görəyim,
Qız qarındaşım gözüm nuri qəni.

Aldı validəsi:

Sana edəm, o qəm bulsun xudadan,
Qərib, validənin bağrı xun oldu.
Bir az bəklə, o qəm həmşirən gələ,
Anın da gözləri qan ilə doldu.

“CMOMПK” variantında bu şerin 4 bəndi belədir:
Aldı Qərib:

Başına döndüyüm, gülüzlü ana,
Gedim, qürbət eli gəzim bir zaman.
Bir gözəlin sevdası var başımda,
Gedim, qürbət eli gəzim bir zaman.

Aldı Qəribin anası:

Oğul, yürəgimi deşdin mənim,
Qürbətə getməklə ağlatma məni.
Ağlımı başdan elədin,
Qürbətə getməklə ağlatma məni.

Aldı Qərib:

Rəhm elə, ana, qoy gedim məni,
Eylədim haqqa amanat səni,
Bacım Şəhrəbanı bəs hanı,
Gedim, Qürbət eli gəzim bir zaman.

Aldı Qəribin anası:

Oğul, mərhəmət sana xudadan gələ,
Ayrılığın qəmi ürəyim dələ,
Bir az gözlə, həmşirən gələ,
Qürbətə getməklə ağlatma məni.

17. “CMOMПK” məcmuəsində bu şerin 6 bəndi belədir:
Aldı Qərib:

Başına döndüyüm, gülüzlü Xoca,
Canım Xoca, harda gördün Sənəmi?
Nə gündüzüm gündüz, nə gecəm gecə?
Aman Xoca, harda gördün Sənəmi?

Aldı Xoca Əhməd:

Axtara-axtara gəlib tapmışam,
Dur ayağa, vətən sarı sən yeri.
Könül tikmişəm, Kəbə yapmışam,
Dur ayağa, vətən sarı sən yeri.

Aldı Qərib:

Bu sinəmdə dürlü-dürlü yaralar,
Təbib əl vurmasa dərdə nə çaralar?!
Sevdiyim qırmızı geymiş, yoxsa qaralar?
Aman Xoca, harda gördün Sənəmi?

Aldı Xoca Əhməd:

Qayıb etmiş səni ararlar,
Ölmüş sanıb hər gələndən sorarlar,
Anan, bacın, Sənəm geymiş qaralar,
Dur ayağa, vətən sarı sən yeri.

Aldı Qərib:

Necə girdin Tiflis bağına,
Baxdınmı heç solu sağına?
İndi Qərib gedər dostun yoluna,
Aman Xoca, harda gördün Sənəmi?

Aldı Xoca Əhməd:

Xoca Əhmədəm, girməmişəm Tiflis bağına,
Baxmamışam orda solu sağına,
Kor olmuş anan ağlamaqdan oğluna,
Dur ayağa, vətən sarı sən yeri.

18. Bu şerin Qazaxdan toplanmış variantında 1, 2-ci bəndləri belədir:

Arzulayıb çıxdım diyar-qürbətə,
Ağlaram, sızlaram, kimsəm yox mənim.
Mən yazıcaq düşdüm eldən ellərə,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Gənc yaşımda tərk eylədim vətənim,
Çox-çox zəif oldu mənim bu tənim,
İndi belə olmuş qərib məskənim,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

19. Bu şerin türkmən variantı belədir:

Halapdan munda gelmişem,
Ene, men Qarıbam, Qarıp!
Terki vatan eylemişem,
Ene, men Qarıbam, Qarıp!

Men çekdim köp ahı-zarı,
Canım aldı derdin dağı,
Qarıp ussat, men şegirdi,
Ene, men Qarıbam, Qarıp!

Raqiplara qayıl bolma,
Qarıp diysem mayıl bolma,
Onın üçin sayıl bolma,
Ene, men Qarıbam, Qarıp!

Dili bağlıyem dünyəde,
Sever yarım gitdi yada,
Şahimerdan yetip dada,
Ene, men Qarıbam, Qarıp!

Biz hem çekdik cebru-cepa,
Hiç kimden görmedik vepa,
Gözlerine verem şefa,
Ene, men Qarıbam, Qarıp!

Al çiçek geyinmiş dağlar,
Şükufte açılmış bağlar.
Dilim sayrar, diydem ağlar,
Ene, men Qarıbam, Qarıp!

Qarıp Qara dağdan aşıp,
Sınasına çoh dert qoşup,
Gül yüzine perde düşüp,
Ene, men Qarıbam, Qarıp!

Qarıp aşiq içib camı,
Gezdi Halap, Rumi, Şamı.
Geldi alar Şasenemi,
Ene, men Qarıbam, Qarıp!

20. Sofya və İstanbul variantlarında bu şeir belədir:

Dün gece, dostlar, Halep şehrinde
Aşqın dolusunu içtim de geldim.
Malı-melalı verib yoluna,
Serimden, canımdan keçdim de geldim.

Erzurumda oldum eyle biqerar,
Nesib oldu Qarsta ilkindi bana,
Tiflistə o aqşam eyledim dua,
Hızırın atına bindim de geldim.

Aqşam namazında geldim haneme (xanama)
Duyurmadım sirrim bacım, anneme,
Aşqın hancerini vurdum sineme,
Türlü yaralarım açtım da geldim.

Hep ağalar, begler bana gülüştü,
Diyarü qurbette cigerim pişti,
Hızır benim imdadıma irişdi,
Hızırın atına bindim de geldim.

Eger saçı Leyla beni ararsa,
Tel-tel edip zülflerin dararsa,
Ağalar doğrusun bena sorarsa,
Erzurum dağların aştım da geldim.

Erenlerin eli beni tutmuşlar,
Eşler dostlar hep beni unutmuşlar,
Eşitdim Senemi gelin etmişlər,
Dügüne Halebtə şaştım da geldim.

Qurban olayım ben yarın huyuna,
Canım feda olsun qaşın yayına,
Bu alemde senin servi boyuna,
Türlü libaslar biçtim de geldim.

"СМОМПК" variantında bu şeir belədir:

Dün gecə Hələb şəhrində
Misir piyaləsin içdim də gəldim.
Yeridim, yetişdim bir şəhsüvara,
Onun peşvazına düşdüm də gəldim.

Dalımı verdim bir daş qalaya,
Qədir Allah əcəb yetdi haraya,
Fərat çayı düşdü araya,
Qır atın tərkinə mindim də gəldim.

Ərzurumda qıldım günortanı,
Əda eylədim Qarsda ikindini,
Tiflisdə qıldım axşam namazını,
Xizr atına mindim də gəldim.

Axşam qaralmamış gəldim xanama,
Duyurmadım sirrim anam, bacıma,
Eşq xəncərini urdum sinəmə,
Dürlü yaralarım açdım da gəldim.

Ərənlərin əli məni tutmuşlar,
Aşnalar, dostlar məni unutmuşlar,
Eşitdim Sənəmi gəlin etmişlər,
Toyun Hələbdə duydum da gəldim.

Bir əl vurun, aşıq girsin oyuna,
Mən qurbanam qamətinə, boyuna,
Mən Qəribəm, gəlmişəm Şahsənəmin toyuna,
Canımdan, başımdan keçdim də gəldim.

Bu şerin türkmən variantı belədir:

Ağalar, dün gecə Halap şəhrinden,
Muhapbet şerabın içdim de geldim,
Ayıp eylemən begler, munda geldi diyip,
Bir yar sövdasına düşdim de geldim.

Halapdan çıqmışam namazı erte,
Kerbela çölündən keçdim günorta,
Belentdə yükürip, pes yerde yorta
Köp beyik dağlardan aşdım da geldim.

Gün ortanlar geldim guyulı düze,
Öyle vaqtı geldim Soltan Tevrize,
Ağşam şam berdiler Diyarda bize,
Beyik-beyik dağlar aşdım da geldim.

Elimi vermişim merdan eline,
Sıçrayıb minmişem düldül biline,
Arasın mövc uran daşğın sılına,
Hızır necat berdi, uçdım da geldim.

Ağşam çağı geldim bendi hanıma,
Sırımı bermedim bacım eneme,
Işğın hancarını çekib sınama,
Başımdan, canımdan keçdim de geldim.

Yüzini oqşatdım bahram ayına,
Qaşını menzetdim keman yayına,
Batıp erdim melamatın layına,
Dərya kibi dolup daşdım da geldim.

Atımı bağladım nar ağacına,
Bir kement taşladım dar ağacına,
Qurban bolsın başım yar ağacına,
Töhmet bilen sından qaçdım da geldim.

Egilsin, bükülsin raqıbın bili,
Dünyəde gör bolsın görmesin gezi,
Qara bolsın iki dünyəde yüzi,
Işğın belasından çaşdım da geldim.

Qurban olam yarın qaldı boyına
Sazımı alıban girdim eyine,
Qarıp aşıq Şasenemin toyına,
Movlam qanat berdi, uçdım da geldim.

21. İstanbul və Sofya variantlarında bu şeir belədir:

Qurbanın olayım, aman, yar, Senem!
Nazlı-nazlı gel qarşımda dur, Senem!
Bir-bir libasların tarif edeyim,
Geyin, qurşan, ver könlüme nur, Senem!

Senem, ben sana eylerim dileyi,
Bine aldım şu bürümcek kömleyi,
Yedi yüze aldım şu şal yeleyi,
Servi boya layıq oldu, gey, Senem?

Beş binedir astarile şalvarı,
On binedir şu mücevher kemeri.
Üç binedir fesi ile çenberi,
İncileri dizdirmişem, gey, Senem!

Binedir Halebin çiçeklisi,
Şamın beş yüzedir qotnusu,
Dört binedir Hindin zehurisi,
Sana bunlar yaqışır, gey, Senem!

Ben görmedim senin gibi nazlı,
Beş binedir işbu göhər yüzügü,
Üç binedir qolunun bilerzigi,
Ağ qollara yaqışır taq, Senem!

Xoş olur Tiflisin alması,
Yüz quruşdur saçının hörmesi,
Yar, sana getirdim Halep hanası,
Ağ ellere yaqışır, yaq, Senem!

Senem, getirmişem belin quşağı,
Bin quruşa feraca ile yaşmağı,
Üç yüzedir ağ topuğun başmağı,
Gözel vücuduna yaqışır, gey, Senem!

Pek hoş olur qürbet eli gezmesi,
Şeker ile badamının ezmesi,
İki yüze ayağının cızması,
Ağ topuğa oldu seza, gey, Senem!

Seni bana verdi cenabi-qeni,
Qırq kiseye aldım o gerdanlığı,
Kimselere eyleme nadanlığı,
Gülüşelim, oynaşalım, ay Senem!

## ƏMRAH

Bu variant 1964-cü ildə Naxçıvanda Şıxmahmudlu kəndində yaşayan Aşıq Həsəndən toplanmışdır.

Dastanın variantları 1937-ci ildə "Dastanlar və nağıllar" kitabında (toplayanı H.Əlizadə), 1962-ci ildə isə "Azərbaycan xalq dastanları" kitabında (toplayanı və tərtib edəni Əhliman Axundov) nəşr edilmişdir.

## İRVAHIM

Bu dastanın nəsr hissəsi "Şəmi" nağılının variantına çox yaxındır. Bu kitabda gedən variantı Nurəddin Seyidov Qazağın Ağköynəkli kəndində yaşayan Aşıq Məmmədyardan toplamışdır.

Dastanın variantları 1937-ci ildə nəşr edilmiş "Dastanlar və nağıllar" kitabında və 1962-ci ildə "Xalq dastanları" kitabında getmişdir.

1. Dastanın Şəmkir variantında bu qoşma belədir:

Qürbətdə qəribin halı necolar?
Gözüm yolda qaldı, gedən gəlmədi.
Arayı kəsdi ay qaranlıq gecələr,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Taqatım yox özümü sənə yetirim,
Hər nə desən mən müşkülünü bitirim,
Qardaş dedi: gedim taam gətirim,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Qardaş getdi gətisin taam,
Gözü yolda qanlar ağla, İrvahım,
Getdi gəlmədi o Aslan şahım,
Gözüm yolda qaldı, gedən gəlmədi.

“Azərbaycan xalq dastanları” kitabında bu qoşma belə getmişdir:

Qürbətdə pis olar qəribin halı,
Gözüm yolda qaldı, gedən gəlmədi.
Aranı kəsdi ay qaranlıq gecə,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Gedən, getmə, mən də gəlim yetirim,
Sən abdal ol, mən kəşkülün götürüm;
Qardaş dedi: gedim çörək gətirim,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Göydə bulud bulam-bulam bulanır,
Yaralarım göz-göz olur, sulanır,
Qardaş gəlib gömbəzini dolanır,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Sən mənim soltanım, sən mənim şahım,
Ərşə dayanıbdı amanım, ahım;
Gömbəzdə qalıbdı yazıq İbrahim,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Dastanın Tovuz variantında bu qoşma belədir:

Başına döndüyüm, haramıbaşı,
Gözüm yolda qaldı, gedən gəlmədi.
Axır heç qurumaz gözümün yaşı,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Göz yaşınnan şəcarələr bitirəm,
Taqətim yox özüm sənə yetirəm.
Qardaşım gedibdi taam gətirə,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Saqi məclisində dürlü badayam,
Dərdin yanında həddən ziyadayam,
İrbahımam, mən də bir şahzadayam,
Gözüm yolda qaldı, gedən gəlmədi.

2. “Azərbaycan xalq dastanları”nda bu qoşmanın 1, 2, 3-cü bəndləri belədir:

Başına döndüyüm, Ziyad haramı,
Öldürmə, çörəyə bağışla məni!
İtkin qardaş bağlamazmı yaramı,
Öldürmə, çörəyə bağışla məni!

Həmişə mən getdim ilqar düzüynən,
Yol tapmadım qaçam dünya üzüynən,
Bu beinsaf, bemürvətin sözüynən
Öldürmə, çörəyə bağışla məni!

Yaman sözlər ürəyimi dağlayar,
Ürəyimin başı çarpaz bağlayar,
Qardaş gəlib qəbrim üstə ağlayar,
Öldürmə, çörəyə bağışla məni!

"Azərbaycan xalq dastanlar"ında bu şeir belədir:

Başına döndüyüm, haramı qardaş,
Sən gəl zülm eləyib öldürmə məni!
Ağlaram, didəmdən gedər qanlı yaş,
Sən gəl zülm eləyib öldürmə məni!

Bahar olar, göllərimiz bulanı,
Göz-göz olub yaralarım sulanı,
Qardaş gəlib günbəz dibin dolanı,
Sən gəl zülm eləyib öldürmə məni!

Yazıq İbrahimin nədi günahı?
Onun ucalmışdı göylərə ahı;
Yoxdu kimsənəsi, yoxdu pənahı,
Sən gəl zülm eləyib öldürmə məni!

Bir variantda isə bu qoşmanın axırıncı bəndi belədir:

Qardaşım getdi gətirə taamı,
Oduna yandırram dili, dahanı,
Taqsırsız, günahsız bu İrvahımı,
Gəl zülm eləyib öldürmə məni!

Dastanın aşıq Zülfüqardan toplanmış variantı belədir:

Başına döndüyüm, qurban olduğum,
Öldürmə, Allaha bağışla məni!
Alışıb oduna büryan olduğum,
Öldürmə, Allaha bağışla məni!

Bahar olcaq çeşmələrimiz bulanar,
Yaralarım göz-göz olub sulanar,
Qardaşım gələr, günbəz dibi dolanar,
Öldürmə, Allaha bağışla məni!

Qulluğunuzda qolu bağlıyam,
Ata, anadan yaralı, ciyər dağlıyam,
İrvahımam, Zülal şahın oğluyam,
Öldürmə, Allaha bağışla məni!

Dastanın Tovuz variantında bu qoşmanın axırıncı bəndi belədir:

İrbahım deyər: can Ziyad haramı,
İtkin qardaş bağlamadı yaramı,
Beyman qarı vurdu onla aramı,
Öldürmə, Allaha bağışla məni!

3. Dastanın Tovuz variantında bu qoşmanın iki bəndi belədir:

Zalım fələk bizim üçün yağıdı,
Qoymadı bir çəkəm genə dərdimi.
Axırı bu ölkəni də dağıdı,
Çıxartmadım bir məkana dərdimi.

El yığılsa dərdim üçün vermərəm,
Bir gün gülsəm, yüz min şadlıq görmərəm;
Mən bu dərdi heç də çəkə bilmərəm,
Fələk versin bir çəkənə dərdimi.

“Azərbaycan xalq dastanları”nda bu qoşmanın iki bəndi belədir:

Qanlı fələk mənlə yaman yağıdı,
Gətiribdi həddi-sana dərdimi;
Bu ölkəni bir gün gələr dağıdı,
Çıxartmasam bir məkana dərdimi.

Bir gün gülsəm, yüz gün hala gəlmərəm,
Özüm öz dərdimi çəkə bilmərəm;
Ölümü istərəm, ancaq ölmərəm,
Fələk versin bir çəkənə dərdimi.

4. Dastanın Tovuz variantında bu deyişmənin iki bəndi belədir:
İrvahım:

Başına döndüyüm gülüzlü xoca,
Xocam, bir yar deyim, ver nişan barı.
Nə günüm gündüzdü, nə gecəm gecə,
Xocam, bir yar deyim, ver nişan barı.

İrvahım:

Uca-uca dağların o qarıdı,
Baxçaların heyvasıdı, narıdı,
Hürnisədi – İrvahımın yarıdı,
Xocam, bir yar deyim, ver nişan barı.

"Dastanlar və nağıllar" kitabında bu qoşma belə getmişdir:
İbrahim:

Xocalar xocası, xocalar xası,
Xocam, bir yarımdan xəbər ver barı.
Silinsin, qalmasın könlümün pası,
Xocam, bir yarımdan xəbər ver barı.

Xoca Əziz:

Xoca baban alsın sənin qadanı,
Oğul, sən adın de, mən nişan verim.
Danışsan, eşidəm mən də sədanı,
Oğul, sən adın de, mən nişan verim.

İbrahim:

Dərin-dərin dəryalarda adadır,
Gözəllər dəstində dolu badadır,
Herat şəhərində bir şahzadadır,
Xocam, bir yarımdan xəbər ver barı.

Xoca Əziz:

Mən gələndə pəncərədə durmuşdu,
Ağ üzündə həlqə birçək burmuşdu,
Firəngi qayçılə telin vurmuşdu,
Oğul, sən adın de, mən nişan verim.

İbrahim:

İbrahiməm, şirin candan bezaram,
Özüm oxuduğum özüm yazaram,
Nə müddətdir itgin qardaş gəzərəm,
Xocam, bir yarımdan xəbər ver barı.

Xoca Əziz:

Xoca Əziz xocaların gözüdür,
Sinəm üstündəki eşqin gözüdür,
Heratda Fətəli şahın qızıdır,
Oğul, sən adın de, mən nişan verim.

“Azərbaycan xalq dastanları” kitabında bu şeir belədir:
İbrahim:

Xocalar xocası, xocalar xası,
Xocam, bir yar deyim, ver xəbər barı.
Silindi, qalmadı könlümün pası,
Xocam, bir yar deyim, ver xəbər barı.

Xoca Əziz:

Xoca baban alsın sənin qadanı,
Oğul, sən adın de, mən xəbər verim.
Bir de, danış, qoy eşidim sədanı,
Oğul, sən adın de, mən xəbər verim.

İbrahim:

Dərin-dərin dəryalarda adadı,
Gözəllər dəstində dolu badadı,
Herat şəhərində bir şahzadadı,
Xocam, bir yar deyim, ver xəbər barı.

Xoca Əziz:

Mən gələndə pəncərədə durmuşdu,
Ağ üzündə həlqə birçək vurmuşdu,
Firəngi qayçıynan telin burmuşdu,
Oğul, sən adın de, mən xəbər verim.

İbrahim:

İbrahiməm, şirin candan bezaram,
Dərsimi oxuyub, özüm yazaram,
Nə müddətdi yar dalınca gəzərəm,
Xocam, bir yar deyim, ver xəbər barı.

Xoca Əziz:

Xoca Əziz xocaların gözüdü,
Sinəmə vurulan eşqin gözüdü,
Sorduğun Fətəli xanın qızıdı,
Oğul, sən adın de, mən xəbər verim.

5. Dastanın Tovuz variantında bu deyişmə belədir:
Aldı qız:

Soltan oğlan, a xan oğlan,
Qayıt gəl bəri, gəl bəri!
Sən odiynən yanan oğlan,
Qayıt gəl bəri, gəl bəri!

Aldı İrvahım:

Hərcayı danışma, gözəl,
Qayıdıb gələ bilmərəm.
Bir yarım var səndən gözəl,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Gözəllərin gözü mənəm,
Aşıqların sözü mənəm,
Sevgilinin özü mənəm,
Qayıt gəl bəri, gəl bəri!

Aldı İrvahım:

Bir qıya baxışın qandı,
Od düşüb cəsədim yandı,
Yarımın adı Yaməndi,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Hürnisənin sözü haxdı,
Dünyadan könlüm toxdu,
Mənnən qeyri yarın yoxdu,
Qayıt gəl bəri, gəl bəri!

Aldı İrvahım:

İrvahımam, elim vardı,
Bağçalarda gülüm vardı,
Sinəm üstə yerim vardı,
Danışıb gülə bilmərəm.

“Azərbaycan xalq dastanları” kitabında bu deyişmənin variantı belədir:
Aldı Hürnisə:

Sallanıban gələn oğlan,
Oğlan, gəl bəri, gəl bəri!
Məni dərdə salan oğlan,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

Məni eyləmə yolumdan,
Get, pərim, gələ bilmərəm.
Bülbül ayrılmaz gülündən,
Get, pərim, gələ bilmərəm.

Aldı Hürnisə:

Çox işlər etdim irada,
Səninlə mən içdim bada,
İstərəm yetmək murada,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

Eşidəm söhbət-sazını,
Bir çəkəm işvə-nazını,
Fətəli xanın qızını;
Get, pərim, gələ bilmərəm.

Aldı Hürnisə:

Gözəllərin gözü mənəm,
Aşıqların sözü mənəm,
Yarının da özü mənəm,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

Dağların başı dumandı,
Dindirmə halım yamandı,
Yarımın adı Yəməndi,
Get, pərim, gələ bilmərəm.

Aldı Hürnisə:

Hürnisəyəm, çoxdu ahım,
Bilmirəm nədi günahım?
Can sənə qurban, İbrahim,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

İbrahiməm, gətirmişəm,
İşi bura yetirmişəm,
Aslan qardaş itirmişəm,
Get, pərim, gələ bilmərəm.

Bir variantda bu şerin son bəndi belədir:

Dalıncan ki, gəlmir fərman,
Mən ollam dərdinə dərman;
Hürnisə də sənə qurban,
Qayıt gəl bəri, gəl bəri!

6. "Azərbaycan xalq dastanları"nda bu deyişmə belə getmişdir:
Aldı İbrahim:

Xocalar xocası, xocalar başı,
Xoca, mən qəribəm axşam bazarı,
Ağlaram, eynimin qurumaz yaşı,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı Musa:

Mən xocayam, güclü dövlət-malım var,
Oğul, nədi sən qəribin güzarı?
Xoş gəlibsən, gözüm üstə yerin var,
Oğul, nədi sən qəribin güzarı?

Aldı İbrahim:

Aləm bilir, mən canımdan doymuşam,
Dərdi-qəmi eldən-elə yaymışam,
Mən İreydə taxtü tacı qoymuşam,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı Musa:

Söylə görüm, niyə candan doyubsan?
Dərdi-qəmi eldən-elə yayıbsan,
Tacü taxtı niyə İreydə qoyubsan?
Oğul, nədi sən qəribin güzarı?

Aldı İbrahim:

İbrahiməm, mən canımdan bezaram,
Qürbət eldə dərdə necə dözərəm,
Nə müddətdi qardaş deyə gəzərəm,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı Musa:

Neynərəm soltanı, neynərəm xanı,
Qanına qataram sənin bu qanı;
Sənə qurban olsun Musanın canı,
Bala, nədi sən qəribin güzarı?

7. "Azərbaycan xalq dastanları"nda bu deyişmə belə getmişdir:
Aldı Hürnisə:

Başına döndüyüm, qurban olduğum,
Sən gedirsən Dağıstana, İbrahim.
Ala gözlərinə heyran olduğum,
Sən gedirsən Dağıstana, İbrahim.

Aldı İbrahim:

Badi-səba yuxusundan ayılmış,
Nə süzülür Dağıstana gözlərin,
Kirpiyin neştərdi, tökür qanımı,
Qəsd eləyir şirin cana gözlərin.

Aldı Hürnisə:

Əmib, əmib yar ləbindən nə qandıq,
Alışıban eşqin oduna yandıq,
O Şəmin boyuna bağladıb sandıq,
Sən gedirsən Dağıstana, İbrahim.

Aldı İbrahim:

Gəldi Şəmin tacir, yel kimi əsdi,
Gələni, gedəni sındırdı, kəsdi,
Məni səndən ayırmaqdı, bil, qəsdi,
Bir öpəydim qana-qana gözlərin.

Aldı Hürnisə:

Eşitmirsən Hürnisənin sözünü,
Sən saldın canıma eşqin közünü,
Mən deyirəm sənə sözün düzünü,
Sən gedirsən Dağıstana, İbrahim.

Aldı İbrahim:

Yəhudi Heratda bir qala yapdı,
Özü hiyləgərdi, sözləri lafdı,
Aradı, axtardı, tez məni tapdı,
Qoy ağlasın yana-yana gözlərin.

8. Dastanın Şəmkir variantında bu şeir belədir:

Şəmin cuhud, sən Allahı sevərsən,
Ay yahudu, gəl aparma yarımı!
Zülm edibən mənə necə qıyırsan?
Ay yahudu, gəl aparma yarımı!

Gül istəsən on iki dənə gül verrəm,
Pul istəsən beş min tümən pul verrəm,
Ağ üzümdən bir cüt busa al, verrəm,
Ay yahudu, gəl aparma yarımı!

Hürniseyi dərdü qəmə doydurma,
Yarı məndən, məni yardan ayırma,
İrvahımı qul adına buyurma,
Ay yahudu, gəl aparma yarımı!

“Azərbaycan xalq dastanları”nda bu qoşma belə getmişdir:

Şəmin cuhud, sən Allahı sevərsən,
Yalvarıram, gəl aparma yarımı!
Rəhmin gəlsin qəriblərin halına,
Şəmin cuhud, gəl aparma yarımı!

Bu nə işdi sən elədin irada,
Qoymadılar biz yetişək murada;
İnsaf elə, məni salma fəryada,
Şəmin cuhud, gəl aparma yarımı!

Yol istəsən, hər tərəfə yol verim,
Pul istəsən, özün ağırı pul verim,
Xələt verim, sənə dövlət-mal verim,
Şəmin cuhud, gəl aparma yarımı!

Ey tacir, görüm ki, qırılsın qolun,
Sənin hər tərəfdən bağlansın yolun,
Hürnisə deyir ki, lal olsun dilin,
Şəmin cuhud, gəl aparma yarımı!

9. “Azərbaycan xalq dastanları”nda bu qoşma belə verilmişdir:

Gözəl qızlar, gəlin sizə söyləyim,
Əl-əldən üzüldü, İbrahim getdi.
Yar bir bağ salmışdı qəmu möhnətdən,
Əl-əldən üzüldü İbrahim getdi.

Mən varmadım nazlı yarın elinə,
İnandım zalımın fitnə-felinə,
Əcəb düşdü bir namərdin əlinə,
Əl-əldən üzüldü, İbrahim getdi.

Hürnisə xanımın gözü süzülsün,
Düşmənlərin qara bağrı əzilsin,
Yağlı yarasına piltə düzülsün,
Əl-əldən üzüldü, İbrahim getdi.

10. Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu qoşmanın iki bəndi belədir:

Xocalar xocası, xocalar xası,
Xoca, bəy babama deyinən versin,
Yetişsin dadına mərdin ağası,
Xoca, bəy babama deyinən versin.

Söydücəyim irafiyə dayanmış,
Gülgəz bicəhləri əlvan boyanmış,
Mən necə bəyənməyim, Allah bəyənmiş,
Xoca, bəy babama deyinən versin.

Dastanın Tovuz variantında bu deyişmənin üç bəndi belədir:
Aldı qız:

Başına döndüyüm gülüzlü molla,
A molla, yazginən bəy babam versin,
Yaz bu naməni, tez atama yolla,
A molla, yazginən bəy babam versin.

Aldı İrvahım:

Mollalar mollası, alimlər xası,
Bizim ellər hamı eldən əzizdi.
Silinsin, qalmasın könlümün pası,
Bizim dinlər hamı dindən əzizdi.

Aldı qız:

Mənim ahım ərş üzünə dayanmış,
Gülgəz birçəklərim əlvan boyanmış.
Mən necə bəyənim, Allah bəyənmiş,
A molla, yazginən bəy babam versin.

11. Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu qoşma belədir:

Səhər olcaq durub gedər oyuna,
Ana, vallah, mən oğlana getmərəm.
Öpüb qucmaq gəlməz onun eyninə,
Ana, vallah, mən oğlana getmərəm.

Buyur imirziyə bir gəlsin bizə,
Mən deyim dərdimi, imirzə yaza;
O qız, mən qız – heç gedərmi qız qıza?
Ana, vallah, mən oğlana getmərəm.

Eşqin şərbətiynən doldur ver qanım,
Sövdaya düşübdü bu şirin canım;
İlqarından dönür Xeyrənsə xanım,
Ana, vallah, mən oğlana getmərəm.

“Azərbaycan xalq dastanları”nda bu qoşma belə getmişdir:

Səhər-səhər durar gedər oynuna,
Ana, vallah, mən oğlana getmərəm.
Elə bil ki, mən gəlmirəm eyninə,
Ana, vallah, mən oğlana getmərəm.

Qoyun deyil, qoyunlara qatam mən,
Toğlu deyil, qəssablara satam mən,
Çiçək deyil, qoxulayıb atam mən,
Ana, vallah, mən oğlana getmərəm.

Arı desən, arılardan arıyam,
Duru desən, çeşmələrdən duruyam,
Xeyrənsəyəm, Məmmədbağır yarıyam,
Ana, vallah, mən oğlana getmərəm.

12. “Azərbaycan xalq dasanları”nda bu şeir belə getmişdir:

Haqdan gələn dəftərimi yazardım,
Yaxam qalıb dilbilməzin əlində.
Öz-özümə səhralarda gəzərdim,
Yaxam qalıb dilbilməzin əlində.

Neyləmişəm nazlı yara, o küsər,
Ürəyim nazikdi, söz eylər əsər,
Gəlib xəlvətlərdə o qulaq asar,
Yaxam qalıb dilbilməzin əlində.

İbrahiməm, mən varmadım elimə,
Qeyri bülbül yar olmasın gülümə,
Yalan sözlər gəlməz mənim dilimə,
Yaxam qalıb dilbilməzin əlində.

Dastanın Şəmkir variantında bu şerin iki bəndi belədir:

Nə deyirsən öz-özünə küsər,
Bu canımdı qulluğunda sərasər,
Gəlib xəlvətlərdə o qulaq asar,
Yaxam qalıb dilbilməzin əlində.

İrvahımam mən varmadım elimə,
Qeyri bülbül göndərmərəm gülümə,
Nə əlin əlimə, nə dilin dilimə,
Yaxam qalıb dilbilməzin əlində.

13. “Azərbaycan xalq dastanları”nda bu qoşmanın variantı belədir:

Qoca Şəmin sənə yalan deyibdi,
Əlac sənə qalıb, Firəngin xanı!
Babam məni İbrahimə veribdi,
Əlac sənə qalıb, Firəngin xanı!

Canım qurban İbrahimin canına,
Öldürübən batma nahaq qanına,
Bir namə yaz Dağıstanın xanına,
Əlac sənə qalıb, Firəngin xanı!

Səhər-səhər doğan dan ulduzuyam,
Anadan ayrılmış əmlik quzuyam,
Xeyrənsəyəm, Süleyman xan qızıyam,
Əlac sənə qalıb, Firəngin xanı!

Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu şeir belədir:

Ol yəhudu sənə yalan söylüyüb,
Əlac sənə qalıb, Firəngin xanı.
Babam məni İrvahıma veribdi,
Əlac sənə qalıb, Firəngin xanı.

Bir namə yaz Dağıstanın xanına,
Canım qurban olsun yarın canına;
Öldürüb batmaynan nahaq qanına,
Əlac sənə qalıb, Firəngin xanı.

Meydanda qalmışam naəlac, naçar,
Burda səndən qeyri mənim kimim var?
Xeyransayam, ollam sənə qarabaş,
Əlac sənə qalıb, Firəngin xanı.

14. “Azərbaycan xalq dastanları”nda bu qoşmanın variantı belədir:

Şəmin cühud, yaradanı sevərsən,
Doğru qoyub, əyri getmə yolları.
Zülm eləyib mənə necə qıyarsan,
Doğru qoyub, əyri getmə yolları.

Bir xəbər çıxmadı bəy qardaşımnan,
Ölüb qurtarmadım tənə daşınnan,
Yar da sənin olsun, əl çək başımnan,
Doğru qoyub, əyri getmə yolları.

İbrahiməm, deyəmmərəm sözümü,
Yaş yerinə qan bürüyər üzümü,
Şah oğluyam, itirmişəm özümü,
Doğru qoyub, əyri getmə yolları.

Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu qoşmanın iki bəndi belədir:

Hər nə oldu mənə qiya baxandan,
Doğru qoyub, əyri getmə yolları.
Şirin canım eşq oduna yaxandan,
Doğru qoyub, əyri getmə yolları.

Qurtarmadım elin təhnə daşından,
Xəbər çıxmadı mənə bəy qardaşımdan,
Yarı sənə verdim, açıl başımdan,
Doğru qoyub, əyri getmə yolları.

15. Dastanın Tovuz variantında bu deyişmə belədir:
Aldı İrvahım:

Sənə deyim, mələkzada,
Gəmim də qaldı dəryada.
Ya gələm, ya gedəm bada,
Gəmim də qaldı dəryada.

Aldı qız:

Sənə deyim, cavan yarım,
Qoymurlar düşəm dəryaya,
Artıbdı dərdim, azarım,
Qoymurlar düşəm dəryaya.

Aldı İrvahım:

Mənim bu dərdimi bilsən,
Əlini yad ələ versən,
Aslan addı bir şah görsən,
De qardaş qaldı dəryada.

Aldı qız:

İstəyirəm burdan keçəm,
Bu dərdimi kimə açam?!
Əlac budu – zəhər içəm,
Qoymurlar düşəm dəryaya.

Aldı İrvahım:

Biz də gördük Dağıstanı,
Uzundu onun dastanı.
Əgər görsən şah Aslanı,
De İrvahım qaldı dəryada.

Aldı qız:

Dəryanın üzü sərindi,
Baxdıqca dibi dərindi.
Qorxma, yar, Allah kərimdi,
Qoymurlar düşəm dəryaya.

"Azərbaycan xalq dastanları"nda Xeyransanın sözləri belədir:

Qaldım cəlladlar əlində,
Qoymurlar düşəm dəryaya.
Adın əzbərdi dilimdə,
Qoymırlar düşəm dəryaya.

İstərəm fənadan köçəm,
Yaxşıynan yamanı seçəm,
Az qalıb ki, zəhər içəm,
Qoymurlar düşəm dəryaya.

Xeyrənsəyəm, oldum dəli,
Gedər qışın, yazı gəli,
Şəminə demərəm bəli,
Qoymurlar düşəm dəryaya.

16. "Azərbaycan xalq dastanları"nda bu qoşma belədir:

Çoban qardaş, çoban qardaş,
Mən səni deyə gəlmişəm.
Məskəni biyaban qardaş,
Mən səni deyə gəlmişəm.

Dizdən kəsilmiş dirəyim,
Acımnan gedir ürəyim,
Səlbi boy, huri mələyim,
Mən səni deyə gəlmişəm.

Eşit İbrahim sözünü,
Çəkə bilməzsən nazını,
Süleyman xanın qızını
Dəryada qoya gəlmişəm.

Dastanın Tovuzdan toplanmış variantında bu gəraylı belədir:

Sənə deyim, çoban qardaş,
Mən sizi deyə gəlmişəm.
Əppəçiyi yuvan qardaş,
Mən sizi deyə gəlmişəm.

Tutulmadı, ay diləyim,
Acından gedir ürəyim,
Dəryada qaldı mələyim,
Mən sizi deyə gəlmişəm.

Eşit İrvahımın sözün,
Eşq yandırar sinə gözün.
O Süleyman xanın qızın
Dəryada itirib gəlmişəm.

17. "Azərbaycan xalq dastanları"nda bu qoşma belədir:

Başına döndüyüm, ay sallaq qardaş,
İnsafı unudub öldürmə məni!
Ağlaram, didəmdən gedər qanlı yaş,
İnsafı unudub öldürmə məni!

Anam yoxdu, gəlsin məni ağlasın,
Bacım yoxdu, yaralarım bağlasın,
Tanrı sənin övladını saxlasın,
İnsafı unudub öldürmə məni!

Yar əlindən düyünlüyəm, dağlıyam,
Qürbətlikdə gedib kimə ağlıyam,
İbrahiməm, Zülal şahın oğluyam,
İnsafı unudub öldürmə məni!

Dastanın Tovuz variantında bu qoşma belədir:

Başına döndüyüm, gülüzlü sallax,
Öldürmə, Allaha bağışla məni!
Dadına yetişsin o bircə Allah,
Öldürmə, Allaha bağışla məni!

Arif olan mənim sözüm haxlasın,
Ağam gəlib öz qulunu yoxlasın,
Xalıq, görüm, o balanı saxlasın,
Öldürmə, Allaha bağışla məni!

Yoxdu burda İrvahımın qardaşı,
Axar, heç qurumaz didəmin yaşı,
Zülal şah oğluyam, Aslan qardaşı,
Öldürmə, Allaha bağışla məni!

## ŞAH İSMAYIL

Dastanın bir variantı 1937-ci ildə "Dastanlar və nağıllar" kitabında, başqa bir variantı isə "Azərbaycan xalq dastanları" kitabında nəşr edilmişdir.

Bu kitabda verilən variant Zəyəmdə yaşayan Aşıq Alıdan toplanmışdır.

1. Bu qoşmanın Lerikli Aşıq Qurbanlıdan toplanmış aşağıdakı variantı öz şəklinə görə çox maraqlıdır.

Aldı Şah İsmayıl:

Bir ceyranı qova-qova gətirdim,
Nənə, ceyran mənimdi.
Gətiribən bu diyarda itirdim,
Nənə, ceyran mənimdi.

Aldı qarı:

Mən ceyranı saxlaram,
Oğul, ceyran mənimdi.
Gündə üç yol yoxlaram,
Oğul, ceyran mənimdi.

Aldı Şah İsmayıl:

Şah İsmayılam, işim yox bicinən,
Nənə, ceyran mənimdi.
Verməsən də alacağam gücünən,
Nənə, ceyran mənimdi.

2. Bu qoşma bir sıra variantlarda Şah İsmayılla Gülzar arasında deyişmə şəklində gedir. Misal üçün, Laçından toplanmış bir variantda deyişmənin 5 bəndi belədir:

Aldı Şah İsmayıl:

Qaçırtdım ceyranı, çata bilmədim,
Nagah yerdə gördüm nuri-didarı.
Qərq eylədi məni qəm dəryasına,
Ürəyimə saldı atəşi, narı.

Aldı Gülzar xanım:

Neçə min atlıynan gəzirsən çölü,
Fərə kəklik kimi səg indi, yeri!
Niyə qərq olubsan qəm dəryasına?
Hər zaman həngnən gəl indi yeri!

Aldı Şah İsmayıl:

Ali-əlvan gördüm gülgəz yanağı,
Tər, həna əlləri, sədəf dırnağı,
Cənnət cəvahiri köksüvün bağı,
Qoy açılsın görüm sədri-mərməri.

Aldı Gülzar xanım:

Sayalandı kəhlik, sındı qəfəsi,
Şeyda bülbülünə oxşatdım səsi.
Canda bəsləmişəm uruh, nəfəsi,
Hər yandan bir busə al indi, yeri!..

Aldı Şah İsmayıl:

Aşiq olan gərək qürbətdə qala,
Məhbubunu daim yadına sala.
Xudam, qismət eylə Şah İsmayıla
O görsün bir də sən gözəl Gülzarı.

3. Laçın variantında bu şeir belədir:

Aradım, bulmam qapısı,
Saray, səndən yol istərəm.
Ləlü gövhərdən yapısı,
Saray, səndən yol istərəm.

Üzü bəri baxan dağdı,
Çar tərəfi güllü bağdı.
Yarəb, Gülüzarım sağdı,
Saray, səndən yol istərəm.

Əvvəlindən dedim – bəli!
Dərdindən olmuşam dəli.
Ağlatma Şah İsmayılı,
Saray, səndən yol istərəm.

4. Laçın variantında bu deyişmənin 5 bəndi belədir:
Aldı Ərəb Zəngi:

Bu gün də bir kəklik düşüb toruma,
İtirib yolların, quş verib gedər.
Qorxusundan çatlayıb dodaqları,
Azğın dərya təki cuş verib gedər.

Aldı Şah İsmayıl:

Qəndəhardan gəldim murad almağa,
Ərəb, yol ver, incitmə məni!
Mən cahılam, gəldim kəndi başıma,
Ərəb, yol ver, incitmə məni!

Aldı Ərəb Zəngi:

Minnət etmə cahal, baxmam sözüvə,
Nə tez şikəst verdin özün-özüvə.
Qara sular endirmişəm gözüvə,
Hər gələn burada baş verib gedər!

Aldı Şah İsmayıl:

Çox danışma, mən də duymuşam cana,
Dava istəyirsən, girək meydana!
Misri qılınc bulaşar al qana,
Ərəb, yol ver, yol ver, incitmə məni!

Aldı Ərəb Zəngi:

Oğlan, dəlimisən, bəgənə bəngi,
Qorxudan qaçıbdı üzüvün rəngi.
Məgər eşitməmisən Ərəb Zəngi?
Hər gələn burada baş verib gedər!

5. Laçın variantında bu qoşma belədir:

Genə duman oldu hindi çölləri,
Oyan, İsmayılım, gör nələr oldu!
Qanlara buladım baş-bədənləri,
Oyan, İsmayılım, gör nələr oldu!

Xəbərimiz indi getdi Türkmana,
Suyunu səpmişəm bir qətrə qana,
Min tülkü neyləsin bir ac aslana,
Oyan, İsmayılım, gör nələr oldu!

Hamıdan sonra gəldi firəngi,
Bunlar mənim ilə etdilər cəngi.
Sana qurban olsun Ərəbi Zəngi,
Oyan, İsmayılım, gör nələr oldu!

6. Laçın variantında bu qoşma belədir:

Əvvəl, ata, sənin oğlun yox idi,
Amandı, şah baba, öldürmə məni!
Dərd-düyün canında sənin çox idi,
Amandı, şah baba, öldürməm məni!

Kəsmə bu dünyadan etibarımı,
Ərşə qaldırmagil ahu zarımı,
İstərisən verim Gülzarımı,
Amandı, şah baba, öldürməm məni!

İsmayıl deyər ki, amandı bacı,
Əfəndim, soltanım, başımın tacı,
Adam kəsməz öz əkdiyi ağacı,
Amandı, şah baba, öldürməm məni!

## HEYDƏR BƏY

Bu variant 1960-cı ildə Şəmkirdə Aşıq Hüseyn Seyfəlidən toplanmışdır. Dastan ilk dəfədir ki, nəşr edilir.

1. "Qoşmalar" kitabında bu deyişmə belə getmişdir:

Süsənbər:

Budur, gəldi Heydər, iyidlər xası,
Qayıt bu sevdadan, əl götür məndən!
Mən səni öldürsəm kim tutar yası?
Qayıt bu sevdadan, əl götür məndən!

Heydər bəy:

Sənsən fələk əhli, gözəllər xası,
Maralım, ceyranım, dönmərəm səndən!
Gey, sənə yaraşar toyluq libası,
Maralım, ceyranım, dönmərəm səndən!

Süsənbər:

Bizim yerdə bağça olar, bar olmaz,
Sizin yerdə heyva olar, nar olmaz,
Öldürsələr məndən sənə yar olmaz,
Qayıt bu sevdadan, əl götür məndən!

Heydər bəy:

Bizim eldə bahar olmaz, yaz olmaz,
Sizin yerdə ördək olar, qaz olmaz,
Görməmişəm, qızdan şəmşirbaz olmaz,
Maralım, ceyranım, dönmərəm səndən!

Süsənbər:

Süsənbərəm, alışıban yanaram,
Hər nə desən, mən sözündən qanaram,
Mən gedər, qürbətdə səni anaram,
Qayıt bu sevdadan, əl götür məndən!

Heydər bəy:

Heydər bəyəm, oldum dəli, divana,
Yarın ayrılığı kar eylər cana,
Getsən İsfahana, nisfi-cahana,
Maralım, ceyranım, dönmərəm səndən!

Dastanın kəlbəcərli aşıq Hüseyn Nədirxanlıdan toplanmış variantında bu deyişmə belədir:

Aldı Süsənbər:

Gəl, gəl, Heydər bəyim, qullar ağası,
Qayıt bu sevdadan, əl götür məndən!
Öldürrəm mən səni, kim tutar yası?
Qayıt bu sevdadan, əl götür məndən!

Aldı Heydər bəy:

Gəl, gəl, fərə kəhlik, gözəllər xası,
Maralım, ceyranım, dönmərəm səndən!
Əyninə yaraşır ərlik libası,
Maralım, ceyranım, dönmərəm səndən!

Aldı Süsənbər:

Dost yolunda başı-candan keçərəm,
Ağı oxuyub, qaraları seçərəm,
Bir qılınca əni iki biçərəm,
Qayıt bu sevdadan, əl götür məndən!

Aldı Heydər bəy:

Bizim yerdə söhbət ola, saz ola,
Sizin yerdə ördək ola, qaz ola,
Görməmişdik qızdan şəmşirbaz ola,
Maralım, ceyranım, dönmərəm səndən!

Aldı Süsənbər:

Süsənbərəm səni üryan eylərəm,
Eşqin kürəsində büryan eylərəm,
Bir qılınca səni qurban eylərəm,
Qayıt bu sevdadan, əl götür məndən!

Aldı Heydər bəy:

Heydəri eyləmə dəli-divana,
Yanaram oduna misli-pərvana,
Getsən İsfahana, nisfi cahana,
Maralım, ceyranım, dönmərəm səndən!

2. Dastanın Kəlbəcər variantında bu şeir belədir:

Tək-təkana qaldım badi çöllərdə,
Solub heyva kimi saralı canım.
Nə yarım vardı, nə də yoldaşım,
İndi olub dağların maralı canım.

İsfahandan çıxdım, getdim ziyada,
Qədir mövlam özü yetişmiş dada,
Hər yana baxıram – on-on beş cada,
Bilmirəm hansıynan var ola canım.

Heydər bəyəm, nə mürdəyəm, nə zində,
Bilmirəm ki, nə məzhəbdəyəm, nə dində,
Qohum, qardaş görsə məni bu gündə
Deyib ağlamazmı yaralı canım?!

3. Dastanın Kəlbəcər variantında bu şeir belədir:

Könül bir gözələ aşiq olubdu,
Hər gündə min dəfə görəsim gəlir.
Leyli yanağında bir gül bitibdi,
Məcnun kimi onu dərəsim gəlir.

Türkman gözəlindən bir sən qalmısan,
On dörd hörük dal gərdənə salmısan,

Bir canım var, yar, əlimdən almısan,
Bir quru qəfəsdə nəfəsim gəlir.

Leyli-Məcnun körpüsündən keçmişəm,
Sərin-sərin sularından içmişəm,
Heydər bəyəm, bir sevdaya düşmüşəm,
Özümün özümə güləsim gəlir.

"Qoşmalar" kitabında bu şeir belə getmişdir:

Könül üç gözəlin sevdasındadır,
Gündə hər birini görəsim gəlir.
Leyli buxağında açılmış güllər
Məcnunam, dərməyə həvəsim gəlir.

Türkmən gözəlindən bir sən qalmısan,
Dörd yanına on dörd hörük salmısan,
Bir canım var, yar, əlimdən almısan,
Özümün özümə güləsim gəlir.

Leyli-Məcnun körpüsündən keçmişəm,
Əyilibən sərin suyun içmişəm,
Heydər bəyəm, bir sevdaya düşmüşəm,
Bir quru qəfəsəm, nəfəsim gəlir.

4. Dastanın Kəlbəcər variantında bu deyişmə belədir:
Aldı Əhməd şah:

Durum indi səndən xəbər alayım,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?
Xəncər alım, səni şan-şan eləyim,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

O günü ki, çıxdım əlvan dağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.
Əşrəfi düzdürmüş solu sağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Əhməd şah:

Oxuduğum əlif idi, bey idi,
Arqadaşlar əhdiciyin yeyidi,
Heydər bəy dediyin kimin nəyidi?
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Getsin payız, gəlsin yazın havası,
Silinsin, qalmasın könlümün pası,
Heydər bəy – Şah Abbasın qullar ağası,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Əhməd şah:

Söylə, çəpəl, köksün niyə ötürdün?
Göz yaşında səcərayı bitirdin?
Şah qulundan mana dölmü gətirdin?
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Dərin-dərin dəryalara ha daldım,
Heyva tək saralıb, gül təki soldum,
Bir qılınca onu atından saldım,
Mən çəkdiyim o yazığın dərdidi.

5. "Qoşmalar" kitabında bu şeir belə getmişdir:

Başına döndüyüm, qurban olduğum,
Şahım, məni dərdə salan bu qızdı.
Alışıb oduna büryan olduğum,
Şahım, məni dərdə salan bu qızdı.

Yaxın ikən mənzil oldu iraxlar,
Evimizdə yanar şamlar, çıraxlar,
Qızıl qəbzəlidir gümüş yaraxlar,
Şahım, məni dərdə salan bu qızdı.

Heydər bəyəm, düşdüm yarın qəhrinə,
Gözəllikdə gəlməz heç kəs təhrinə,
Xəbər alsan – getdi Kişmir şəhrinə,
Şahım, məni dərdə salan bu qızdı.

Dastanın Kəlbəcər variantında bu qoşma belədir:

O günü ki, çıxdım əlvan dağına,
Şahım, məni dərdə salan bu qızdı.
Dodaqları bənzər gül yarpağına,
Şahım, məni dərdə salan bu qızdı.

Yaxşı ikən mənzil oldu iraqlar,
Didəmdən axıtdım qanlı faraqlar,
Qəbbası qızıldı, gümüşdən mıxlar,
Şahım, məni dərdə salan bu qızdı.

Heydər bəyəm, düşdüm yarın qəhrinə,
Təhri bənzər qızılgülün təhrinə,
Xəbər alsan – getdi Kəşmir şəhrinə,
Şahım, məni dərdə salan bu qızdı.

6. Dastanın Kəlbəcər variantında bu şeir belədir:

Başına döndüyüm, ədalət şahım,
Mən gəlmişəm, Heydər bəyə gedərəm.
Sahabım, sərtacım, ay qibləgahım,
Mən gəlmişəm, Heydər bəyə gedərəm.

Mən Kəşmirdə qoyub gəldim elimi,
Hər xoryada dərdirmərəm gülümü,
Oydursan didəmi, kəsdirsən dilimi,
Mən gəlmişəm, Heydər bəyə gedərəm.

Süsənbərəm, oldum eşqə bəndigan,
Yaş yerinə didələrim tökər qan,
Öldürsən də məni, Heydərə qurban!
Mən gəlmişəm, Heydər bəyə gedərəm.

## NƏCƏF VƏ PƏRZAD

Bu kitabda verilmiş variant Bərdədə yaşayan Aşıq Hüseyn Çirkindən toplanmışdır. Dastanın bu variantı 1962-ci ildə Əhliman Axundovun toplayıb tərtib etdiyi "Azərbaycan xalq dastanları" kitabında nəşr edilmişdir.

1. Dastanın Afşar variantında bu deyişmənin 5 bəndi belədir:

Mələkzada:

Başına döndüyüm, xan əmim oğlu,
Gəl getmə, bir zaman qal bizim xanda.
İncimə sözümdən sən, əmim oğlu,
Gəl getmə, bir zaman qal bizim xanda.

Nəcəf:

Başına döndüyüm, gül əmim qızı,
Gəl gedək, bir zaman qal o Kəşanda.
Sən mənim dərdimi bil, əmim qızı,
Şad olub, bir zaman gül o Kəşanda.

Mələkzada:

Deməginən yarım məndən inciyər,
Danışırıq, sözləri kim bilər.
Eldən ayrılsam hamı tənə qılar,
Gəl getmə, bir zaman qal bizim xanda.

Nəcəf:

Alması var, narıncı var, gülü var,
Mehribandı, əcəb gözəl eli var,
Nəcəfin də hər tərəfə yolu var,
Gəl gedək, bir zaman qal o Kəşanda.

Mələkzada:

Bir sözüm var axır sənə, pünhandı,
İnciməynən sən də məndən amandı!
Mələkzada genə sənə qurbandı,
Dedim, bir əylənib qal bizim xanda.

"Azərbaycan xalq dastanları"nda bu şeir belədir:
Aldı Pərzad:

Başına döndüyüm, ay əmim oğlu,
İltimasım budu, qal bu məkanda,
Mürvət deyil bu ellərdən gedəsən,
Çoxdu məhəbbətin bu şirin canda.

Aldı Nəcəf:

Başına döndüyüm, ay əmim qızı,
Hər nə ki, istəsən – var İsfahanda.
Geydirəm əyninə alı, qırmızı,
Gəl gedək, bir zaman qal İsfahanda.

Aldı Pərzad:

Sənsən bu cahanın sultanı, xanı,
Sənə qurban edəm bu şirin canı,
Əgər gəzəsən Misri, Urumu, Şamı,
Gözəl tapammazsan heç mən nişanda.

Aldı Nəcəf:

Şamama bəslənir tağlar içində,
Bülbüllər oxuyur bağlar içində,
Dörd yanı aynabənd otaqlar içində,
Qolun sal boynuma, qal İsfahanda.

Aldı Pərzad:

Minibən səməndə sən də çaparsan,
Bu könlümü o könlünə yaparsan,
Əgər getsən, mən Pərzadı apar sən,
İxtiyar səndədi aparmasan da.

Aldı Nəcəf:

Nəcəf qurbanıdı tək Pərzadın,
Kim bilsin dərdini qohumun, yadın,
Mən nə bilim könlündəki muradın,
Gəl gedək, bir zaman qal İsfahanda.

2. "Azərbaycan xalq dastanları"nda bu şeir belə getmişdir:

Qədir Allah yazıları yazanda
Həlbət belə yazdı, yazımı mənim!
Nə atam yox, nə də anam yanımda,
Kim çəkər qürbətdə nazımı mənim?!

Çıxıb minacata, dilərəm dilək,
Namərdlər qoymadı şad olub gülək,
Sənin taxtın yansın, a qanlı fələk!
Yetirginən gözəl yarımı mənim!

Pərzad xanım durub burdan gedəndə,
Tiğ oluban bağrım başın didəndə,
Olmaram, Nəcəfim, sənə şərməndə
Hamı danlasa da üzümü mənim!

3. Cənubi Azərbaycandan toplanmış variantda bu şerin üç bəndi belədir:

Əynimə mən geydim yarın libasın,
Üstündən qurşadım zərin, libasın,
Sevmiş idim iyidlərin mən xasın,
Yarım getdi, sağu solları qaldı.

Bahar fəsli nalə çəkər bülbüllər,
Bağçada açılar süsən-sünbüllər,
Boynu əyri bənövşə, qızılgüllər,
Öldü naşı bağban, bağları qaldı.

Sinəmdən uçurdum mürğü göyərçin,
O sehri-caduya uğradı laçın,
Mələkzadə külah alta qoyub saçın,
Getdi Nəcəf, dolu sağları qaldı.

4. Cənubi Azərbaycan variantında bu şeir belədir:

Gələn bəzirganlar, gedən xacələr,
Yetirin ərzimi yara, bəzirgan!
Əgər yolunuz düşsə şəhr-Kaşana,
Yazıram ağ üstündən qara, bəzirgan!

Xədəng yerdə qurdular minagahı,
Qəmli sinəmə vurdular tiğ-gahı,
Deyin xəstə gördük yazıq Nəcəfi,
İndi düşdüm ahu zara, bəzirgan!

Axır fələk ağı qatdı badəyə,
Saldı bizi burda sehri-cadıya,
Bir gün mehman oldum mələkzadəyə,
Əlim ki, dəymədi nara, bəzirgan!

"Azərbaycan xalq dastanları"nda bu qoşma belədir:

Başına döndüyüm, qurban olduğum,
Ağ kağız üstə yaz qara, sövdəgər!
Əgər məni səndən xəbər alsalar,
Salam yetir dosta, yara, sövdəgər!

Utanaram, necə deyim sözümü?
Sürmə məst eyləyib ala gözümü,
Dağa, daşa çöndərərəm üzümü,
Yaman uzaq düşüb ara, sövdəgər!

Qaşlar cəllad, kirpikləri rəf-rəfi,
Ağız qönçə, dişlər ümman sədəfi.
Hər kim xəbər alsa xəstə Nəcəfi,
Deyərsən düşübdü dara, sövdəgər!

5. Cənubi Azərbaycan variantında bu şerin 3 bəndi belədir:

Ay məni mərdana ha bilən qızlar,
Həmişə özünə yar görən qızlar,
Qırx günlük əhdimə saf dözən qızlar,
Qızlar, müjdə verin, yarım gəlibdi!

Qırx günlük namazın qılaram qəza,
Yazıq qızlar sizə verərdim cəza,
Nəcəfim cadudan qurtarıb taza,
Qızlar, müjdə verin, yarım gəlibdi!

Göftarı şirinəm, ləbi ballıyam,
Adım Mələkzadə, üzü xallıyam,
Mən də sizin kimi zənən əhliyəm,
Qızlar, müjdə verin, yarım gəlibdi!

"Azərbaycan xalq dastanları"nda bu qoşma belədir:

Gözün aydın olsun, şahımın qızı,
Mənim yarım, sənin butan gəlibdi!
Dur geyin əyninə alı, qırmızı,
Mənim yarım, sənin butan gəlibdi!

Nə müddətdi ayrı düşdüm yarımnan,
Göylər də ağladı ahu zarımnan,
Aləm od tutuban yanar narımnan,
Mənim yarım, sənin butan gəlibdi!

Qadir Allah işi xeyli yubatdı,
Gözlər şəhla, ləblər şirin nabatdı,
Nəcəf deyil, mənim adım Pərzaddı
Mənim yarım, sənin butan gəlibdi!

6. "Azərbaycan xalq dastanları"nda bu qoşma belədir:

Çünki qədəm basdın bizim obaya,
Gözüm üstə, əziz canım, xoş gəldin!
Mən düşəydim o sən düşən cadaya,
Gözüm üstə əziz canım, xoş gəldin!

Hərdən-birdən bu könlümə dəyərdi,
Baxıban üzümə boynun əyərdi,
Pərzad xanım məni hər gün öyərdi,
Gözüm üstə, əziz canım, xoş gəldin!

Bil, mail olmuşam mən də o gülə,
Həsrət qaldım mən də şeyda bülbülə,
Leyla deyər: Pərzad, divanın eylə,
Gözüm üstə əziz canım, xoş gəldin!

7. “Azərbaycan xalq dastanları”nda bu qoşma belə getmişdir:

İsfahanın işi becadır, beca,
Yoxdu rahatlığı nə gün, nə gecə,
Gecə ev kəsirlər, gündüzlər cücə,
Deyin Şah Abbasa, meydana gəlsin!

Dağlar başı qərq olmuşdur dumana,
Nərə çəksəm lərzə sallam cahana,
Təxtini, tacını bularam qana,
Deyin Şah Abbasa, meydana gəlsin!

Mən Nəcəfin qoç quzu qurbanıyam,
Həmədanlı Əhməd qızı Xanıyam,
Gərək bu gün dost-düşməni sınıyam,
Deyin Şah Abbasa, meydana gəlsin!

## QUL MAHMUD

Bu variant 1960-cı ildə Ağköynək kəndində yaşayan Aşıq Məmmədyardan toplanmışdır. Dastan ilk dəfə nəşr edilir.

## SƏLİM ŞAH

Bu variant 1960-cı ildə Tovuzda yaşayan Aşıq Ağuldan toplanmışdır. Dastan ilk dəfədir ki, nəşr edilir.

## VALEH VƏ ZƏRNİGAR

Bu variant 1944-cü ildə Laçının Əhmədli kəndində yaşayan Aşıq Məşədi Dadaşdan toplanmışdır.

Dastanın bir variantı da 1937-ci ildə çap edilmiş “Dastanlar və nağıllar” kitabında verilmişdir.

## MÜNDƏRİCAT

Aşıq Qərib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
Əmrah . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61
İrvahım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 83
Şah İsmayıl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 123
Heydər bəy . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 159
Nəcəf və Pərzad . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 181
Qul Mahmud . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205
Səlim şah . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 225
Valeh və Zərnigar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 243

*Qeydlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 275

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektor: | *Ceyran Abbasova* |

Yığılmağa verilmişdir 20.10.2004. Çapa imzalanmışdır 20.04.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 20,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 87.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.